AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

**(pedaqogika, psixologiya, tarix, filologiya,
riyaziyyat və informatika, biologiya, incəsənət)**

№ 1 (79)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 27 dekabr 2004-cü il tarixdə (Şəhadətnamə № 1158) qeydiyyata alınmış və nəşrə edilmiş dəyişikliklər 20 iyun 2019-cu il tarixdə Reyestrə əlavə edilmişdir.

NAXÇIVAN – NMİ "Məktəb", 2025

REDAKSİYA HEYƏTİ

BAŞ REDAKTOR: **MƏMMƏDOV Elşən Neymət oğlu**
Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifələrini icra edən,
riyaziyyat üzrə fəlsəfə doktoru, dosent

BAŞ REDAKTORUN MÜAVİNİ: **QURBANLI Qurban Məmməd oğlu**
Naxçıvan Müəllimlər İnstitutunun elm və innovasiya məsələləri üzrə prorektoru,
filologiya üzrə fəlsəfə doktoru, dosent

MƏSUL KATİB: **HÜSEYNOVA Gülnar Rüstəm qızı**
Elmi fəaliyyətin təşkili və təhlili üzrə baş metodist

ELM SAHƏLƏRİ ÜZRƏ REDAKSİYA HEYƏTLƏRİ

PEDAQOGİKA

ƏLİYEV İsmayıl İsrafil oğlu – pedaqogika üzrə elmlər doktoru, professor – elmi redaktor;
SADIQOV Fərahim Balakişi oğlu – pedaqogika üzrə elmlər doktoru, professor;
CAMALOV Kamal Həsən oğlu – pedaqogika üzrə elmlər doktoru, dosent;
ABBASOV Akif Nurağa oğlu – pedaqogika üzrə elmlər doktoru, professor;
PƏLƏNGOV Əbülfət Qulam oğlu – pedaqogika üzrə elmlər doktoru, professor;
KURALBAYEVA Aliya Axmetkarimovna – pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türkiyə Universiteti (Qazaxıstan);
RZAYEV Vahid Məmməd oğlu – pedaqogika üzrə fəlsəfə doktoru, dosent;
VƏLİYEV Rövşən Xəlil oğlu – pedaqogika üzrə fəlsəfə doktoru, dosent

PSİXOLOGİYA

QULİYEV Çapay Qadir oğlu – psixologiya üzrə fəlsəfə doktoru – elmi redaktor;
ƏLİYEV Bəxtiyar Həmzə oğlu – AMEA-nın müxbir üzvü, psixologiya üzrə elmlər doktoru, professor, Milli Məclisin deputatı, Milli Məclisinin Elm və Təhsil Komitəsinin sədr müavini;
ƏLİYEVA Gültac Bədəl qızı – psixologiya üzrə fəlsəfə doktoru, professor;
BEYSENOVA Juparkul Jumabayevna – psixologiya elmləri namizədi, dosent, Qazax Milli Qadın Pedaqoji Universiteti (Qazaxıstan);
ASLANOVA Səbinə Ramiz qızı – pedaqogika üzrə fəlsəfə doktoru, dosent
HACIYEVA Salatın Bəyalı qızı – psixologiya üzrə fəlsəfə doktoru, dosent

TARİX

ŞIXƏLİYEV Emin Arif oğlu – tarix üzrə elmlər doktoru, dosent – elmi redaktor;
HACIYEV İsmayıl Muxtar oğlu – AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor, AMEA Naxçıvan Bölməsinin sədri;
SƏFƏRLİ Hacıfəxrəddin Yəhya oğlu – AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor;
ATNUR İbrahim Etem – tarix üzrə elmlər doktoru, professor, Milli Savunma Üniversitesi (Türkiyə);
ŞİLDEBAY Sabit Kamitbekoviç – tarix elmləri namizədi, dosent, Abay adına Qazaxıstan Milli Pedaqoji Universiteti (Qazaxıstan);
QULİYEVA Zeynəb Kərim qızı – tarix üzrə elmlər doktoru, dosent

FİLOLOGİYA

SƏFƏROV Yusif Səfər oğlu – filologiya üzrə elmlər doktoru, professor – elmi redaktor;
HƏBİBBƏYLİ İsa Əkbər oğlu – AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın prezidenti;
İMANLI Akif Kazım oğlu – filologiya üzrə elmlər doktoru, professor;
QURBANLI Qurban Məmməd oğlu – filologiya üzrə fəlsəfə doktoru, dosent (rus dili üzrə mütəxəssis);
EYVAZOV Həsənəli Cahangir oğlu – filologiya üzrə fəlsəfə doktoru, dosent;
ƏLİYEVA Nuray Yadigar qızı – filologiya üzrə elmlər doktoru, dosent;
QULİYEV Şirməmməd Qüdrət oğlu – filologiya üzrə fəlsəfə doktoru, dosent (ingilis dili üzrə mütəxəssis)

RİYAZİYYAT VƏ İNFORMATİKA

MƏMMƏDOV Yaqub Yaqub oğlu – riyaziyyat üzrə elmlər doktoru, dosent – elmi redaktor;
BİLALOV Bilal Telman oğlu – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
QULİYEV Vaqif Sabir oğlu – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
MOŞKALOV Altınbek Koşkarbayeviç – fəlsəfə doktoru, dosent Abay adına Qazaxıstan Milli Pedaqoji Universiteti (Qazaxıstan);
NOVRUZOV Azad Sevindik oğlu – pedaqogika üzrə fəlsəfə doktoru, dosent;
ƏLİYEV Soltan Əli oğlu – riyaziyyat üzrə elmlər doktoru, professor

BİOLOGİYA

TALIBOV Tariyel Hüseynəli oğlu – AMEA-nın həqiqi üzvü, biologiya üzrə elmlər doktoru, professor;
SULTANOV Rauf Lütvəli oğlu – biologiya üzrə elmlər doktoru, professor – elmi redaktor;
MƏMMƏDOV İsmayıl Bəqiyyət oğlu – biologiya üzrə elmlər doktoru, dosent;
MƏRDANLI Seyfəddin Həşimoviç – tibb üzrə elmlər doktoru, professor, Ecolab SC-nin Prezidenti (Rusiya);
AXUNDOV Asif Həmzə oğlu – biologiya üzrə fəlsəfə doktoru, dosent;
QULİYEVA Lamiyə Telman qızı – biologiya üzrə fəlsəfə doktoru

İNCƏSƏNƏT

ALLAHVERDİYEVA Həbibə Rəşad qızı – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisin deputatı – elmi redaktor;
HƏMZƏYEVA Ülviyyə Tapdıq qızı – Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı;
BAYIRJAN Baydilda Nurbekoviç – professor, Qazaxıstan Respublikası Rəssamlıq Akademiyasının müxbir üzvü, Qazaxıstan Milli İncəsənət Akademiyasının Rəssamlıq, heykəltəraşlıq və dizayn fakültəsinin dekanı (Qazaxıstan);
ÇİNGİZ Gülcan Başar – fəlsəfə doktoru, dosent, Giresun Üniversiteti (Türkiyə);
BABAYEVA Məhəbbət Nizami qızı – musiqişünas, Naxçıvan Musiqi Kollecinin direktoru;
ALIYEV Nizami İsgəndər oğlu - sənətşünas, Naxçıvan Muxtar Respublikası Mükafatı qalibi

Qeyd: Xarici dillərdə dərc olunan məqalələrin redaktəsi üçün jurnalın bölmələri üzrə redaksiya heyətlərinin tərkibinə rus və ingilis dilləri üzrə mütəxəssislər daxil edilmişdir. Nəşrin ümumi redaktəsi ilə ingilis dili üzrə filologiya üzrə fəlsəfə doktoru, dosent Məmmədova İlhamə Mayis qızı, rus dili üzrə filologiya üzrə fəlsəfə doktoru, dosent Qurbanlı Qurban Məmməd oğlu məşğul olur.

Ünvan: Az – 7003, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti-2
Tel.: (+994)545 32 02, (+994)544 04 41, (+994)544 04 29
E-mail: elmihisse@nmi.edu.az

MÜNDƏRİCAT

PEDAQOGİKA: NƏZƏRİYYƏ VƏ TARİX

9-18	**İNTİQAM CƏBRAYILOV KÖNÜL MİKAYILOVA**	Təhsildə süni intellektin tətbiqinin pedaqoji-metodoloji imkanları və riskləri
19-24	**KAMAL CAMALOV**	İbtidai sinif şagirdlərinin psixi inkişafında hafizə proseslərinin düzgün tənzimlənməsində müəllimin rolu və fəaliyyəti
25-31	**TALEH XƏLİLOV**	Təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi
32-35	**LƏMAN ƏLİYEVA**	Pedaqoji eksperimentin hazırlanması və aparılması və hər bir mərhələdə tədqiqatçının fəaliyyətinin məzmununa dair
36-40	**AYTƏN QASIMOVA**	Təlim prosesində yüklənmələrin şagirdlərin sağlamlığına təsiri
41-45	**FİDAN MƏMMƏDOVA**	Vətənpərvərlik tərbiyəsinin formalaşdırılması üzrə işi nəzəri və metodoloji əsasları haqqında
46-49	**GÜNAY BABAYEVA**	Məktəbəqədər təhsil müəssisələrində uşaq rəsmlərinin bəzi xüsusiyyətləri haqqında
50-54	**FİRUZƏ ABDULLAYEVA**	Ali məktəb tələbələrinin müstəqilliyinin inkişafı məsələsinə dair
55-58	**NURAY CƏLİLLİ**	İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması yolları
59-63	**İRANƏ QURBANOVA**	İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması yolları
64-66	**QÖNÇƏ GÜLMALIYEVA**	Kiçik məktəb yaşlı şagirdlərdə milli dəyərlərə münasibət hissinin formalaşdırılması məsələləri
67-70	**SƏBİNƏ ASLANOVA**	Müalicəvi fiziki tərbiyə üzrə məşğələlərin istiqamətləri və təşkili formaları

PEDAQOGİKA: FƏNLƏRİN TƏDRİSİ METODİKASI

71-76	**YAQUB MƏMMƏDOV SAMİRƏ BABAYEVA**	Törəmənin tətbiqi ilə funksiyanın qrafikinin qurulması metodikası
77-82	**NAMİQ AĞAMƏMMƏDOV**	Coğrafiyanın inteqrativ təlimində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin rolu
83-87	**İSMAYIL ZEYNALOV**	Tarixin tədrisində istifadə olunan müasir təlim metodları
88-92	**MİRNAZİM SEYİDOV AKİF ƏLİYEV ƏRUS ABBASOVA**	"Azotlu gübrələr" mövzusunun tədrisi zamanı qarşıya çıxan bəzi çətinliklər və onların həlli yolları
93-97	**NAZİLƏ MURADOV COŞQUN MƏMMƏDOV**	Məktəb riyaziyyatı kursunda elementar qurmaların tədrisi xüsusiyyətlərinə dair
98-102	**AYTƏKİN QƏHRƏMANOVA**	Tarix təliminin metodları və onların təsnifatı haqqında
103-107	**FATMA HACIYEVA**	Müəllim hazırlığının təkmilləşdirilməsinin ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinin keyfiyyətinin yüksəldilməsində əhəmiyyəti haqqında
108-114	**SƏYYAD VƏLİYEV**	Texnologiya fənninin tədrisində təlim prinsipləri və metodlarinin tətbiqi haqqında

115-119 **GÜLNARƏ SƏFƏROVA** Biologiya fənninin 8-ci sinifdə tədrisində oyun texnologiyalarından istifadənin motivasiya və öyrənmə nəticələrinə təsiri

PSİXOLOGİYA

120-124 **SƏLBİ ABASOVA** Fəaliyyətlərin və hərəkətlərin təşkilinin mürəkkəb formalarının öyrənilməsi və eşitmə-motor koordinasiyanın tədqiqi

125-129 **NÜŞABƏ MƏMMƏDOVA** Praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə həyata keçirdiyi psixoprofilaktik işlərə dair

130-137 **AYSEL FƏTƏLİYEVA** Proqramlaşdırma bacarıqlarının inkişafında psixoloji ölçmələrin rolu: idrak, motivasiya və sosial dinamikaların təhlili

138-141 **ARZU İSMAYILLI** Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə rolu

142-145 **ƏZİZƏ CƏFƏRZADƏ** Yeniyetməlik dövründə yaşanan psixoloji hallar və yaş böhranı problemi haqqında

146-148 **BAHAR RZAYEVA** Əqli keyfiyyətlərin mahiyyəti, strukturu və əsas xüsusiyyətlərinə dair

TARİX

149-156 **HACIFƏXRƏDDİN SƏFƏRLİ** Orta əsr müsəlman epiqrafikası abidələrində qadınların daşıdığı titullar haqqında (Naxçıvan Muxtar Respublikası materialları əsasında)

157-162 **FƏXRƏDDİN CƏFƏROV YAŞAR RƏHİMOV** II dünya müharibəsi illərində Naxçıvan ziyalılarının yaradıcılığı "Şərq Qapısı" qəzetinin səhifələrində

163-167 **RƏSUL BAĞIROV** Tarixi tədqiqatlarda arxeologıı qazıntıların və yazılı mənbələrin rolu

168-173 **HÜSEYN ABBASOV** Avropa İttifaqının enerji təminatı təhlükəsizliyinə Ukrayna-Rusiya müharibəsi kontekstində yeni baxış

174-178 **HÜSEYN HÜSEYNLİ** Türkiyənin Cənubi Qafqazdakı etnik münaqişələrə yanaşması: Cənubi Osetiya nümunəsində

179-183 **GÜLƏR ƏJDƏRZADƏ** Borçalı toponimi və Borçalı əhalisinin etnik tərkibi

184-190 **NURLANA ƏLİYEVA** Dünya mətbuatında ermənilərin naxçıvana qarşı əsassız iddialarına dair

FİLOLOGİYA

191-194 **NURAY ƏLİYEVA** Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları

BİOLOGİYA

195-201 **AKİF MƏRDANLI TOFİQ ƏLİYEV AYNUR İBRAHİMOVA** Baş kələmin becərilməsi təcrübəsindən

İNCƏSƏNƏT

202-205 **AYTƏN YUSİFKƏNAN** Şəkidə qədim ipəkçilik ənənələrinin inkişafına dair

CONTENTS

PEDAGOGICAL THEORY AND HISTORY

9-18	**INTIGAM JABRAYILOV** **KONUL MIKAYILOVA**	Pedagogical-methodological ppportunities and risks of applying artificial intelligence in education
19-24	**KAMAL CAMALOV**	The teacher's role and actıvıty ın proper regulatıon of memory processes ın the mental development of prımary students
25-31	**TALEH KHALILOV**	Planning and the integrated application of concepts in education
32-35	**LAMAN ALIYEVA**	The content of the researcher's activity in the stages of preparation and implementation of the pedagogical experiment
36-40	**AYTEN GASIMOVA**	The impact of workloads to the health of students in teaching process
41-45	**FIDAN MAMMADOVA**	The theoretical and methodological foundation of the formation of patriotic education
46-49	**GUNAY BABAYEVA**	Some characteristics of children`s drawings in preschool educational institutions
50-54	**FIRUZA ABDULLAYEVA**	On the issue of developing university students` independence
55-58	**NURAY JALILLI**	On mental development in children, its stages and supportive activities
59-63	**IRANA GURBANOVA**	Ways of formıng ecologıcal culture ın the process of teachıng subjects ın prımary classes
64-66	**GONCHA GULMALIYEVA**	Issues in the formation of primary school pupils' attitudes towards national values
67-70	**SABINA ASLANOVA**	Directions and organizing forms of therapeutic physical education studies

PEDAGOGY: METHODOLOGY OF TEACHING SUBJECTS

71-76	**YAGUB MAMMADOV** **SAMIRA BABAYEVA**	Methodology for studying and plotting a function with respect to its derivative
77-82	**NAMIG AGAMAMMADOV**	The role of extra-curricular and extra-school activities in integrative teaching of geography
83-87	**ISMAYIL ZEYNALOV**	Modern teaching methods used in the teaching of history
88-92	**MIRNAZIM SEYIDOV** **AKIF ALIYEV** **ARUS ABBASOVA**	Some difficulties encountered when teaching the topic of "Nitrogen fertilizers" and their solutions
93-97	**NAZILA MURADOVA** **JOSHGUN MAMMADOV**	On the features of teaching elementary constructions in the school mathematics curriculum
98-102	**AYTAKIN GAHRAMANOVA**	On the methods of teaching history and their classification
103-107	**FATMA HAJIYEVA**	The importance of improving teacher training for enhancing the quality of mathematics teaching in general education schools
108-114	**SAYYAD VALIYEV**	Educational principles in technology teaching and application of methods

115-119	**GULNARA SAFAROVA**	The impact of using game technologies on motivation and learning outcomes in teaching biology in the 8th grade
		PSYCHOLOGY
120-124	**SALBI ABBASOVA**	Studying complex forms of action and movement organization and auditory-motor coordination
125-129	**NUSHABE MAMMADOVA**	On the psychoprophylactic activities conducted by practical psychologists with teachers, parents, and students
130-137	**AYSEL FATALIYEVA**	The role of psychological measurements in the development of programming skills: analysis of cognitive, motivation and social dynamics
138-141	**ARZU ISMAYILLI**	The role of emotional medium in the formation of self-conscıousness and national consciuosness of a personalit
142-145	**AZIZA JAFARZADE**	Psychological conditions and the issue of age-related crises during adolescence
146-148	**BAHAR RZAYEVA**	The essence, structure and main properties of mental qualities
		HİSTORY
149-156	**HAJI FAKHRADDIN SAFARLI**	Regarding the titles held by women as depicted in the monuments of muslim epigraphy from the middle ages (based on Nakhchivan materials)
157-162	**FAKHRADDIN JAFAROV YASHAR RAHIMOV**	The creativity of Nakhchivan intellectuals during the years of world war II in the pages of the “Sharg gapisi” newspaper
163-167	**RASUL BAGHIROV**	The role of archaeological excavations and written sources in historical research
168-173	**HUSEYN ABBASOV**	EU energy security in the context of geopolitical crises: challenges and new approaches
174-178	**HUSEYN HUSEYNLI**	Turkey’s approach to ethnic conflicts in the South Caucasus: the case of South Ossetia
179-183	**GULAR AJDARZADA**	The toponym Borchaly and the ethnic composition of the population in Borchaly
184-190	**NURLANA ALIYEVA**	On the unfounded armenian claims against Nakhchivan in the world press
		PHILOLOGY
191-194	**NURAY ALIYEVA**	The place and methodological bases of dialect phonetics of the Azerbaijani language in teaching
		BIOLOGY
195-201	**AKIF MARDANLI TOFIG ALIYEV AYNUR IBRAHIMOVA**	Experience in cabbage (Head Cabbage) cultivation
		ART
202-205	**AYTAN YUSIFKANAN**	On the development of ancient silk production traditions in Shaki (art-historical aspect)

СОДЕРЖАНИЕ

ПЕДАГОГИКА: ТЕОРИЯ И ИСТОРИЯ

9-18	**ИНТИГАМ ДЖАБРАИЛОВ КЕНЮЛЬ МИКАИЛОВА**	Педагогико-методические возможности и риски применения искусственного интеллекта в образовании
19-24	**КЯМАЛ ДЖАМАЛОВ**	Роль и деятельность учителя в правильной регуляции процессов памяти в психическом развитии младших школьников
25-31	**ТАЛЕХ ХАЛИЛОВ**	Совместное применение планирования и концепции в образовании
32-35	**ЛЯМАН АЛИЕВА**	К содержанию деятельности исследователя на этапах разработки и проведения педагогического эксперимента
36-40	**АЙТЕН ГАСЫМОВ**	Влияние нагрузок в учебном процессе на здоровье учащихся
41-45	**ФИДАН МАМЕДОВА**	К теоретико-методическим основам работы по формированию патриотического воспитания
46-49	**ГЮНАЙ БАБАЕВА**	О некоторых особенностях детского рисунка в дошкольных учреждениях
50-54	**ФИРУЗА АБДУЛЛАЕВА**	К вопросу о развитии самостоятельности студентов высших учебных заведений
55-58	**НУРАЙ ДЖАЛИЛЛИ**	О психическом развитии у детей, его этапах и поддерживающей деятельности
59-63	**ИРАНА ГУРБАНОВА**	Пути формирования экологической культуры в процессе преподавания предметов в начальных классах
64-66	**ГЁНЧА ГЮЛЬМАЛИЕВА**	Вопросы формирования у младших школьников чувства уважения к национальным ценностям
67-70	**САБИНА АСЛАНОВА**	Направления и формы организации занятий по лечебной физической культуре

ПЕДАГОГИКА: МЕТОДИКА ПРЕПОДАВАНИЯ ПРЕДМЕТОВ

71-76	**ЯГУБ МАМЕДОВ САМИРА БАБАЕВА**	Методика исследования и построения графика функции с применением производной
77-82	**НАМИГ АГАМАМЕДОВ**	Роль внеклассной и внешкольной деятельности в интегративном обучении географии
83-87	**ИСМАИЛ ЗЕЙНАЛОВ**	Современные методы обучения, используемые в преподавании истории
88-92	**МИРНАЗИМ СЕИДОВ АКИФ АЛИЕВ АРУС АББАСОВА**	Некоторые трудности, возникающие при изучении темы «Азотные удобрения», и пути их решения
93-97	**НАЗИЛЯ МУРАДОВА ДЖОШГУН МАМЕДОВ**	Об особенностях обучения элементарному построению в школьном курсе математики
98-102	**АЙТЕКИН ГАХРАМАНОВА**	К методам обучения истории и их классификациям
103-107	**ФАТМА ГАДЖИЕВА**	О значении совершенствования подготовки учителей в повышении качества преподавания математики в общеобразовательных школах

108-114	**САЙЯД ВЕЛИЕВ**	О применении принципов и методов обучения в преподавании предмета «Технология»
115-119	**ГЮЛЬНАРА САФАРОВА**	Влияние использования игровых технологий на мотивацию и результаты обучения при обучении биологии в 8 классе
		ПСИХОЛОГИЯ
120-124	**СЕЛЬБИ АБАСОВА**	Изучение сложных форм организации деятельности и движений и исследование слухо-моторной координации
125-129	**НУШАБА МАМЕДОВА**	К психопрофилактической работе, проводимой практическим психологом с учителями, родителями и учащимися
130-137	**АЙСЕЛЬ ФАТАЛИЕВА**	Роль психологических измерений в развитии навыков программирования: анализ когнитивной, мотивационной и социальной динамики
138-141	**АРЗУ ИСМАИЛЛИ**	Роль эмоциональной среды в формировании самосознания личности и ее национальной идентичности
142-145	**АЗИЗА ДЖАФАРЗАДЕ**	О психологических состояниях в подростковом возрасте и проблеме возрастного кризиса
146-148	**БАХАР РЗАЕВА**	К вопросам о сущности, структуре и основных свойствах умственных качеств
		ИСТОРИЯ
149-156	**ГАДЖИФАХРАДДИН САФАРЛИ**	О титулах, которые носили женщины в средневековых памятниках мусульманской эпиграфики (на основе Нахчыванских материалов)
157-162	**ФАХРАДДИН ДЖАФАРОВ ЯШАР РАГИМОВ**	Творчество Нахчыванской интеллигенции на страницах газеты «Шарг гапысы» в годы второй мировой войны
163-167	**РАСУЛ БАГИРОВ**	Роль археологических раскопок и письменных источников в исторических исследованиях
168-173	**ГУСЕЙН АББАСОВ**	Энергетическая безопасность ЕС в условиях геополитического кризиса: вызовы и новые подходы
174-178	**ГУСЕЙН ГУСЕЙНЛИ**	Подход Турции к этническим конфликтам на Южном Кавказе (на примере Южной Осетии)
179-183	**ГЮЛЕР АЖДАРЗАДЕ**	Топоним Борчалы и этнический состав населения Борчалы
184-190	**НУРЛАНА АЛИЕВА**	О необоснованных претензиях армян к Нахчывану в мировой прессе
		ФИЛОЛОГИЯ
191-194	**НУРАЙ АЛИЕВА**	Место и методологические основы диалектной фонетики Азербайджанского языка в преподавании
		БИОЛОГИЯ
195-201	**АКИФ МАРДАНЛЫ ТОФИГ АЛИЕВ АЙНУР ИБРАГИМОВА**	Из опыта выращивания кочанной капусты
		ИСКУССТВО
202-205	**АЙТЕН ЮСИФКЯНАН**	К развитию древних традиций шелководства в Шеки (искусствоведческий аспект)

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 9-18
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 9-18
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 9-18

UOT: 004.853:37
https://doi.org/10.30546/670832.2025.01.901

Təhsildə süni intellektin tətbiqinin pedaqoji-metodoloji imkanları və riskləri

Müəllif(lər):

İntiqam Cəbrayılov
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Pedaqogika elmləri doktoru, professor
E-poçt: intiqamcebrayilov@gmail.com
Könül Mikayılova
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Böyük elmi işçi
E-poçt: konulmikayilova@rambler.ru

Açar sözlər: süni intellekt, platformalar, risq, fərdiləşdirilmə, avtomatlaşdırma, planlaşdırma

Annotasiya. XXI əsrdə süni intellektin (Sİ) sürətli inkişafı təhsil sistemində fərdiləşdirilmiş öyrənmə, avtomatlaşdırılmış qiymətləndirmə və tədris planlaşdırmasının təkmilləşdirilməsi kimi imkanlar yaradır. Eyni zamanda, bu texnologiyaların tətbiqi etik, pedaqoji və sosial risklər doğurur: müəllim-şagird əlaqələrinin zəifləməsi, texnoloji asılılıq, məlumatların məxfiliyinin pozulması və rəqəmsal qeyri-bərabərlik. Tədqiqatın məqsədi süni intellektin təhsildə tətbiqinin pedaqoji və metodoloji aspektlərini, eləcə də mümkün riskləri araşdırmaqdır.

Sorğular əsasında müəyyən olunmuşdur ki, iştirakçıların əksəriyyəti Sİ texnologiyalarının tədris keyfiyyətini artırdığını qəbul etsə də, etik və təhlükəsizlik narahatlıqları da ön plandadır. Müsbət tərəflər sırasına fərdiləşdirilmiş təlim, qiymətləndirmə prosesinin sadələşməsi və tədris qərarlarının dəstəklənməsi daxildir. Risklər arasında isə etik prinsiplərin pozulması, müəllim faktorunun zəifləməsi və texnoloji bərabərsizliyin artması xüsusi qeyd olunur.

Məqalədə həmçinin Sİ platformalarının – ChatGPT, Khan Academy, Duolingo Max və Grammarly – pedaqoji imkanları və məhdudiyyətləri təhlil edilir. Məqalə təhsildə Sİnin məsuliyyətli və balanslı şəkildə tətbiqi üçün dörd əsas istiqamət üzrə tövsiyələr təqdim edir: müəllimlərin hazırlanması, etik-hüquqi çərçivələrin formalaşdırılması, texnoloji infrastrukturun təkmilləşdirilməsi və şəxsi məlumatların qorunması.

Author(s):

Intigam Jabrayilov
Educational Institute of the Republic of Azerbaijan
Doctor of Pedagogical Sciences, Professor
E-mail: intiqamcebrayilov@gmail.com
Konul Mikayilova
Educational Institute of the Republic of Azerbaijan
Senior researcher
E-mail: konulmikayilova@rambler.ru

Key words: artificial intelligence, platforms, risk, personalization, automation, planning

Pedagogical-methodological opportunities and risks of applying artificial intelligence in education

Abstract. In the 21st century, the rapid development of artificial intelligence (AI) creates opportunities in the education system such as personalized learning, automated assessment, and improved instructional planning. At the same time, the implementation of these technologies raises ethical, pedagogical, and social risks: weakening of teacher-student relationships, technological dependency, breaches of data privacy, and digital inequality. The aim of the research is to examine the pedagogical and methodological aspects of AI integration in education, as well as the potential risks it entails.

Based on surveys, it was determined that while the majority of participants acknowledge that AI technologies enhance the quality of teaching, concerns about ethics and security remain prominent. Among the positive aspects are personalized instruction, simplification of the assessment process, and support for instructional decision-making. On the other hand, key risks include violations of ethical principles, a diminished role of teachers, and increasing technological inequality.

The article also analyzes the pedagogical capabilities and limitations of AI platforms such as ChatGPT, Khan Academy, Duolingo Max, and Grammarly. It offers recommendations for the responsible and balanced use of AI in education across four main areas: teacher training, the development of ethical and legal frameworks, enhancement of technological infrastructure, and protection of personal data.

Автор(ы):

Интигам Джабраилов
Образовательный институт Азербайджанской Республики
Доктор педагогических наук, профессор
Э-почта: intiqamcebrayilov@gmail.com
Кенюль Микаилова
Образовательный институт Азербайджанской Республики
Старший научный сотрудник
Э-почта: konulmikayilova@rambler.ru

Ключевые слова: искусственный интеллект, платформы, риски, персонализация, автоматизация, планирование

Педагогико-методические возможности и риски применения искусственного интеллекта в образовании

Аннотация. Быстрое развитие искусственного интеллекта (ИИ) в XXI веке создает такие возможности, как персонализированное обучение, автоматизированного оценивания и совершенствование учебного планирования в системе образования. В то же время внедрение этих технологий сопряжено с этическими, педагогическими и социальными рисками: ослабление отношений между учителем и учеником, технологическая зависимость, нарушение конфиденциальности данных и цифровое неравенство. Целью исследования является изучение педагогических и методологических аспектов применения искусственного интеллекта в образовании, а также возможных рисков.

На основе опросов было установлено, что, хотя большинство участников согласны с тем, что технологии Sİ улучшают качество обучения, на переднем плане также находятся проблемы этики и безопасности. К положительным сторонам относятся индивидуальное обучение, упрощение процесса оценнивания и поддержка учебных решений. Среди рисков, однако, особо отмечаются нарушение этических принципов, ослабление педагогического фактора и рост технологического неравенства.

В статье также анализируются педагогические возможности и ограничения платформ Sİ – ChatGPT, Khan Academy, Duolingo Max və Grammarly. В статье представлены рекомендации по четырем основным направлениям ответственного и сбалансированного применения Sİ в образовании: подготовка учителей, формирование этико-правовых рамок, совершенствование технологической инфраструктуры и защита персональных данных.

XXI əsrin sürətli texnoloji inkişafı süni intellekt (Sİ) texnologiyalarını bütün sahələrdə qaçılmaz edir. Müasir təhsildə fərdiləşdirilmiş öyrənmə, adaptiv hesablama, avtomatlaşdırılmış təhlil və öyrənmə prosesi kimi yeniliklər pedaqoji imkanlar yaradaraq süni intellektin köməyilə təlim prosesini daha effektiv, çevik hala gətirir.

Eyni zamanda, süni intellektin təhsildə geniş tətbiqi etik, psixoloji və metodoloji baxımdan yeni çağırışlar və risklər meydana çıxarır. Bu risklərə müəllim peşəsinin transformasiyası, müəllim-mərkəzli təlimin itirilməsi ehtimalını, öyrənmə prosesində passivləşmə və şəxsi məlumatların təhlili məsələlərini aktuallaşdırır.

Tədqiqatın əsas məqsədi süni intellekt texnologiyalarının təhsil sistemində tətbiqinin pedaqoji və metodoloji aspektlərini araşdırmaq, onların təlim-tərbiyə prosesinə təsirini müəyyənləşdirmək, müasir texnologiyanın tətbiqi zamanı meydana çıxa biləcək potensial riskləri təsvir etməkdir.

Süni intellekt (Sİ) insan ağlının müəyyən funksiyalarını (öyrənmə, təhliletmə, qərar qəbuletmə, nitq, görüntünü tanıma və s.) texnoloji vasitələrlə modelləşdirən və həyata keçirən sistemlər toplusudur. Bu texnologiya alqoritmlər yaradaraq insan kimi "düşünmək", "öyrənmək" və "problem həll etmək" bacarığını formalaşdırır. Yəni Sİ böyük məlumat bazalarını təhlil edərək statistik nəticələr çıxara və bu nəticələrə əsasən qərarlar qəbul edə bilir. Bununla da Sİ insan əməyini sadələşdirir və vaxta qənaəti təmin etməklə ona dəstək olur.

Son illərdə ölkəmizdə süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafı ilə bağlı zəruri tədbirlərin görülməsi təqdirəlayiqdir. Bu baxımdan 19 mart 2025-ci il tarixdə "Azərbaycanın 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamının imzalanması mühüm əhəmiyyət kəsb edir [1]. Sərəncamda süni intellektin inkişafının idarə edilməsi, tədqiqatların məhsuldarlığının təmin edilməsi məsələləri, eləcə də süni intellekt üzrə informasiya texnologiyalarının, idarəetmə mexanizmlərinin gücləndirilməsi məsələləri öz əksini tapıb.

Süni intellektin təhsildə istifadəsinin elmi-pedaqoji əsaslarının araşdırılması, onun yaradacağı dəyişikliklərin və iqtisadi potensialın təhlili, eyni zamanda burada risklərin təyini və idarə edilməsi geniş tədqiqatların həyata keçirilməsini aktuallaşdırır. Mövzu həm nəzəri, həm də praktik cəhətdən maraq doğurur və təhsil siyasətçiləri, pedaqoqlar, kurikulum və texnoloji inkişafla bağlı qərarvericilər üçün strateji əhəmiyyət kəsb edir.

Süni intellektin təhsildə tətbiqi

Süni intelekt (Sİ) bütün sahələrdə olduğu kimi təhsildə də çevik, ağıllı və səmərəli yanaşmaların tətbiqinə şərait yaradır. Süni intellektin təhsilə verdiyi töhfələr çoxşaxəlidir və həm dərs prosesini, həm də öyrənmə nəticələrini keyfiyyətcə dəyişir. Ona görə də süni intellektin təhsildə tətbiqi imkanları genişdir və onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Fərdiləşdirilmiş tədris

Süni intellekt təhsilalanların öyrənmə səviyyəsini, sürətini və fərdi ehtiyaclarını analiz edərək onların tədris materialları ilə qarşılıqlı əlaqəsini optimallaşdıra bilir. Sİ əsaslı platformalar (məsələn, ChatGPT, Khan Academy, Duolingo Max, Grammarly) hər bir təhsilalanlara uyğunlaşdırılmış tədris marşrutu təklif edir.

2. Avtomatlaşdırılmış qiymətləndirmə

Sİ texnologiyaları testlərin, esselərin və layihələrin qiymətləndirilməsində istifadə olunur. Bu, müəllimlərin iş yükünü azaltmaqla yanaşı, daha tez geribildirim verilməsini təmin edir.

3. Tədris planlaşdırması və qərarvermə dəstəyi

Sİ, təhsilalanların nailiyyətlərini təhlil etməklə müəllimlərə və idarəçilərə təlim strategiyalarını təkmilləşdirməkdə dəstək ola bilər. İntellektual analitika vasitəsilə zəif tərəflər və öyrənmə boşluqları aşkarlanır.

Buradan belə nəticəyə gəlmək olar ki, süni intellektin təhsildə tətbiqi, tədris prosesini daha effektiv, çevik və şagirdyönümlü hala gətirməyə xidmət edir və fərdi ehtiyaclara uyğun öyrənmə imkanları yaradır. Avtomatlaşdırılmış qiymətləndirmə, tədris planlaşdırması və qərarvermə dəstəyi isə təhsil sisteminin keyfiyyətini yüksəltməkdə mühüm vasitə olduğunu göstərir.

Süni intellektin pedaqoji imkanları və riskləri

Süni intellekt təhsildə yeni və innovativ pedaqoji imkanlar yaradır. Onun tətbiqi müəllimlərin fəaliyyətini təkmilləşdirir, öyrənmə prosesinin və təhsilin keyfiyyətini artırır. Lakin Sİ-nin

tətbiqində risklər də mövcuddur: məlumatların təhlükəsizliyi və şəxsi məxfiliyin qorunması, insan faktorunun tam əvəz olunmaması, etik və sosial idarədə texnoloji asılılıq və s. Həmçinin, Sİ-nin verdiyi məlumatların və qiymətləndirmələrin obyektivliyi və düzgünlüyü də nəzərə alınmalıdır. Bu baxımdan süni intellektin pedaqoji imkanlarını və risklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Etik və hüquqi məsələlər

Rəqəmsal qiymətləndirmə sistemlərinin tətbiqi ilə bağlı etik və hüquqi məsələlər xüsusi diqqət tələb edir. Bu sahədə ən ciddi risklərdən biri tələbə və şagirdlərin şəxsi məlumatlarının toplanması, saxlanması və emalı prosesində məxfilik və məlumatların təhlükəsizliyinin pozulması ehtimalıdır. Təhsil texnologiyalarından istifadə zamanı toplanan məlumatlar arasında şagirdlərin performans göstəriciləri, psixoloji və davranış profilləri, hətta sağlamlıqla bağlı məlumatları da ola bilər. Bu cür məlumatların icazəsiz istifadəsi və ya üçüncü tərəflərlə paylaşılması həm etik prinsipləri, həm də mövcud qanunvericiliyi pozur. Bu kontekstdə "Avropa İttifaqının ümumi məlumatların qorunması qaydaları" (GDPR) [2] kimi hüquqi çərçivələr, istifadəçilərin məlumatlarına nəzarət hüququnu və məlumatların emalı prosesində şəffaflığı tələb edir.

Digər mühüm məsələ avtomatlaşdırılmış qiymətləndirmə alqoritmləri ilə bağlıdır. Bu alqoritmlərin necə işlədiyi, hansı meyarlara əsaslandığı və qərarların necə verildiyi çox vaxt istifadəçilərə məlum olmur. Şəffaflığın olmaması isə qərarların ədalətliliyini və obyektivliyini sual altına alır. Əgər alqoritmlər qeyri-dəqiq və ya qərəzli məlumatlarla qidalanırsa, bu zaman nəticələr müəyyən şagird qruplarına qarşı ayrı-seçkilik doğura bilər. Misal üçün, müəyyən sosial-iqtisadi təbəqədən olan şagirdlərin daha aşağı qiymətləndirilməsi və ya müəyyən etnik qrupların performansının sistematik şəkildə zəif göstərilməsi ciddi sosial ədalətsizliklərə yol açа bilər.

Bu səbəbdən rəqəmsal qiymətləndirmə sistemlərinin hazırlanması və tətbiqi zamanı etik prinsiplər – şəffaflıq, hesabatlılıq, fərdi hüquqlara hörmət və qeyri-ayrıseçkilik – əsas istiqamətlər kimi nəzərə alınmalıdır. Təhsil müəssisələri və texnologiya təminatçıları məlumatların toplanması və alqoritmlərin işləmə prinsipləri haqqında aydın, sadə və əlçatan məlumat təqdim etməli, həmçinin şagirdlərin və valideynlərin məlumatlara çıxış və düzəliş etmək hüququnu təmin etməlidirlər.

2. Pedaqoji əlaqələrin zəifləməsi

Rəqəmsal texnologiyaların təlim prosesində geniş tətbiqi bəzi hallarda müəllimlə şagird arasında olan ənənəvi pedaqoji əlaqələrin zəifləməsinə səbəb ola bilər. Xüsusilə avtomatlaşdırılmış platformalar və süni intellektyönümlü tədris vasitələrinin yayılması nəticəsində canlı insan ünsiyyətinin yerini texnoloji vasitələrin alması müşahidə olunur. Halbuki müəllim-şagird münasibəti yalnız informasiyanın ötürülməsi deyil, eyni zamanda emosional, sosial və intellektual inkişafın təminatçısıdır. Müəllimin baxışları, jestləri, səsi və duyğusal reaksiyaları şagirdin özünü dəyərli hiss etməsinə, öyrənmə prosesinə maraqla yanaşmasına və sosial-mənəvi dəyərləri mənimsəməsinə kömək edir.

Pedaqoji əlaqələrin zəifləməsi xüsusilə erkən yaşlarda təhsil alan şagirdlər üçün daha ciddi nəticələr doğura bilər. Bu yaş dövründə uşaqlar üçün öyrənmə yalnız bilik qazanmaq deyil, həm də sosial bacarıqların, empatiyanın və emosional tənzimləmə qabiliyyətinin formalaşması prosesidir. Texnologiyanın dominantlığı şəraitində bu sosial qarşılıqlı təsir imkanları azalır və nəticədə motivasiya zəifləyə, öyrənməyə maraq azalaraq təcrid olunma halları arta bilər.

Bundan əlavə, texnologiyanın öyrənmə prosesində vasitəçilik rolu müəllimin pedaqoji liderlik və bələdçilik funksiyalarını arxa plana keçirə bilər. Halbuki müəllim yalnız bilik verən deyil, həm də öyrənməyə istiqamət verən, öyrənənin ehtiyaclarını dərk edən və onu fərdi inkişaf yolunda müşayiət edən şəxsdir. Bu əlaqənin zəifləməsi şagirdin yalnız texniki məlumatları mənimsəməsinə səbəb ola bilər, lakin dərin düşüncə, tənqidi yanaşma və yaradıcılıq kimi kompleks bacarıqların inkişafı üçün zəruri olan mənəvi-pedaqoji dəstək yetərsiz qala bilər.

Bu səbəbdən rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası zamanı balanslı yanaşma vacibdir. Texnologiya müəllimin rolunu tamamlamalı, lakin onu əvəz etməməlidir. Hibrid və şagirdyönümlü modellər bu baxımdan pedaqoji əlaqələrin qorunmasını və təhsilin humanist ruhunun saxlanılmasını təmin edə bilər.

3. Asılılıq və texnoloji qeyri-bərabərlik

Süni intellektəsaslı təhsil texnologiyalarının sürətli inkişafı və tətbiqi təlimin keyfiyyətini artırmaq üçün mühüm imkanlar yaratsa da, bu

proseslə bağlı bəzi sosial və pedaqoji risklər də mövcuddur. Bu risklərdən biri texnoloji qeyri-bərabərlik və digəri isə texnologiyadan həddindən artıq asılılıqdır.

Təcrübə və araşdırmalar göstərir ki, ilk növbədə, Sİ əsaslı sistemlərə və rəqəmsal resurslara çıxışı olmayan şagirdlər rəqabət mühitində ciddi üstünlüklərdən məhrum qala bilərlər. Xüsusilə sosial-iqtisadi baxımdan əlverişsiz bölgələrdə yaşayan və ya məhdud texniki imkanlara malik ailələrin övladları üçün bu fərq daha da dərinləşə bilər. Belə hallarda rəqəmsal uçurum – yəni texnologiyaya çıxış imkanlarındakı fərqlər – yalnız təhsil imkanlarını deyil, həm də gələcəkdə karyera və sosial inteqrasiya sahəsində bərabərliyi təhlükə altına ala bilər. Sİ texnologiyalarının təqdim etdiyi fərdiləşdirilmiş təlim imkanları və adaptiv qiymətləndirmə vasitələri yalnız müəyyən şagird qruplarının istifadəsinə əlçatan olduqda bu, ədalətsiz və ayrı-seçkiliyə əsaslanan bir təhsil mühiti yarada bilər.

Eyni zamanda texnologiyaya həddindən artıq bağlılıq tədris prosesinin mexaniki və standartlaşdırılmış bir formaya düşməsi riskini artırır. Şagirdlərin tədris prosesində yalnız texnoloji platformalarla qarşılıqlı əlaqədə olması onların yaradıcılıq, tənqidi düşünmə, sosial bacarıqlar və empati kimi mühüm həyat bacarıqlarının inkişafını ləngidə bilər. Süni intellekt sistemləri hər nə qədər inkişaf etmiş olsa da, onlar hələ də insanın- müəllimin intuisiyasını, kontekstual düşünmə qabiliyyətini və fərdi emosional ehtiyaclara uyğunlaşma bacarığını tam əvəz edə bilmir. Tədrisin tam texnologiyaya yönəlməsi müəllim-şagird əlaqəsinin zəifləməsi ilə yanaşı, şagirdlərin öyrənməyə motivasiyasını da azalda bilər, çünki texnologiya bəzən təlimi daha çox test və tapşırıq əsaslı, mexaniki və məqsəddən uzaq bir fəaliyyətə çevirə bilər.

Bu baxımdan, texnologiyanın təhsildə tətbiqində inklüzivlik və balans əsas prinsiplərdən biri olmalıdır. Bütün şagirdlərin bərabər texnoloji imkanlara malik olması üçün dövlət və cəmiyyət səviyyəsində dəstək proqramları həyata keçirilməli, eyni zamanda texnologiyadan istifadədə insan amili, şəxsiyyətin inkişafı və sosial qarşılıqlı təsir unudulmamalıdır. Təhsil siyasətləri həm texnoloji infrastrukturun genişlənməsini, həm də etik və pedaqoji baxımdan dayanıqlı istifadəsini təmin etməlidir.

Süni intellektin metodoloji imkanları və riskləri

Süni intellekt (Sİ) XXI əsrin elmi və texnoloji inqilabının əsas istiqamətlərindən biri kimi, əsaslı şəkildə, təhsildə metodoloji yanaşmaları dəyişməkdədir. Süni intellektin metodoloji dəstəyi insan əməyinin, zəhmətinin və vaxt itkisinin qarşısını alır. Lakin hər bir yeniliyin mənfi və müsbət aspektləri olduğu kimi təhsildə istifadə olunan süni intellekt platformalarının da mənfi və müsbət tərəfləri araşdırılmışdır. Aparılan araşdırmalar əsasında təhsildə istifadə olunan Sİ əsaslı platformaların mənfi və müsbət tərflərinin müqayisəli təhlili aşağıdakı cədvəllərdə öz əksini tapmışdır (cədvəl 2; 3; 4; 5):

Cədvəl 2. ChatGPT platformalarının mənfi və müsbət tərəfləri

ChatGPT(**Chat Generative Pre-trained Transformer**) platformaları	
Müsbət tərəfləri	*Mənfi tərəfləri*
Məlumatlara tez və asan çıxış imkanı verir	Bəzən qeyri-dəqiq və ya kontekstdən uzaq cavablar verə bilər
Şəxsi öyrənmə köməkçisi kimi istifadə oluna bilər	Məlumatların etibarlılığına tam zəmanət verilmir
Mətn yazmaq, təhlil etmək və ideya formalaşdırmaqda dəstək olur	Təhsilalanların yaradıcı və tənqidi düşünmə bacarıqlarının azalmasına səbəb ola bilər (əgər sui-istifadə olunarsa)
Təhsialalanlar və müəllimlər üçün müxtəlif fənlər üzrə sualları cavablandırır	Təhsilalanlarda arxayınlıq yaradır, məsuliyyət hissini azaldır
Sosioloji, psixoloji və pedaqoji tədqiqatlarda kəmiyyət və keyfiyyət məlumatlarını avtomatlaşdırılmış şəkildə emal etməyə imkan verir	Avtomatlaşdırma tədqiqatçını passiv müşahidəçiyə çevirə bilər və analitik təfəkkür, intuisiya və metodoloji refleksiyanı azalda bilər

Cədvəl 3-də "Khan Academy" da mənfi müsbət tərəflərini aşağıdakı kimi şərh edirik:

"Khan Academy"	
Müsbət tərəfləri	*Mənfi tərəfləri*
Mövzular sadə və izahlı formada təqdim olunur	Bəzi fənlərdə məzmun hələ də məhduddur (bəzi dillərdə)
Fərdi öyrənmə tempinə uyğunlaşma imkanı var	Sual-cavab sistemləri hələ tam adaptiv deyil
Pulsuz və geniş mövzu bazasına malikdir	İnteraktivliyi məhdud ola bilər (məsələn, real müəllimlə müqayisədə)
"Khanmigo" adlı Sİ köməkçisi interaktiv dəstək verir	

Cədvəl 4-də "Duolingo Max" da mənfi müsbət tərəflərini aşağıdakı kimi şərh edirik:

Duolingo Max	
Müsbət tərəfləri	*Mənfi tərəfləri*
Dil öyrənməni əyləncəli və motivasiyaedici edir	Maksimum funksiyalar yalnız ödənişli versiyada mövcuddur
Sİ əsaslı izahlar və ssenari üzrə danışıq məşqləri təklif edir	Real həyat kontekstində dil istifadə bacarığına tam zəmanət vermir
Proqressiv və adaptiv öyrənmə yolu təqdim edir	Bəzən təkrarlanan və səthi tapşırıqlar təqdim edir

Cədvəl 5-də "Grammarly" da mənfi müsbət tərəflərini aşağıdakı kimi şərh edirik:

Grammarly	
Müsbət tərəfləri	*Mənfi tərəfləri*
Qrammatik, imla və üslub səhvlərini dəqiqliklə aşkarlayır	Bəzi hallarda yaradıcılığı və fərdi ifadə tərzini məhdudlaşdıra bilər
Yazı keyfiyyətini artırmaq üçün təkliflər verir	Avtomatik düzəlişlər hər zaman kontekstə uyğun olmaya bilər
Akademik, işgüzar və gündəlik üslublar üçün uyğundur	Tam funksiyaları üçün ödəniş tələb olunur

Buradan belə nəticə çıxarmaq olar ki, Sİ platformalarından istifadə əsaslı bir risq yaratmır. Lakin bu platformalardan istifadə metodik yanaşma və bir daha çox diqqət tələb edir. Müəllimlər bu alətdən yardımçı vasitə, təhsilalanlar isə onu öz biliklərini yoxlamaq və genişləndirmək üçün əlavə bir vasitə kimi görməlidirlər.

Material və metodlar. Bu fikirləri əsaslandırmaq məqsədilə süni intellektin tətbiqi ilə bağlı ali təhsil müəssisələrində müəllim və tələbələr arasında sorğu aparılmışdır. Sorğu 20 müəllim və 100 tələbəni əhatə edərək onlayn formada həyata keçirilmişdir. Sorğu nəticələrinin təhlili aşağıdakı cədvəldə təqdim olunmuşdur (cədvəl 1).

Sorğunun nəticələri göstərir ki, iştirakçıların əksəriyyəti - 58%-i süni intellekt texnologiyalarından istifadə etdiyini bildirir, bu da Sİ-nin təhsil mühitinə artıq inteqrasiya olunduğunu göstərir. Respondentlərin 66%-i süni intellektin tədris keyfiyyətini artırdığını düşünür ki, bu da onun öyrənmə prosesinə müsbət təsirini vurğulayır. Bununla yanaşı, 49%-i Sİ-nin riskli olduğunu və etik problemlər yaratdığını qeyd edir. Bu isə süni intellektin tətbiqində yalnız funksionallıq deyil, həm də etik və hüquqi məsələlərin diqqət mərkəzində saxlanılmasının vacibliyini ortaya qoyur.

Cədvəl 1. Təhsildə süni intellektə münasibətiniz

Suallar	Bəli (%)	Qismən (%)	Xeyr (%)
Sİ texnologiyalarından istifadə edirsiniz?	58%	27%	15%
Sİ tədris keyfiyyətini artırır?	66%	22%	12%
Sİ risklidir və etik problemlər yaradır	49%	31%	20%

Ümumilikdə, nəticələr göstərir ki, Sİ texnologiyalarının təhsildə istifadəsi geniş qəbul olunsa da, onunla bağlı narahatlıqlar da mövcuddur və balanslı yanaşma tələb olunur.

Problemlə bağlı OECD-nin ("AI and the Future of Skills" (2021–2023)) tədqiqatı göstərir ki, süni intellekt təhsildə keyfiyyət, bərabərlik və innovasiya imkanlarını artırsa da, onun tətbiqi etik, hüquqi və pedaqoji yanaşmalarla düzgün tənzimlənməlidir [3].

Müzakirə və tövsiyələr. Süni intellektin təhsil sisteminə inteqrasiyası həm tədris keyfiyyətini yüksəltmək, həm də təhsildə inklüzivliyi artırmaq baxımından böyük potensiala malikdir. Bununla yanaşı, etik, pedaqoji və texnoloji risklər diqqətlə nəzərə alınmalı və uyğun siyasət vasitəsilə tənzimlənməlidir. Təhsil sisteminin davamlı inkişafı üçün insan faktoru ilə texnologiyanın harmoniyası təmin edilməlidir.

Təhsildə süni intellektin tətbiqi zamanla daha da genişlənəcəkdir. Lakin bu texnologiyanın düzgün və etik çərçivədə tətbiqi üçün aşağıdakı tövsiyələr verilir:

Təlimçilərin hazırlanması. Müəllimlərin süni intellekt alətlərindən pedaqoji cəhətdən düzgün istifadə bacarığının inkişaf etdirilməsi məqsədilə təlimçilər hazırlanmalıdır.

Sİ texnologiyalarının təhsildə effektiv və məqsədyönlü tətbiqi yalnız alətlərin mövcudluğu ilə deyil, həm də müəllimlərin bu alətlərdən pedaqoji baxımdan düzgün istifadəetmə bacarığı ilə şərtlənir. Müasir təhsil sistemində müəllimlərin rəqəmsal savadlılığı təkcə texniki bacarıqlarla deyil, eyni zamanda pedaqoji, etik və metodoloji biliklərlə də tamamlanmalıdır.

Müəllimlər Sİ alətlərinin imkanlarını və məhdudiyyətlərini başa düşməli, bu texnologiyaların hansı təlim məqsədləri üçün uyğun olduğunu müəyyən edə bilməlidirlər. Məsələn, süni intellektdən sinifdə adaptiv öyrənmə platformaları vasitəsilə fərdi tədris yollarının qurulmasında, dərs planlaşdırılmasında və ya qiymətləndirmə nəticələrinin təhlilində istifadə etmək mümkündür. Lakin bu zaman müəllim həm etik məsələləri, həm də Sİ sistemlərinin qərar mexanizmlərinin məhdudluqlarını nəzərə almalıdır.

Bundan başqa, müəllimlər süni intellektin tədrisdə insan faktorunu əvəz etməməsi, əksinə, onu tamamlaması prinsipinə əsaslanaraq texnologiyanı şagirdlərə mənəvi, sosial və emosional dəstək kontekstində tarazlı şəkildə tətbiq etməyi bacarmalıdırlar. Bu, müəllimin yalnız texnologiyadan istifadə edən şəxs deyil, həm də onun tətbiqini pedaqoji kontekstdə yönləndirən, təhlil edən və şagirdlərə yol göstərən bir bələdçi kimi rolunu möhkəmləndirir.

Bunun üçün aşağıdakı istiqamətlər üzrə müəllimlərə davamlı peşəkar inkişaf imkanları yaradılmalıdır:

- Süni intellektin əsas prinsipləri və təhsildə tətbiq sahələri üzrə təlimlər;
- Sİ əsaslı təlim və qiymətləndirmə platformalarının pedaqoji istifadəsi ilə bağlı praktik seminarlar;
- Etik məsələlər, məlumatların qorunması və şagird hüquqları mövzusunda məlumatlandırma;
- Real dərs nümunələri və təcrübə mübadiləsi əsasında müəllimlər üçün öyrənmə şəbəkələrinin qurulması.

Etik standartların hazırlanması. Sİ sistemlərinin tətbiqi üçün hüquqi və etik çərçivələrin formalaşdırılması.

Süni intellektin təhsil sistemində tətbiqi yeni imkanlar yaratmaqla yanaşı, eyni zamanda ciddi etik və hüquqi çağırışlar doğurur. Bu texnologiyaların sürətli inkişafı və geniş tətbiqi fonunda onların istifadə prinsiplərini tənzimləyəcək aydın, konkret etik standartlar və hüquqi çərçivələrin formalaşdırılması zəruri hal almışdır.

Sİ əsaslı təlim və qiymətləndirmə sistemlərinin etik istifadəsi üçün ilk növbədə aşağıdakı prinsiplərə əsaslanan milli etik standartlar hazırlanmalıdır:

- Şəffaflıq. Şagird və müəllimlərə Sİ sistemlərinin necə işlədiyi, hansı meyarlara əsaslandığı və hansı qərarları necə verdiyi haqqında aydın məlumat verilməlidir.

- Məsuliyyət və hesabatlılıq. Sİ texnologiyasından istifadə zamanı yaranan nəticələrə görə məsuliyyət daşıyan tərəflər (təhsil müəssisəsi, sistem tərtibatçıları, müəllimlər və s.) hüquqi olaraq müəyyənləşdirilməlidir.

- Məlumatların qorunması və məxfiliyin təmin olunması. Şagirdlərin fərdi məlumatlarının Sİ alətləri vasitəsilə toplanması, emalı və saxlanması zamanı beynəlxalq hüquqi normalara (məsələn, GDPR- General Data Protection Regulation, is a European Union - Ümumi Məlumatların Qorunması Qaydası) uyğun davranılmalı və bu məlumatlar yalnız təlim məqsədi ilə istifadə olunmalıdır.

- Ədalətlilik və bərabərlik. Sİ sistemləri heç bir sosial, iqtisadi, etnik və ya digər əsaslara görə ayrı-seçkilik yaratmamalıdır. Əgər sistemdə qərəzlillik ehtimalı varsa, bu, texniki və etik baxımdan aradan qaldırılmalıdır.

- İnsan amilinin üstünlüyü. Sİ təhsil qərarlarında yardımçı vasitə rolunu oynamalıdır, yəni əsas qərarları hələ də müəllim və ya pedaqoji heyət verməlidir.

Bu çərçivələrin təkcə təhsil siyasəti səviyyəsində deyil, həm də praktik səviyyədə – məktəblərdə, ali təhsil müəssisələrində, müəllim hazırlığı proqramlarında tətbiqi təmin edilməlidir. Bunun üçün aşağıdakılar həyata keçirilməlidir:

- Etik kodekslərin hazırlanması. Təhsil sahəsində Sİ istifadəçiləri (müəllimlər, tərtibatçılar, idarəçilər) üçün peşə etik kodeksləri hazırlanmalı və tətbiq edilməlidir.

- Sİ texnologiyalarının etik risklərinin qiymətləndirilməsi. Hər bir yeni Sİ alətinin istifadəyə verilməzdən əvvəl etik uyğunluq auditindən keçirilməsi sistemləşdirilməlidir.

- Təlim və maarifləndirmə. Müəllimlər, idarəçilər və texniki heyət üçün etik məsələlər üzrə maarifləndirici təlimlər təşkil olunmalıdır. Şagird və valideynlərin də hüquqları və risklər haqqında məlumatlandırılması vacibdir.

Bu cür hüquqi və etik çərçivələrin yaradılması təkcə texnoloji inkişafı deyil, həm də təhsilin insan yönümlü, ədalətli və şəffaf şəkildə davam etməsini təmin edəcək əsas şərtlərdəndir.

İnfrastrukturun təkmilləşdirilməsi. Regionlararası texnoloji bərabərsizliyin aradan qaldırılması.

Süni intellektin və digər rəqəmsal texnologiyaların təhsil sistemində uğurlu tətbiqi yalnız pedaqoji hazırlıq və hüquqi-etik çərçivələrlə deyil, həm də güclü və bərabər paylanmış texniki infrastrukturun mövcudluğu ilə mümkün olur. Hazırda bir çox ölkələrdə, o cümlədən Azərbaycanda şəhər və regionlar arasında rəqəmsal tətbiqdə fərqlilik müşahidə olunur. Bu, texnologiyaya çıxış imkanlarının qeyri-bərabərliyi, internet bağlantısının keyfiyyəti, cihaz təminatı və texniki dəstəyin arzuolunan səviyyədə olmaması ilə əlaqəlidir.

Bu səbəbdən infrastrukturun təkmilləşdirilməsi və regionlararası texnoloji fərqlərin azaldılması Sİ əsaslı təhsil strategiyalarının həyata keçirilməsi üçün əsas şərtlərdən biridir. Bu istiqamətdə aşağıdakı tədbirlər vacib hesab olunur:

1. Məktəblərin texniki təminatının yaxşılaşdırılması

Bütün bölgələrdə yerləşən ümumtəhsil müəssisələri sürətli internet bağlantısı, müasir kompüter və planşetlər, interaktiv lövhələr və Sİ əsaslı təlim platformalarına çıxış imkanları ilə təmin edilməlidir. Bu, yalnız texnologiyanın fiziki mövcudluğunu deyil, onun effektiv işləməsini də əhatə etməlidir.

2. Regionlar üçün xüsusi dövlət dəstəyi proqramlarının hazırlanması

Texnoloji cəhətdən geridə qalmış kənd və ucqar ərazilər üçün məqsədyönlü dövlət investisiya proqramları həyata keçirilməli, məktəblərə infrastruktura dair subsidiya və texniki yardım ayrılmalıdır. Bu dəstək həm dövlət, həm də özəl tərəfdaşlıq (PPP - Purchasing power parity - Alıcılıq qabiliyyəti pariteti) formatında təşkil edilə bilər.

3. Texniki xidmət və dəstək mərkəzlərinin yaradılması

Yalnız texniki avadanlıqların çatdırılması kifayət deyil, onların istismarı, texniki nasazlıqların aradan qaldırılması və proqram təminatının yenilənməsi üçün regionlarda dayanıqlı texniki

dəstək şəbəkələri qurulmalıdır.

4. Müəllimlər və şagirdlər üçün texnologiyadan istifadə üzrə resurs mərkəzlərində işin təşkili

Regionlarda fəaliyyət göstərən məktəblərə və müəllimlərə texnologiya ilə işləmə bacarığı qazandırmaq üçün mobil və ya sabit təlim-resurs mərkəzləri yaradılmalı, bu mərkəzlərdə Sİ texnologiyalarından istifadə üzrə seminarlar, praktik məşğələlər və metodik dəstək təqdim edilməlidir.

5. Bərabər texnoloji imkanların monitorinqi

Regionlar üzrə texnoloji infrastrukturun vəziyyəti mütəmadi monitorinq edilməli və qeydə alınan fərqlər əsasında strateji qərarlar qəbul olunmalıdır. Bu, sübutlara əsaslanan idarəetməni və resursların ədalətli bölüşdürülməsini təmin edəcəkdir.

Əgər texnologiyaya çıxış imkanları yalnız müəyyən şəhər və məktəblərlə məhdudlaşarsa, Sİ əsaslı tədris alətlərinin tətbiqi sosial və təhsil bərabərsizliyini daha da dərinləşdirə bilər. Buna görə də infrastrukturun təkmilləşdirilməsi sadəcə texniki bir məsələ deyil, həm də sosial ədalət, təhsil hüququnun bərabər təminatı və təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı fundamental strateji prioritetlərdən biri hesab olunmalıdır.

Məlumatların qorunması. Şagird məlumatlarının emalında kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi.

Sİ və rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası fonunda şagird məlumatlarının məxfiliyi və təhlükəsizliyi məsələsi prioritet istiqamətlərdən birinə çevrilmişdir. Sİ əsaslı platformalar fərdiləşdirilmiş öyrənmə və avtomatlaşdırılmış qiymətləndirmə kimi imkanlar təqdim etmək üçün şagirdlərə aid böyük həcmdə məlumat (yaş, cins, öyrənmə səviyyəsi, davranış göstəriciləri və s.) toplayır və emal edir. Bu, həm etik, həm də hüquqi baxımdan kibertəhlükəsizlik tədbirlərinin ciddi şəkildə gücləndirilməsini zəruri edir.

Əgər məlumatların qorunması mexanizmləri kifayət qədər güclü olmazsa, bu, yalnız fərdi hüquqların pozulması deyil, eyni zamanda təhsil sisteminə olan ictimai etimadın sarsılması ilə nəticələnə bilər. Bu səbəbdən aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Güclü informasiya təhlükəsizliyi siyasətinin hazırlanması

Təhsil müəssisələri və təhsil texnologiyaları tərtibatçıları üçün xüsusi məlumat təhlükəsizliyi standartları və qaydaları hazırlanmalı və onların tətbiqi qanunvericiliklə tənzimlənməlidir. Bu standartlar məlumatların toplanması, saxlanması, paylaşılması və silinməsi proseslərini əhatə etməlidir.

2. Rəqəmsal platformaların sertifikatlaşdırılması

Sİ əsaslı təlim platformaları və digər rəqəmsal sistemlər yalnız etibarlı kibertəhlükəsizlik testlərindən keçdikdən sonra təhsil müəssisələrində istifadəyə buraxılmalıdır. Bu, məlumat sızmalarının və üçüncü tərəflərin icazəsiz girişlərinin qarşısını almaq üçün önləyici addımdır.

3. Şifrləmə və identifikasiya texnologiyalarının tətbiqi

Məktəblərdə istifadə olunan sistemlərdə şagird məlumatlarının şifrlənməsi, fərdi identifikasiya sistemləri, təhlükəsiz giriş mexanizmləri (iki faktorlu identifikasiya və s.) tətbiq olunmalıdır. Bu, həm müəllimlər, həm şagirdlər, həm də valideynlər üçün məlumat axınının daha təhlükəsiz şəraitdə həyata keçirilməsini təmin edəcəkdir.

4. Maarifləndirmə və təlim

Məktəblərdə müəllimlər, şagirdlər və valideynlər üçün kibertəhlükəsizlik üzrə maarifləndirici təlimlər və seminarlar keçirilməlidir. İnsan faktoru, xüsusilə məlumatların sızmasına səbəb olan ən əsas risklərdən biridir. Ona görə də istifadəçilərin şüurlu davranış formalaşdırması önəmlidir.

5. Məlumatların kimə məxsus olduğuna dair şəffaflıq

Şagirdlərə və valideynlərə onların məlumatlarının kim tərəfindən toplandığı, hansı məqsədlərlə istifadə olunduğu, hara ötürüldüyü və nə qədər müddətə saxlanacağı barədə aydın və şəffaf məlumat təqdim olunmalıdır. Məlumat sahibinin bu prosesə razılıq hüququ təmin edilməlidir.

6. Məlumat pozuntularına qarşı operativ cavab sistemi

Hər hansı məlumat sızması və ya kibertəhlükəsizlik pozuntusu baş verdikdə, bu halın dərhal araşdırılması, məlumat sahiblərinin məlumatlandırılması və müvafiq qurumlara hesabat verilməsi üçün operativ cavab mexanizmləri qu-

rulmalıdır.

Məlumatların qorunması yalnız texniki məsələ deyil, həm də təhsilin etik və hüquqi dayaqlarının qorunması baxımından strateji əhəmiyyət daşıyır. Şagirdlərin fərdi məlumatlarının təhlükəsizliyinin təmin edilməsi onların hüquqlarına hörmətin, təhsil müəssisələrinin etibarlılığının və Sİ sistemlərinin davamlı tətbiqinin əsas şərtidir.

Nəticə. Aparılmış araşdırma nəticəsində müəyyən olunmuşdur ki, süni intellektin (Sİ) təhsildə tətbiqi təlim prosesinin fərdiləşdirilməsi, qiymətləndirmənin avtomatlaşdırılması, tədris planlaşdırmasının optimallaşdırılması kimi imkanlar vasitəsilə təhsil keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Bununla yanaşı, Sİ texnologiyalarının tətbiqi etik, pedaqoji və sosial baxımdan ciddi çağırışlar yaradır: müəllim-şagird münasibətlərinin zəifləməsi, texnoloji asılılıq, rəqəmsal qeyri-bərabərlik və şəxsi məlumatların təhlükəsizliyi ilə bağlı risklər diqqət tələb edir.

Sorğu nəticələri göstərmişdir ki, Sİ-nin təhsil mühitində istifadəsi geniş rəğbət qazanmaqla yanaşı, onunla bağlı narahatlıqlar da mövcuddur. Bu isə texnologiyanın təhsilə inteqrasiyasında balanslı və etik yanaşmanın zəruriliyini ortaya qoyur. Effektiv tətbiq üçün müəllimlərin metodoloji hazırlığı, etik-hüquqi standartların formalaşdırılması, texnoloji infrastrukturun təkmilləşdirilməsi və məlumatların qorunması istiqamətində məqsədyönlü tədbirlər görülməlidir.

Süni intellektin təhsildə səmərəli və məsuliyyətli istifadəsi üçün insan faktoru ilə texnologiya arasında harmoniyanın qorunması əsas şərtdir. Texnologiya müəllimi əvəz etməməli, onu tamamlayaraq təlimin humanist ruhunu və pedaqoji dəyərlərini zənginləşdirməlidir.

Ədəbiyyat

1. Azərbaycanın 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası. – URL: https://e-qanun.az/framework/59218
2. Avropa İttifaqının Ümumi Məlumatların Qorunması Qaydaları– URL: https://heqt.gov.az/upload/hazirlanmis-senedler/aze/mulki-mecellenin-konsepsiya-iv-sexsiyyet-huquqlari-2-1-ci-fesil_FILE_C1BC-1C-F2C084-E66D03-6EC81A-EECF-3C-5E90C9.pdf
3. OECD. AI and the Future of Skills (2021–2023). – URL: https://www.oecd.org/en/about/projects/artificial-intelligence-and-future-of-skills.html
4. Holmes W., Bialik M., Fadel C. Artificial Intelligence in Education: Promises and Implications for Teaching and Learning. – Center for Curriculum Redesign, – 2019.. – URL: https://curriculumredesign.org.
5. Luckin R., Holmes W., Griffiths M., Forcier L.B. Intelligence Unleashed: An Argument for AI in Education. – Pearson Education, – 2016. – URL: https://www.pearson.com.
6. UNESCO. AI and Education: Guidance for Policy-makers. – Paris: UNESCO, – 2021. – URL: https://unesdoc.unesco.org/ark:/48223/pf0000376709.
7. Selwyn N. Should Robots Replace Teachers? AI and the Future of Education. – Cambridge: Polity Press, – 2019. – 210 p.
8. Holmes W., Porayska-Pomsta K. Ethics in AI for Education: Implications for Teachers and Learners // British Journal of Educational Technology. – 2022. – Vol. 53(2). – pp. 203–219. – DOI: https://doi.org/10.1111/bjet.13121
9. Zawacki-Richter O., Marín V.I., Bond M., Gouverneur F. Systematic Review of Research on Artificial Intelligence Applications in Higher Education – Where Are the Educators? // International Journal of Educational Technology in Higher Education. – 2019. – Vol. 16(1). – Article 39. – DOI: https://doi.org/10.1186/s41239-019-0171-0
10. OECD. AI and the Future of Skills. Volume 1: Capabilities and Assessments. – Paris: OECD Publishing, – 2021. – URL: https://www.oecd.org/education/ .
11. Chen X., Xie H., Zou D., Hwang G.J. Application and Theory Gaps during the Rise of Artificial Intelligence in Education // Computers and Education: Artificial Intelligence. – 2020. – Vol. 1. – Article 100002. – DOI: https://doi.org/10.1016/j.caeai.2020.100002
12. Baker R.S., Inventado P.S. Educational Data Mining and Learning Analytics // In: Spector J.M. et al. (Eds.), Handbook of Research on Educational Communications and Technology. – Springer, – 2014. – pp.61-68. – DOI:

https://doi.org/10.1007/978-1-4614-3185-5_5
13. Popenici S.A.D., Kerr S. Exploring the Impact of Artificial Intelligence on Teaching and Learning in Higher Education // Research and Practice in Technology Enhanced Learning. – 2017. – Vol. 12. – Article 22. – DOI: https://doi.org/10.1186/s41039-017-0062-8

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 06.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 19-24
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 19-24
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 19-24

UOT: 159.955.3:373.3:371.1
https://doi.org/10.30546/670832.2025.01.903

İbtidai sinif şagirdlərinin psixi inkişafında hafizə proseslərinin düzgün tənzimlənməsində müəllimin rolu və fəaliyyəti

Müəllif(lər):
Kamal Camalov
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika elmləri doktoru, professor
E-poçt: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250
Açar sözlər: şagirdin psixikasında diqqət və hafizənin formalaşdırılması; kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amillər; əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlamanın, yadasalmanın bir-birini mütəmadi olaraq əvəz etməsi yolları

Annotasiya. Bu məqalədə ibtidai sinif yaşlı uşaqlarda yaddaş və diqqət proseslərinin formalaşmasında müəllimin pedaqoji təcrübəsinin rolu və bu sahədə nəzərə alınmalı olan psixoloji-pedaqoji amillər araşdırılır. Məqalənin aktuallığı ondan ibarətdir ki, müasir tədris şəraitində şagirdlərin fərdi hafizə xüsusiyyətlərinin düzgün müəyyənləşdirilməsi və təlim prosesinə uyğunlaşdırılması təhsil uğurunun əsas şərtlərindən biri kimi çıxış edir. Tədqiqatın məqsədi uşaqlarda hafizə tipini nəzərə alaraq tədris prosesində onların yadda saxlamasını asanlaşdıran və möhkəmləndirən metodları üzə çıxarmaq və sistemləşdirməkdir. Elmi-nəzəri təhlil, müşahidə, ümumiləşdirmə və sintez metodları ilə aparılan tədqiqat zamanı görmə, eşitmə və kinestetik hafizə tiplərinin xüsusiyyətləri öyrənilmiş, emosional vəziyyət, iradi amil, motivasiya və əyani vəsaitlərin yaddaşın inkişafına təsiri təhlil edilmişdir. Məqalədə təkrarın pedaqoji əhəmiyyəti, məlumatların qısamüddətli hafizədən uzunmüddətli hafizəyə keçməsi, məşqlərin səmərəliliyi və təlimin ritmik təşkili məsələləri üzərində geniş dayanılmışdır. Əldə olunan nəticələr həm ümumtəhsil məktəbləri, həm də pedaqoji elmi-tədqiqat fəaliyyəti üçün praktik əhəmiyyət daşıyır.

Author(s):
Kamal Jamalov
Nakhchivan Teachers Institute
Doctor of Pedagogical Sciences, Professor
E-mail: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250
Key words: development of attention and memory in the student's psyche; factors strengthening the memory and perception of young schoolchildren; pedagogical approaches ensuring the systematic alternation of memorization and recall during visually supported instruction.

The role and professional activity of the teacher in the effective regulation of memory processes in the psychological development of primary school students

Abstract. This article explores the significance of the teacher's pedagogical practice in shaping memory and attention processes among primary school–aged children. It also examines the psychological and pedagogical factors that should be taken into account when supporting students' cognitive development. The relevance of the study stems from the fact that, under contemporary educational conditions, accurately identifying the individual memory characteristics of learners and adapting the instructional process accordingly is regarded as one of the essential determinants of academic success. The primary objective of the research is to identify and systematize instructional methods that, with due consideration of children's memory types, facilitate and reinforce effective retention of learning material. Employing methods such as theoretical analysis, observation, generalization, and synthesis, the study investigates the characteristics of visual, auditory, and kinesthetic memory types. Additionally, it analyzes the impact of emotional states, volitional factors, motivation, and the use of visual aids on the development of memory processes. Particular emphasis is placed on the pedagogical significance of repetition, the mechanisms governing the transfer of information from short-term to long-term memory, the effectiveness of structured practice, and the rhythmic organization of instructional activities. The findings of the study hold practical value for both general education schools and scholarly research in the field of pedagogy.

Автор(ы):
Кямал Джамалов
Нахчыванский институт учителей
Доктор педагогических наук, профессор
Э-почта: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250
Ключевые слова: формирование внимания и памяти в психике ученика; факторы, способствующие укреплению памяти и восприятия младших школьников; запоминание, узнавание, воспроизведение и забывание как основные процессы памяти

Роль и деятельность учителя в правильной регуляции процессов памяти в психическом развитии младших школьников

Аннотация. В данной статье рассматривается роль педагогического опыта учителя в формировании процессов памяти и восприятия у детей младшего школьного возраста и психолого-педагогические факторы, которые необходимо учитывать в этой области. Актуальность статьи заключается в том, что в современных условиях обучения одним из основных условий успешности обучения выступает правильное выявление и адаптация к учебному процессу индивидуальных особенностей обучающихся. Целью исследования является выявление и систематизация методов, облегчающих и закрепляющих их запоминание в процессе обучения детей с учетом типа памяти. В ходе исследования методами научно-теоретического анализа, наблюдения, обобщения и синтеза изучались особенности типов памяти - зрительных, слуховых и кинестетических, анализировалось влияние эмоционального состояния, волевого фактора, мотивации и наглядных пособий на развитие памяти. В статье широко освещены вопросы педагогической значимости повторения, перехода информации от кратковременной памяти в долговременную, эффективности упражнений и ритмической организации обучения. Полученные результаты имеют практическое значение как для общеобразовательных школ, так и для педагогической научно-исследовательской деятельности.

Məqalənin aktuallığı: Məqalədə şagirdin psixikasında diqqət və hafizənin formalaşdırılmasında müəllimin pedaqoji təcrübəsindən istifadə hazırkı dövr üçün aktual problemlərdəndir. Kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirmək hər bir müəllim üçün vacib və zəruridir. Ona görə də kiçik yaşlı məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amillər haqqında elmi araşdırmalar aparılmasına və məqalələr yazılmasına ehtiyac duyulmaqdadır.

Məqalənin elmi yeniliyi: Məqalədə məktəblilərin hafizə və yaddasaxlamanın qüvvətlənməsinə səbəb olan amillər; məktəblinin fərdi xüsusiyyətləri; müəllim tərəfindən verilən informasiyaların qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməsi kimi problemlər müəyyənləşdirilir. Həmçinin şagirdə verilən biliyin bir neçə dəfə necə təkrar edilməsi və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməsi; əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlamanın, yadasalmanın bir-birini mütəmadi olaraq necə əvəz etməsi yolları üzə çıxarılaraq tədqiq-təhlil obyektinə çevrilir.

Məqalənin praktik əhəmiyyəti: Məqalədə irəli sürülən ideya və tövsiyələrdən, fikir və görüşlərdən ali və ümumtəhsil məktəb müəllimləri, tərbiyəçi-müəllimlər, pedaqogika və psixologiya sahəsində tədqiqat aparan doktorantlar, monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayan müəllimlər faydalana bilərlər.

Giriş. İlk öncə qeyd edək ki, böyük yaşlının psixi fəaliyyəti kimi, uşağın da psixikası çox mürəkkəbdir və cürbəcür formalarda üzə çıxır. Həqiqətdə isə psixi hadisələrin üzə çıxması hər zaman bir-biri ilə sıx surətdə əlaqədar olur. Ehsas və qavrayış izsiz itib-batmır.

Biz mənimsənmiş obrazı öz şüurumuzda yenidən canlandıra bilərik. Bir zaman bilavasitə mənimsənmiş obrazın şüurda belə canlandırılmasına təsəvvür deyilir. Təsəvvür ehsasdan solğun, daha az konkret, az canlı, az düzgün olur, lakin şüur təsəvvürsüz işləyə bilməz. İnsan şüuru getdikcə genişlənən böyük miqdar təsəvvür toplamağa qadirdir. Lakin insanın şüurunda hər müəyyən anda müəyyən miqdar təsəvvür, fikir canlana bilər: bu canlanma insanın həmin anda nə ilə məşğul olmasından asılı olur. İnsan şüuru birinci plana bəzi təsəvvürlər, fikirlər canlandırıb digərlərinin qabağını pərdələyə bilər. Şüurda canlandırılmış təsəvvür real cismin bilinməsi ilə birləşir: cisim haqqında bizdə düzgün təsəvvür varsa, biz onu asanlıqla tanıyırıq. Qavrayışların real predmet obrazları şəklində, insan şüurunda möhkəmlənməsi kimi özünü göstərən insanın psixi funksiyasına hafizə deyilir. "Hafizənin təkmilləşdirilməsi ilə bağlı çoxsaylı metodikalar işlənmiş, tövsiyələr hazırlanmışdır" [1, səh.251].

Məktəblinin psixi inkişafında hafizə çox böyük rol oynayır. Bu yaşda uşaqların əsas fəaliyyəti – təhsil işi, bilik və vərdişlərin toplanmasından və mənimsənilməsindən ibarətdir. Burada hafizə böyük iş görməlidir. Kiçik yaşlı məktəblilər artıq şüurlu və məqsədli öyrənmək bacarığına malikdirlər. Uşaqlardan ötrü də, yadda yaxşı saxlamaq üçün labüd şərt öyrənilən şeyə düşüncəli yanaşmaq, onu aydın və dürüst anlamaqdır. Uşaqlar öyrəndikləri şeylərin hisslərini hiss etmişlərsə, həyatda, kitab səhifələrində, dəftərlərdə, asan mənimsənən aydın şəraitdə görmüşlərsə, onu daha yaxşı mənimsəyərlər. Hələ vaxtilə Yan Amos Komenski yazırdı ki, "Tədris üsulu... həmişə təbii olmalıdır. Çünki təbii olan hər şey öz-özünə inkişaf edir. Maili müstəvi üzərində suyu aşağı axmağa məcbur etməyə ehtiyac yoxdur, bəndi və ya ümumiyyətlə suyu saxlayan maneəni gördükdə, o dərhal üzü aşağı axacaqdır. Quşu da qəfəsdən uçurmaq üçün məcbur etməyə ehtiyac yoxdur – yalnız qəfəsin qapısını açmaq kifayət edər" [2, səh.123].

İbtidai məktəbin şagirdləri öyrənilən şeyin hissələri arasında məntiqi əlaqə yaratmaqla öyrənmək bacarığına malikdirlər. 11 və 14 yaş arasında hafizə daha şiddətlə inkişaf edir. Ancaq bundan sonrakı illərdə də öyrənməyə qabiliyyəti artır.

Kiçik yaşlı məktəblilər bir də mexaniki öyrənmə adlanan bacarıqdan çox böyük dərəcədə istifadə edirlər, yəni onlar sadə təkrar yolu ilə öyrənirlər və öyrəndikləri şeyi anlayırlar. Əlbəttə məntiqi yolla, yəni öyrəniləni qabaqca öyrənilmişlə, öyrənilənlərin elementləri arasında məntiqi əlaqə yaratmaqla öyrənmə daha dəyərlidir. Böyüklər məntiqi yolla öyrənirlər, buna görə də onlar tez yadlarında saxlayırlar. Məktəb, uşağın tez məntiqi yolla öyrənməsinə kömək etməlidir.

Pedaqoji praktikada yalnız məktəb yaşlı

bütün uşaqlarda ümumi olan xüsusiyyəti deyil, fərdi hafizə xüsusiyyətləri də nəzərə alınmalıdır.

Uşağı, nə növ ehsası yaxşı hafizəsində saxlaması nöqteyi-nəzərindən bu və ya başqa tip hafizə sırasına daxil edirlər. "...Aparılan təlim prosesində görmə və eşitmə analizatorları xüsusi rol oynayırlar. Duyğu və qavrayışlar təlim prosesində bu analizatorlar vasitəsilə daha çox fəaliyyət göstərirlər" [3, səh.121].

Görmə tipi, görmə vasitəsilə şeyləri hafizələrində daha yaxşı saxlayır; belə uşaq kitabdakı materialı ucadan oxumaqdan artıq, onu öz-özünə oxumaqla daha yaxşı yadında saxlayır. Kitabda və ya dəftərlərdə oxunmuş materialı yadına saldıqda, o, həmən materialın harada və necə çap edildiyini yaxud yazıldığını yadına salır.

Eşitmə tipi, eşitmə vasitəsilə mənimsənmiş olduğu materialı daha asan və daha uzun zaman yadlarında saxlayırlar.

Hərəkət tipi, motor; yəni hərəkəti qavrayışlar köməyi vasitəsilə (qeyd, qrafik şəklində göstərmək, səslə demə, toxunma vasitəsilə mənimsəmə) daha asan öyrənər.

Ancaq bu tiplərə təmiz halda təsadüf edilmir. Məsələn, uşaqda görmə hafizəsi üstün yer tuta bilər, lakin bu halda onda eşitmə hafizəsi də olur, hətta hərəki ehsaslar da onun yadda saxlanmasına kömək edir.

Buna görə də pedaqoq burada aşağıdakı nəticələri çıxarmalıdır: əvvəla, yeni materialı uşaqlara cürbəcür orqanların köməyi ilə, cürbəcür üsullarla mənimsətməlidir; ikinci, pedaqoq müstəqil iş təşkil edərkən hafizə tipi üzrə uşağın fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Başqa sözlə desək "hafizənin proseslərini müqayisə edərkən, onların funksional istiqamətləri bir-birinə zidd görünsə də, həmin prosesləri vəhdətdə nəzərdən keçirmək zəruridir" [4, səh.310].

Mətnin (və ya tekstin) öyrənilməsi cisimlərin və ya sadə, realistik xarakterdə, şəkillərin göstərilməsi ilə bərabər aparıldıqda material uşaqların hafizəsində daha yaxşı möhkəmlənir. Bu da tədris işində əyanilik tətbiq edilməsinin zəruri olduğunu göstərir. Yan Amos Komensi qeyd edir ki, "Hər şeyi səbəbləri göstərə-göstərə öyrətmək, hər şeyi ağlın dəlilləri ilə möhkəmlətmək deməkdir, yəni hər şeyin necə əmələ gəldiyini göstərmək deyil, eyni zamanda bu şeyin nə üçün başqa cür ola bilməyəcəyini də göstərməkdən ibarətdir. Çünki müəyyən bir şeyi bilmək – onu səbəb əlaqələrində dərk etmək deməkdir. Biz istəyirik ki, şagirdlər bütün sözlərin mənşəyini, ifadələrin (və söz birləşmələrinin) bütün əsasını və sənətlər sahəsindəki qaydaların əsaslarını aydın şəkildə və asanlıqla öyrənsinlər" [2, səh.145].

Yadda saxlamaq üsulu nöqteyi-nəzərindən üç növ təhsil materialı var:

a) Bir çox dəfə xüsusi təkrar tələb etməyən material; məsələn, mental arifmetikanın hər hansı bir əməliyyatı birinci izahatdan anlaşılırsa, bundan sonra həmən əməliyyat, keçən dəfə olduğu kimi sadəcə xatırlama vasitəsilə yerinə yetirilir; sonra bu əməliyyatı canlandırmaq vərdişi, onun daima praktiki surətdə tətbiq edilmə nəticəsində avtomatik bir xarakter alır (Buradakı avtomatizm əlbəttə şərti avtomatizmdir: lazım gəldiyi halda şagird nə üçün başqa cürə deyil, belə etdiyinin səbəbini izah etməlidir).

b) Anlaşılmaqla bərabər bir çox dəfə təkrar tələb edən material; məsələn, şeirlər, formulalar, sitatlar, bəzi qanun və qaydaları öyrənmək.

c) Yadda saxlamanı asanlaşdıran və xüsusi üsullar tələb edən material, məsələn, xronoloji tarixlər, coğrafiya adları.

Pedaqoq yadda saxlama işini asanlaşdırmağa və uşaqlar tərəfindən öyrənilmiş şeylərin hafizədə möhkəm qalmasına kömək etməyə çalışaraq, qənaətlə öyrənmənin müəyyən şərait və qaydalarını nəzərə almalıdır; ona görə ki:

a) Yadda saxlamanın keyfiyyəti çox halda uşağın daxili orqanik vəziyyətindən asılı olur, yəni sağlam, normal dərəcədə tox, yorulmayan uşaq yaxşı mənimsəyir və yaxşı yadında saxlayır.

b) Uşaqlar müəllim tərəfindən işə həvəsləndirildikdə yaxşı yadlarında saxlayır və onların diqqəti dərsin mövzusu ətrafında yaxşı toplandıqda, bu diqqət bütün dərs müddətində sabit qaldıqda onlar maraqla işləyirlər.

c) Gözəl əhval-ruhiyyə şəklində meydana gələn emosional vəziyyət yadda saxlamanı yaxşılaşdırır; yüksək əhval-ruhiyyə ifrat gərginliyə keçirsə, yadda saxlamanın yaxşı keyfiyyətli olmasına kömək edir; alçaq və ya aşağı əhval-ruhiyyə yadda saxlamanı xarab edir.

ç) Öyrənmə məqsədinin uşaqlar tərəfindən bilinməsi və bu biliyə nail olmaq inamı yadda saxlamanın yaxşı olmasını təmin edir.

Yadda saxlamada iradə momentinin çox

böyük əhəmiyyəti vardır. Bir adama müəyyən mətni (və ya teksti) oxumağa təklif etmişlər, ancaq həmən mətni yadda saxlamaq lazım olduğunu ona deməmişlər. O oxuduqdan sonra ona "yadınızda bir şey qaldımı?" – deyə soruşmuşlar. O da təəccüblə "Məgər mən yadımda saxlamalı idim?" – deyə cavab vermişdir. Onun bu işdə iradəsi olsa idi, o mətni yadında saxlardı. Deməli pedaqoq uşaqlarda yadda saxlamağa iradə yaratmalıdır.

d) Uşaqlar rahat mənimsənən formada verilən materialı daha yaxşı xatırlarında saxlayırlar, yəni şrifti aydın, iri ölçülü olan , aydın və qəşəng xətlə yazılan mətni yaxşı mənimsəyirlər; kitabda, dəftərdə, yazı taxtasında düzgün verilmiş material, mühüm cəhəti aydın göstərilən və düzgün yaradıcılıqla və başqa üsul ilə verilən material daha yaxşı mənimsənilir.

e) Hər hansı bir şeyi hissə-hissə deyil, ancaq bütünlükdə öyrənmək lazımdır. Psixoloji araşdırmalar göstərir ki, müəyyən materialı hissə-hissə öyrənərkən materialı bütünlükdə öyrənməkdə olduğundan artıq təkrar lazım gəlir. Yenə də araşdırma göstərmişdir ki, böyük material bütünlükdə öyrənildikdə çox zaman keçdikdən sonra yadda onun böyük faizi qalır, hissə-hissə öyrənildikdə isə az faizi qalır. Əlbəttə çox böyük material ayrənilirsə, onu bir neçə böyük bütün hissələrə ayırmaq lazımdır.

ə) Öyrənmə əsasında təkrarların vaxta görə bölünməsinin çox böyük əhəmiyyəti var. Materialı bir seansda öyrənmək üçün, təkrarın bir neçə seansa bölünməsindən daha artıq təkrar tələb edilir. Təkrar uzun müddətə bölünmüşsə onlar yadda daha möhkəm saxlanılır, bu halda material gec unudulur.

f) Materialın bölünməsinə və ya qurulmasına daxil edilən ritmika vasitəsilə yadda saxlamanı çox asanlaşdırmaq olur; məsələn, öyrənilən elementlərin bir qruppalara toplanması, bunların quruluşunda bir simmetriya yaradılması və başqa öyrənməni çox asanlaşdırır.

Sual oluna bilər! Öyrənmə zamanı miemotexnika və ya mismonika (yadda saxlamanı asanlaşdırmaq məharəti) vasitələrindən istifadə etmək olarmı?

Miemonika hafizəni inkişaf etdirmir, möhkəmlətmir, yaxşılaşdırmır; bir də ondan tez-tez istifadə edildikdə məntiqi tip hafizənin inkişafına mane olur, mexaniki tipli hafizənin qalmasına yardım göstərir. Çünki çox halda öyrənmənin mexaniki vəsaitindən istifadə etmək nəticəsini doğurur. Aparılan "müşahidələr göstərir ki, ümumtəhsil məktəblərinin böyük əksəriyyətində çox zaman şagirdlərin perspektiv fəallığına – onların qavrayışının, hafizəsinin fəallığına daha çox üstünlük verilir" [5, səh.176].

Ancaq əzbərçiliyə deyil, bəlkə düşüncəli öyrənmə ilə birləşən miemotik vəsaitdən istifadə etmək olar. Köhnə qrammatika avtorlarının müraciət etdikləri miemotik üsullar çağdaş dövrümüzə cavab verməyən üsullardır. Məsələn, sözlərin şeir şəklində yazılması kimi üsul da həmən bu yararsız üsul sırasına daxildir – bu üsul ancaq vəzn və qafiyə yaradır. Bu kimi şeirdə sözlər asanlıqla öyrənilirdi, ancaq bu əsl əzbərçilikdən ibarət olan mənasız, mexaniki öyrənmə idi.

Yadda saxlama təmrini keçirən məktəblinin hafizəsini inkişaf etdirmək və mükəmməlləşdirmək olar və bunu etmək lazımdır. Yavaş öyrənən və tez yadından çıxaran şagirddə heç də həmişəlik belə hafizə olduğunu güman etmək olmaz. Həmən şagird məşq vasitəsilə yadda saxlamanın yaxşı keyfiyyətinə nail ola bilər. Burada qəribə bir hal var, hər hansı bir sahədə bir şeyi öyrənmək məşqi başqa bir sahədə yadda saxlamanın keyfiyyətinin yaxşılaşmasına səbəb olur. Məsələn, şeir öyrənmək məşqi, riyaziyyat materialının yadda saxlanılmasının keyfiyyətinə yardım göstərir. Psixoloq Limunət Əmrahlı yaddasaxlamanın zəifliyi və səthiliyini əsəb proseslərinin əlaqəsizliyilə də izah edir [6, səh.296]. Pedaqoq, psixoloqların bu fikrini nəzərə almalıdır.

Şagirdlərdə möhkəm vərdişlər yaratmaq üçün ilk tədris zamanlarında məşqlərin düzgün sistematik quruluşunu qaydaya salmaq çox mühümdür. Məsələn, aydın bir işdir ki, arifmetikada elementar vərdişlər nə qədər yaxşı mənimsənilmişsə bu qayda üzrə olan sonrakı işi uşaqlar daha asan və sürətlə yerinə yetirəcəklər.

"Məşq" anlayışının özündə təkrar vardır. Məşq mahiyyət etibarilə təkrardır – sinif və tədris işində cürbəcür tapşırıqları həll edərkən mənimsənilməsi biliyi tətbiq etmək şəklində olan təkrardır.

Bu məşqlər vərdiş qazanmaq məqsədilə olan xüsusi məşqlər olursa, onların təkrarlarını necə təşkil etmək lazımdır?

Araşdırmalar göstərir ki, məşqləri qısa dövrlərə bölmək yaxşıdır. Bu məsələni aydınlaşdırmaq üçün keçirilmiş bir təcrübədə eyni iş dörd sinfə verilmişdi. Siniflərin hərəsi ümumiyyətlə 120 dəqiqə ərzində işləməli idilər. Ancaq birinci sinif altı gün ərzində hər dəfədə 10 dəqiqə olmaqla gündə iki dəfə işləmişdir; ikinci sinif altı gün ərzində gündə bir dəfə olmaqla 20 dəqiqə işləmişdir; üçüncü sinif üç gün ərzində 40 dəqiqə işləmişdir; dördüncü sinif isə arası kəsilmədən 120 dəqiqə işləmişdir. Birinci sinif işi ən çox səmərəli, sonuncu sinfin işi ən az səmərəli olmuşdur.

Bir dəfəlik məşqin dövrünü əlbəttə həddindən artıq qısa etmək olmaz, belə olsa vaxtın çox hissəsi məşqin özünə yox, işə hazırlaşmağa və uyğunlaşmağa sərf edilər. Bir də ayrı-ayrı şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bəzi uşaqlar işə gec uyurlar, lakin sonralar işi daha yaxşı mənimsəyir və uzun zaman yorulmurlar. Bəziləri işin "üstünə çox tez düşürlər", ancaq tez yorulurlar. Müəllim, məşqin uşaqları yorduğunu görürsə o başqa növ işə keçməlidir. Yorğun vəziyyətdə məşqi davam etdirmək faydasızdır.

Bilik mənimsəməkdə təkrarın əhəmiyyətini yalnız məşğələ ilə əlaqədar olaraq təhlil etmək kifayət deyildir, təkrar çox geniş sahədə tətbiq edilir. Hər cür biliyi möhkəm mənimsəmək və yadda saxlamaq üçün təkrar edilməlidir. Hələ vaxtilə qüdrətli zəka və təkzib edilməz məntiq sahibi Nəsirəddin Tusi "Adabül mütəəllimin" (Tələbəlik mədəniyyəti) adlı əsərində təkrarın faydasını belə əsaslandırırdı: "Elm öyrənən tələbə özünü hazırlamalı, təkrarın həddini yaxşı müəyyən etməli və həmin həddə çatanadək onun qəlbi rahat olmamalıdır. Tələbə dünənki günün dərsini beş dəfə, srağagünün dərsini dörd dəfə, ondan əvvəlki günün dərsini üç dəfə, ondan əvvəlkini iki dəfə və nəhayət, ondan əvvəlki günün dərsini bir dəfə təkrarlamalıdır… Tələbə təkrardan qorxmamalıdır, dərs və təkrar tam qüvvə və fəallıqla həyata keçirilməlidir" [7, səh.71].Buna görə də vərdişə çevrilməyən biliklər üçün də təkrar lazımdır. Məsələn, tarixi hadisələri xronoloji qaydada bilmək, həyat bilgisi, coğrafiyanı bilmək, ədəbi əsərlərin məzmununu bilmək. Biliyi yadda möhkəm saxlamaq üçün təkrarın çox böyük əhəmiyyəti var. Ancaq bu təkrar ilin sonunda və ya uzun zamanlıq rüb dövrünün sonunda olmamalı (bu təkrar da başlıca olaraq sistematiklik məqsədilə lazımdır), bu təkrar gündəlik iş prosesində lazımdır.

Bu xüsusda biz, K.D.Uşinskidə çox mühüm göstəriş tapırıq: "Yaddan çıxmış şeyi yada salmaq məqsədilə olan təkrar artıq təlimin nöqsanını, ümumiyyətlə məktəbdə tədrisin pis olmasını göstərir. Pis məktəb, pis bina kimi daima təmir edilir, düzəlir və heç vaxt yararlı bir halda olmur. Yaxşı məktəb isə keçilmiş şeyi daima təkrar edərək, hər zaman təmirə ehtiyacı olmur. Uşaqlar özləri, öyrənmiş və unutmuş olduqları şeyləri təkrar etməyi sevmirlər və xatırlarında qalmış olan şeyi nağıl etməyi çox sevirlər. Uşaq təbiətinin bu göstərişindən istifadə edin və daima təkrar edin. Bu təkrar unutmanın qarşısını alır və unudulmuş şeyi təkrar etməyə ehtiyac buraxmır. Unutmaq da bir qədər pis vərdişdir; və bir çox şeyi mənasız surətdə öyrənmiş uşaqlar, öyrəndiklərini həmişə unudan uşaqlarda sonralar pis hafizə olur".

"Yaddan çıxarmanın qabağını almaq üçün daima təkrar etmək çox faydalıdır" – ifadəsi çox düzgün nöqteyi-nəzərdir. Bu sözlər, uşaqlarla dolaşıq iş aparan, cari iş zamanında onların biliyini aydınlatmayan, gələcəkdə təkrara çox ümid bəsləyən şəxslər üçün bir xəbərdarlıqdır.

Material və metodlar. Tədqiqatın məqsədi ibtidai sinif yaşlı uşaqlarda yaddaşın inkişafı, onun psixoloji xüsusiyyətləri və tədris prosesində yaddaşın səmərəli istifadə olunması yollarını müəyyənləşdirmək olmuşdur. Bu məqsədə çatmaq üçün bir neçə elmi və pedaqoji metoddan istifadə edilmişdir.

İlk olaraq, mövzu üzrə zəngin elmi-nəzəri təhlil aparılmış, bu sahədə tanınmış pedaqoqların və psixoloqların – o cümlədən Yan Amos Komenskinin, Konstantin Dmitriyeviç Uşinskinin, Nəsirəddin Tusinin və Limunət Əmrahlının əsərləri təhlil edilmiş, klassik və müasir yanaşmalar müqayisə olunmuşdur. Eyni zamanda müasir tədqiqatçılar tərəfindən təqdim olunan elmi-pedaqoji mənbələr də öyrənilmiş və ümumiləşdirilmişdir.

Təhlil zamanı mətnanaliz, ümumiləşdirmə və sintez metodlarından istifadə olunmuş, hafizə prosesləri ilə bağlı terminlər, təsnifatlar və metodik yanaşmalar sistemləşdirilmişdir. Uşaqlarda fərdi yaddaş tipləri (vizual, eşitmə, hərəkət və qarışıq tip) üzrə yanaşmalar pedaqoji kontekstdə təhlil olunmuş, bu fərqlərin dərs prosesinə təsiri

nəzərə alınmışdır.

Araşdırmada praktik müşahidə və təcrübədən çıxarılan nəticələrin analizi də istifadə edilmiş, məktəblilərin yadda saxlamasına təsir edən amillər – emosional vəziyyət, təkrarın ritmik quruluşu, əyani vəsaitlərdən istifadə və motivasiya məsələləri kontekstində öyrənilmişdir. Tədris zamanı yaddaşın inkişafına təsir edən mühüm şərtlər (materialın bölünməsi, təkrarın ardıcıllığı, məntiqi əlaqənin qurulması və iradi faktorlar) sistemləşdirilərək ümumiləşdirilmişdir.

Tədqiqatın informasiya bazasını həm psixopedaqoji ədəbiyyat, həm də pedaqoji təcrübəyə əsaslanan müşahidələr və real dərs nümunələri təşkil etmişdir. Nəticə etibarilə, təlimdə hafizənin formalaşdırılması və möhkəmləndirilməsi yolları elmi əsaslarla müəyyən olunmuşdur.

Nəticə. Sonda gəldiyimiz nəticə belədir:

1. Hər bir müəllim məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirməli və hər bir məktəblinin fərdi xüsusiyyətlərinə əsasən istifadə etməlidir;
2. Təlim zamanı müəllim tərəfindən verilən informasiyalar qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməli və burada həmin informasiyalar təhlil edilməlidir;
3. Təlim prosesində verilən bilik bir neçə dəfə təkrar edilməli və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməlidir;
4. Əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlama, yadasalma bir-birini mütəmadi olaraq əvəz etməlidir. Belə olmazsa operativ əməliyyat və ya çəkilən zəhmət öz səmərəsini göstərməyəcəkdir.

Ədəbiyyat

1. Psixologiya (Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə). Naxçıvan: Əcəmi, – 2017, – 608 s.
2. Yan Amos Komenski. Böyük didaktika. Bakı: Elm və təhsil, – 2012, – 388 s.
3. Arif Məmmədov. Təlimin psixoloji əsasları. Bakı: Maarif, – 1993, – 296 s.
4. Ümumi psixologiya. – Bakı: Maarif, – 1982, – 496 s.
5. Oruc Həsənli. Təhsilin müasir psixoloji problemləri. – Naxçıvan, Əcəmi, – 2017, – 416 s.
6. Limunət Əmrahlı., Nurəngiz Rzayeva. Uşaq psixologiyası (Dərs vəsaiti). – Bakı: Nurlar, – 2015, – 344 s.
7. Kamal Camalov. Pedaqoji-psixoloji fikrin inkişafı sələflərdən xələflərə (Dərs vəsaiti). – Bakı: ADPU-nun nəşriyyatı, – 2019, – 222 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor; Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 18.02.2025, qəbulolunma – 10.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 25-31
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 25-31
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 25-31

UOT: 37.013:37.091
https://doi.org/10.30546/670832.2025.01.906

Təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi

Müəllif(lər):

Taleh Xəlilov
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-poçt: x.taleh@gmail.com
https://orcid.org/0000-0003-2350-743X

Açar sözlər: təhsil keyfiyyəti, planlaşdırma, konsepsiya, inteqrasiya, effektivlik

Annotasiya. Müasir təhsil sistemi sürətlə dəyişən dünyada davamlı inkişaf və keyfiyyətli təhsil üçün planlaşdırma və konsepsiyanın effektiv inteqrasiyasını tələb edir. Planlaşdırma təhsil prosesinin məqsədyönlü, sistemli və ardıcıl şəkildə qurulmasını təmin edərkən, konsepsiya təhsilin ideoloji, metodoloji və strateji əsaslarını müəyyən edir. Məqalədə bu iki elementin sintezi təhsil sisteminin idarə olunmasında, resursların səmərəli istifadəsində və təhsil keyfiyyətinin yüksəldilməsində mühüm amil kimi təqdim edilir. Tədqiqat nəticələri göstərir ki, planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi təhsil siyasətinin məqsədlərinə nail olunmasını, idarəetmədə çevikliyi və adaptivliyi artırır, həmçinin gələcək təhsil strategiyalarının hazırlanması üçün elmi əsas yaradır. Məqalədə həmçinin planlaşdırma prosesinin mərhələləri, konsepsiyanın nəzəri və funksional çərçivəsi, eləcə də strategiya ilə qarşılıqlı əlaqəsi ətraflı təhlil olunur və onların birgə tətbiqinin üstünlükləri sistemli şəkildə təqdim edilir. Nəticədə, təhsildə bu yanaşmanın praktik tətbiqi idarəetmənin səmərəliliyini yüksəldir, resursların optimal istifadəsini təmin edir və təhsil keyfiyyətinin davamlı artımına zəmin yaradır.

Author(s):

Taleh Khalilov
Nakhchivan State University
PhD in Pedagogy, Associate Professor
E-mail: x.taleh@gmail.com
https://orcid.org/0000-0003-2350-743X

Key words: education quality, planning, concept, integration, efficiency

Planning and the integrated application of concepts in education

Abstract. The modern education system requires the effective integration of planning and conceptual frameworks for sustainable development and quality education in a rapidly changing world. While planning ensures that the educational process is organized purposefully, systematically, and consistently, the concept defines the ideological, methodological, and strategic foundations of education. The article presents the synthesis of these two elements as a crucial factor in managing the education system, efficiently using resources, and improving the quality of education. Research findings show that the combined application of planning and conceptualization enhances the achievement of educational policy goals, increases flexibility and adaptability in management, and provides a scientific basis for the development of future educational strategies. The article also analyzes in detail the stages of the planning process, the theoretical and functional framework of the concept, as well as its interrelation with strategy, and systematically presents the advantages of their joint implementation. As a result, the practical application of this approach in education improves the efficiency of management, ensures the optimal use of resources, and creates the foundation for the continuous growth of education quality.

Автор(ы):

Талех Халилов
Нахчыванский государственный университет
Доктор философии по педагогике, доцент
Э-почта: x.taleh@gmail.com
https://orcid.org/0000-0003-2350-743X

Ключевые слова: качество образования, планирование, концепция, интеграция, эффективность

Совместное применение планирования и концепции в образовании

Аннотация. Современная система образования требует эффективной интеграции планирования и концепции устойчивого развития и качественного образования в быстро меняющемся мире. В то время как планирование обеспечивает целенаправленное, системное и последовательное построение образовательного процесса, концепция определяет идеологические, методологические и стратегические основы образования. В статье синтез этих двух элементов представлен как важный фактор в управлении системой образования, эффективном использовании ресурсов и повышении качества образования. Результаты исследования показывают, что совместное применение планирования и концепции способствует достижению целей образовательной политики, повышает гибкость и адаптивность в управлении, а также создает научную основу для разработки будущих образовательных стратегий. В статье также подробно анализируются этапы процесса планирования, теоретические и функциональные рамки концепции, а также ее взаимодействие со стратегией и систематически излагаются преимущества их совместного применения. В результате практическое применение этого подхода в образовании повышает эффективность управления, обеспечивает оптимальное использование ресурсов и создает основу для устойчивого роста качества образования.

Tədqiqatın məqsədi və əhəmiyyəti. Bu tədqiqatın məqsədi təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqinin təhsil sisteminin effektivliyinə təsirini araşdırmaqdan ibarətdir. Tədqiqat planlaşdırma və konsepsiyanın təhsil prosesində necə qarşılıqlı əlaqədə olduğunu, bu yanaşmanın təhsil siyasətinin və idarəetmənin keyfiyyətinə nə dərəcədə təsir göstərdiyini müəyyən etməyi hədəfləyir.

Təhsildə planlaşdırma və konsepsiyanın düzgün inteqrasiyası təhsil prosesinin məqsədəuyğun qurulması, resursların səmərəli istifadəsi və təhsil keyfiyyətinin artırılması baxımından əhəmiyyətlidir. Bu tədqiqatın nəticələri təhsil idarəçiləri, siyasətçilər və müəllimlər üçün praktiki tövsiyələr təqdim etməklə təhsil sahəsində strateji qərarların qəbuluna dəstək olacaqdır. Həmçinin, tədqiqat mövcud təhsil modellərinin təkmilləşdirilməsi və gələcək təhsil strategiyalarının hazırlanması üçün elmi əsas yaradacaq.

Müzakirələr və əsas istiqamətlər. Təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi müasir təhsil sisteminin inkişafında əsas rol oynayır. Tədqiqat nəticələri göstərir ki, planlaşdırma və konsepsiyanın sintezi təhsil prosesində məqsədlərin dəqiqləşdirilməsi, strategiyaların effektiv qurulması və resursların optimal paylanması baxımından vacibdir. Bu yanaşma təhsil sisteminin çevikliyini artıraraq, dəyişən sosial və iqtisadi tələblərə adaptasiyanı asanlaşdırır.

Müzakirələr zamanı həmçinin təhsildə planlaşdırmanın təkcə idarəetmə prosesi olmadığı, eyni zamanda konseptual çərçivənin yaradılması ilə birgə işləməsi zəruriliyi vurğulanır. Bu inteqrasiya təhsil keyfiyyətinin yüksəldilməsi, müəllim və şagirdlərin fəaliyyətlərinin koordinasiyası üçün vacib platforma yaradır.

Əsas istiqamət kimi, gələcək tədqiqatlarda təhsildə planlaşdırma və konsepsiyanın regionlar və səviyyələr üzrə fərqli tətbiq modellərinin öyrənilməsi, həmçinin innovativ texnologiyaların inteqrasiyası mövzuları diqqətə alınmalıdır. Bundan başqa, təhsil siyasətinin formalaşmasında bu yanaşmanın rolu və təsirinin genişləndirilməsi strateji məqsəd olmalıdır.

Nəticələr və tövsiyələr. Tədqiqatın nəticələri göstərir ki, təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi təhsil sisteminin ümumi effektivliyini əhəmiyyətli dərəcədə artırır. Planlaşdırma prosesinin məqsədyönlü və sistemli şəkildə həyata keçirilməsi, konsepsiyanın isə ideoloji və metodoloji əsaslarını təmin etməsi təhsil strategiyalarının düzgün qurulmasına, resursların səmərəli istifadəsinə və təhsil keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Bu yanaşma təhsil idarəetməsində çeviklik və uyğunlaşma qabiliyyətini artırır, dəyişən sosial və iqtisadi şəraitə tez reaksiya verməyə imkan verir.

Tövsiyə olunur ki, təhsil siyasətini formalaşdıran orqanlar və təhsil müəssisələri planlaşdırma və konsepsiyanın sintezini təmin edən mexanizmləri gücləndirsinlər. Həmçinin, təhsil işçilərinin bu sahədə bilik və bacarıqlarının artırılması məqsədilə mütəmadi təlim və seminarlar təşkil edilməlidir. Gələcəkdə təhsildə planlaşdırma və konsepsiyanın fərqli səviyyələrdə tətbiqi və innovativ yanaşmaların istifadəsi istiqamətində əlavə tədqiqatların aparılması vacibdir.

1. PLANLAŞDIRMA PROSESİ

Planlaşdırma təşkilati idarəetmənin əsas funksiyalarından biri kimi, məqsədlərin müəyyən edilməsi və bu məqsədlərə çatmaq üçün zəruri olan tədbirlərin ardıcıllığının qurulması prosesidir. Planlaşdırma strategiyanın praktik mərhələyə keçidini təmin edir – yəni strateji hədəflər konkret fəaliyyət proqramlarına çevrilir. Bu prosesdə həm uzunmüddətli, həm də qısamüddətli məqsədlər sistemli şəkildə nəzərə alınır.

Planlaşdırma müəyyən mərhələlərlə həyata keçirilir. İlk növbədə məqsədlər aydın şəkildə formalaşdırılır. Məqsədlərin dəqiq, ölçülə bilən, əlçatan, real və zamanla məhdudlaşdırılmış (SMART) olması planlaşdırmanın keyfiyyətini artırır. Növbəti mərhələdə bu məqsədlərə çatmaq üçün fəaliyyətlər və resurslar müəyyən edilir. Hər bir fəaliyyətin nə zaman, kim tərəfindən və hansı resurslarla həyata keçiriləcəyi əvvəlcədən planlaşdırılır [2, s.60].

Planlaşdırma prosesi həmçinin risklərin nəzərə alınmasını və onların idarə olunması üçün ehtiyat mexanizmlərinin hazırlanmasını da əhatə edir. Bu, qeyri-müəyyənliklərin və gözlənilməz dəyişikliklərin təşkilatın fəaliyyətinə mənfi təsirini minimuma endirmək üçün vacibdir.

Effektiv planlaşdırma təşkilatın resurslarından – insan gücü, maliyyə və zaman – səmərəli istifadəni təmin edir. Resursların optimallaşdırılması isə təşkilatın ümumi məhsuldarlığına və rəqabət qabiliyyətinə müsbət təsir göstərir. Bundan əlavə, planlaşdırma nəticələrin ölçülməsi və qiymətləndirilməsi üçün əsas baza rolunu oynayır. Yəni fəaliyyətin sonunda əldə edilən nəticələrin məqsədlərlə müqayisəsi məhz əvvəlcədən

qurulmuş plan əsasında həyata keçirilir.

Planlaşdırma həmçinin təşkilatdaxili koordinasiyanı gücləndirir. Müxtəlif struktur bölmələrinin və əməkdaşların fəaliyyətləri ümumi məqsədə uyğunlaşdırıldıqda, işin ardıcıllığı və qarşılıqlı əlaqəsi təmin olunur. Bu isə idarəetmədə səmərəliliyi artırır, qərarvermə prosesini sürətləndirir və təşkilati intizamı möhkəmləndirir [3, s.6228].

Nəticə etibarilə, planlaşdırma prosesi sadəcə bir texniki mərhələ deyil, strateji düşüncənin praktikaya tətbiqi üçün əsas körpüdür. Düzgün qurulmuş plan fəaliyyətin istiqamətini dəqiqləşdirir, qərarların əsaslandırılmasını gücləndirir və idarəetməni daha şəffaf və məqsədyönlü edir.

Planlaşdırma prosesi adətən aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

1. Məqsədlərin müəyyən edilməsi – Nə əldə edilməlidir? (strateji və ya əməli məqsədlər) – SMART meyarlarına uyğunluq;
2. Mövcud vəziyyətin təhlili – Daxili imkanlar və mövcud resurslar – Xarici mühit və məhdudiyyətlər;
3. Alternativ fəaliyyət yollarının müəyyən edilməsi – Müxtəlif yollarla məqsədə çatmaq imkanları – Müqayisə və qiymətləndirmə;
4. Ən optimal fəaliyyət planının seçilməsi – Effektivlik, səmərəlilik və resurs istifadəsi baxımından seçim;
5. Resursların bölgüsü və vaxt planı – Kimin nə zaman, nə edəcəyi dəqiqləşdirilir – Resurslar təyin olunur (büdcə, insan gücü, texniki vasitələr);
6. Risklərin və ehtiyat planlarının hazırlanması – Gözlənilməz hallara qarşı tədbirlər – Alternativ fəaliyyət ssenariləri;
7. İcra və monitorinq – Fəaliyyətin həyata keçirilməsi və davamlı nəzarət – Geri qayıtma döngüsü ilə planın təkmilləşdirilməsi [1, s. 34-35].

Qeyd edək ki, təhsil müəssisəsində keyfiyyətin artırılması üçün aşağıdakı kimi planlaşdırma nümunəsindən istifadə edilə bilər:

- Məqsəd: 1 il ərzində məktəbdə şagird nailiyyətlərini 20% artırmaq.

- Vəziyyətin təhlili: Şagirdlərdə riyaziyyat və ana dili üzrə zəif nəticələr müşahidə olunur.

- Alternativ yollar: Yeni kurikulum tətbiqi, müəllimlər üçün təlimlər, əlavə dərslər, valideynlərlə əməkdaşlıq.

- Seçilmiş yol: Hər həftə əlavə dərslərin keçirilməsi və müəllim heyətinə ixtisasartırma kursları.

- Resurslar: Əlavə dərs saatları üçün ödəniş, tədris materialları, treninq proqramı.

- Risklər: Şagird iştirakının azlığı → valideynlərlə fərdi görüşlər planlaşdırılır.

- İcra: Aylıq monitorinq və imtahan nəticələrinin müqayisəsi ilə davamlı qiymətləndirmə.

Aşağıda "Planlaşdırma prosesi" mövzusuna dair əsas anlayışların, funksiyaların və praktik əhəmiyyətin cədvəl şəklində təhlili təqdim edirik. Bu struktur planlaşdırmanın idarəetmədə oynadığı rolu və onun strategiya və konsepsiya ilə əlaqəsini aydınlaşdırır.

Cədvəl 1

S/№-si	Bölmə	Məzmun	Əhəmiyyəti və tətbiqi
1	Planlaşdırmanın tərifi	Məqsədlərin müəyyən olunması və onlara çatmaq üçün konkret addımların ardıcıllığının qurulmasıdır.	Fəaliyyətlərin sistemli təşkili və məqsəd yönümlü idarəetmənin təmin olunması.
2	Strategiyadan fərqi	Strategiya nəyi etməyi müəyyən edir, planlaşdırma isə necə etməyi göstərir.	Strategiyanın konkret fəaliyyət proqramına çevrilməsi prosesi.
3	Planlaşdırmanın məqsədi	Resursların optimal istifadəsini təmin etməklə, məqsədlərə çatmaq üçün səmərəli yolun qurulması.	Effektivlik, ölçüləbilən nəticə və zaman baxımından ardıcıllıq.
4	Əsas mərhələ	Məqsədlərin müəyyən edilməsi	

2. KONSEPSİYA: NƏZƏRİ BAZA VƏ ÇƏRÇİVƏ

Konsepsiya – təşkilatın və ya bir fəaliyyət sahəsinin əsas ideoloji istiqamətini, nəzəri mövqeyini və inkişaf fəlsəfəsini müəyyənləşdirən sistemli yanaşmadır. O, məqsədləri, prioritetləri və dəyərləri formalaşdırmaq üçün nəzərdə tutulmuş əsas çərçivə rolunu oynayır. Strategiya və planlaşdırma konkret fəaliyyət formaları ilə assosiasiya olunursa, konsepsiya daha çox bu fəaliyyətlərin "niyə" sualına cavab verir və onların arxasında duran məntiqi əsaslandırmanı təqdim edir.

2.1. Nəzəri mahiyyət və funksional yük

Konsepsiya hər hansı bir sistemin və ya təşkilatın düşüncə modeli, yəni məhz necə fəaliyyət göstərməli olduğu barədə vahid baxış formasıdır. O, təşkilatın özünü necə təqdim etdiyi, cəmiyyətlə və maraqlı tərəflərlə necə münasibət qurduğu, hansı sosial-mədəni prinsiplərə əsaslandığı kimi fundamental suallara cavab verir. Bu baxımdan konsepsiyanın funksional yükü aşağıdakılardan ibarətdir:

- Fəlsəfi əsas: Təşkilatın varlıq səbəbi, fəaliyyətində rəhbər tutduğu dəyərlər və prinsiplər müəyyən olunur;
- Metodoloji istiqamət: Hansı üsullarla məqsədlərə çatılacağı barədə ümumi yanaşma təqdim edilir;
- İdeoloji tutum: Təşkilatın sosial məsuliyyətə, davamlı inkişafa, inklüzivliyə və ya digər dəyərlərə necə yanaşdığı müəyyənləşdirilir [5, s. 46-47].

2.2. Konsepsiyanın strategiya və planlaşdırmaya təsiri

Konsepsiya strategiyanın formalaşmasına bir növ intellektual əsas kimi xidmət edir. Əgər strategiya konkret məqsədləri və ona çatmaq yollarını müəyyən edirsə, konsepsiya həmin məqsədlərin mənasını və dəyərini izah edir. Məsələn, bir təhsil qurumunun "innovativ və rəqəmsallaşmış tədris mühiti yaratmaq" məqsədi varsa, bu istiqamətdə qurulan strategiya və planların arxasında duran konseptual fikir – "təhsildə texnologiyaların tətbiqi ilə bərabər imkanların yaradılması" ola bilər.

Bu kontekstdə konsepsiya həm də planlaşdırma məntiqinin formalaşmasına təsir edir. Hədəflər yalnız texniki deyil, dəyərə əsaslanan şəkildə müəyyənləşdirilir. Planlaşdırma sadəcə bir tapşırıqlar toplusu deyil, dəyərlərə uyğunlaşdırılmış fəaliyyət ardıcıllığı kimi dəyərləndirilir.

2.3. Konsepsiyanın struktur elementləri

Konsepsiya adətən aşağıdakı komponentlərə malik olur:

- Təsviredici hissə – problemi və ya ehtiyacı izah edir;
- Fəlsəfi əsaslandırma – əsas ideya və yanaşma çərçivəsi təqdim olunur;
- Məqsəd və vəzifələr – nə üçün bu konsepsiya hazırlanır və nəyi dəyişdirmək hədəflənir;
- Tətbiq prinsipləri – fəaliyyətin hansı prinsip və meyarlara əsaslanacağı izah olunur;
- Əlaqələndirmə mexanizmi – strategiya, plan və digər idarəetmə alətləri ilə inteqrasiya yolları göstərilir [2, s.79-80].

2.4. Nümunəvi yanaşma

Bir dövlət qurumunun sosial siyasət konsepsiyası aşağıdakı ideoloji baza üzərində qurula bilər:

- İnsan hüquqları və bərabərlik;
- Sosial müdafiə və inklüzivlik;
- Davamlı inkişaf və şəffaf idarəetmə [4, s. 12149].

Bu ideoloji baza əsasında strateji sənədlər hazırlanır və konkret tədbirlər planlaşdırılır.

Aşağıda "Konsepsiya: nəzəri baza və çərçivə" mövzusunun əsas elementləri və idarəetmə sistemindəki rolu cədvəl şəklində təhlil olunmuşdur. Bu struktur konsepsiyanın təşkilati fəaliyyətin fəlsəfi, metodoloji və praktik əsaslarını necə formalaşdırdığını aydın göstərir.

3. BİRLİKDƏ TƏTBİQİN ÜSTÜNLÜKLƏRİ

Strategiya, planlaşdırma və konsepsiyanın eyni vaxtda və koordinasiyalı şəkildə tətbiqi təşkilati idarəetmədə sinerji effekti yaradır. Bu yanaşma ayrı-ayrılıqda tətbiq olunan alətlərin yaratdığı məhdudiyyətləri aradan qaldırmaqla daha çevik və məqsədyönlü fəaliyyət modelinin formalaşmasına şərait yaradır.

Cədvəl 2

S/№-si	Bölmə	Məzmun	Əhəmiyyəti və tətbiqi
1	Konsepsiyanın tərifi	İdeoloji və nəzəri əsaslandırma; təşkilatın fəaliyyətinə istiqamət verən ümumi çərçivə.	Fəaliyyətlərin arxasında duran əsas fəlsəfəni və düşüncə sistemini müəyyən edir.
2	Funksiyası	İdarəetməyə nəzəri və metodoloji dayaq vermək; strategiyanın əsas ideyalarını formalaşdırmaq.	Təşkilatın qərarlarının ardıcıl və məqsəd yönümlü olmasına zəmin yaradır.
3	Konsepsiya və strategiya	Strategiya konsepsiyanın verdiyi ideoloji bazaya əsaslanaraq inkişaf etdirilir.	Strategiyanın məqsədyönlü və ardıcıl şəkildə qurulmasına şərait yaradır.
4	Konsepsiya və planlaşdırma	Planlaşdırma konsepsiyanın nəzəri çərçivəsini praktik addımlara çevirir.	İdeyaların həyata keçirilməsində əməli vasitə kimi çıxış edir.
5	Komponent	Məram (mission) və vizion	

3.1.Təşkilatda fəaliyyətlərin vahid məntiq üzrə qurulması

Bu üç komponentin birlikdə tətbiqi təşkilatın fəaliyyətində daxili ardıcıllıq və məntiqi axıcılıq yaradır. Konsepsiya ümumi ideoloji çərçivəni, strategiya uzunmüddətli istiqaməti, planlaşdırma isə gündəlik və orta müddətli konkret addımları müəyyən etdiyi üçün təşkilatın bütün səviyyələrində qərarların bir-biri ilə əlaqəli şəkildə verilməsi təmin olunur. Bu isə daxili ziddiyyətlərin və idarəetmədə paralelliklərin qarşısını alır.

3.2.Resursların məqsədyönlü və optimal istifadəsi

Konsepsiyanın verdiyi dəyərlər çərçivəsində strategiya prioritet sahələri müəyyən edir, planlaşdırma isə bu sahələrə resursların necə bölüşdürüləcəyini konkretləşdirir. Beləliklə, insan, maliyyə, zaman və informasiya resursları təsadüfi deyil, təşkilatın əsas məqsədlərinə xidmət edəcək şəkildə yönləndirilir. Bu da resurs israfının qarşısını alır və səmərəliliyi artırır.

3.3.Qarşılıqlı uyğunluq və idarəetmə effektivliyinin artması

Hər bir fəaliyyətin arxasında konseptual əsas (niyə?), strateji istiqamət (hara?) və planlı mexanizm (necə?) olduqda təşkilat daxilində bölmələr və komandalar arasında uyğunluq və qarşılıqlı anlaşma yaranır. Bu uyğunluq idarəetmə strukturunda qərarların daha asan icrasını və nəzarət mexanizmlərinin daha effektiv qurulmasını təmin edir. İdarəetmə daha məqsədyönlü və nəticəyönümlü olur.

3.4.Çevik qərarvermə və dəyişikliklərə uyğunlaşma

Dəyişkən mühitdə təşkilatın uğur qazanması onun çevik qərarvermə qabiliyyətindən asılıdır. Konsepsiya əsas dəyərləri sabit saxladığı halda, strategiya və planlar bu dəyərlər əsasında tez adaptasiya oluna bilər. Yəni təşkilat öz əsas kursunu dəyişmədən müxtəlif şəraitlərə uyğun olaraq strategiyalarını və planlarını yeniləyə bilər. Bu da onu dinamik bazar və sosial şərtlərə qarşı dayanıqlı edir.

Aşağıda "Strategiya, planlaşdırma və konsepsiyanın birlikdə tətbiqinin üstünlükləri" cədvəl formasında təhlil edilmişdir. Bu təhlil onların ayrı-ayrılıqda deyil, vahid və koordinasiyalı şəkildə tətbiqinin təşkilatın idarəetmə effektivliyinə necə töhfə verdiyini nümayiş etdirir:

Cədvəl 3

S/№-si	Üstünlük	Təsviri	Təşkilati təsiri
1	Vahid məntiq üzrə fəaliyyətlərin qurulması	Strategiya, plan və konsepsiyanın eyni fəlsəfi və metodoloji əsaslara söykənməsi.	Daxili proseslər arasında ardıcıllıq və strukturlaşma təmin olunur.
2	Resursların optimal istifadəsi	Strategiyaya uyğun planlaşdırma və konsepsiyadan irəli gələn prioritetləşdirmə prinsipi.	Resurslar itkisiz və məqsəd yönümlü istifadə edilir.
3	Qarşılıqlı uyğunluğun təmin olunması	Komponentlər arasında qarşılıqlı əlaqə və məqsədlərin üst-üstə düşməsi.	Fəaliyyət sahələri arasında ziddiyyətlər minimuma enir, koordinasiya güclənir.
4	İdarəetmə effektivliyinin artması	Vahid sistemdə düşünülmüş qərarlar və planlaşdırılmış icra prosesi.	Vaxt itkisi və qərarsızlıq halları azalır, nəticəyə yönəlmişlik güclənir.
5	Çevik qərarvermə imkanları	Strategiyanın yönü, konsepsiyanın prinsipləri və planın konkret addımları arasında balans.	Dəyişikliklərə adaptasiya daha sürətli və idarəolunan olur.
6	Dəyişkən şəraitə uyğunlaşma	Konsepsiyanın nəzəri elastikliyi, strategiyanın istiqamətverici rolu və planın praktikliyi.	Bazar və mühit dəyişikliklərinə qarşı dayanıqlı və adaptiv struktur formalaşır.
7	Dəyərlərin və vizionun qorunması	Konsepsiya vasitəsilə əsas dəyərlərin qorunması və strategiya ilə bu dəyərlərin inkişafı.	Təşkilatın mədəni kimliyi və məqsədyönlü fəaliyyəti bir çərçivədə birləşdirilir.
8	Qərarvermədə ardıcıllıq	Strategiyanın istiqamət verdiyi, konsepsiyanın əsaslandırdığı və planın 9konkretləşdirdiyi qərarlar.	Qərarlar daha dolğun əsaslandırılmış və məqsədəuyğun olur.
9	Rəqabət üstünlüyünün təmin olunması	Bütün komponentlər birgə şəkildə təşkilatın bazarda üstün mövqeyini təmin etməyə yönəlir.	Təşkilat rəqiblər qarşısında daha strateji və dayanıqlı mövqe tutur.
10	Davamlı inkişaf imkanı	Sistemli və davamlı inteqrasiya sayəsində uzunmüddətli strateji inkişaf mümkün olur.	Fəaliyyətlər qısa müddətli deyil, uzunmüddətli dəyər yaradılmasına yönəlir.

NƏTİCƏ

Təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi təhsil sisteminin inkişafı və səmərəliliyinin artırılması üçün mühüm amildir. Bu iki komponentin sintezi təhsil prosesinin məqsədyönlü, sistemli və effektiv qurulmasına, resursların optimal istifadəsinə və təhsil keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Belə yanaşma təhsil siyasətinin məqsədlərinə nail olunmasında strateji əhəmiyyət kəsb edir və gələcəkdə təhsil sisteminin daha çevik və adaptiv olmasına zəmin hazırlayır. Buna görə də təhsil sahəsində planlaşdırma və konsepsiyanın vahid şəkildə tətbiqi davamlı inkişaf üçün vacibdir.

Problemin aktuallığı: Müasir təhsil sistemində sürətlə dəyişən sosial və iqtisadi tələblərə uyğunlaşmaq üçün planlaşdırma və konsepsiyanın effektiv inteqrasiyası vacibdir. Təhsildə bu iki yanaşmanın birlikdə tətbiqi təhsil keyfiyyətinin yüksəldilməsi və idarəetmənin təkmilləşdirilməsi baxımından aktualdır.

Problemin yeniliyi: Bu tədqiqat təhsildə planlaşdırma və konsepsiyanın sintezi mövzusunu geniş və sistemli şəkildə araşdıraraq, onların birgə tətbiqinin təhsil keyfiyyətinə və idarəetməyə təsirini yeni aspektlərdən ortaya qoyur.

Problemin praktik əhəmiyyəti: Təhsildə planlaşdırma və konsepsiyanın birlikdə tətbiqi idarəetmənin səmərəliliyini artırır, resurslardan düzgün istifadəni təmin edir və təhsil prosesinin keyfiyyətini yüksəldir.

Ədəbiyyat

1. Aliyev, S. Konsepsual idarəetmə modelləri və onların tətbiqi / S.Aliyev. –Bakı: Təhsil nəşriyyatı, – 2022, – 180 s.
2. Drucker, P. The Practice of Management. New York: Harper Business, – 2006, – 404 s.
3. Khalilov, T., Adilzade, I., Rzayev, O., Guliyev, N., & Yusifova, N. The role of strategic planning in the organization of management systems in higher education institutions: insights from international practice. Edelweiss Applied Science and Technology, – 2024, Vol. 8, No. 6, – p.6227-6235
4. Khalilov, T., Aliyev, V., Guliyeva, M., & Babayeva, M. Strategic management mechanisms, directions, and functions in higher education. Pak. j. life soc. Sci, 22(2), – 2024, – p.12146-12162.
5. Qasımov, T. Strateji planlaşdırmanın idarəetmədə rolu. Bakı / T.Qasımov. İqtisadiyyat nəşriyyatı, – 2020, – 200 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 06.01.2025, son daxilolma – 14.02.2025, qəbulolunma – 11.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 32-35
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 32-35
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 32-35

UOT: 37.01:001.891
https://doi.org/10.30546/670832.2025.01.1092

Pedaqoji eksperimentin hazırlanması və aparılması mərhələlərində tədqiqatçının fəaliyyətinin məzmununa dair

Müəllif(lər):

Ləman Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: lemaneliyeva2020@gmail.com

Açar sözlər: tədqiqat, eksperiment, şagird, müəllim, təcrübə, keyfiyyət

Annotasiya. Bu işin aktuallığı dedikdə tədqiqatçıların pedaqoji eksperiment vasitəsilə müasir təhsil tələblərinə cavab verən innovativ metodları tətbiq edərək, tədris prosesindəki çatışmazlıqları aşkar etmələridir. Pedagoji eksperiment təhsil sahəsində yenilikləri test etməklə yanaşı, tədris metodlarının və yanaşmalarının təkmilləşdirilməsinə də böyük töhfə verir. Tədqiqatçı hər bir mərhələdə diqqətli, planlı və məqsədyönlü olmalı, topladığı məlumatları obyektiv şəkildə təhlil etməlidir. Eksperimentin düzgün və təsirli olması üçün, tədqiqatçı əvvəlcədən planlaşdırılmış prosedurlara ciddi riayət etməli, həmçinin iştirakçıların şəraitini və motivasiyasını nəzərə almalıdır. Bu mərhələdə hər hansı bir dəyişiklik və ya müdaxilə olmamalıdır, çünki eksperimentin nəticələri, tədqiqatçının məqsədinə uyğun şəkildə toplanmış məlumatlara əsaslanmalıdır. Tədqiqatın aparılmasında əsas məqsəd ümumtəhsil məktəblərində pedaqoji eksperimentin rolunu və hər bir mərhələdə tədqiqatçının fəaliyyətini araşdırmaqdan ibarətdir. Pedaqoji eksperimentin hazırlanması və aparılması mərhələlərini araşdırmaq üçün müşahidə, sorğu və müqayisəli metodlardan istifadə edilmişdir. Yekun olaraq, sorğuların təhlili nəticəsində pedaqoji eksperiment müəllimlərin, şagirdlərin və təhsil müəssisələrinin inkişafına yönəlik strateji qərarların qəbul edilməsində böyük rol oynadığı nəticəsinə gəlinmişdir.

Author(s):

Laman Aliyeva
Nakhchivan Teachers Institute
Master student
E-mail: lemaneliyeva2020@gmail.com

Key words: research, experiment, student, teacher, experience, quality

The content of the researcher's activity in the stages of preparation and implementation of the pedagogical experiment

Abstract. The actuality of this work is that, researchers through pedagogical experiments apply innovative methods that meet modern educational requirements and identify shortages in the teaching process. Pedagogical experiment in addition testing innovations in the field of education, also makes a great contribution to the improvement of teaching methods and approaches. The researcher must be careful, planned and purposeful at each stage and must objectively analyze the data he collects. For having correct and effective experiment the researcher must strictly follow the procedures planned beforehand, as well as take into account the condition and motivations of participants. There should be no changes or interventions at this stage, because the results of the experiment must be based on the data collected in accordance with the researcher's purpose. The main purpose of conducting the research is to investigate the role of pedagogical experiments at secondary schools and the activity of researcher at each stage. Observation, survey and comparative methods were used to investigate the stages for preparing and implementing pedagogical experiments. Finally, as a result of carried analysis of the surveys, it was concluded that, pedagogical experiments play a great role in making strategic decisions aimed for the development of teachers, students and educational institutions.

Автор(ы):

Ляман Алиева
Нахчыванский институт учителей
Магистрант
Э-почта: lemaneliyeva2020@gmail.com

Ключевые слова: исследование, эксперимент, ученик, учитель, опыт, качество

К содержанию деятельности исследователя на этапах разработки и проведения педагогического эксперимента

Аннотация. Актуальность данной работы заключается в том, что исследователи посредством педагогического эксперимента выявляют недостатки в процессе обучения, применяя инновационные методы, отвечающие современным образовательным требованиям. Педагогический эксперимент не только проверяет инновации в сфере образования, но и вносит большой вклад в совершенствование методов и подходов к обучению. Исследователь должен быть внимательным, спланированным и целенаправленным на каждом этапе, объективно анализируя собранную информацию. Чтобы эксперимент был правильным и эффективным, исследователь должен строго придерживаться заранее запланированных процедур, а также учитывать обстоятельства и мотивацию участников. На этом этапе не должно быть никаких изменений или вмешательства, поскольку результаты эксперимента должны основываться на данных, собранных в соответствии с целью исследователя. Основной целью проведения исследования является изучение роли педагогического эксперимента в общеобразовательных школах и деятельности исследователя на каждом этапе. Для исследования этапов подготовки и проведения педагогического эксперимента использовались методы наблюдения, опроса и сравнения. В заключение на основе анализа опросов сделан вывод о том, что педагогический эксперимент играет большую роль в принятии стратегических решений, направленных на развитие педагогов, учащихся и учебных заведений.

Giriş. Pedaqoji eksperiment fərziyyənin əsasını təşkil edən fikir və ya ideyaların səmərəliliyini təcrübə vasitəsilə yoxlayaraq təsdiqləməyə yönəlmiş bir yanaşmadır. Bu metod sayəsində elmi nəticələr əldə etmək mümkündür [10, s.57]. Pedaqoji eksperiment 20-ci əsrin sonlarının kəşfi deyil. Yaşı bəşəriyyətin özünün yaşına yaxın olsa da toplanmış təcrübə və bilikləri gənc nəslə ötürmək haqqında düşünsə də, tədris və tərbiyədə təcrübə sənəti onun təşkili və həyata keçirilməsi üsulları haqqında peşəkar bilik tələb edir. Buna görə də təcrübəyə təhsil sahəsində başqa bir moda kimi yanaşmaq təhlükəlidir. Eksperimental müəllimlər öz fikirlərini sınaqdan keçirməzdən əvvəl ilk növbədə eksperimental fəaliyyətin mənfi nəticələri barədə sual qaldırmalı və ap arılan eksperimentdən zərəri neytrallaşdıracaq kompensasiya mexanizmləri üzərində düşünməlidirlər [6].

Tədqiqatın məqsədinə əsasən pedaqoji eksperiment müxtəlif növlərə bölünür. İlk növ olan müəyyənedici eksperiment tədqiqatın başlanğıc mərhələsində aparılır və bu mərhələdə məktəb təcrübəsindəki mövcud vəziyyətin öyrənilməsi məqsədi ilə həyata keçirilir. Daha sonra yaradıcı-dəyişdirici eksperiment başlayır, burada tədqiqatçı tərəfindən fərziyyə və öyrənilən problemin həlli üçün nəzəri əsaslar və konkret metodik yollar işlənib hazırlanır. Tədqiqatın sonrakı mərhələsi isə yoxlayıcı eksperiment şəklində aparılır. Bu mərhələdə sınaqdan keçirilmiş metodikanın başqa məktəblərdə və müəllimlərin işində tətbiqi yoxlanılır və əldə olunan nəticələrin düzgünlüyü bir daha dəqiqləşdirilir [3].

Pedaqoji eksperiment hər hansı bir pedaqoji ideyanın, hipotezin xüsusi hazırlanmış və təşkil edilmiş şəraitdə öyrənilməsi və yoxlanılmasıdır. Bu prosesin əsas məqsədi hadisələr arasındakı qarşılıqlı əlaqələri və pedaqoji ideyaların effektivliyini araşdırmaq və ortaya çıxarmaqdır.

Pedaqoji eksperimentin əsas mərhələlərinə planlaşdırma və yekunlaşdırma daxildir. Planlaşdırma mərhələsində tədqiqatçı eksperimentin məqsədini, metodlarını və gözlənilən nəticələri müəyyənləşdirir, iştirakçıları seçir və eksperimentin keçirilməsi üçün şərait hazırlayır. Yekunlaşdırma mərhələsində isə əldə olunan nəticələr təhlil edilir, ümumiləşdirmələr və nəticələr çıxarılır və eksperimentin effektivliyi qiymətləndirilir [7].

Pedaqoji eksperimentin kompleks tədqiqat metodu kimi mahiyyəti ondan ibarətdir ki, o, tədqiq olunan hadisələri müəyyən şəraitdə yerləşdirməyə, sistemli şəkildə təşkil olunmuş situasiyalar yaratmağa, eksperimental təsirlərlə onların obyektiv nəticələri arasında təsadüfi olmayan əlaqənin qurulduğu faktları müəyyən etməyə imkan verir [5].

Pedaqogika öz obyektini öyrənmək üçün pedaqoji müsahibə, pedaqoji müşahidə və pedaqoji eksperiment və s. bu kimi tədqiqat metodlarından istifadə edir ki, digər elmlərdə həmin bu metodlar özünü pedaqogikada olduğu kimi göstərməsin. [9, s.18].

Ümumiyyətlə, pedaqoji eksperimentin hazırlanması və aparılmasının aşağıdakı mərhələlərini vurğulamaq məqsədəuyğundur:

1. Diaqnostik mərhələ – problemin təhlili, problem üzrə tədris prosesinin vəziyyətinin təhlili, bəzi dəyişikliklərin, yeni metodların, texnologiyaların, strukturların, yeni funksionallığın köməyi ilə mümkün qədər tez aradan qaldırılmalı olan ziddiyyətlərin müəyyən edilməsi və formalaşdırılması. Başqa sözlə desək, problemi müəyyən etmək və onun aktuallığını əsaslandırmaq.

2. Proqnostik mərhələ - məqsədin qoyulması, onun tapşırıqlar sisteminə layihələndirilməsi, yeni təcrübənin modelinin qurulması, fərziyyənin formalaşdırılması, gözlənilən nəticələrin proqnozlaşdırılması, mənfi nəticələr zamanı kompensasiya mexanizmləri üzərində düşünmək. Başqa sözlə desək, ətraflı eksperimental proqramın hazırlanması.

3. Təşkilati mərhələ - eksperimental işin struktur modelinin qurulması və onun rəsmiləşdirilməsi. Bu struktur model ən çox eksperimental proqramda rəsmiləşdirilir.

4. Praktiki mərhələ - ilkin dəqiqləşdirmə bölmələrinin aparılması, yeni təcrübənin həyata keçirilməsi, prosesin monitorinqi, aralıq (cari) nəticələr, sınaqdan keçirilmiş təcrübənin tənzimlənməsi, nəzarət bölmələri.

Pedaqoji eksperimentin öyrədici adlanan mərhələsi də vardır ki, o da 2009 və 2010-cu illərə təsadüf edir. Burada interaktiv təlimin prinsiplərinin istifadəsiylə 1-ci siniflərin riyaziyyat təlimində simmetriya, həndəsi fiqurlar habelə kəmiyyətlərin öyrədilməsində fərqli-fərqli dəqiq mövzulara əsasən öyrədici eksperiment keçiril-

mişdir [1, s.24].

Eksperimentin uğurlu nəticələr verməsi üçün onu digər metodlarla (müşahidə, müsahibə, anket sorğusu və s.) əlaqələndirmək vacibdir [4]. Pedaqoji eksperiment mürəkkəb xarakterli bir üsuldur çünki o, müşahidə üsullarının, söhbətlərin, müsahibələrin, sorğuların, diaqnostik işlərin, xüsusi vəziyyətlərin yaradılmasının və s. birgə istifadəni nəzərdə tutur.

Pedaqoji eksperimentdən istifadə edərkən tədqiqatçı birinci növbədə öyrənmək istədiyi məsələnin daha əlçatan olmasından ötrü tələb edilən şəraiti özü yaradır; sonra hansı vəziyyətdə daha yaxşı nəticə almağı öyrənmək məqsədi ilə prosesin gedişini öz istədiyi vaxt dəyişdirir; sonra isə əldə etdiyi məlumatın dəqiqlik dərəcəsini müəyyənləşdirmək üçün təcrübəni təkrar-təkrar edir; sonda öyrəndiyi pedaqoji prosesi daha dəqiq və hərtərəfli qeyd etmək üçün lazımi texniki avadanlıqları da hazırlayır [8, s.29].

Material və metodlar. Mövzuya uyğun ədəbiyyatlar təhlil edilmişdir. Rəna Bağırova qeyd edir ki, pedaqoji eksperimentin əsas məqsədi təhsil prosesinin daha təsirli və inkişaf etdirici olmasını təmin etməkdir. Rüfət Hüseynzadə, Zəhra Əzizova və digərləri isə pedaqoji eksperimentin tədris proqramlarının, təlim strategiyalarının və təhsil texnologiyalarının tətbiqinin təsirini öyrənmək üçün əhəmiyyətli bir metod olduğunu vurğulayırlar. Eksperimentin nəticələri təhsil sahəsində müvafiq dəyişikliklərə və yeniliklərə yönəlmiş tövsiyələr verir.

Bu metodlar tədqiqatın məqsədinə, mövzusuna və kontekstinə uyğun olaraq seçilmişdir.

1. Müşahidə metodu - Eksperimentin aparılması zamanı iştirakçıların davranışlarını, tədris metodlarını və mühitini müşahidə edərək praktiki təcrübələri analiz edilmişdir.

2. Sorğu metodu - Müəllimlər, şagirdlər və digər iştirakçılar arasında sorğular keçirərək, onların fikirlərini, təcrübələrini və eksperimentə dair baxışları toplanılmışdır.

3. Müqayisəli araşdırma - Fərqli tədris metodları, proqramlar və yanaşmalar arasında müqayisələr apararaq onların səmərəliliyi qiymətləndirilmişdir.

Nəticə və müzakirələr. Beləliklə, pedaqoji eksperiment müasir alətlər və imkanlar nəzərə alınmaqla təhsil sahəsində problemlərin mövcudluğunu bacarıqla nümayiş etdirməyə və onların həlli üçün tədbirlər planını tərtib etməyə imkan verən xüsusi tədbirlər kompleksidir. O, təhsil prosesinin və təhsil proqramlarının əsaslı islahatına, təhsilin keyfiyyətinin yüksəldilməsinə və müəllimlərin əməyinin asanlaşdırılmasına kömək edir. Məhz pedaqoji eksperimentin nəticələri təhsil sahəsində dissertasiyaların, monoqrafiyaların və digər tədqiqatların əsasına çevrilir.

Pedaqogika üzrə elmlər doktoru, professor Abbasov Akif - Pedaqoji eksperimentdən mövzusuna uyğun olaraq istifadə etmişdir. "Ailə pedaqogikasının tədqiqat metodları" adlı məqaləsində pedaqoji eksperimentdən belə istifadə edib ki, ya tədqiqatçı öyrənilən prosesə fəal müdaxilə edir, ya da hadisəni özü yaradır. Müəllif hadisə haqqında düşünür ki, belə halda proses qüvvətlənə yaxud aradan qaldırıla bilər [11].

Yekun nəticə. Apardığımız tədqiqat işinin nəticələri göstərir ki, özünütəhsil və şagird səriştəsinin formalaşdırılmasına hazırlığın aşağıda qeyd olunan mərhələləri içərisində çox mühüm zəruri həlqə şagirdlərin özünütəhsil hazırlığı mərhələsidir. Bu mərhələ aşağıdakı məzmun istiqamətinə malikdir:

a) ənənəvi (öz-özünə təhsillənmə, öyrənmə);

b) akademik özünütəhsil (proses müəllim tərəfindən yönəldilir);

c) özünütəhsil kursları (xüsusi və seçmə) və giriş məlumatları.

Araşdırma və təhlillərimizə görə şagirdlərin özünütəhsil səriştəsinin formalaşdırılmasının bu hər üç istiqaməti üzrə orta ümumtəhsil məktəblərində bilik, bacarıq və vərdişlərin verilməsi bu və ya digər dərəcədə tədris və təlim işlərinə əsaslanmalıdır. Bundan çıxış edərək tədqiqatların təhlili zamanı özünütəhsil bacarıq və vərdişlərinin qrup halında təsnifatında müxtəliflik olsa da, fikrimizcə, onları aşağıdakı qruplarda cəmləşdirmək daha məqsədəuyğundur:

a) zehni (intellektual) bacarıq və vərdişlər (plan tuta bilmək bacarığı, biliyi yeni şəraitdə tətbiq etmək bacarıqları, sürətli yazı və oxu vərdişləri və s.);

b) əmək bacarıq və vərdişləri (çertyoj əsasında hərəkətləri yerinə yetirmək bacarığı, üzmək bacarığı, internetdən səmərəli istifadə etmək bacarığı və s.).

Ədəbiyyat

1. Bağırova, R. Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı / – Bakı: Qeyrət, 2013. – 24 s.
2. Əliyev, H. Təhsil millətin gələcəyidir / H.Əliyev. – Bakı: Təhsil, – 2002. – 192 s.
3. Hüseynzadə, R. Pedaqogika / R.Hüseynzadə, Z.Əzizova, H.Əliyev, Ü.Məhəmmədi. dərslik. – Bakı: Mütərcim, – 2021. – 488 s.
4. İbrahimov, F. Pedaqogika / F.İbrahimov, R. Hüseynzadə. 2 cilddə. I cild. – Bakı: Mütərcim, – 2012. – 706 s.
5. Məmmədov, K. Elmi-tədqiqat işlərinin metodikası / K.Məmmədov. dərs vəsaiti. – Bakı: Mütərcim, – 2013. – 104 s.
6. https://aztehsil.com/pedoqojitcrb/695-pedaqoji-eksperiment.html
7. https://kayzen.az/blog/pedaqoq/401/pedaqoji-t%C9%99dqiqat-v%C9%99-onun-metodlar%C4%B1.html
8. https://studfile.net/preview/9783203/page:4/
9. https://www.booksite.ru/fulltext/kos/hmar/ped/1.htm
10. https://www.pa.edu.az/library/9/56/679_ped_ve_psix_muhazireler_toplusu.pdf
11. http://www.anl.az/down/meqale/elm_eserler_tehsilprobins/2016/02/01(meqale).pdf

Məqalə pedaqogika üzrə elmlər doktoru, dosent Kamal Camalov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 17.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 14.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 36-40
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 36-40
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 36-40

UOT: 371.7:613.9
https://doi.org/10.30546/670832.2025.01.1217

Təlim prosesində yüklənmələrin şagirdlərin sağlamlığına təsiri

Müəllif(lər):

Aytən Qasımova
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant

Açar sözlər: şagirdlərin yüklənməsi, akademik performans, fiziki və psixoloji sağlamlıq, kurikulum tələbləri, stress, yorğunluq, psixoloji dəstək, pedaqoji tədbirlər, fiziki fəaliyyət

Annotasiya. Müasir təhsil mühitində şagirdlərin fiziki və psixoloji sağlamlığına təsir edən amillər arasında təlim prosesindəki yüklənmələr mühüm yer tutur. Artan dərs saatları, çoxsaylı ev tapşırıqları və yüksək akademik tələblər nəticəsində şagirdlərdə yorğunluq, stress və motivasiya itkisi kimi hallar müşahidə olunur. Bu cür yüklənmələr yalnız fiziki sağlamlığa deyil, eyni zamanda emosional vəziyyətə və sosial münasibətlərə də mənfi təsir göstərir. Son illərdə aparılan tədqiqatlar göstərir ki, balanslaşdırılmamış təhsil yükü yuxu rejiminin pozulmasına, psixoloji gərginliyə və ümumi həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Belə vəziyyətlərdə şagirdlər arasında məktəbə qarşı marağın azalması, dərsə davamiyyətin zəifləməsi və akademik nəticələrin aşağı düşməsi kimi fəsadlar ortaya çıxır. Eyni zamanda, bu yüklənmələr uşaqlarda emosional tükənməyə, sosial təcridə və özünəinamın azalmasına səbəb ola bilər. Ən narahatedici məqam isə odur ki, uzunmüddətli psixoloji və fiziki gərginlik gələcəkdə daha ciddi sağlamlıq problemlərinə yol aça bilər. Müasir təhsil strategiyaları artıq yalnız akademik uğura deyil, eyni zamanda şagirdlərin ümumi sağlamlıq və psixoloji davamlılıq göstəricilərinə də diqqət yetirməyi zəruri hesab edir. Bu baxımdan, yüklənmələrin azaldılması istiqamətində atılacaq addımlar təkcə təhsil sisteminin deyil, cəmiyyətin gələcək sağlam nəsillərinin formalaşmasında da həlledici rol oynayır.

Author(s):

Ayten Gasimova
Nakhchivan Teachers Institute
Master student

Key words: workload of students, academic performance, physical and psychological health, curriculum requirements, stress, fatigue, psychological support, pedagogical measures, physical activity

The impact of workloads to the health of students in teaching process

Abstract. Among the factors affecting to the physical and psychological health of students in modern educational medium, workloads in the teaching process occupies an important place. As a result of increased class hours, numerous hometasks and higher academic demands, cases like fatigue, stress and loss of motivation are observed on students. Such workloads have a negative impact not only on physical health, but also on emotional state and social relationships. Studies carried recently show that, unbalanced educational load causes to sleep disturbance, psychological stress and decrease life qualiyu in general. İn such situations, complications such as a decrease of interest towards school, disorder of attendance and decrease of academic results occur among students. At the same time, these workloads can cause to emotional exhaustion, social isolation and decrease of self-confidence on children. The most seriuos point is that long-term psychological and physical stress can cause to more serious health problems in future. Modern educational strategies no longer consider it necessary to focus not only on academic success, but also on the general health and psychological resilience indicators of students. İn this regard, steps taken to reduce workloads play a decisive role not only in the education system, but also in forming healthy generations of society in future.

Автор(ы):

Айтен Гасымов
Нахчыванский институт учителей
Магистрант

Ключевые слова: нагрузка учащихся, академическая успеваемость, физическое и психологическое здоровье, требования учебной программы, стресс

Влияние нагрузок в учебном процессе на здоровье учащихся

Аннотация. Среди факторов, влияющих на физическое и психологическое здоровье обучающихся в современной образовательной среде, важное место занимают нагрузки в процессе обучения. В результате увеличения учебных часов, большого количества домашних заданий и высоких академических требований учащиеся испытывают усталость, стресс и потерю мотивации. Подобные нагрузки негативно сказываются не только на физическом здоровье, но и на эмоциональном состоянии, и на социальных отношениях. Недавние исследования показывают, что несбалансированная академическая нагрузка приводит к нарушению сна, психологическому стрессу и снижению общего качества жизни. В таких ситуациях у учащихся возникают такие осложнения, как снижение интереса к учебе, плохая посещаемость и плохая успеваемость. В то же время эти нагрузки могут привести к эмоциональному истощению, социальной изоляции и снижению самооценки у детей. Самым тревожным моментом является то, что длительный психологический и физический стресс может привести к более серьезным проблемам со здоровьем в будущем. По этой причине большое значение имеет регулирование нагрузки в образовательном процессе и более гибкая и ориентированная на студентов структура учебных программ. Сбалансированная модель обучения, которая позволяет расслабиться, проявить творческий подход и заняться физической активностью, повышает качество обучения и способствует социальному и эмоциональному благополучию учащихся. Современные образовательные стратегии уже не считают необходимым ориентироваться не только на академическую успеваемость, но и на общее состояние здоровья и психологическую устойчивость учащихся. В этой связи меры по снижению нагрузки играют решающую роль не только в системе образования, но и в формировании будущих здоровых поколений общества.

Giriş. Müasir təhsil sistemində şagirdlərin akademik yüklənməsi və bunun onların sağlamlığına təsiri aktual problemlərdən biri kimi qiymətləndirilir. Təlim prosesinin səmərəli təşkili şagirdlərin fiziki və psixoloji sağlamlığı ilə birbaşa əlaqəlidir. Təhsil proqramlarının intensivliyi, uzunmüddətli dərs saatları, ev tapşırıqlarının çoxluğu və akademik uğurlara olan yüksək tələblər şagirdlərin sağlamlığına mənfi təsir göstərə bilər [11, s.45]. Bu amillər onların psixoloji gərginliyini artırmaqla yanaşı, fiziki yorğunluğa, görmə problemlərinə, düzgün qidalanmama və yuxu rejiminin pozulması kimi hallarına səbəb ola bilər. Bundan əlavə, uzun müddət oturaq vəziyyətdə dərs dinləmək və yazılı tapşırıqları yerinə yetirmək şagirdlərdə əzələ-skelet sistemi problemlərinə yol aça bilər. Xüsusilə aşağı sinif şagirdləri üçün təhsil yüklərinin düzgün bölünməməsi onların fiziki inkişafına mənfi təsir göstərə bilər. Dərs proqramlarının həddindən artıq yüklənməsi, həmçinin, psixoloji gərginlik yaradaraq, şagirdlərin stress səviyyəsini artırır, onların motivasiyasını və akademik fəaliyyətə marağını azalda bilər. Bu kimi hallar nəticəsində şagirdlərdə özgüvən problemləri, əsəbilik, diqqət çatışmazlığı və hətta depressiya kimi psixoloji pozuntular müşahidə oluna bilər. Tədris proqramlarının tənzimlənməsi, şagirdlərin fərdi inkişafına və sağlamlığına uyğun metodikaların hazırlanması onların gələcəkdə həm sağlam, həm də uğurlu fərdlər kimi yetişməsinə şərait yarada bilər [8, s.308].

Mövzunun aktuallığı: Müasir təhsil sistemində şagirdlərin akademik yüklənməsi onların fiziki və psixoloji sağlamlığına ciddi təsir göstərən amillərdən biridir. Təhsil proqramlarının intensivləşməsi, ev tapşırıqlarının həddindən artıq olması və şagirdlərə yüksək tələblərin qoyulması onların fiziki yorğunluğuna, psixoloji gərginliyinə və motivasiya itkisinə səbəb ola bilər. Bu vəziyyət təkcə akademik göstəricilərə deyil, həm də onların sosial adaptasiyasına və ümumi inkişafına mənfi təsir edir. Bundan əlavə, texnologiyanın inkişafı və onlayn tədris metodlarının genişlənməsi də şagirdlərin sağlamlığına yeni risklər yaradır. Ona görə də, təlim prosesində yüklənmənin tənzimlənməsi və şagirdlərin sağlamlığının qorunması mühüm və aktual məsələ kimi qiymətləndirilir.

Bu məqalənin əsas məqsədi təlim prosesində şagirdlərin akademik yüklənməsinin onların sağlamlığına təsirini araşdırmaq və bu təsiri minimuma endirmək üçün effektiv metodlar təklif etməkdir. Burada həm fiziki, həm də psixoloji yüklənmələrin səbəbləri təhlil olunaraq, onların nəticələri və qarşısının alınması yolları müəyyən edilir. Məqsəd təhsil sistemində daha balanslı və sağlam bir yanaşmanın formalaşdırılmasına töhfə verməkdir.

Bu tədqiqat çərçivəsində aşağıdakı metodlardan istifadə olunmuşdur:

• **Empirik analiz** – müxtəlif yaş qruplarına aid şagirdlərin akademik yüklənmə səviyyələrinin qiymətləndirilməsi.

• **Anket və sorğular** – şagirdlər, müəllimlər və valideynlər arasında sorğular keçirilərək mövcud problemlər araşdırılmışdır.

• **Müqayisəli təhlil** – fərqli təhsil sistemlərində tətbiq olunan metodların müqayisəsi aparılmışdır.

• **Statistik analiz** – əldə olunan məlumatların statistik işlənməsi və onların təhlili həyata keçirilmişdir.

Əldə edilən nəticələr: Araşdırma nəticəsində aşağıdakı məqamlar müəyyən edilmişdir:

• Şagirdlərin akademik yüklənməsi onların psixoloji və fiziki sağlamlığına mənfi təsir göstərir.

• Həddindən artıq dərs saatları və ev tapşırıqları stressi artırır, bu da şagirdlərin motivasiyasının azalmasına səbəb olur.

• Fiziki fəaliyyətin azlığı və uzunmüddətli oturaq vəziyyətdə qalmaq əzələ-skelet sistemi problemlərinə yol açır.

Praktik və nəzəri əhəmiyyəti: Bu araşdırmanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, o, təhsil prosesində yüklənmənin şagirdlərin sağlamlığına təsiri ilə bağlı elmi bazanı genişləndirir. Eyni zamanda, mövcud təhsil sistemlərinin təhlili və yeni yanaşmaların təqdim edilməsi bu sahədə gələcək tədqiqatlar üçün əsas yaradır. Araşdırmanın praktik əhəmiyyəti isə təhsil prosesində yüklənmənin düzgün idarə olunması üçün real tədbirlər təklif etməsidir. Məktəb rəhbərləri, müəllimlər və valideynlər üçün şagirdlərin sağlamlığını qorumağa yönəlmiş tövsiyələr hazırlanmışdır. Bu tövsiyələr əsasında təhsil proqramlarının optimallaşdırılması, dərs saatlarının və ev tapşırıqlarının balanslaşdırılması, fiziki və psixoloji sağlamlığı dəstəkləyən metodların tətbiqi mümkün olacaqdır.

Materiallar və metodlar. Bu araşdırmada şagirdlərin təlim prosesində yüklənməsinin onların sağlamlığına təsirini öyrənmək məqsədilə müxtəlif metod və yanaşmalardan istifadə

olunmuşdur. Təhsil sistemində akademik yüklənmənin səviyyəsini və onun fiziki, psixoloji sağlamlığa təsirini qiymətləndirmək üçün empirik məlumatlar toplanmış, həm nəzəri, həm də praktik metodlar tətbiq edilmişdir. Araşdırma çərçivəsində ilkin məlumatların əldə edilməsi üçün sorğular, müşahidələr və statistik analizlər həyata keçirilmişdir. Sorğular vasitəsilə şagirdlərin gündəlik dərs yükü, ev tapşırıqlarına sərf etdikləri vaxt, onların fiziki və psixoloji vəziyyətləri ilə bağlı məlumatlar toplanmışdır. Bundan əlavə, müəllim və valideynlər arasında da sorğular keçirilmiş, onların akademik yüklənmə və onun nəticələri ilə bağlı fikirləri öyrənilmişdir. Müqayisəli təhlil metodu vasitəsilə müxtəlif təhsil sistemlərində tətbiq olunan yanaşmalar dəyərləndirilmiş və yüklənmənin şagirdlərin sağlamlığına təsiri araşdırılmışdır. Statistik analizlər isə əldə edilən məlumatların daha dəqiq təhlilinə və mövcud problemlərin elmi əsaslarla müəyyənləşdirilməsinə imkan vermişdir [7, s.666].

Cədvəl 1: Şagirdlərin həftəlik tədris saatları və yorğunluq səviyyəsi üzrə paylanması

Həftəlik dərs saatları	Respondent sayı	Yorğun hiss edən şagirdlərin faizi (%)
15 saatdan az	48	22%
15-20 saat	92	38%
21-25 saat	117	56%
26-30 saat	85	74%
30 saatdan çox	58	88%

Mənbə: Həsənov A. Pedaqogika / A.Həsənov, Ə.Ağayev. – Bakı: – 2007.

Araşdırmalar göstərir ki, şagirdlərin həftəlik dərs saatlarının miqdarı onların fiziki və psixoloji yorğunluq səviyyəsinə birbaşa təsir edir. Bakı şəhərində aparılmış sorğunun nəticələrinə əsasən, həftəlik dərs saatı 15 saatdan az olan şagirdlərin yalnız 22%-i özünü yorğun hiss etdiyini bildirib. Bu rəqəm tədris yükü artdıqca nəzərəçarpacaq dərəcədə yüksəlir. Belə ki, həftəlik 15-20 saat arasında dərs keçən şagirdlər arasında yorğunluq hiss edənlərin faizi 38%-ə çatır.Dərs saatlarının 21-25 saat aralığında olduğu halda isə bu göstərici daha da artaraq 56%-ə yüksəlmişdir. 26-30 saat arası dərs yükü olan şagirdlərin 74%-i artıq yorğunluq hiss etdiyini etiraf edib. Ən yüksək göstərici isə 30 saatdan çox dərs keçən şagirdlərə aiddir – bu qrupa daxil olanların 88%-i tədris yükünün onların sağlamlığına mənfi təsir göstərdiyini və davamlı yorğunluq hiss etdiklərini bildirib.Bu statistik göstəricilər açıq şəkildə nümayiş etdirir ki, dərs saatlarının artması ilə şagirdlərdə fiziki və psixoloji gərginlik, həmçinin ümumi sağlamlıq problemləri riski də artır. Nəticə etibarilə, tədris yükünün düzgün planlaşdırılması və optimal balansın qorunması şagirdlərin sağlamlığının qorunmasında mühüm rol oynayır [4, s.63].

Cədvəl 2: Şagirdlərin təlim yüklənməsinin səhiyyə əlamətləri üzrə təsiri

Sağlamlıq problemi	Müşahidə olunan şagirdlərin faizi (%)	Əsas səbəb kimi tədris yüklənməsi göstərənlərin faizi (%)
Yuxusuzluq və rejim pozuntusu	64%	82%
Baş ağrısı və stress	53%	77%
Görmə zəifliyi	39%	61%
Onurğa və bel ağrıları	42%	69%
Konsentrasiya çətinliyi	58%	85%

Mənbə: Bədəlova A. Pedaqogikanın müasir problemləri (Magistrlər üçün proqram). – Bakı: – 2009.

Tədris prosesindəki yüklənmələrin şagirdlərin sağlamlığına təsiri ilə bağlı aparılmış sorğular və müşahidələr göstərir ki, intensiv dərs rejimi və yüksək akademik tələblər bir sıra sağlamlıq problemlərinin yaranmasına səbəb olur. Əldə olunan nəticələrə əsasən, şagirdlər arasında yuxusuzluq və yuxu rejiminin pozulması ən geniş yayılmış problemlər sırasındadır. Respondentlərin 64%-i bu əlaməti yaşadığını bildirərkən, onların 82%-i bu vəziyyəti əsasən tədris yüklənməsi ilə əlaqələndirib. Baş ağrısı və stress şikayətləri ilə qarşılaşanların faizi isə 53%-dir. Bu qrupda da əksəriyyət – 77% – bu narahatlığın məhz təhsil yüklənməsi səbəbilə yarandığını ifadə edib. Görmə zəifliyi problemi isə şagirdlərin 39%-ində müşahidə olunub və bu şagirdlərin 61%-i bu vəziyyəti uzunmüddətli dərs oxuma və ev tapşırıqlarının həddindən artıq çoxluğu ilə əlaqələndirib. Bundan əlavə, onurğa və bel ağrıları 42% şagird tərəfindən qeyd edilib və bu halların 69%-i tədris mühitində ergonomik olmayan masa-stul və uzun müddət oturaq vəziyyətdə qalmaqla izah olunub. Nəhayət, konsentrasiya çətinliyi şagirdlər arasında geniş yayılmış problemlərdən biri kimi qeyd olunub – bu vəziyyəti yaşayanların 58%-i diqqətini toplamaqda çətinlik çəkdiyini deyib və onların 85%-i bunu dərs yükünün və zehni yorğunluğun birbaşa nəticəsi kimi göstərib.Bu nəticələr göstərir ki, tədris yükünün təkcə akademik deyil, həm də fiziki və psixoloji sağlamlıq üzərində ciddi təsirləri vardır [2, s.325].

Müzakirə və nəticə. Təlim prosesində şagirdlərin yüklənməsi son illərdə təhsil sahəsində müzakirə olunan ən vacib məsələlərdən biri kimi diqqət çəkir.Ağır dərs cədvəli və çoxsaylı ev tapşırıqları yorğunluq, stress və diqqət dağınıqlığına səbəb ola bilər. Davamlı təzyiq altında olan şagirdlərdə motivasiya azalır və öyrənmə keyfiyyəti aşağı düşür. Sağlamlıq problemləri arasında baş ağrıları, yuxusuzluq və fiziki zəiflik halları müşahidə olunur. Şagirdlərin yaş və inkişaf xüsusiyyətlərinə uyğun dərs yükünün müəyyənləşdirilməsi vacibdir. Təlim prosesində fasilələrin və hərəkətli fəaliyyətlərin təşkili şagirdlərin bədən və beyin yüklənməsinin qarşısını alır. Fiziki tərbiyə və aktiv oyunların dərsə inteqrasiyası uşaqların sağlam böyüməsinə dəstək olur. Dərs mühitinin keyfiyyəti – sinif otaqlarının işıqlandırılması, havalandırma şəraiti və rahatlığı da şagirdlərin sağlamlığına birbaşa təsir edir. Yüklənmənin balanslaşdırılması üçün müəllimlərin fərdi yanaşması, tədris metodlarının dəyişkənliyi və psixoloji dəstəyin təşkili önəmlidir. Təlimin effektivliyi yalnız yüksək nəticələrlə deyil, eyni zamanda şagirdin psixofiziki vəziyyətinin qorunması ilə ölçülməlidir. Sağlamlıqla ziddiyyət təşkil edən yüklənmələr uzunmüddətli nəticələr doğura bilər və təhsil məqsədinə çatmaqda maneə yarada bilər.

Yekun nəticə. Tədris prosesində şagirdlərin yüklənmə səviyyəsinin balanslaşdırılması onların sağlam inkişafı və təhsildə davamlı uğurları üçün zəruridir. Rasional tədris planlaşdırması və sağlam mühitin yaradılması şagirdlərin həm fiziki, həm də psixoloji rifahını təmin etməyə kömək edəcəkdir. Bununla yanaşı, valideynlərin, müəllimlərin və təhsil siyasətçilərinin birgə əməkdaşlığı bu istiqamətdə əsas rol oynayır. Şagirdlərin fərdi ehtiyaclarını nəzərə alan tədris metodları, effektiv istirahət və asudə vaxt rejimi, eləcə də psixoloji dəstək xidmətlərinin mövcudluğu onların məktəb mühitində özlərini daha rahat və motivasiyalı hiss etmələrinə şərait yaradır. Həmçinin, davamlı monitorinq və qiymətləndirmə mexanizmləri vasitəsilə təlim yükünün təsirləri ölçülməli, nəticələrə əsasən uyğun dəyişikliklər həyata keçirilməlidir. Təhsil sistemində bu cür dəyişikliklər yalnız şagirdlərin rifahını deyil, eyni zamanda tədris prosesinin ümumi effektivliyini artıracaqdır. Nəticə etibarilə, təlimdə yüklənmələrin düzgün idarə olunması yalnız bir pedaqoji məsələ deyil, həm də cəmiyyətin gələcək sağlam və intellektual nəslinin formalaşmasına yönəlmiş strateji yanaşmadır.

Ədəbiyyat

1. Ağayev, Ş. və b. İbtidai siniflərdə fəal təlimin nəzəri və praktik məsələləri / Ş.Ağayev. metodik vəsait. – Bakı, – 2007. – 96 s.
2. Bədəlova, A. Pedaqogikanın müasir problemləri: magistrlər üçün proqram. – Bakı, – 2009. – 72 s.
3. Bünyadova, F. Təlim və tərbiyədə interaktiv texnologiya / F.Bünyadova, B.Abdulla. – Bakı, – 2000. – 112 s.
4. Həsənov, A. Pedaqogika / A.Həsənov, Ə.Ağayev. – Bakı, –2007. – 320 s.

5. Nguyen V.T., Do S.T., Tran C.N.N., Vo M.D. Assessing the impact of the traits of payment delay causes on subcontractor's business performance in construction projects: A case study in Vietnam // International Journal of Construction Management. – 2022. – pp. 1–11.
6. Chadee A.A., Ray I., Chadee X.T. Systemic issues influencing technical certainty in social housing programmes in a small island developing state // Buildings. – 2021. – Vol. 11(65). – 20 p.
7. Chadee A.A., Martin H.H., Mwasha A., Otuloge F. Rationalizing critical cost overrun factors on public sector housing programmes // Emerging Science Journal. – 2022. – Vol. 6(4). – pp. 647–666.
8. Omopariola E.D., Windapo A., Edwards D.J., Thwala W.D. Contractors' perceptions of the effects of cash flow on construction projects // Journal of Engineering, Design and Technology. – 2020. – Vol. 18(3). – pp. 308–325.
9. Le N., Chong O., Kashiwagi D. Success factors for project risk management in construction projects: A Vietnam case study // Journal of Advanced Performance Information and Value. – 2020. – Vol. 12(1). – p. 63.
10. Chadee A., Ali H., Gallage S., Rathnayake U. Modelling the implications of delayed payments on contractors' cashflows on infrastructure projects // Civil Engineering Journal. – 2023. – Vol. 9(1). – pp. 52–71.
11. Lindhard S.M., Neve H., Kalsaas B.T., Møller D.E., Wandahl S. Ranking and comparing key factors causing time overruns in on-site construction // International Journal of Construction Management. – 2022. – Vol. 22(13). – pp. 2724–2730.
12. Sabri O.K., Torp O. Corrective and preventive action plan (CAPA) for disputes in construction projects: A Norwegian perspective // Infrastructures. – 2022. – Vol. 7(63). – 18 p.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 22.01.2025, son daxilolma – 20.02.2025, qəbulolunma – 06.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 41-45
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 41-45
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 41-45

UOT: 37.017:37.013
https://doi.org/10.30546/670832.2025.01.1205

Vətənpərvərlik tərbiyəsinin formalaşdırılması üzrə işin nəzəri və metodoloji əsasları haqqında təsiri

Müəllif(lər):

Fidan Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: Fidimemmedova@gmail.com

Açar sözlər: vətənpərvərlik tərbiyəsi, pedaqoji metodlar, milli-mənəvi dəyərlər, sosial fəaliyyət, interaktiv təlim

Annotasiya. Təhsil sistemində vətənpərvərlik tərbiyəsinin inkişafı müasir dövrün ən aktual məsələlərindən biridir. Bu tərbiyə, şagird və tələbələrin yalnız nəzəri biliklər əldə etməsi ilə məhdudlaşmır, həm də onların milli-mənəvi dəyərlərə bağlılığını artıraraq, cəmiyyətin fəal və vətənpərvər üzvləri kimi formalaşmasına xidmət edir. Tədqiqatın məqsədi vətənpərvərlik tərbiyəsinin formalaşmasına təsir göstərən pedaqoji metodları araşdırmaq, onların effektivliyini müəyyənləşdirmək və təhsildə tətbiq edilən yanaşmaları təhlil etməkdən ibarətdir. Bu tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, müasir metod və yanaşmaların tətbiqi ilə vətənpərvərlik tərbiyəsinin keyfiyyətinin artırılması və şagirdlərin vətənə bağlılıq səviyyəsinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tədqiqat çərçivəsində tarixi və mədəni irsə əsaslanan metodlar, bədii və ədəbi yanaşmalar, sosial fəaliyyətlər, dramatizasiya və İKT əsaslı interaktiv dərs metodları araşdırılmışdır. Tədqiqatın ararılmasında müəyyənedici, tətbiqi və qiymətləndirici mərhələlər üzrə sorğu, müsahibə, müşahidə, eksperiment və interaktiv təlim metodlarından istifadə olunmuşdur. Aparılan tədqiqat təsdiqlədi ki, vətənpərvərlik tərbiyəsinin inkişafında inteqrativ və interaktiv metodların tətbiqi mühüm rol oynayır və bu yanaşmalar şagirdlərin motivasiyasını artıraraq onları milli-mənəvi dəyərlərə daha dərindən yiyələnməyə təşviq edir. Tədqiqat nəticələri göstərmişdir ki, müasir pedaqoji texnologiyaların tətbiqi və yaradıcı yanaşmaların inkişaf etdirilməsi, gələcəkdə daha uğurlu və vətənpərvər nəsillərin yetişdirilməsinə şərait yaradacaqdır.

Author(s):

Fidan Mammadova
Nakhchivan Teachers Institute
Master student
E-mail: Fidimemmedova@gmail.com

Key words: patriotic education, pedagogical methods, national and spiritual values, social activity, interactive learning

The theoretical and methodological foundation of the formation of patriotic education

Abstract. The development of patriotic education in the education system is one of the most urgent issues of the modern era. This education is not limited to the acquisition of theoretical knowledge by pupils and students, but also serves to form them as active and patriotic members of society by increasing their commitment to national and spiritual values. The purpose of the study is to investigate the pedagogical methods that affect the formation of patriotic education, to determine their effectiveness, and to analyze the approaches used in education. The theoretical and practical significance of this study is of particular importance in terms of improving the quality of patriotic education and raising the level of students' loyalty to the homeland through the application of modern methods and approaches. Within the framework of the study, methods based on historical and cultural heritage, artistic and literary approaches, social activities, dramatization, and ICT-based interactive teaching methods were investigated. In the research, survey, interview, observation, experiment, and interactive learning methods were used at the defining, applied, and evaluative stages. The conducted study confirmed that the application of integrative and interactive methods plays an important role in the development of patriotic education, and these approaches increase the motivation of students and encourage them to master national and spiritual values more deeply. The results of the study showed that the application of modern pedagogical technologies and the development of creative approaches will create conditions for the upbringing of more successful and patriotic generations in the future.

Автор(ы):

Фидан Мамедова
Нахчыванский институт учителей
Магистрант
Э-почта: Fidimemmedova@gmail.com

Ключевые слова: патриотическое воспитание, педагогические методы, национально-нравственные ценности, социальная деятельность, интерактивное обучение

К теоретико-методическим основам работы по формированию патриотического воспитания

Аннотация. Развитие патриотического воспитания в системе образования является одним из наиболее актуальных вопросов современности. Это воспитание не ограничивается только приобретением учащимися и студентами теоретических знаний, но и служит формированию их как активных и патриотичных членов общества, повышая их приверженность национально-нравственным ценностям. Цель исследования состоит в изучении педагогических методов, влияющих на формирование патриотического воспитания, выявлении их эффективности, анализе применяемых подходов в воспитании. Теоретическая и практическая значимость данного исследования имеет особое значение с точки зрения повышения качества патриотического воспитания и повышения уровня приверженности учащихся родине за счет применения современных методов и подходов. В рамках исследования были использованы методы, основанные на историко-культурном наследии, художественно-литературные подходы, социальная деятельность, методы интерактивных уроков на основе драматизации и ИКТ. При исследовании использовались и методы опроса, интервью, наблюдения, эксперимента и интерактивного обучения на определяющих, прикладных и оценочных этапах. Проведенное исследование подтвердило, что важную роль в развитии патриотического воспитания играет применение интегративных и интерактивных методов, и эти подходы повышают мотивацию учащихся, побуждают их к более глубокому усвоению национально-нравственных ценностей. Результаты исследования показали, что внедрение современных педагогических технологий и развитие творческих подходов создаст условия для воспитания более успешного и патриотичного поколения в будущем.

Giriş. Nəzəri-metodoloji yanaşmalar, gənclərin şəxsiyyətinin formalaşmasında bütün səviyyələrdə müvafiq prinsiplərin tətbiqini nəzərdə tutur. Bu prinsiplər arasında şəxsiyyətin mərkəzləşdirilməsi, aktyorlaşma, interaktivlik və praktikada tətbiq olunma prinsipləri mövcuddur. Şagirdlər, müasir texnologiyalar vasitəsilə tərbiyə olunduqda, həm biliklərini artırır, həm də milli ruhlarını gücləndirirlər. Bu, gənclərin Vətənə olan sevgisini və bağlılığını artırır, milli kimliklərini qorumağa yönəldir.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı hər bir sahədə olduğu kimi, təhsil və tərbiyə sahəsinə də təsirsiz ötüşmür. Xüsusilə böyüyən nəslin vətənpərvərlik tərbiyəsində müasir texnologiyaların rolu aktuallıq kəsb edir. Texnoloji vasitələrin geniş yayılması və müxtəlif təhsil resurslarına çıxış imkanlarının artırılması, şagirdlərin dünyagörüşünü genişləndirmək və onlarda vətənə sevgi, milli kimlik anlayışlarını formalaşdırmaq üçün geniş imkanlar yaradır. Müasir texnologiyaların tətbiqi ilə vətənpərvərlik tərbiyəsinin daha təsirli və səmərəli olması mümkündür. Texnologiyaların köməyi ilə şagirdlər tariximizi, mədəniyyətimizi daha dərindən öyrənə bilir, müstəqil Azərbaycan dövlətinin nailiyyətləri və qəhrəmanlıq salnamələri haqqında əyani bilgilər əldə edə bilirlər. Bu gün vətənpərvərlik tərbiyəsi üzrə müxtəlif interaktiv proqramlar, oyunlar, virtual muzeylər, onlayn dərsliklər və video materiallar hazırlanaraq istifadəyə verilir. Bu resurslar vasitəsilə şagirdlər vətənə sevgi ruhunda tərbiyə alır, müasir dünyada Azərbaycan xalqının yerini və rolunu daha aydın başa düşürlər. İnteraktiv texnologiyalar, xüsusən də vətənpərvərlik mövzularında müzakirələrə, layihələrə və komandalarla işləməyə cəlb olunma, şagirdlərə vətəndaşlıq məsuliyyətini dərk etdirməyə və milli birliyə töhfə verməyə kömək edir.

İlkin daxilolma – 21.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 10.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s. 55-58
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p. 55-58
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с. 55-58

UOT: 159.922.73:37.015.3
https://doi.org/10.30546/670832.2025.01.1100

Uşaqlarda zehni inkişaf, onun mərhələləri və dəstəklənməsi fəaliyyəti haqqında

Müəllif(lər):

Nuray Cəlilli
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt:

Açar sözlər: fəaliyyətlər, zehni inkişaf, inkişafın mərhələləri, inkişafın dəstəklənməsi

Annotasiya. Bu məqalədə uşaqların zehni inkişafı, uşaqlarda zehni inkişafın mərhələləri, zehni inkişafın dəstəklənməsi fəaliyyətləri aktual məsələlərdir. Tədqiqatın məqsədi uşaqlarda zehni inkişafın necə baş verdiyini, onun hansı mərhələlərinin olmasını və necə dəstəkləndiyi fəaliyyətini təhlil etməkdən ibarətdir. Bu fəaliyyətləri müntəzəm olaraq həyata keçirməklə, uşağınızın zehni inkişafına töhfə verə və onun ömür boyu öyrənmə səyahətinə dəstək olmaq olar. Unudulmamalıdır ki, ən dəyərli təhsil təcrübəsi valideynlərin uşaqlarına evdə göstərdikləri dəstəkdir. Erkən uşaqlıq dövründə uşaqların yeni-yeni təcrübələri olur və bu təcrübələr onların beyinlərində qalıcı izlər qoyur. Tədqiqatın nəzəri əhəmiyyəti uşaqların təlim və tərbiyəsinin elmi əsaslarla qurulmasına şərait yaratmaqdır. Məqalənin praktik əhəmiyyəti isə zəngin öyrənmə mühitinin yaratmaqla uşağın təbii maraqlarını və öyrənmə ehtiyaclarını təmin etməkdən ibarətdir. Aparılan tədqiqat təsdiqlədi ki, uşaqlarda zehni inkişaf bir neçə mərhələyə bölünür ki, onların hər birinin də öz xüsusiyyətləri vardır.

Author(s):

Nuray Jalilli
Nakhchivan Teachers Institute
Master student
E-mail:

Key words: activities, therapy, mental development, stages of development, support of development

On mental development in children, its stages and supportive activities

Abstract. In this article the mental development of children, the stages of mental development in children, activities to support mental development are topical issues. The purpose of the study is to analyze how mental development occurs in children, what stages it has and how it is supported activity. By doing these activities regularly you can contribute to your child's mental development and support his lifelong learning journey. Remember that the most valuable educational experience is the support that parents provide to their children at home. In early childhood children have new experiences and these experiences leave permanent marks on their brains. The theoretical significance of mental development creates the conditions for the construction of training and education of children on a scientific basis. Practical significance of the article creating a rich learning environment satisfies the child's natural interests and learning needs. The study carried out confirmed that mental development in children is divided into several stages. Each of these stages has its own characteristics.

Автор(ы):

Нурай Джалили
Нахчыванский институт учителей
Магистрант
Э-почта:

Ключевые слова: деятельность, умственное развитие, этапы развития, поддержка развития

О психическом развитии у детей, его этапах и поддерживающей деятельности

Аннотация. В данной статье рассматриваются актуальные вопросы психического развития детей, этапы психического развития у детей, деятельность по поддержке психического развития. Цель исследования состоит в том, чтобы проанализировать, как происходит психическое развитие у детей, какие стадии оно имеет и как поддерживается его деятельность. Регулярно выполняя эти действия, вы можете внести свой вклад в умственное развитие вашего ребенка и поддержать его путь обучения на протяжении всей жизни. Не следует забывать, что самый ценный образовательный опыт - это поддержка, которую родители оказывают своим детям дома. В раннем детстве у детей появляются новые переживания, и эти переживания оставляют неизгладимый след в их мозгу. Теоретическая значимость исследования заключается в создании условий для построения обучения и воспитания детей на научной основе. Практическая значимость статьи заключается в обеспечении естественных интересов и потребностей ребенка в обучении путем создания богатой учебной среды. Проведенное исследование подтвердило, что умственное развитие детей делится на несколько этапов, каждый из которых имеет свои особенности.

Giriş. Bu məqalədə uşaqların zehni inkişafı, uşaqlarda zehni inkişafın mərhələləri, zehni inkişafın dəstəklənməsi fəaliyyətləri aktual məsələlərdir. Uşaqların zehni inkişafı onların idrak, emosional və sosial qabiliyyətlərinin inkişafında son dərəcə mühüm rol oynayır. Hər bir uşağın bu prosesdən fərqli bir sürətlə irəlilədiyini və unikal inkişaf səyahətini yaşadığını xatırlamaq vacibdir. Zehni inkişaf uşağın həyatının ilk illərindən başlayır və həyatının hər mərhələsində davam edir. Zehni inkişaf uşağın qavrayış, düşünmə, problem həll etmə, dil inkişafı və sosial münasibətlər kimi sahələrdəki qabiliyyətlərini əhatə edir. Bu proses beyində sinir əlaqələrinin formalaşması və möhkəmlənməsi ilə sıx bağlıdır. Erkən uşaqlıq dövründə uşaqların yeni təcrübələri olur və bu təcrübələr onların beyinlərində qalıcı izlər qoyur.

Valideynlər olaraq bizim ən mühüm vəzifələrimizdən biri uşaqların əqli inkişafını dəstəkləmək və həvəsləndirməkdir. Bu, uşaqlara öz potensiallarını maksimum dərəcədə artırmağa və sağlam şəkildə böyümələrinə kömək etməklə yanaşı, onlara özlərini ifadə etməyə və dünyanı dərk etməyə imkan verir.

Tədqiqatın məqsədi uşaqlarda zehni inkişafın necə baş verdiyini, onun hansı mərhələlərinin olmasını və necə dəstəkləndiyi fəaliyyətini təhlil etməkdən ibarətdir.

Hər bir mərhələ uşağın idrak, emosional və sosial qabiliyyətlərində nəzərəçarpacaq dəyişikliklərlə xarakterizə olunur. Bu mərhələləri başa düşmək uşağınızın ehtiyaclarını və potensialını daha yaxşı anlamağa kömək edə bilər.

1. Doğuşdan 6 aya qədər: Bu dövrdə körpənin zehni inkişafı əsas reflekslərin inkişafı ilə başlayır. Yeni doğulmuş körpə ətraf aləmi qavramaq və ona reaksiya vermək üçün fitri reflekslərə malikdir. Körpə vizual, eşitmə və toxunma stimullarına cavab verir.

2. 6 aydan 2 yaşa qədər: Körpəlikdən sonra uşaq daha çox müstəqillik qazanır və dünyanı araşdırmaq üçün hərəkət etməyə başlayır. Bu dövrdə uşaq cisimləri tanıma prosesinə daxil olur və əlləri ilə ətrafdakı dünyanı araşdırmağa başlayır. Bu dövrdə dil inkişafı da sürətlə inkişaf edir.

3. 2 yaşdan 6 yaşa qədər: Bu dövrdə uşağın dil inkişafı və sosial bacarıqları sürətlə inkişaf edir. Uşaqlar duyğularını ifadə etməyi və digər insanlarla necə ünsiyyət qurmağı öyrənirlər. Mücərrəd düşünmə qabiliyyətləri də inkişaf etməyə başlayır və uşaqlar məntiqi təfəkkür bacarıqlarını qazanırlar.

4. 6 yaşdan 12 yaşa qədər: Bu, akademik və idrak bacarıqlarının dərinləşdiyi dövrdür. Uşaqlar mücərrəd düşünmə qabiliyyətlərindən daha çox istifadə edir və mürəkkəb problem həll etmə bacarıqlarını inkişaf etdirirlər.

5. 12 yaşdan 18 yaşa qədər: Yeniyetməlik kimi tanınan bu dövrdə uşaqlar öz şəxsiyyətlərini tapma və gələcəkləri ilə bağlı qərarlar vermə prosesinə girirlər. Akademik uğur, sosial əlaqələr və gələcək planlar bu dövrdə əhəmiyyətli olur.

Uşaqların zehni inkişafı üçün nə etmək lazımdır? Uşaqların zehni inkişafını dəstəkləmək üçün gündəlik həyatlarında həyata keçirə biləcəkləri bir çox təsirli fəaliyyətlər var. Bu fəaliyyətlər uşaqların idrak, emosional və sosial qabiliyyətlərini inkişaf etdirmək üçün effektiv üsuldur. Uşaqlarda zehni inkişafı dəstəkləmək üçün tövsiyə olunan 10 fəaliyyət:

Oxumaq və Hekayə. Uşaqların dil inkişafını təşviq etmək üçün hər gün müntəzəm olaraq kitab oxuyun və ya hekayələr danışın. Xüsusilə rəngli şəkilli kitablar 0-6 yaş arası uşaqlar üçün uyğundur. Uşağınızla birlikdə seçdiyiniz kitabı oxuyarkən personajların səslərini təqlid edin və ya hekayəni həyəcanlı şəkildə danışın.

Musiqi və ritm fəaliyyətləri. Körpəlikdən musiqi dinləmək və oxumaq uşağınızın emosional ifadə bacarıqlarını inkişaf etdirə bilər. Körpələr üçün yumşaq və ritmik melodiyalara üstünlük verilsə də, böyük uşaqlar üçün ritmik mahnılar və rəqs fəaliyyətləri təşkil edə bilərsiniz.

Bloklarla oynamaq. Bloklarla oynamaq 2-6 yaş arası uşaqlar üçün idealdır. Müxtəlif rəng və formalı bloklardan istifadə edərək uşağınızla birlikdə strukturlar qurun. Sadə bir qüllə və ya daha mürəkkəb bir quruluş tikərək uşağınızın təxəyyülünü və problem həll etmə qabiliyyətlərini inkişaf etdirin.

Təbiət gəzintiləri və kəşfiyyat fəaliyyətləri. 4-12 yaşlı uşaqlar üçün təbiət gəzintiləri və kəşfiyyat fəaliyyətləri təşkil edin. Uşağınızla parkda və ya meşədə təbiət gəzintisi edərək təbii mühiti kəşf edin. Uşağınızla birlikdə müxtəlif bitki və heyvan növlərini araşdırın və təbiətin gözəlliklərini kəşf edin.

Yaradıcı incəsənət fəaliyyətləri. 3-12 yaşlı uşaqlar üçün rəsm, rəsm və ya xəmir oyunu kimi yaradıcı sənət fəaliyyətlərini təşkil edin. Uşağınızın təxəyyülünü açın və ona müxtəlif rənglərdə rəngli karandaşlar və ya plastik xəmirlə özünü sərbəst ifadə etməyə imkan verin.

Tapmacaların həlli və oyunlar. 6-12 yaşlı uşaqlar üçün sadə tapmacalar və ya zehni oyunlar təşkil edin. Sudoku, labirint oyunları və ya yaddaş kartları kimi zehni oyunlar oynayaraq uşağınızın məntiqi təfəkkür bacarıqlarını inkişaf etdirməsinə kömək edin.

Riyaziyyat oyunları və fəaliyyətlər. 6-12 yaşlı uşaqlar üçün evdə sadə riyaziyyat oyunları təşkil edin. Rəqəmsal tapmacalar, ədədlərin əlavə və çıxılması oyunları və ya həndəsi fiqurlarla əlaqəli fəaliyyətlər təşkil etməklə övladınıza riyaziyyat anlayışlarını əyləncəli şəkildə öyrənməsinə icazə verin.

Müzakirə və fikir mübadiləsi. 8-18 yaşlı uşaqlarla gündəlik mövzuları müzakirə edin və fikir mübadiləsi aparın. Uşağınızın fərqli fikirləri başa düşməsinə və öz fikirlərini ifadə etməsinə icazə verin. Xüsusilə yeniyetməlik dövründə uşağınızın emosional ehtiyaclarını anlamaq üçün səbirli olun.

Problem həll edən oyunlar və tapmacalar. 6-18 yaşlı uşaqlar üçün çətinlik səviyyəsinə uyğun problem həll edən oyunlar və ya tapmacalar təşkil edin. Məntiq tapmacaları, labirint oyunları və ya strategiya oyunları oynayaraq uşağınızın zehni qabiliyyətlərinə meydan oxuyun və dəstəkləyin.

Komanda idmanları və qrup fəaliyyətləri. 4-18 yaş arası uşaqlar üçün komanda idmanlarında və ya qrup fəaliyyətlərində iştirak etməyi təşviq edin. Uşağınıza futbol, basketbol və ya voleybol kimi komanda idman növləri və ya dram dərsləri və musiqi qrupları kimi qrup fəaliyyətləri ilə əməkdaşlıq bacarıqlarını inkişaf etdirməyə və sosial əlaqələri gücləndirməyə kömək edin.

Bu fəaliyyətləri müntəzəm olaraq həyata keçirməklə, uşağınızın zehni inkişafına töhfə verə və onun ömür boyu öyrənmə səyahətinə dəstək ola bilərsiniz. Unutmayın ki, ən dəyərli təhsil təcrübəsi valideynlərin uşaqlarına evdə göstərdikləri dəstəkdir.

Oyun terapiyası uşaqların emosional və zehni inkişafını dəstəkləmək üçün istifadə edilən təsirli bir üsuldur. Oyun terapiyası uşaqlara duyğularını ifadə etməyə və yaşadıqları çətinliklərin öhdəsindən gəlməyə kömək edir. Oyunlar vasitəsilə uşaqlar emosional təcrübələrini emal edir, stresin öhdəsindən gəlir və özünə hörmətini artırır. Bundan əlavə, oyun terapiyası uşaqlara sağlam sərhədləri öyrədir və sosial bacarıqları gücləndirir. Zehni inkişafa ən çox təsir edən amillər hansılardır?

Uşaqların zehni inkişafına təsir edən bir çox amillər var. Bunlara genetik meyl, uşağın ətraf mühiti, ailə dinamikası, təhsil səviyyəsi, emosional dəstək, qidalanma, yuxu rejimi və erkən uşaqlıq dövründəki təcrübələr daxildir. Bundan əlavə, uşağın yaşadığı stress və ətraf mühit stimullarının səviyyəsi də zehni inkişafa əhəmiyyətli dərəcədə təsir göstərir.

Materiallar və metodlar. Məqalədə uşaqların zehni inkişafı və ona təsir edən amilləri araşdırmaq üçün müxtəlif nəzəri materiallardan istifadə olunmuşdur. Tədqiqatın əsasını təşkil edən materiallar uşaqların zehni inkişafını araşdıran yerli və xarici elmi ədəbiyyatlar, akademik məqalələr əsasında seçilmişdir.

1. Elmi mənbələr və akademik ədəbiyyatlar – Uşaq psixologiyası haqqında yazılmış kitablar, məqalələr.

2. Müasir sosial və psixoloji nəzəriyyələr – Uşaqların zehni inkişafının formalaşmasına təsir edən amilləri izah edən müxtəlif nəzəri modellərdən istifadə edilmişdir.

İstifadə olunan metodlar:

1. Məktəbəqədər uşaqların zehni inkişafına təsir edən amillər sistemli şəkildə araşdırılmış, mövcud elmi yanaşmalar təhlil edilmişdir.

2. Müqayisəli metod – Uşaqların zehni inkişafına aybaay təsir edən amillər müqayisə olunmuşdur.

3. Nəzəri ümumiləşdirmə - Müxtəlif elmi mənbələrdən əldə edilən məlumatlar ümumiləşdiriliərək məktəbəqədər uşaqların zehni inkişafına təsir edən amillər müəyyən edilmişdir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.

Zehni inkişafın nəzəri əhəmiyyəti uşaqların təlim və tərbiyəsinin elmi əsaslarla qurulmasına şərait yaradır. Bu nəzəri biliklər aşağıdakılar üçün əsasdır:

Təhsil proqramlarının hazırlanması: Uşağın yaşına uyğun zehni imkanlarını nəzərə alan

dərslik və metodik materialların tərtibi.

Tərbiyə və psixoloji müdaxilə: Zehni inkişafda ləngimə və ya pozuntu hallarında düzgün diaqnoz və müdaxilə üsullarının seçilməsi.

Fərdi yanaşma: Müəllim və valideynlərə uşağın inkişaf səviyyəsinə uyğun davranış və tədris üsulları seçməkdə bələdçilik edir.

Zehni inkişafın dəstəklənməsi yalnız nəzəri biliklərlə məhdudlaşmamalı, praktiki fəaliyyətlərlə müşayiət olunmalıdır. Bu baxımdan:

Zəngin öyrənmə mühitinin yaradılması uşağın təbii maraqlarını və öyrənmə ehtiyaclarını təmin edir.

Əyləncəli və maarifləndirici oyunlar zehni bacarıqları inkişaf etdirir və öyrənməni əyləncəli hala gətirir.

Valideyn və müəllim dəstəyi uşağın özünəinamını artırır və yeni bilikləri mənimsəməsində motivasiya yaradır.

Nəticə və müzakirə. Bu məqalədə uşaqların zehni inkişafı və ona təsir edən amillər hərtərəfli şəkildə araşdırılmışdır. Nəticələr aşağıdakı kimidir.

1. Aybaay uşaqlarda inkişaf bir mərhələ daha artır. Hər ayın özünəməxsus inkişaf xüsusiyyətləri vardır.

2. Uşaqların zehni inkişafını artırmaq üçün müxtəlif yollar mövcuddur. Bu yollar uşaqlarda müsbət dəyişikliklərə yol verir.

Uşaqlarda zehni inkişaf fərdi və mərhələli şəkildə baş verir. Bu inkişafın düzgün istiqamətlənməsi və dəstəklənməsi uşağın gələcək təhsil və həyat uğurları üçün vacibdir. Ailənin, məktəbin və cəmiyyətin rolu bu prosesdə həlledici əhəmiyyət daşıyır. Uşaqlara yaşlarına uyğun imkanlar yaratmaqla, onların zəka potensialını maksimum səviyyədə ortaya çıxarmaq mümkündür.

Yekun nəticə. Nəticə olaraq qeyd etmək lazımdır ki, uşaqların zehni inkişafını tənzimləmək üçün yuxarıdakı fəaliyyətləri müntəzəm olaraq həyata keçirmək, emosional və zehni inkişafını dəstəkləmək lazımdır. Həmçinin uşaqların zehni inkişafında valideynlərin rolunun böyük olduğunu unutmamalıyıq. Valideynləri tərəfindən verilən emosional dəstək, qidalanma, genetika, həmçinin ətraf mühit, doğulduğu coğrafiya uşaqların zehni inkişafına təsir edən amillərdəndir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Məktəbəqədər təhsil proqramı (kurikulum). – Bakı: Təhsil Nazirliyi Nəşriyyatı, 2012. – 152 s.
2. Bayramov, Ə.S. Psixologiya / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı, – 2003. – 340 s.
3. Quliyev, E.M. Kiçik məktəblinin psixologiyası / E.M.Quliyev. – Bakı: ADPU, – 2003. – 136 s.
4. Quliyev, E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri / E.M.Quliyev. – Bakı: ADPU, – 1995. – 128 s.
5. Əlizadə, Ə.Ə. Məktəblinin psixologiyası / Ə.Ə.Əlizadə, Q.T.Əzimov, E.M.Quliyev. – Bakı: ADPU, – 2001. – 280 s.
6. Əhmədov, A. Uşaq psixologiyası və inkişaf mərhələləri / A.Əhmədov. – Bakı: Maarif, – 1990. – 212 s.
7. Mehdizadə, Z.M. Uşaq psixologiyası / Z.M. Mehdizadə. I hissə. – Bakı: APİ, – 1982. – 164 s.
8. Султанов, А.А. Психиатрия / А.А.Султанов. – Баку: – 2003. – 288 с.
9. Seyidov, S.İ. Ümumi psixologiya / S.İ.Seyidov, M.Ə.Həmzəyev. – Bakı, – 2014. – 320 s.
10. Musayeva, R. Psixologiya / R.Musayeva. – Bakı: Nurlar Nəşriyyatı, – 2015. – 248 s.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 14.02.2025, qəbulolunma – 05.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.59-63
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.59-63
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.59-63

UOT: 373.3:37.03:574
https://doi.org/10.30546/670832.2025.01.1095

İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması yolları

Müəllif(lər):

İranə Qurbanova
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: iranebesirzade592@gmail.com

Açar sözlər: təlim, şagird, ekoloji mədəniyyət, ekoloji tərbiyə, ekoloji oyun

Annotasiya. Məqalədə işin aktuallığında ekoloji problemlərin çoxalması, qloballaşması, müharibələrin baş verməsi, havaya buraxılan zərərli qazların mövcudluğu və s. amillərin ekoloji tarazlığın pozulması ilə nəticələnməsi göstərilmiş, bunun qarşısını almaq üçün, kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsinin təşkilinə xüsusi diqqətin artırılması kimi məsələlərə toxunulmuşdur. Bu ekoloji problemlərin qarşısını almaq üçün ekoloji mədəniyyəti kiçik yaşda olan şagirdlərdə aşılamaq önəmli istiqamətlərdən sayılır. Yetişən gənc nəsilə verilən ekoloji tərbiyə mühafizəkar təbiət yaratmaq deməkdir. Bu tədqiqatda ibtidai siniflərdə ekoloji mədəniyyətin formalaşdırılması yollarını müəyyənləşdirmək məqsədilə əsasən nəzəri və empirik yanaşmalardan istifadə olunmuşdur. Ekoloji mədəniyyətin inkişafını ibtidai sinifdə təlim-tərbiyə prosesində aşılayaraq şagirdlərə təbiətlə bağlı söhbətlər etmək, diskussiyalar aparmaq, ekskursiyalar təşkil etmək, ekoloji oyunlar təşkil etmək mühüm məsələlərdəndir. Həmçinin, ibtidai sinifdə "Həyat bilgisi", "Azərbaycan dili" dərsliklərində olan təbiətə qayğıkeş münasibəti aşılayan mövzuların ekoloji tərbiyənin formalaşması və inkişafında mühüm rola malik olduğu vurğulanmışdır.

Author(s):

Irana Gurbanova
Nakhchivan Teachers Institute
Master student
E-mail: iranebesirzade592@gmail.com

Key words: teaching, student, ecological culture, ecological upbringing, ecological game

Ways of forming ecological culture in the process of teaching subjects in primary classes

Abstract. In the article it was stated that, increase of ecological problems, globalization, happened wars, release of noxious gases into the atmosphere and other factors cause to the disorder of ecological balance and for overcoming this the issues of focusing on organizing ecological upbringing of young schoolchildren were noted. İnorder to overcome these ecological problems the apply of ecological culture to younger pupils is considered one of the important directions. Providing ecological upbringing to the growing generation means fostering a conservative approach to nature. For the purpose defining formation ways of ecological culture in primary classes theoretical and empirical approaches were used. Applying the development of ecelogical upbringing in primary classes in the teaching-upbringing process and engaging students in discussions about nature, organizing excursions, conducting discussions and organizing ecological games are of great importance. Additionally, topics in primary school textbooks such as "Nature science" and "Azerbaijani language" that encourage careful attitude toward nature are of great importance in the formation and development of ecological upbringing.

Автор(ы):

Ирана Гурбанова
Нахчыванский институт учителей
Магистрант
Э-почта: iranebesirzade592@gmail.com

Ключевые слова: обучение, ученик, экологическая культура, экологическое воспитание, экологическая игра

Пути формирования экологической культуры в процессе преподавания предметов в начальных классах

Аннотация. В статье указывается на актуальность работы по таким вопросам, как воспроизводство экологических проблем, глобализация, возникновение войн, наличие вредных газов, выбрасываемых в воздух, и другие факторы, приводящие к нарушению экологического баланса, во избежание чего повышается особое внимание к организации экологического воспитания младших школьников. Чтобы избежать этих экологических проблем, важным направлением считается привитие экологической культуры учащимся младшего школьного возраста. Экологическое воспитание, данное подрастающему молодому поколению, означает создание консервативной природы. В данном исследовании были использованы в основном теоретический и эмпирический подходы с целью определения путей формирования экологической культуры в начальных классах. Прививая развитие экологической культуры в учебно-воспитательном процессе в начальной школе, учащимся важно вести беседы о природе, вести дискуссии, организовывать экскурсии, экологические игры. Также было подчеркнуто, что темы, воспитывающие бережное отношение к природе, содержащиеся в учебниках «Познание мира», «Азербайджанский язык» в начальных классах, играют важную роль в формировании и развитии экологического воспитания.

Giriş. Müasir dünyada ekoloji problemlərin artması ekoloji mədəniyyətin formalaşdırılmasını mühüm vəzifələrdən birinə çevirir. İnsanların ətraf mühitə münasibəti erkən yaşlardan formalaşdığı üçün ibtidai təhsil dövrü bu prosesdə xüsusi əhəmiyyət kəsb edir. Məktəbdə tədris olunan müxtəlif fənlər vasitəsilə şagirdlərdə təbiətə qayğıkeş münasibət, ekoloji dəyərlər və ekoloji davranış vərdişləri aşılanır.

Bu araşdırmada ibtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılmasının əsas yolları, metodları və əhəmiyyəti araşdırılmışdır. Eyni zamanda, inteqrativ yanaşmanın və interaktiv tədris üsullarının bu istiqamətdə rolu vurğulanmışdır. Tədqiqatın aparılmasında əsas məqsəd ekoloji maarifləndirmənin kiçikyaşlı məktəblilərin dünyagörüşünə və davranışlarına necə təsir etdiyini müəyyən etməkdən ibarətdir.

Təbii resursların səmərəli şəkildə istifadəsi nəticəsində ətraf aləmin çirklənməsinin qarşısının alınması əsas məqsəd və qlobal problem kimi qarşıya qoyulmuş məsələdir.

Bu kimi məsələlərə duyarlı olmaq üçün isə dünyada bir çox ekoloji problemlərin həllinə yönəlmiş tədbirlərdə ölkəmizin iştirakı görülməkdədir. Bunlardan ən nüfuzlusu olan COP29-un bu il Azərbaycanda keçirilməsi nümunə göstərilə bilər. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu istiqamətdə görülən işlərdən biri olaraq yaşıl enerji növlərinin yaradılması əsas prioritet hesab edilir. Həmçinin, qarşıya qoyulan əsas məsələlərdən biri də insanların iqlim dəyişikliyinin səbəbləri, nəticələri, həll yolları barədə maarifləmməsidir. Təbii ki, bu proses erkən yaşlardan başlanılmalıdır. Təlim prosesi isə daha məqsədyönlü şəkildə təşkil olunarsa müsbət nəticələr əldə etmək olar.

Ekoloji biliklər müddəasına uyğun olaraq insan və təbiət arasında qarşılıqlı harmoniyaya əsaslanan bilikləri inkişafda olan gənc nəslə mənimsətmək vacib məsələdir. Ekoloji mədəniyyətin bünövrəsini, təbiəti qorumaq və onu sevmək təşkil edir. İnsan təbiətin üzvü sayılır, təbiət də onu yaşadır, zəruri ehtiyaclarını qarşılayır. Ekoloji tərbiyəyə kiçik yaşlardan başlamaqla, uşaqlara təbiəti sevdirmək, canlılara qarşı mərhəmət hissini formalaşdırmaq lazımdır. Bununla lap erkən yaşlarda uşaqlarda ekologiyaya sevgi yaranır, ekoloji mədəniyyətin bünövrəsi qoyulur.

Ekoloji mədəniyyət ölkənin ekoloji təhlükəsizliyinə, insanın ətraf mühitlə əlaqəsinə dair elmi biliklərin məcmusudur. Ekoloji mədəniyyət yalnız təbiətə baxış sayılmır, həm də insan fəaliyyəti ilə bağlıdır. Şagirdlərin fəaliyyətində nəzəri, praktik biliklər arasındakı ziddiyətləri aradan qaldırmağa imkan verir. Kiçikyaşlı məktəblilərdə təbiət, ətraf mühit amillərinə olan münasibəti "Həyat bilgisi", "Azərbaycan dili" dərsliklərində rast gəlmək mümkündür. Bu mövzulara şagird toxunmaqla təbiətə, ekologiyaya münasibətini öyrənir, yeni məlumatlar əldə etməyə nail olur, insan həyatı və sağlamlığının qorunması ilə bağlı zəruri qaydaları öyrənmiş olur, humanistlik, mərhəmətlilik kimi ali hisslər aşılanır.

II sinif "Azərbaycan dili" dərsliyində "Təbiətin sirləri" adlı fəsil aşağıdakı paraqraflara bölünmüşdür: "Təbiət hadisələri", "Heyvanlar aləmi", "Bitkilər aləmi". Bu paraqraflarda şagirdlər qar, dolu, yağış kimi təbiət hadisələrini fərqləndirir, qar və yağışın yağmasının su ehtiyyatını zənginləşdirdiyini dərk edir, bitki və ağac örtüyünün inkişafına faydasını anlayırlar. Bu zaman müəllimin bələdçiliyi ilə şagirdlər rollu oyun vasitəsilə öyrəndiklərini nümayiş etdirə bilərlər. Bu zaman şagirdlər nəzəri biliklərlə yanaşı, praktik olaraq da öyrəndiklərini tətbiq edə bilərlər. Həmçinin, şeir nümunələrinin vasitəsilə ekoloji dünyagörüşün mənasını dərk edə bilərlər.

"Su olmasa quruyar,
Kollar, güllər, ağaclar.
Gün altında qovrulan,
Çiçəklənən ağaclar"

R.Yusifoğlu [3, s.64].

Ekoloji tərbiyə bitki örtüyünün qorunması ilə yanaşı, heyvanlar aləminin də təbiət üçün önəmli olduğunu ortaya qoyur. Dərslikdə şagirdlər həm də, heyvanları yaşama, qidalanma tərzlərinə görə tanıyar və əhəmiyyətini öyrənirlər.

"Ətyeyən yırtıcıdır,
Meşələrdə yaşayır.
Sinəsi ağ,gözləri
Şir gözünə oxşayır"

R.Rza [3, s.66].

Bitkilərin faydalı xüsusiyyətlərini öyrənirlər.

"Deyərlər:-Neçə dərdin
Dərmanıdır Qantəpər"
Z.Xəlil [3, s.76].

"Həyat bilgisi" dərsliyində isə II sinif üçün "Canlılar" adlanan bölmə ayrılmışdır ki, bu bölmə ekoloji tərbiyə və ətraf mühit məsələsinə həsr edilmişdir. "Ehtiyatlı davranaq" adlı bölmənin "Təbii fəlakətlər" adlı paraqrafında sel, zəlzələ, sürüşmə və s. kimi çətin durumlarda şagirdlərə hansı tədbirlər görmək, hansı addımlar atmaqla bağlı tövsiyələr verilir. Bundan əlavə, hava, su, Günəş işığının əhəmiyyətindən bəhs edilir [4, s.73; 87].

Dərsdənkənar işlərdə daha əhəmiyyət kəsb edən dərs prosesinin qurulması həssas və qayğıkeş mühitin formalaşmasına təsir edir. Şagirdlərə ekoloji tərbiyə, ekoloji mədəniyyət sahəsində biliklər vermək təbii ki, ibtidai sinif müəlliminin üzərinə düşür. Səriştəli müəllim dərsliklərdə olan məlumatı daha interaktiv, yeni texnologiya əsaslı təqdim etməlidir. Bunun üçün müəllim havanın təmizlənməsi baxımından sinifdə dibçəklərdə gül qoya bilər, öyrətmə məqsədi ilə şagirdlərdən növbə ilə güllərə qulluq etməsini (su verələrini, tökülən yarpaqları yığmalarını və s.) istəyə bilər. Bu ekoloji tərbiyə şagirdlərə müsbət təsir edəcəkdir, həm də bitkilərin faydasını öyrənmiş olacaqlar. Yaxud, məktəbin həyətində ağac əkərək müəllim bütün şagirdləri kiçik də olsa həmin prosesdə iştirak etməyə cəlb edə bilər.

Şagirdlərin çox sevdiyi dənizə tullantılar atmağın ekologiyamıza vurduğu zərbədən danışmaq, əyani olaraq göstərmək daha effektli üsul ola bilər. Həmin çirkli suların sağlamlığımızda hansı təhlükələr yarada biləcəyini izah etməklə müəllim qarşıya qoyduğu məqsədə çata bilər. Kənd yerlərində yaşayan insanların faydalı ağacları, xüsusən, nəsli bitməkdə olan ağacları kəsərək yandırmalarından, ovlanması qadağan olunan heyvanların ov məqsədi ilə vurulmasının təbiətə vurduğu ziyandan danışmaq olar. Onu da qeyd etmək lazımdır ki, dövlətimiz də ekologiyamızı qorumaq məqsədi ilə nəzarət sektorları yaratmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində yaradılan qurumlar var ki, qanunsuz ağac kəsimlərinə, qadağan olunmuş heyvanların ovlanmasına nəzarət edir. Bu qaydaları pozan şəxslər cəzalandırılır.

Maarifləmə işinin əsas addımlarından biri ekoloji oyunların təşkil edilməsidir. Ekoloji oyunların keçirilməsi gənc nəslin tərbiyə edilməsində effektini göstərən amillər sırasındadır. "Ekoloji oyunlar yeddi növə ayrılır:

1.Kommunikativ ekoloji oyunlar
2.Maarifləndirici ekoloji oyunlar
3.Hissiyyatlı ekoloji oyunlar
4.Emosional mühitdə inkişaf etdirilən oyunlar
5.Əyani vəsaitlərdən təşkil olunmuş oyunlar
6.Psixoloji mətnlərdən istifadə etməklə olan oyunlar
7.Ssenarili oyunlardan istifadə etməklə olan oyunlar" [1, s.65].

Ekoloji oyun oynayan zaman şagirdlər praktik bacarıqlara yiyələnmiş olurlar. "Siçan və pişik", "Xoruz döyüşü", "Heyvanların bəhsi" və krossvord tipli oyunları misal göstərə bilərik [5].

Beləliklə, şagirdlərdə erkən yaşlarda təbiətə qayğı hissinin formalaşdırılması əsasdır. Sinif şagirdlərinin maarifləmməsinin, ekologiyamızın qorunmasının vacibliyini nəzərə alaraq diskussiyalar, tədbirlər, dəyirmi masalar təşkil olunmalı, onlara öyüd, nəsihət və tövsiyələr verilməlidir. Ekoloji cəhətdən duyarlı, formalaşan insanlar yetişdirmək məqsədilə təlim prosesində dərsliklərdə olan mövzulardan geniş şəkildə yararlanmaq müsbət nəticələrə gətirib çıxara bilər. Bunun üçün oyunlardan istifadə, müəllimlərin bu oyunları şagirdlərin fərdi xüsusiyyətlərinə görə qurması əsas məsələlərdəndir. Həmçinin, kütləvi informasiya vasitələrində kiçikyaşlı məktəbliləri nəzərə alaraq ekoloji mədəniyyəti formalaşdıran ekoloji tərbiyə xarakterli məqalələrin yazılması, verilişlərin yayımlanması bu istiqamətdə aparılan işlərə böyük töhfə verə bilər [2, s.21-22].

İşin nəzəri və praktik əhəmiyyəti. Tədqiqat materialları və alınan nəticələrdən ibtidai siniflərdə və pedaqogika kursunun müvafiq mövzularının öyrənilməsində istifadə edilə bilər. Kiçik məktəbyaşlı şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılmasının pedaqoji şərtlərinin müəyyənləşməsi, onlardan təlim-tərbiyə prosesində istifadə edilməsi tərbiyə nəzəriyyəsinin zənginləşməsinə səbəb ola bilər.

Material və metodlar. Bu tədqiqatda ibti-

dai siniflərdə ekoloji mədəniyyətin formalaşdırılması yollarını müəyyənləşdirmək məqsədilə əsasən nəzəri və empirik yanaşmalardan istifadə olunmuşdur. Nəzəri əsas kimi ekoloji tərbiyə, ekoloji mədəniyyət, ibtidai təhsildə fənlərin rolu və interaktiv təlim metodlarına dair elmi ədəbiyyat təhlil edilmiş, Azərbaycan Respublikasının qanunvericilik sənədləri həmçinin ekoloji tədbirlərlə bağlı dövlət proqramları əsas götürülmüşdür.

Empirik mərhələdə isə tədris prosesində istifadə olunan dərsliklərin – xüsusilə "Azərbaycan dili" və "Həyat bilgisi" fənlərinin – ekoloji məzmunlu bölmələri təhlil olunmuş, bu bölmələr vasitəsilə şagirdlərə verilən ekoloji mesajlar və öyrədici məzmunlar müəyyənləşdirilmişdir. Eyni zamanda müəllimlərin tətbiq etdiyi tədris metodları – müzakirələr, ekskursiyalar, rollu və ekoloji oyunlar kimi interaktiv yanaşmaların təsir effektivliyi qiymətləndirilmişdir.

Material kimi dərslik mətnləri, şeirlər, maarifləndirici oyun nümunələri, real təlim prosesindən müşahidələr və müəllim təcrübələri əsas götürülmüşdür. Bu yanaşma, şagirdlərin ekoloji davranış vərdişlərinin formalaşma səviyyəsini təhlil etmək və praktik nəticələrə əsaslanaraq tövsiyələr vermək imkanı yaratmışdır.

Nəticə və müzakirələr. İbtidai siniflərdə fənlərin tədrisi prosesində ekoloji mədəniyyətin formalaşdırılması şagirdlərin təbiətə olan münasibətini və ekoloji biliklərini inkişaf etdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Ekoloji mədəniyyətin erkən yaşlardan aşılanması uşaqlarda təbiətə qarşı qayğıkeşlik, ekoloji məsuliyyət və davamlı inkişaf prinsiplərinə uyğun davranış formalaşdırmağa kömək edir.

Araşdırma göstərir ki, tədris prosesində ekoloji mövzuların müxtəlif fənlərə inteqrasiya edilməsi, interaktiv təlim metodlarından istifadə olunması və təcrübəyə əsaslanan ekoloji tədrisin təşkili ekoloji şüurun inkişafına müsbət təsir göstərir. Riyaziyyat, ana dili, həyat bilgisi, təbiət və digər fənlər vasitəsilə uşaqlara ətraf mühitin qorunması ilə bağlı biliklərin verilməsi onların dünyagörüşünün formalaşmasına kömək edir.

Sevinc Vəliyevanın "Kiçikyaşlı məktəblilərin təbiətə həssas və qayğıkeş münasibətin formalaşdırılması yolları" adlı elmi işində ibtidai siniflərdə ekoloji davranış, təbiətə qarşı məsuliyyətlilik və empatik münasibətlərin formalaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Müəllifin yanaşmasına əsasən, uşaqlara praktiki və təbiətə qarşı təsirlilik yalnız biliklərlə deyil, emosional yanaşmalarla da saxlanmalıdır. Bu maddələrin təsirləri ilə əlaqəli təmasda olması, aşkarlanma vasitələrinin inkişaf etdirilməsi və real həyatda tətbiqi istifadə edilən təcrübələrlə təchiz edilmiş təlim mühitinin yaradılması ilə mümkündür. O, kiçikyaşlı məktəblilərin psixoloji və yaş xüsusiyyətlərini yaxşılaşdıran əyləncəli oyunlar, rollu və ekoloji, təbiət mövzulu rəsm, şeir, hekayə yaratmaq, kollektiv tapşırıqlar və ekskursiyalar əsasında bu münasibətin dərinləşdirilməsi ilə əlaqədardır.

Yekun nəticə. Apardığımız tədqiqat təsdiq etdi ki, əgər müxtəlif istiqamətli pedaqoji şərtlərdən istifadə edilsə, davamlı şəkildə sistematik olaraq idraki və praktik fəaliyyət aparılsa, kiçik məktəbyaşlı şagirdlərin ekoloji mədəniyyətinin formalaşdırılması prosesi daha səmərəli olar.

Gələcəyin insanı ətraf mühitlə harmoniyada yaşayan, ekoloji zərurət hüdudlarında hərəkət edən, fəaliyyət göstərən şəxsdir. Ekoloji mədəniyyət formalaşdırılması insanın onu əhatə edən mühitə mənsub olduğunu, bu mühitlə vəhdət təşkil etdiyini dərk etməsi deməkdir.

Bundan əlavə, məktəbdənkənar fəaliyyətlər, ekskursiyalar, ekoloji layihələr və təbiətlə birbaşa ünsiyyətin təmin edilməsi də ekoloji mədəniyyətin formalaşmasında vacib rol oynayır. Ekoloji problemlərin həllində şagirdlərin fəal iştirak etməsi onların məsuliyyət hissini artırır və ekoloji dəyərləri həyat tərzinə çevirməsinə şərait yaradır.

Nəticə etibarilə, ibtidai siniflərdə ekoloji tədrisin effektiv təşkili gələcək nəsillərin ekoloji baxımdan savadlı və məsuliyyətli vətəndaş kimi yetişməsinə şərait yaradır. Bu səbəbdən, tədris proqramlarında ekoloji maarifləndirməyə daha çox yer verilməsi və müəllimlərin bu sahədəki metodik biliklərinin artırılması vacibdir. Ekoloji mədəniyyətin erkən yaşlardan aşılanması yalnız fərdlərin deyil, bütövlükdə cəmiyyətin ekoloji rifahına töhfə verən mühüm addımdır.

Ədəbiyyat

1. Xəlilov, T. I–IV siniflərdə ekoloji mədəniyyət tərbiyəsinin aşılanması / T.Xəlilov, S.Məm-

mədova. – Naxçıvan: – 2022. – 76 s.
2. Azərbaycan dili: ümumi təhsil müəssisələrinin II sinfi üçün dərslik. – Bakı: Təhsil Nəşriyyatı, – 2021. – 160 s.
3. Həyat bilgisi: ümumi təhsil müəssisələrinin II sinfi üçün dərslik. – Bakı: Təhsil Nəşriyyatı, – 2024. – 120 s.
4. Vəliyeva, S.T. Kiçikyaşlı məktəblilərdə təbiətə həssas və qayğıkeş münasibətlər formalaşdırılması yolları: pedaqoji elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı / – Naxçıvan: – 2022. – 24 s.
5. https://www.ecoalem.org/az/?p=445
6. "Ekoloji təhsil və maarifləndirmə Strategiyası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı № 180 – URL: https://e-qanun.az/framework/27970

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 17.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 06.03.2025

UOT: 373.3:37.017
https://doi.org/10.30546/670832.2025.01.1109

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.64-66
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.64-66
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1,с.64-66

Kiçik məktəb yaşlı şagirdlərdə milli dəyərlərə münasibət hissinin formalaşdırılması məsələləri

Müəllif(lər):

Qönçə Gülmalıyeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: qonca1199@gmail.com

Açar sözlər: milli dəyərlər, dəyərlərə hörmət, mənəvi tərbiyə, milli ruh, pedaqoq, şagird

Annotasiya. Məqalədə ibtidai sinif şagirdlərinin milli-mənəvi dəyərlərə hörmət hissinin formalaşdırılmasının istiqamətləri, bu xüsusda klassiklərin fikirləri, bununla bağlı müsbət məqamların əhəmiyyəti araşdırılmışdır. Həmçinin, xalqların, etnik qrupların min illər boyu istifadə etdiyi, formalaşdırdığı mütərəqqi məzmuna malik milli dəyərlər, adət-ənənələr, onların məzmun xüsusiyyətləri şərh olunur. Milli-mənəvi dəyərlər xalqın idealının təmsilçisi, fərdin münasibətlərini və fəaliyyətinin tənzimləyicisi potensialına malikdir. Milli dəyərlər cəmiyyətin fəaliyyətini dəstəkləyir və onun inkişafı və təkmilləşdirilməsi amili kimi çıxış edir. Qeyd olunur ki, milli dəyərlər haqqında mütəfəkkirlərin, klassik pedaqoqların böyüyən nəslin, uşaqların, şagirdlərin tərbiyəsində yeri və rolu da işıqlandırılmışdır. Milli dəyərlərə hörmət hissinin formalaşdırılması məhz kiçik yaşlardan başlanılmalıdır. Gələcək nəsli xüsusilə, aşağı yaş qrupunu milli əxlaqımızın tələb etdiyi anlayışları əsas götürməklə böyütmək, inkişafını təmin etmək böyük əhəmiyyətə malikdir. Milli dəyərlərimizin prinsiplərini elə tətbiq etmək nəzərdə tutulur ki, onların bütün şagirdlərin rəftarlarında, davranışlarında, qarşılıqlı münasibətlərində mühüm əsaslı yer tutsun. Əsasən bu istiqamətdə fənlərin tədrisi prosesində müəllimin sərişətli mövqeyi olmalıdır. Belə ki, gələcəyin əsl vətəndaşını böyütmək valideynlərdən sonra müəllimin fəaliyyətindən asılıdır.

Author(s):

Goncha Gulmaliyeva
Nakhchivan Teachers Institute
Master student
E-mail: qonca1199@gmail.com

Key words: national values, respect for values, moral education, national spirit, pedagogue, pupil

Issues in the formation of primary school pupils' attitudes towards national values

Abstract. This article explores the directions of fostering respect for national and moral values among primary school pupils, drawing on the views of classical scholars and emphasizing the significance of positive aspects in this process. It also analyzes the content characteristics of national values and traditions with progressive meaning, which have been practiced and shaped by nations and ethnic groups for thousands of years. National and moral values embody the ideals of the people and possess the potential to regulate individuals' relationships and activities. They support the functioning of society and serve as a driving force for its development and improvement. The study highlights the place and role of thinkers and classical pedagogues in shaping the upbringing of the younger generation, including children and pupils, with regard to national values. The cultivation of respect for national values should begin from an early age. Nurturing the future generation particularly younger age groups on the basis of the concepts required by our national morality and ensuring their development is of paramount importance. The principles of our national values should be applied in such a way that they hold a fundamental place in pupils' behavior, conduct, and mutual relations. In this process, the teacher's competence and professional stance in the teaching of subjects play a decisive role. Ultimately, following the parents, the responsibility for raising a true citizen of the future rests upon the teacher's activity.

Автор(ы):

Гёнча Гюльмалиева
Нахчыванский институт учителей
Магистрант
Э-почта: qonca1199@gmail.com

Ключевые слова: национальные ценности, уважение к ценностям, духовное воспитание, национальный дух, воспитатель, ученик

Вопросы формирования у младших школьников чувства уважения к национальным ценностям

Аннотация. В статье рассмотрены направления формирования у младших школьников чувства уважения к национально-нравственным ценностям, в частности, идеи классиков, значение положительных моментов в связи с этим. Также трактуются национальные ценности, традиции, особенности их содержания, имеющие прогрессивное содержание, которые народы, этнические группы использовали, формировали на протяжении тысячелетий. Национально-нравственные ценности обладают потенциалом представителя идеала народа, регулятора отношений и деятельности личности. Национальные ценности поддерживают функционирование общества и выступают фактором его развития и совершенствования. Отмечено также место и роль мыслителей о национальных ценностях, педагогов-классиков в воспитании подрастающего поколения, детей, учащихся. Формирование чувства уважения к национальным ценностям следует начинать именно с раннего возраста. Большое значение имеет воспитание, развитие следующего поколения, в частности, младшей возрастной группы, на основе понятий, требуемых нашей национальной моралью. Предполагается применять принципы наших национальных ценностей таким образом, чтобы они занимали важное фундаментальное место в отношениях, поведении, взаимодействии всех учащихся. В основном в процессе преподавания предметов в этом направлении должна присутствовать компетентная позиция учителя. Так, воспитание истинного гражданина будущего зависит от деятельности воспитателя после родителей.

Hər bir xalqın milli dəyərləri - ədəbiyyat, musiqi, memarlıq, həm də bilməli olduğu doğma ana dili, yadda saxlamalı olduğu tarixi və hörmət etməli olduğu digər dəyərlər milləti gələcəyə aparır. Belə bir ali ideyanı rəhbər tutmağı həmişə diqqətə çəkən ümummilli lider Heydər Əliyev söyləyirdi. "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, Milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən, gənc vətənpərvər ola bilməz" [2,s.357-358].

Dahi siyasət xadimi özünün nitq və çıxışlarında milli ideologiyamızın, azərbaycançünaslığın konsepsiyasını hazırlayanda əsasında milli dəyərlərimizi, xəlqi ənənələrimizi əsas tutmağı vacib hesab edərək qeyd edirdi ki, "Bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini dəyərlərimiz üzərində qurulmalıdır" [2, s.285].

Hazırkı qloballaşma dövründə hər bir dövlət öz mentalitetini və kimliyini, milli dəyərlərini qoruyub saxlamağa çalışır. Bu işdə təhsil xüsusi çəkiyə malikdir. Proqnoz vermək çətin deyil ki, yaxın gələcəkdə təhsil sistemimizin maddi - texniki bazası beynəlxalq standartlara tam cavab verəcəkdir. Təhsil sisteminin əsas məqsədi milli və ümumbəşəri dəyərləri təbliğ etmək, şəxsiyyətin formalaşması, elm və praktikada nailiyyətlər əldə etmək, o cümlədən yüksək keyfiyyətli təhsil almaq üçün şərait yaratmaq, peşə hazırlığı, mənəvi, fiziki və yaradıcılıq, şəxsi inkişaf və özünüdərk yolu ilə sağlam həyat tərzini yaratmaq və inkişaf etdirmək bacarığını formalaşdırmaqdan ibarətdir.

Mütəfəkkir pedaqoqların fikrincə, milli dəyərlər, mütərəqqi məzmuna malik adət-ənənələr arzu olunan idealın şüurlu kollektiv ideyasını təmsil edir və fərdin münasibətlərini və fəaliyyətini tənzimləmək, cəlbedici şəxsi keyfiyyət və xassələri inkişaf etdirmək potensialına malikdir. Bundan əlavə, dəyərlər cəmiyyətin fəaliyyətini dəstəkləyir və onun inkişafı və təkmilləşdirilməsi amili kimi çıxış edir.

K.D.Uşinskinin pedaqoji irsi milliyyət, milli dəyərlər haqqında tezisin başa düşülməsi və dərk edilməsi üzərində qurulub. "Təhsilin hər zaman arxalana biləcəyi bircə anadangəlmə meyl var: millilik... Təhsil gücsüz olmaq istəmirsə, milli olmalıdır" [6, s.252]. Pedaqoji təlimin ən mühüm prinsipi kimi millilik K.D.Uşinskinin sosial - fəlsəfi baxışının əsaslarını təmsil edir. O haqlı olaraq ana dilini kitab, məktəb olmayanda xalqa dərs deyən və milli tarixi sonuna qədər öyrətməkdə davam edən ən böyük xalq müəllimi adlandırırdı.

XX əsrin əvvəllərində cəmiyyətin dəyərləri və dövlət məktəblərinin təşkili ilə bağlı ümumbəşəri və milli anlayış inkişaf etdi. Bu dövrün görkəmli alim-müəllimləri P.F.Kapterev, M.M.Rubinşteyn sosial hadisələrin bu iki xüsusiyyəti arasındakı genetik əlaqəni inandırıcı şəkildə göstərə bildi. P.F.Kapterevə görə, milli olan xüsusi, fərdi, lakin dondurulmuş deyil, həyatın iqtisadi, siyasi, sosial strukturunda dəyişikliklərlə dəyişən bir şeydir. Milli olan yaranır, tarix, iqlim, ölkə, irsiyyətin qüdrətli qüvvəsi və s. şəxsiyyətin fiziki və psixi tipində, dünyagörüşünün müstəqilliyində, həyata orijinal baxışında və xüsusi dəyərli göstərişlərdə ifadə olunur. P.F. Kapterev deyirdi: "Milliyyət" - öz yolunuzdan, öz xüsusi düşüncə tərzimizdən, hisslərimizdən və hərəkətlərimizdən başqa bir şey deyil" [4, s.12].

Hər bir xalqın həyatının ən dərin təməllərindən gələn öz idealları var. Onlar xalq həyatından, dildən, dindən, keçdiyi tarixi yoldan yaranır və inkişaf edir, qapalı üzvi bütövlük yaradır. P.F. Kapterev yazırdı ki, əgər milli idealların çatışmazlıqlarını dərk etmək və onları təkmilləşdirmək istəyi varsa, o zaman "xalq yad ilə, milli və ümumbəşəri ilə birləşdirilməlidir" [4, s.57]. M.M.Rubinşteyn milli və ümumbəşəri dəyərləri, bəşəriyyət arasındakı münasibəti bir qədər fərqli şəkildə qurur. O, milli olanı ümumbəşəri ideal və dəyərlərə aparan yolun təməli, başlanğıcı olduğu qənaətinə gəlirdi. Müəllif perspektivli sosial - pedaqoji strategiyanı ortaya qoyaraq sübut edir ki, "millilik hər hansı bir təhsilin yolu kimi, ümumbəşəri isə məqsəd kimi çıxış etməlidir" [5, s.38].

M.M.Rubinşteyn iddia edir ki, yalnız milli dəyərlər ümumbəşəri dəyərləri mənəvi məzmunla doldurur, ümumbəşəri dəyərlər isə fərdləri qərəzli dünyagörüşündən və yalançı vətənpərvər-

lik ikiüzlülüyündən azad edər. O, hesab edir ki, "hər bir xalq üçün ümumbəşəri dəyərlərin "daşıyıcısı və yaradıcısı" kimi çıxış etmək vacibdir və xüsusən də xalq ədəbiyyat, incəsənət və elm vasitəsilə "ümumbəşəri mədəniyyətin" dirijoru olması ilə fəxr edə bilər" [5, s.38].

Milli dəyərlər tarixi inkişaf zamanı geopolitikaya uyğun olaraq cəmiyyətin maddi və mənəvi mədəniyyətinə, ölkənin vəziyyətinə uyğun olaraq formalaşmışdır. Bunlar, ilk növbədə, əxlaqi-etik olmaqla orijinallığı ifadə edən fikir və normalar, insanların xarakter xüsusiyyətləri, adət-ənənələr və həyat tərzi, ən vacib ehtiyaclar kimi üzə çıxır. Obrazlı desək, onlar insanın mənəvi həyatınının, ən yaxşı xüsusiyyətləri və keyfiyyətlərinin sintezini, özəyini təmsil edirlər. Milli dəyərlər insanın və vətəndaşın həyat mövqeyi, cəmiyyətə və dövlətə münasibəti, öz ölkələrinin keçmişi, bu günü və gələcəyinin təminatçısıdır. Milli dəyərlərin qorunub saxlanılması üçün məsuliyyət vacibdir və bu cəhət milli sərvətin artırılmasını müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş milli dəyərləri böyüyən nəslin tərbiyəsinin formalaşdırılması üçün əsaslı mənbədir.

V.A.Suxomlinski əsərlərindən birində yazırdı ki, insanın mənəvi cəhətdən formalaşması, onun özünü təkrarlaması, oğlunda və qızında özünü təkmilləşdirməsi nəcib vətəndaş yaradıcılığıdır. Təəssüf ki, bütün müasir valideynlər belə "yaradıcılığa" hazır deyillər. Buradan belə nəticə çıxır ki, təhsil prosesinin tam hüquqlu subyektləri kimi valideynlərin psixoloji və pedaqoji maarifləndirilməsinə təcili ehtiyac var.

Tədqiqatçı A.Y.Danilyuk əsas milli dəyərləri "çoxmillətli xalqının mədəni, ailəvi, sosial-tarixi, dini ənənələrində mövcud olan, nəsildən-nəslə ötürülən və uğurlu inkişafını təmin edən əsas mənəvi dəyərlər, prioritet əxlaqi qaydalar" hesab edir. Müəllif bunlara aşağıdakılar daxil edir: "vətənpərvərlik, vətəndaşlıq, ictimai həmrəylik, insanlıq, elm, ailə, əmək və yaradıcılıq, incəsənət və ədəbiyyat, təbiət" [3, s.134].

Milli dəyərlərin formalaşdırılmasında ailənin yeri və rolu intəhasızdır. Ancaq bu proses məktəbdə də davam etdirilməlidir. Əsasən də məktəbdə təlim prosesində öyrənərək, dərk edilərək milli dəyərlərə münasibət hissini dərinləşdirmək olar.

Beləliklə, göstərməliyik ki, əsas milli dəyərlər bütün tarixi və mədəni tamlığı və etnik müxtəlifliyi ilə xalqın milli həyatından irəli gəlir. Milli həyat sferasında əxlaqın və insanlığın qaynaqlarını, yəni sosial münasibətlərin, fəaliyyətin və şüurun o sahələrini ayırd etmək olar ki, bunlara arxalanmaq insana dağıdıcı təsirlərə qarşı durmağa, öz şüurunu, məişətini, özünü məhsuldar şəkildə inkişaf etdirməyə imkan verir.

Ədəbiyyat

1. Cəfərova, M.V. Musiqi məşğələlərində muğamların öyrənilməsi zamanı yuxarı sinif şagirdlərində mənəvi keyfiyyətlərin formalaşdırılması yolları: / pedaqogika üzrə fəlsəfə doktoru dis. / – Naxçıvan, – 2017. – 144 s.
2. Mərdanov, M.C. Heydər Əliyev Təhsil millətin gələcəyidir / M.C.Mərdanov, Ə.Q.Quliyev. – Bakı: – 2002, Təhsil, – 580 s.
3. Данилюк, А.Я. Концепция духовно-нравственного развития и воспитания личности гражданина России [Текст] / А.Я. Данилюк, А.М.Кондаков, В.А.Тишков// стандарты второго поколения. – М.:, Просвещение, – 2009. – 148 с.
4. Каптерев, П.Ф. Национальность и наука в организации народной школы // Народная школа. – 1987. № 6 - 7.
5. Война и идеал воспитания: к вопросу о национализме в педагогике. – М:, – 1916. – 43 с.
6. Ушинский, К.Д. Собрание сочинений, в 11 т. Л., – 1948. Т.2. 647 - с

Məqalə pedaqogika üzrə elmlər doktoru, dosent Kamal Camalov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 19.02.2025, qəbulolunma – 06.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.67-70
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.67-70
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.67-70

UOT: 378 +616.71:796.012
https://doi.org/10.30546/670832.2025.01.908

Müalicəvi fiziki tərbiyə üzrə məşğələlərin istiqamətləri və təşkili formaları

Müəllif(lər):

Səbinə Aslanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-poçt: sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

Açar sözlər: müalicəvi fiziki tərbiyə, fərdi məşğələlər, qrup məşğələləri, xüsusi qayğı, reabilitasiya, planlaşdırma, metodika

Annotasiya. Müasir tibbi-reabilitasiya sahəsində müalicəvi fiziki tərbiyə xəstələrin və sağlamlıq imkanları məhdud şəxslərin bərpasında mühüm rol oynayır. Bu metod orqanizmin funksiyalarının bərpasını, psixoemosional vəziyyətin stabilləşməsini və həyat keyfiyyətinin yüksəlməsini təmin edir. Məqalədə fərdi və qrup məşğələlərinin təşkili metodları təhlil edilmiş, onların effektivliyinin artırılması yolları təqdim edilmişdir. Tədqiqat xüsusi qayğıya ehtiyacı olan uşaqlar üzərində aparılmışdır. Fərdi məşğələlər iki formada tətbiq olunmuşdur: tək və qrup məşğələləri ilə paralel. Fərdi dərslər gündə 2 dəfə, 25-45 dəqiqə müddətində keçirilmiş, üç hissəli sxem üzrə təşkil olunmuşdur: (i) diqqət və tənəffüs məşqləri, (ii) ixtiyari hərəkətlərin bərpası və motor bacarıqlarının inkişafı, (iii) oyun tapşırıqları və nitq terapiyası. Qrup məşğələləri 4–10 nəfərlik qruplarda aparılmış, motor qabiliyyətlərin normallaşdırılması, hərəkət koordinasiyasının inkişafı və sərbəst hərəkət fəaliyyətinin təşkili məqsədi ilə planlaşdırılmışdır. Hər iki məşğələ forması 3-4 aylıq iş planına uyğun olaraq həftədə 3 dəfə həyata keçirilmişdir.

Tədqiqat göstərir ki, fərdi məşğələlərdə metodistlə iştirakçı arasındakı qarşılıqlı əlaqə, qrup məşğələlərində isə tapşırıqların adaptivliyi və koordinasiyanın tənzimlənməsi əsas uğur faktorudur. Ev tapşırıqları və davamlı təlim uşaqların müstəqil bacarıqlarının inkişafını dəstəkləyir.

Author(s):

Sabina Aslanova
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy on Pedagogy, Associate Professor
E-mail: sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

Key words: therapeutic physical education, individual studies, group studies, special care, rehabilitation, planning, method

Directions and organizing forms of therapeutic physical education studies

Abstract. İn the modern medical-rehabilitation field, therapeutic physical education plays an important role in the rehabilitation of patients and people with disabilities. This method ensures the restoration of body functions, stabilization of the psycho-emotional state and improvement of life quality. The methods of organizing individual and group studies are anlysed in the article and ways to increase their effectiveness are stated. The study was conducted on children being in need of special care. İndividual studies were applied in two forms: individualy and in parallel with group classes. İndividual studies were held twice a day, for 25-45 minutes and were organized according to a three-part scheme: (i) attention and breathing exercises, (ii) restoration of voluntary movements and development of motor skills, (iii) game tasks and speech therapy. Group classes were conducted in groups of 4-10 people and were planned with the aim of normalizing motor abilities, developing motor coordination and organizing free movement activity. Both forms of classes were carried out 3 times a week in accordance with a 3–4-month working plan.

Research shows that, the interaction between methodologist and participant during individual lessons and the adaptability of tasks and regulation of coordination during group lessons are the main success factors. Homework and continuous learning support the development of children's independent skills.

Автор(ы):

Сабина Асланова
Азербайджанский государственный педагогический университет
Доктор философии по педагогике, доцент
Э-почта: sabina-aslanova@bk.ru
https://orcid.org/0009-0001-4052-1631

Ключевые слова: лечебная физкультура, индивидуальные занятия, групповые занятия, особый уход, реабилитация, планирование, методика

Направления и формы организации занятий по лечебной физической культуре

Аннотация. В современной медико-реабилитационной сфере лечебная физкультура играет важную роль в оздоровлении больных и лиц с ограниченными возможностями здоровья. Этот метод обеспечивает восстановление функций организма, стабилизацию психоэмоционального состояния и повышение качества жизни. В статье проанализированы методы организации индивидуальных и групповых занятий, представлены пути повышения их эффективности. Исследование проводилось на детях, нуждающихся в особом уходе. Индивидуальные занятия практиковались в двух формах: параллельно с одиночными и групповыми. Индивидуальные занятия проводились 2 раза в день по 25-45 минут, организованные по трехчастной схеме: (I) упражнения на внимание и дыхание, (II) восстановление произвольных движений и развитие моторики, (III) игровые задания и логопедические занятия. Групповые занятия проводились в группах по 4-10 человек, планировались с целью нормализации двигательных способностей, развития координации движений и организации свободной двигательной деятельности. Обе формы обучения проводились 3 раза в неделю по плану работы на 3-4 месяца.

Исследование показывает, что в индивидуальных упражнениях основным фактором успеха является взаимодействие между методистом и участником, а в групповых упражнениях-адаптивность задач и корректировка координации. Домашние задания и непрерывное обучение способствуют развитию у детей самостоятельных навыков.

Giriş. Müasir dövrdə tibbi-reabilitasiya tədbirlərinin tərkib hissəsi kimi müalicəvi fiziki tərbiyə getdikcə daha geniş tətbiq olunur. Bu sahə xəstələrin və sağlamlıq imkanları məhdud şəxslərin bərpasında mühüm rol oynayır. Müalicəvi fiziki tərbiyə vasitəsilə orqanizmin funksiyalarının bərpası, psixoemosional vəziyyətin stabilləşdirilməsi və həyat keyfiyyətinin artırılması mümkün olur. Bu səbəbdən də müalicəvi fiziki tərbiyənin istiqamətləri və təşkili formalarının düzgün planlaşdırılması və həyata keçirilməsi tibbi-sosial reabilitasiyanın effektivliyini müəyyən edən əsas amillərdəndir. Müalicəvi fiziki tərbiyənin vəzifələrini açıqlayaraq, xüsusi qayğıya ehtiyacı olan şəxslərin uzunmüddətli, planlı və ardıcıl təhsil almasının vacibliyini dəfələrlə vurğulamışıq. Bu, yalnız xüsusi qayğıya ehtiyacı olan şəxslərin fərdi məşğələlərində deyil, həm də qrup məşğələləri üçün vacib bir tələbdir. Xüsusilə, xüsusi qayğıya ehtiyacı olan şəxslərin uzun müddət olduğu müəssisələrdə, məsələn, ixtisaslaşdırılmış sanatoriyalarda və ya internat məktəblərində və s. vacibdir.

Materal və metodlar.

1.Fərdi məşğələlər. Fərdi məşğələlərin iki variantı mümkündür: tək, müstəqil sinif forması olduqda və qrup məşğələləri ilə paralel olaraq keçirildikdə. Fərdi məşğələlər, bir qayda olaraq, qrup məşğələlərində hər hansı xüsusiyyətə görə (qeyri-adi hərəkətlilik səviyyəsi, əqli geriləmə və s.) iştirak edə bilməyən, xüsusi ağır uşaqlar üçün təyin edilir. Bir qayda olaraq, bu cür şəxslər üçün fərdi məşğələlər gündə, ən azı iki dəfə keçirilməlidir. İlk məşğələdə müəyyən olunmuş sxemə əsasən masaj üsulları ilə birlikdə (rahatlaşdıran və tonikləyən) passiv məşqləri seçmək olar. İkinci dəfə tam sxem üzrə məşğələlər tövsiyə edilə bilər.

Tam sxem üzrə fərdi dərslərin müddəti 25-30 dəqiqə ola bilər, masaj da daxil olsa 40-45 dəqiqəyə qədər çatar. Məşğələlərin dəqiq müddəti xəstənin ümumi vəziyyətindən, onun ağırlıq dərəcəsindən, metodistin qarşısında duran vəzifələrdən asılıdır. 30-35 dəqiqə davam edən dərslərdə, təşkilati tədbirlər olmadan, 3 hissədən ibarət olan ümumi dərs sxeminə riayət etmək olar.

I hissə - 5-7 dəqiqə - diqqət məşqləri, bərpaedici (ümumi möhkəmləndirici) və tənəffüs məşqləri.

II hissə - 20-25 dəqiqə - ixtiyari hərəkətlərin bərpası üçün xüsusi tapşırıqlar, motor bacarıqlarının, həkim tərəfindən tövsiyə olunan bəzi tapşırıqların öyrədilməsi.

III hissə - 3-5 dəqiqə - oyun tapşırıqları, tənəffüs təlimləri, şeir oxuması,nitq terapevtinin rəhbərliyi ilə müəyyən səslərin tələffüzü və s. [1,8-13]

Bu məşğələlərin vacib xüsusiyyəti ondan ibarətdir ki, əsas hissənin məzmunu sırf fərdlə uyğun olmalıdır. Buna görə də əksər hallarda uşaq tam mənimsəməyincə tələblər də heç bir dəyişiklik olmadan uzun müddət qalacaq. Eyni zamanda, birinci və üçüncü hissələrin məzmunu fərdi dərslərdə müəyyən müxtəliflik və emosional rəng təqdim edilərək dəyişdirilməlidir. Bununla əlaqədar olaraq, fiziki məşqlər üçün əvvəlcə ikinci hissənin məzmununu əsas məqam seçərək, sonra isə I və III hissələri təyin etmək lazımdır.

2. Fərdi məşğələlərin ikinci varinatı, qrup halında paralel olaraq keçirildikdə. Əlbəttə, qrup və fərdi məşğələlərin eyni şəxs tərəfindən keçirilməsi daha yaxşı nəticə verəcəkdir. Ancaq hər hansı bir səbəbdən bu mümkün deyilsə, qrup və fərdi dərsləri keçən şəxslər arasında sıx əlaqə qurulmalıdır. Bu əlaqə Xüsusi qayğıya ehtiyacı olan şəxs ilə ortaq bir tanışlıqdan başlamalı, şəxsin fərdi xüsusiyyətləri araşdırılmalı, sonra mövcud nailiyyətlər birgə yoxlanılmalı və yeni təyinatlar müəyyən olunmalıdır. Bundan başqa, həm aparıcı qrup məşğələləri, həm də aparıcı fərdi məşğələlərdə, xüsusilə də, əgər uşaq hansısa materialın mənimsənilməsində qrupdan geri qalırsa, müəyyən tapşırıqların daxil edilməsi haqqında bir-birinə göstərişlər verə bilərlər. Qrup məşğələləri ilə uyğunlaşdırılmış fərdi məşğələlər zamanı ümumi möhkəmləndirici tapşırıqlar qısaldıla və daha çox xüsusi tapşırıqlar saxlana bilər. Bununla əlaqədar dərslərin keçirilmə sxemi bir qədər dəyişə bilər. Məsələn: I hissə-seçmə masaj, istirahət üçün tapşırıqlar, tənəffüs tapşırıqları-5-7 dəqiqə; II hissə-yalnız xüsusi tapşırıqlar (3-4) və oyun tapşırığı-15-20 dəqiqə; III hissə-2-3 dəqiqə; cəmi 20-30 dəqiqə. Əlbəttə ki, həm fərdi, həm də qrup məşğələlərinin keçirilməsi zamanı təlimlərin seçilməsi və məşğələlərin keçirilməsi metodikası da müəyyən fizioloji yük əyriliyinə (mütənasibliyə) tabe olmalıdır. Ən tipik, tədricən

dərsin ikinci hissəsinin təxminən 2/3-ə qədər artması və sonra başlanğıc hissənin tədricən aşağı salınmasıdır.

3. Qrup məşğələləri. Qrup məşğələlərinin keçirilməsi üçün uşaqlar yaş xüsusiyyətlərindən, hərəkət pozulmalarının ağırlıq dərəcəsindən asılı olaraq 4 nəfərdən 10 nəfərə qədər birləşə bilər. Qrup məşğələlərinin keçirilməsində məqsəd bu qrup uşaqlar üçün ümumi hərəki pozulmaların və motor qabiliyyətlərinin təhlili əsasında onların fiziki tərbiyəsini daha səmərəli təşkil etmək, sərbəst hərəkət fəaliyyətinin normallaşdırılmasına çalışmaqdır.

Qrup məşğələləri, həmçinin, sağlam şəxslərin dərs sxeminə uyğun olaraq aparılır. Giriş hissəsi məşğələlər üçün qrup təşkil etmək məqsədi daşıyır. Burada diqqət tapşırıqları, konstruksiyalar, elementar oyun tapşırıqları üzrə təlimlər keçirilir. Dərsin əsas hissəsi bu dərs üçün qoyulmuş əsas vəzifənin həllinə yönəlmişdir. Praktiki olaraq, bu hissəyə ardıcıl iş planının tapşırıqlarına uyğun olan bütün tapşırıqlar daxildir. Son hissəyə qrupun başqa bir fəaliyyətə keçməsini asanlaşdırmaq üçün diqqət məşqləri, oturaq oyunlar, tənəffüs məşqləri - sakit gəzinti, istirahət məşqləri və s. daxildir. Məşğələlər 3 mərhələyə bölünür.

Birinci mərhələ – ümumi hazırlıq – təxminən 20-25 məşğələ daxildir; ikinci mərhələ – xüsusi hazırlıq – 10-15 məşğələ və üçüncü mərhələ – əsas hazırlıq-3-5 məşğələ [7]. Birinci mərhələdə, əsas məqsəd hərəkətlərini idarə etmək üçün təlim əsasında sağlamlıq imkanları məhdud şəxslərin motor qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirməkdir. Məsələn, əsasən hemiparezi olan bir qrup yeriyə bilən uşaqlar üçün bu vəzifələr aşağıdakılardan ibarət ola bilər: düzgün duruşu, düzgün nəfəs almağı öyrətmək, yuxarı və aşağı ətrafların oynaqlarında ixtiyari hərəkətləri normallaşdırmaq və hərəkətlərin koordinasiyasını yaxşılaşdırmaq.

Spastik üç tərəfli və tetraparez olan bir qrup uşaqlar üçün qrup məşğələlərində ilk mərhələnin vəzifəsi, yalnız refleks motor fəaliyyətinin normallaşdırılması, və ya əlavə: düzgün nəfəs almanın öyrədilməsi və ümumi hərəkətliliyin artırılması .

İkinci mərhələ - qrup məşğələlərində bu mərhələnin əsas vəzifələri aşağıdakılardır: düzgün qamət, gəzmək, ətrafların hərəkətləri, ayağa qalxma, müəyyən məsafəyə atma, tarazlıq və ya xəstələrin imkanlarına uyğun olaraq hər hansı digər göstəricilərə görə normativlərin mənimsənilməsi.

Üçüncü mərhələ - Yekun mərhələ, cəlb olunanların bilik və bacarıqlarının yoxlanmasına yönəlmişdir: səhər gimnastikasının ev şəraitində yerinə yetirilməsi üçün fərdi tapşırıqların öyrədilməsi.

4. Fiziki məşğələlərin planlaşdırılması. Qrup və fərdi məşğələlərin keçirilməsi üçün iş planının tərtibi o hallarda lazımdır ki, xəstələr 3-4 ay və daha uzunmüddət müəssisələrdə (sanatoriyalar, internatlar) olsunlar. Sanatoriyada iş təcrübəsi göstərir ki, məşğələlərin keçirilməsi üçün iş planlarının tərtibi, xüsusilə də qrup məşğələlərinin keçirilməsi və nəzərdə tutulan nailiyyətlərin müəyyən edilməsi məşğələlərin aparılmasının məqsədyönlülüyünü və səmərəliliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Bu cür planlaşdırmaya misal göstərək. Orta hesabla 4 aylıq bir müalicə kursunda, ümumi hesablamaya əsasən, həftədə 3 dəfə aparılan qrup dərsləri ilə 40-42 məşğələ keçirilə bilər.

Nəticə və müzakirə. Unutmamalıyıq ki, fərdi məşğələlərin uğur qazanması üçün uşaqla metodist arasındakı əlaqə xüsusilə vacibdir. Bu əlaqəni gücləndirmək üçün xüsusi qayğıya ehtiyacı olan şəxslərin psixikasının xüsusiyyətlərini və vəziyyətini rəhbər tutaraq dərslərdə iştirakını fəallaşdırmaq lazımdır. Mövcud formada, əsas məşqlərin və tələblərin əhəmiyyətini izah etmək və tədricən mümkün olan kiçik həcmli fərdi tapşırıqları daxil etmək lazımdır. Məsələn, yemək zamanı zədəli əllə çörək götürməyə çalışmaq lazımdır və s. Yalnız bu hərəkətlərin yaxşı öyrənilməsinə, çətinliklərin getdikcə azalmasına metodistin nəzarəti və təşviq etməsi lazımdır. Uşaq, işin nəticələrini görə bilməli, onları qiymətləndirməli və yeni nailiyyətlərin əldə edilməsi üçün səy göstərməlidir. Qısaldılmış sxem üzrə eyni şəxs üçün təkrar fərdi məşğələ, masajla passiv hərəkətlər və ya 10-20 dəqiqə davam edən ikinci hissədən yalnız bəzi tapşırıqları daxil edilə bilər.

Əgər dərs yerimə üzrə məşqlər kimi qurulubsa, o zaman ayrı-ayrı tapşırıqların öyrədilməsi şəklində keçirilə bilər; məsələn: irəliyə, geriyə, yan-yana, siqnal üzrə dəyişən istiqamətlə yerimə, oturmuş halda metodist ilə top oyunu; bədənin

ağırlıq mərkəzinin dayaq olan ayağa köçürülməsi və s.

Yekun nəticə. Fərdi məşğələləri keçərkən işin ikinci və üçüncü mərhələləri məcburi deyildir. Uşağın müəssisədən xaric olunan zaman evdə hansı məşqləri etməli, müəyyən hərəkətləri yerinə yetirərkən hansı səhvlərdən çəkinməli olduğunu bilməsi vacibdir. Buna görə də, təbii ki, son dərslər keçilənlərin yekunlaşmasına və ev tapşırıqlarının öyrənilməsinə yönəldiləcəkdir. Birinci mərhələ üçün xarakterik olan məşğələlərdə qrup dərsləri üçün iş planı qurmaq daha rahatdır. İkinci mərhələdə isə bu əsasən təlim məşğələləri olacaq, qısa bir isinmədən sonra əsas diqqət nəzərdə tutulan məşğələlərdə məşqlərə yönəldiləcəkdir.Üçüncü mərhələdə məşğələlər, bəzi hallarda yarış daxil edilməklə, müəyyən edilmiş normativlərin yerinə yetirilməsinin yoxlanması kimi keçirilir.

Ədəbiyyat

1. Концепция интегрированного обучения лиц с ограниченными возможностями здоровья (со специальными образовательными потребностями) // Актуальные проблемы интегрированного обучения. – М:, – 2001, – с.8-13
2. Коррекционно-педагогическая работа в школе для детей с нарушениями опорно-двигательного аппарата // Под ред. И.А.Смирновой. – СПб.: ИСПиП, – 2000, – 99 с.
3. Лурия, А.Р. Высшие корковые функции человека и их нарушения при локальных поражениях мозга. Изд. 3, – М:, – 2000.
4. Психолого-медико-педагогическая консультация. Методические рекомендации. Под ред. Л.М.Шипицыной. – СПб.: ИСПиП, – 1999.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 08.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 13.03.2025

https://doi.org/10.30546/670832.2025.01.910

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.71-76
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.71-76
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.71-76

Törəmənin tətbiqi ilə funksiyanın qrafikinin qurulması metodikası

Müəllif(lər):

Yaqub Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə elmlər doktoru, professor
E-poçt: YagubMammadov@nmi.edu,az
Samirə Babayeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: samirababayeva@nmi.edu.az

Açar sözlər: funksiya, funksiyanın qrafiki, məntiqi təfəkkür, elementar üsul, böhran nöqtələri, əyilmə nöqtəsi

Annotasiya. Riyaziyyatın əsas anlayışlarından biri olmaqla, təliminə ümumtəhsil məktəblərin VI sinifindən başlanılan funksiya anlayışı riyazi təfəkkürün bünövrəsi olmaqla elə olmalıdır ki, hesab bəhsindən tutmuş cəbr, həndəsə, statistika və ehtimal, triqonometriya və funksiyalar nəzəriyyəsinin əksər bölmələrinin tədrisində müstəsna rol oynasın. Riyaziyyatın, xüsusilə də funksiyanın tədqiqinə iki aspektdən yanaşmanın tədrisi texnologiyası orta məktəb şagirdlərinin məntiqi cəhətdən təfəkkürünün formalaşdırılmasına kömək edir, əlaqə yaratma bacarıqlarını və mühakimə etmə qabiliyyətlərini inkişaf etdirməklə, biliklərin əldə edilməsinə öz töhvəsini verir. Tədqiqatçı metodistlərin apardığı araşdırmalar təsdiq edir ki, funksiyanın araşdırılmasına iki aspektdən yanaşma şagirdlərə yalnız riyaziyyatın öyrədilməsində deyil, gündəlik həyatda da gərəkdir və bunlardan riyaziyyat dərslərində metodiki baxımdan düzgün istifadə edilərsə, müsbət nəticələrə nail olmaq olar. Beləliklə, belə bir problemin dərindən araşdırılmasına çox ehtiyac vardır. Bu isə mövzunun aktual olduğunu göstərir. Məqalənin məqsədi orta məktəblərin riyaziyyat təlimində törəməni tətbiq etməklə funksiyanın qrafikinin qurulmasınının metodik cəhətdən daha effektli yollarını araşdırmaqdır. Araşdırma zamanı induksiya və deduksiya, analiz və sintez, konkretləşdirmə və ümumiləşdirmə, mücərrədləşdirmə və analogiya təlim metodlarından istifadə edilmişdir. Praktik və nəzəri əhəmiyyəti: funksiyanın tədqiqinə iki aspektdən yanaşmanın tədrisi texnologiyasından məktəb təcrübəsində, müəllimə kömək üçün riyaziyyatdan dərs vəsaitlərinin hazırlanmasında və proqramların təhlilində istifadə etmək olar. Nəticə: qrafiklərin qurulmasında funksiyanın araşdırılmasına iki aspektdən yanaşmanın təlimi metodikası uzunmüddətli bir prosesdir və bu proses zamanı şagirdlərin məntiqi düşünmə bacarıqları, əqli qabiliyyətləri, yaradıcılığı, mühakimə yürütmə bacarığı və təfəkkürü inkişaf edir.

Author(s):

Yagub Mammadov
Nakhchivan Teachers Institute
Doctor of Mathematics, Professor
E-mail: YagubMammadov@nmi.edu,az
Samira Babayeva
Nakhchivan Teachers Institute
Master student
E-mail: samirababayeva@nmi.edu.az

Key words: function, function graph, logical thinking, elementary method, crisis points, inflection points

Methodology for studying and plotting a function with respect to its derivative

Abstract. The concept of function, one of the basic concepts of mathematics, the teaching of which begins in the 6th grade of secondary schools, should be the foundation of mathematical thinking and play an exceptional role in the teaching of most sections of algebra, geometry, statistics and probability, trigonometry, and function theory, from calculus to calculus. The technology of teaching mathematics, especially the two-aspect approach to the study of function, helps to form the logical thinking of high school students, contributes to the acquisition of knowledge by developing their communication skills and judgment abilities. Research conducted by research methodologists confirms that a two-faceted approach to the study of functions is necessary not only in teaching mathematics to students, but also in everyday life, and if these are used correctly from a methodological point of view in mathematics lessons, positive results can be achieved. Thus, there is a great need for an in-depth investigation of such a problem. This shows that the topic is relevant. The aim of the article is to investigate methodologically more effective ways of constructing the graph of a function by applying the derivative in mathematics teaching in secondary schools. Methods: The research used the following teaching methods: induction and deduction, analysis and synthesis, concretization and generalization, abstraction and analogy. Practical and theoretical significance: the technology of teaching a two-aspect approach to the study of functions can be used in school practice, in the preparation of mathematics textbooks to assist teachers, and in the analysis of programs. Conclusion: The teaching methodology of the two-aspect approach to the study of functions in graph construction is a long-term process, and during this process, students' logical thinking skills, mental abilities, creativity, judgment skills, and thinking develop.

Автор(ы):

Ягуб Мамедов
Нахчыванский институт учителей
Доктор математических наук, профессор
Э-почта: YagubMammadov@nmi.edu,az
Самира Бабаева
Нахчыванский институт учителей
Магистрант
Э-почта: samirababayeva@nmi.edu.az

Ключевые слова: функция, график функции, логическое мышление, элементарный метод, точки кризиса, точки перегиба

Методика исследования и построения графика функции с применением производной

Аннотация. Понятие функции, одно из основных понятий математики, преподавание которого начинается с 6-го класса средней школы, должно быть основой математического мышления и играть исключительную роль в преподавании большинства разделов алгебры, геометрии, статистики и теории вероятностей, тригонометрии, теории функций, от исчисления до исчисления. Технология обучения математике, особенно двухаспектный подход к изучению функции, помогает формировать логическое мышление старшеклассников, способствует усвоению знаний за счет развития у них коммуникативных навыков и способностей суждения. Исследования, проведенные учеными-методистами, подтверждают, что двусторонний подход к изучению функций необходим не только при обучении школьников математике, но и в повседневной жизни, и при правильном с методической точки зрения их использовании на уроках математики можно добиться положительных результатов. Таким образом, существует большая потребность в глубоком изучении такой проблемы. Это показывает, что тема актуальна. Целью статьи является исследование методически более эффективных способов построения графика функции с применением производной в преподавании математики в средней школе. Методы: в исследовании использовались следующие методы обучения: индукция и дедукция, анализ и синтез, конкретизация и обобщение, абстрагирование и аналогия. Практическая и теоретическая значимость: технология обучения двухаспектному подходу к изучению функций может быть использована в школьной практике, при подготовке учебников математики в помощь учителям, при анализе программ. Вывод: Методика преподавания двухаспектного подхода к изучению функций в построении графиков представляет собой длительный процесс, в ходе которого у учащихся развиваются навыки логического мышления, умственные способности, креативность, суждение, мышление.

Giriş. Müasir dövrdə Azərbaycanda ali və orta təhsili dünya standartları səviyyəsinə çatdırmaq, təlimin keyfiyyətini yüksəltmək və tətbiq dairəsini genişləndirmək dövlətimizin öhdəsinə düşən mühüm vəzifələrdən biridir. Təhsillə bağlı daim aparılan islahatlar bunu bir daha təsdiq edir. Riyaziyyatın əsas anlayışlarından biri olmaqla, təliminə ümumtəhsil məktəblərin VI sinifindən başlanılan funksiya anlayışı riyazi təfəkkürün bünövrəsi olmaqla elə olmalıdır ki, hesab bəhsindən tutmuş cəbr, həndəsə, statistika və ehtimal, triqonometriya və funksiyalar nəzəriyyəsinin əksər bölmələrinin tədrisində müstəsna rol oynasın. Riyaziyyatın, xüsusilə də funksiyanın tədqiqinə iki aspektdən yanaşmanın tədrisi texnologiyası orta məktəb şagirdlərinin məntiqi cəhətdən təfəkkürünün formalaşdırılmasına kömək edir, rabitə yaratma bacarıqlarını və mühakimə etmə qabiliyyətlərini inkişaf etdirməklə, biliklərin əldə edilməsinə öz töhvəsini verir. Təlim üsullarından olan induksiya və deduksiya, analiz və sintez fənni mükəmməl qavrayan və ona maraq göstərən şagirdin zəkasında konkretləşdirmə və ümumiləşdirmə, mücərrədləşdirmə və analogiya əsas yerlərdən birini tutur. Bütün bu deyilənlər funksiyanın tədqiqinə iki aspektdən yanaşmanın təlimi texnologiyası və riyaziyyatın bu kimi başqa bölmələrinin mənimsənilməsində şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsində olduqca böyük əhəmiyyətə malikdir. Beləliklə, belə bir problemin dərindən araşdırılmasına çöx ehtiyac vardır. Ona görə də məqalədə törəməni tətbiq etmədən və törəmədən istifadə etməklə funksiyanın araşdırılması məsələləri metodiki cəhətdən əsaslandırılmış və alınmış nəticələr dəqiqləşdirilmişdir. Orta məktəb riyaziyyat dərslikləri, riyaziyyatdan müəllimə kömək üçün tərtib olunmuş metodik vəsaitlər və prpqramların təhlili, məktəb riyaziyyat müəllimləri ilə aparılmış söhbətlər, dəyirmi masalar və seminarların təhlili onu göstərir ki, şagirdlərin funksiya haqqında təsəvvürlərinin inkişafı baxımından funksiyanın araşdırılmasına iki aspektdən yanaşma mövzunun aktalığına dəlalət edir.

Tədqiqatın məqsədi tam orta məktəblərdə yuxarı siniflərin riyaziyyat təlimində törəməni tətbiq etməklə funksiyanın qrafikinin qurulmasınının metodik cəhətdən daha effektli yollarını aşkar etməkdir.

Tədqiqatın vəzifələri isə orta məktəblərdə riyaziyyat təlimində qrafiklərin qurulmasında funksiyanın araşdırılmasına iki müxtəlif yanaşma ilə ən effektli yolları şagirdlərə aşılamaqdır.

Material və metodlar: tədqiqat aparılarkən induksiya və deduksiya, analiz və sintez, konkretləşdirmə və ümumiləşdirmə, mücərrədləşdirmə və analogiya təlim metodlarından istifadə edilmişdir.

Müasir dövrdə riyaziyyatın əsaslarına yiyələnmək funksiya anlayışının nə dərəcədə qavranılmasından asılıdır. Funksiya anlayışını öyrənməklə digər fənlər və elmlər arasındakı uyğunluğu öyrənmək daha rahat olur. Funksiyanın araşdırılması ilə bağlı bəzi anlayışların daxil edilməsi metodikasını verək.

Şagirdlərə riyaziyyat fənninin təlimində elmi nəzəri biliklər verməklə yanaşı, əyanilik prinsipinə də diqqətlə yanaşmaq zəruridir. Müəllim tərəfindən yeni daxil edilmiş anlayışın mahiyyətini şagirdlər dərk etməli, gündəlik həyatımızda baş verən hadisələrlə əlaqələndirməyi bacarmalıdır. Ümumiyyətlə, riyaziyyat təlimində istənilən anlayışı tədris edərkən şagirdlərin əvvəlcədən qazandıqları ümumi biliklər də nəzərdən qaçmamalıdır. Riyaziyyatın tədrisi zamanı yeni anlayışlara rast gəlinirsə, onlar şagirdlərə əvvəllər daxil edilmiş anlayışlarla əlaqəli olaraq çatdırılmalıdır. Bəzi hallarda daxil edilən anlayışı əhatəli şəkildə şagirdlərə mənimsətmək daha sərfəlidir. Bu baxımdan riyazi anlayışların tərifini tədris edərkən ciddi elmi əsaslara sistemli şəkildə söykənmək və riyazi dəqiqliyə riayət etmək zəruridir.

Məlumdur ki, tam orta məktəblərin riyaziyyat kursunda cəbr və funksiyalar məzmun xətti üzrə funksiyanın araşdırılması adətən elementar üsullarla aparilir, onların bəzi xassələrinin mənimsənilməsi funksiyanın qrafikinin qurulmasında geniş istifadə olunur [2].

Məlumdur ki, funksiyanın qrafikinin qurulması üsullarından biri elementar üsul, digəri isə diferensial hesabının tətbiqi ilə daxil edilən üsuldur. Adətən tam orta məktəblərdə funksiyanın qrafikinin qurulması elementar üsullarla həyata keçirilir. Belə hallarda absis oxunda qeyd olunmuş qiymətlərə uyğun funksiyanın aldığı qiymətlər əsasında alınmış nöqtələr xətlə birləşdirilərək daxil

edilən funksiyanın qrafiki qurulur. Nəticədə qrafik qurularkən müəyyən xətalar buraxmış oluruq. Ancaq diferensial hesabının tətbiqi ilə funksiyanın qrafikini qurduqda isə az xəta buraxılır və nəticədə alınmış əyrini daha dəqiq çəkmək mümkün olur.

Yuxarıda qeyd etdiyimiz kimi, məktəb riyaziyyat kursunda funksiyanın qrafikini absis oxunda qeyd olunmuş qiymətlərə uyğun funksiyanın aldığı qiymətlər əsasında alınmış nöqtələri xətlərlə birləşdirərək qururlar. Belə hallarda funksiyanın kəsilmə nöqtələri, maksimum, minimumları və sair xarakteristikaları diqqətdən yayına bilər. $y = f(x)$ funksiyasının qrafikinin müəyyən dəqiqliklə qurulması üçün həmin funksiyanın xassələrinin diferensial hesabının tətbiqi ilə tədqiq edilməsi əsas olmalıdır.

$y = f(x)$ funksiyasının qrafikinin qurulmasını aşağıdakı ardıcıllıqla icra etmək məqsədəuyğundur:

- verilmiş funksiyanın təyin oblastını tapmaq;
- funksiyanın tək və ya cüt olmasını araşdırmaq;
- funksiyanın periodik olub - olmadığını aydınlaşdırmaq;
- funksiyanın böhran nöqtələrini tapmaq;
- dəyişənin kifayət qədər böyük qiymətlərində funksiyanın özünü necə aparmasını müəyyən etmək;
- funksiyanın artma, azalma intervallarını, ekstremumlarını tədqiq etmə;
- funksiyanın verilmiş parçanın uc nöqtələrində qiymətlərini hesablamaq;
- funksiyanın koordinat oxları ilə kəsişmə nöqtələrini tapmaq;
- funksiyanın qabariqlıq və çöküklük intervallarını təyin etmək;
- funksiyanın əyilmə nöqtələrini təyin etmək;
- asimptotları tapmaq.

Onu da qeyd edək ki, funksiyanın qrafikini qurarkən yuxarıda verilən ardıcıllıq pozula da bilər.

Bu deyilənlərə söykənərək funksiyanın tədqiqi zamanı müəyyən xüsusiyyətləri aydınlaşdırılır və onun seçilən cəhətləri nəzərə alınaraq düzbucaqlı dekart koordinat sistemində nöqtələr qeyd edilərək, bu nöqtələrdən keçən əyri qurulur. Alınmış əyri funksiyanın qrafikini ifadə edir.

Verilən funksiyanın qrafikinin çəkilməsində əsas məqsədimiz istənilən bir əyrinin qurulması deyil, funksiyanın xassələrinin daha dərindən tədqiq olunmasıdır.

Elementar üsullardan istifadə etməklə funksiyanın qrafiki qurularkən kifayət qədər mühüm məsələlərin, o cümlədən funksiyanın monotonluğu, qabarıqlığı, çöküklüyü, ekstremumları, asimptotları və sairənin kənarda qaldığını duyan tədqiqatçılar diferensial hesabını mənimsəyənlərdir.

Qrafik üsul istisna olmaqla funksiyanın verilmə üsullarından demək olar ki, hər hansı biri funksiya haqqında dəqiq məlumatlar əldə etməyə imkan vermir. Funksiyanın qrafik üsulla təsviri funksiya və onun xüsusiyyətləri haqqında dolğun təsəvvür yaratmaq üçün olduqca əlverişlidir.

Məlumdur ki, keçmişdən indiyədək insanın qavrama sisteminin belə bir xüsusiyyəti var ki, o formal ifadələri nisbətən zəif təsəvvür edir, lakin həndəsi olaraq əla təsvir edir. Praktikadan da məlum olur ki, funksiyaların əvvəlcə həndəsi təsviri olan qrafikləri qurulur və zərurət yarandıqda, lazımi düsturlar yazılır.

Fərz edək ki, müstəvi üzərində xOy Dekart koordinat sistemi verilmişdir. Koordinatları $(x, f(x))$ olan müstəvinin nöqtələri çoxluğu $y = f(x)$ funksiyasının qrafiki adlanır.

Məlumdur ki, funksiyanın qrafikini qurarkən x-ə müəyyən qiymətlər verməklə $f(x)$ -in uyğun qiymətləri tapılır və bu koordinatlara uyğun olan nöqtələrdən keçməklə funksiyanın qrafiki qurulur.

Qrafikləri qurarkən, şagirdlər üçün asan olsun deyə 2 tərtibli çoxhədlilərin qrafikinin qurulması daha məqsədəuyğundur. Belə olan halda nisbətən asan çalışmalar vasitəsilə verilən funksiyanın törəməsi ilə onun qrafiki arasındakı rabitəni təsvir etmək asanlaşır.

Məsləhətdir ki, törəmənin ancaq absis oxu ilə kəsişmə nöqtələrini, yuxarı və ya aşağı rüblərdəki vəziyyətini verməklə funksiyanın qrafiki sxematik olaraq qurulsun.

Yuxarıda deyilənlərə əsaslanaraq $y = f(x)$ funksiyasının qrafiki qurulur, sonra isə törəmənin və verilmiş funksiyanın qrafikləri müqayisə edilir.

Fərz edək ki, çoxhədli şəklində verilmiş funksiya R-də təyin olunmuş və kəsilməzdir. Belə funksiyaların qrafikini qurmaq üçün aşağıdakıları yerinə yetirmək lazımdır:

- qrafikin absis və ordinat oxları ilə kəsişdiyi nöqtələri müəyyənləşdirmək;
- böhran nöqtələrini tapmaq;
- artma və azalma intervallarını təyin etmək;
- maksimum və minimumlarını tapmaq;
- sonda verilən funksiyanın qrafikini qurmaq.

Əgər funksiya rasional şəkildə verilibsə, onun qrafikinin qurulması üçün aşağıdakıları yerinə yetirmək lazımdır:

- funksiyanın təyin oblastını tapmaq;
- funksiyanın asimptotlarını təyin etmək;
- absis və ordinat oxları ilə kəsişmə nöqtələrini tapmaq;
- böhran nöqtələrini tapmaq;
- artma və azalma intervallarını təyin etmək;
- maksimum və minimumlarını tapmaq;
- verilən funksiyanın qrafikini qurmaq.

Funksiyanın qrafikini daha dəqiqliklə qurmaq üçün (məsələn, qabarıqlıq, çöküklüyünü müəyyən etmək, əyilmə nöqtələrini tapmaq və s.) ikinci tərtib törəmədən istifadə etmək olduqca sərfəlidir. Qrafiki aşağıda verilmiş iki funksiyanın əyrisi üzərində toxunanların modeli kimi xətkeşi soldan sağa gəzdirək və ya toxunanlar çəkək.



Birinci qrafikdən görünür ki, $f(x)$ əyrisinə toxunanların bucaq əmsalı olan $k = tg\alpha$ xətkeşi soldan sağa hərəkət etdirdikcə böyüyür. Beləliklə, $f'(x)$ funksiyası artır. Buradan alırıq ki, $f''(x) > 0$. $y = f(x)$ funksiyasının qrafikinə çəkilmiş bütün toxunanlar əyridən tamamilə aşağıda yerləşdiyindən funksiyanın qrafiki çökükdür (və ya aşağıdan qabarıqdır).

İkinci qrafikdən görünür ki, $g(x)$ əyrisinə toxunanların bucaq əmsalı xətkeşi soldan sağa hərəkət etdirdikcə kiçilir. Beləliklə, $g'(x)$ funksiyası azalan olur. Buradan alırıq ki, $g''(x) < 0$. $y = g(x)$ funksiyasının qrafikinə çəkilmiş bütün toxunanlar əyridən tamamilə yuxarıda yerləşdiyindən funksiyanın qrafiki qabarıqdır (və ya yuxarıdan çökükdür).

Deməli $y = f(x)$ funksiyası müəyyən aralıqda iki dəfə diferensiallanandırsa, onda $f''(x) > 0$ olduqda verilən aralıqda $f(x)$ funksiyasının qrafiki çökükdür, $f''(x) < 0$ olduqda isə verilən aralıqda $f(x)$ funksiyasının qrafiki qabarıqdır.

Hər hansı funksiyanın qrafikinin qabarıqlıqdan çöküklüyə və yaxud çöküklükdən qabarıqlığa keçdiyi nöqtə əyilmə nöqtəsi adlanır. Qeyd edək ki, verilən funksiyanın qrafiki əyilmə nöqtəsini keçdikdə ikinci tərtib törəmə işarəsini dəyişir.

Misal. $f(x) = x^3 - 6x^2 + 3$ funksiyasının böhran nöqtələrini tapın və ikinci tərtib törəmədən istifadə etməklə təsnifatını verin.

Həlli: Əvvəlcə $f(x) = x^3 - 6x^2 + 3$ funksiyasının böhran nöqtələrini axtaraq. Bunun üçün verilən funksiyanın birinci tərtib törəməsini tapıb sifira bərabər edək.

$f'(x) = 3x^2 - 12x,\ \ 3x^2 - 12x = 0,\ \ x = 0$ və ya $x = 4$.

$x = 0$ və $x = 4$ verilən funksiyanın böhran nöqtələridir. Alınan qiymətləri funksiyada yerinə yazıb böhran nöqtələrinin ordinatlarını tapaq:

$f(0) = 3$; (0;3);

$f(4) = 4^3 - 6 \cdot 4^2 + 3 = -29$; (4; -29).

Deməli, qrafik üzərindəki (0;3) və (4;-29) koordinatları böhran nöqtələrinə uyğun olaraq tapılmışdır. Tapılan nöqtələrdən hansının minimum və ya maksimum nöqtəsi olmasını müəyyənləşdirmək məqsədilə verilən funksiyanın ikinci tərtib törəməsini hesablayaq.

$f'(x) = 3x^2 - 12x$; $f''(x) = 6x - 12$.

$x = 2$ olduqda $f''(2) = 0$. $x < 2$ qiymətlərində $f''(x) < 0$ olduğundan $(-\infty; 2)$ intervalında verilən funksiyanın qrafiki çökükdür. $f''(2) = 0$ olduğundan $(2; 0)$ nöqtəsi əyilmə nöqtəsidir. Beləliklə, $x = 0$ böhran nöqtəsi funksiyanın qabarıqlıq aralığına daxildir, çünki $f''(x) < 0$. Buradan alırıq ki, (0;3) nöqtəsi lokal maksimumdur. $x = 3$ nöqtəsi isə funksiyanın çökük olduğu intervala daxildir, çünki $f''(x) > 0$ deməli, $(4; -29)$ nöqtəsi lokal minimuma uyğundur.

	$x = 0$	$x = 3$
$f''(x)$	$f''(0) = -12$ mənfi	$f''(4) = 12$ müsbət
$f(x)$	qabarıq	çökük

Nəticələr və müzakirə. Əvvəlcə müzakirələrdən başlayaq. Tədqiqatçı metodistlərin apardığı araşdırmalar təsdiq edir ki, funksiyanın tədqiqinə iki aspektdən yanaşma şagirdlərə yalnız riyaziyyatın öyrədilməsində deyil, gündəlik həyatda da gərəkdir və bunlardan riyaziyyat dərslərində metodiki baxımdan düzgün istifadə edilərsə, müsbət nəticələrə nail olmaq olar. Funksiya və onun xassələri haqqlnda daha dolğun biliklərə yiyələndikdən sonra mürəkkəb şəkildə olan funksiyaların qrafiklərinin qurulmasında da heç bir problem yaranmır. Funksiyanın qrafiki şagirdlərə əvvəlcədən məlumdursa, onda törəmənin işarəsi qrafikə uyğun olaraq təyin olunur. Verilmiş funksiyanın qrafikini qurarkən artma və azalma aralıqlarının uc nöqtələrində funksiyanın qrafikinin özünü necə aparması bizə lazım olur. Bu isə bizə funksiyanın qrafikinin verilmiş vəziyyətini müəyyən etməyə köməklik göstərir. Diferensial hesabından istifadə etməklə törəməsi olan funksiyaların tədqiq olunması və sonra qrafiklərinin qurulması kifayət qədər asanlaşır. Diferensial hesabının köməyilə funksiyanın artma və azalma, qabarıqlıq və çöküklük intervallarını müəyyən etmək, böhran nöqtələrini və lokal ekstremumları tapmaq mümkündür. Deyilənlərə əsaslanmaqla funksiyanın qrafikini daha dəqiqliklə qura bilərik.

Tam orta məktəblərdə yuxarı siniflərin riyaziyyat təlimində şagirdlərə funksiyanın xassələrini, xüsusiyyətlərini və diferensial hesabının köməyi ilə araşdırılmasını mənimsətməklə onların fənnə olan maraqlarını artırmağa və əqli fəaliyyətlərinin inkişaf etməsinə təkan veririk. Funksiyanın tədqiqinə iki aspektdən yanaşmanın tədrisi texnologiyasından məktəb təcrübəsində, müəllimə kömək üçün riyaziyyatdan dərs vəsaitlərinin hazırlanmasında və proqramların təhlilində istifadə etmək olar.

Yekun nəticə. Aparılan tədqiqat və pedaqoji eksperimentdə belə nəticəyə gəlinmişdir ki, funksiyanın araşdırılmasına iki aspektdən yanaşmanın təlimi metodikası uzunmüddətli bir prosesdir və bu proses zamanı şagirdlərin məntiqi düşünmə bacarıqları, əqli qabiliyyətləri, yaradıcılığı, mühakimə yürütmə bacarığı və təfəkkürü inkişaf edir.

Ədəbiyyat

1. Adıgözəlov, A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası / A.S.Adıgözəlov. ADPU-nun nəşriyyatı, – Bakı: – 2015. – 350 s.

2. Babayeva S.S. Törəmə daxil edilmədən funksiyanın araşdırılması metodikası. "Təhsil, tədqiqat və innovasiyanın vəhdəti" mövzusunda doktorant və magistrantların VI respublika elmi konfransının materialları // – Naxçıvan: NMİ-03 may 2024. – s.158-163.
3. Əliyev S.Ə. Riyazi analiz / S.Ə.Əliyev, A.S.Novruzov, C.X.Əliyev. I hissə. Dərs vəsaiti. – Naxçıvan: – 2021. – 266 s.
4. Muradova, N.L. Birdəyişənli funksiyaların diferensial hesabı / N.L.Muradova. Dərs vəsaiti. – Naxçıvan: – 2021. – 140 s.
5. Novruzov, A.S. Ali pedaqoji məktəblərin riyazi analiz kursu ilə orta məktəbin cəbr və analizin başlanğıcı kursu arasında qarşılıqlı əlaqənin elmi-medtodiki əsasları / Ped.elm.nam.diss. Avtoref. B., – 2000. – 26 s.
6. Yaqubov M.H. Ekstremum məsələləri / M.H.Yaqubov, M.A.Nəcəfov. – Bakı: – 2016. 16 s.
7. Антонов, Н.С. Интегративная функция обучения. Современные проблемы методики преподавания математики / – М.: Просвещение, – 1985. – с.25-38.
8. Мордкович, А.Г. Методические проблемы изучения элементов математического анализа в общеобразовательной школе / Математика в школе, – 2002. №9, – с. 2-12.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 22.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 13.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.77-82
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.77-82
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.77-82

UOT: 373.3:37.03:911
https://doi.org/10.30546/670832.2025.01.3001

Coğrafiyanın inteqrativ təlimində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin rolu

Müəllif(lər):

Namiq Ağaməmmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutu
Coğrafiya üzrə fəlsəfə doktoru
E-poçt: naqamemmedov@mail.ru
https://orcid.org/0000-0002-7183-9933

Açar sözlər: sinifdənxaric və məktəbdənkənar fəaliyyətlər, coğrafiya və fənlərarası əlaqələr, sintez və assosiasiya, təlim-tərbiyə prosesi

Annotasiya. Məktəb təcrübəsində fənlərin inteqrativ tədrisinin təmin olunması təhsil islahatlarının mühüm elementlərindən sayılır. Məzmun xətləri inteqrasiya oluna bilən müxtəlif fənlərin tədrisində yüksək nəticələrə nail olmaq üçün tədris prosesinin maraqlı hala gətirilməsi lazımdır. Belə metodik göstərişlər içərisində əyanilik prinsipini özündə birləşdirən pedaqoji proses zamanı sinifdənxaric və məktəbdənkənar fəaliyyətlər xüsusi yer tutur. Çünki dərslərin coğrafiya dərnəyi, meydançası, kabineti, ekskursiya, diyarşünaslıq muzeyi məkan kateqoriyasında təşkili təhsilalanlarda idrak funksiyalarını aktivləşdirir, fənlərarası inteqrasiyanı anlamağa kömək edir.

Coğrafiya, fizika, kimya, biologiya, riyaziyyat, tarix fənlərinə aid mövzular əyani formada təqdim olunduğu üçün, motivasiya baş verir, sintez və assosiasiya meyilləri ortaya çıxır. Məqalədə sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin inteqrativ təhsildə əhəmiyyəti, metodoloji problemləri və tərbiyələndirici aspektləri və təkmilləşdirilməsi yolları təhlil olunur. Perspektiv dövrdə sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin uyğun məzmun xətləri üzrə birgə tədrisi təklif olunur.

Author(s):

Namig Agamammadov
Educational Institute of the Republic of Azerbaijan
PhD in Geography
E-mail: naqamemmedov@mail.ru
https://orcid.org/0000-0002-7183-9933

Key words: extracurricular and extracurricular activities, geography and interdisciplinary relations, synthesis and association, educational process

The role of extra-curricular and extra-school activities in integrative teaching of geography

Abstract. Ensuring the integrative teaching of subjects in school practice is considered one of the important elements of educational reforms. In order to achieve high results in teaching various subjects which content lines can be integrated it is necessary to make the teaching process interesting. Among such methodological instructions extracurricular and extracurricular activities occupy a special place during the pedagogical process which includes the principle of visuality. Because the organization of lessons in the spatial category of geography circle, playground, office, excursion, local history museum activates has cognitive functions in students and helps to understand interdisciplinary integration.

Since the topics related to geography, physics, chemistry, biology, mathematics, history are presented in a visual form motivation occurs, synthesis and association tendencies emerge. The article analyzes the importance of extracurricular and extracurricular activities in integrative education, methodological problems and educational aspects and the ways to improve them. In the perspective period joint teaching of extracurricular and extracurricular activities on appropriate content lines is proposed.

Автор(ы):

Намиг Агамамедов
Образовательный институт Азербайджанской Республики
Доктор философии по географии
Э-почта: naqamemmedov@mail.ru
https://orcid.org/0000-0002-7183-9933

Ключевые слова: внеклассная и внеурочная деятельность, география и межпредметные связи, синтез и ассоциация, образовательный процесс

Роль внеклассной и внешкольной деятельности в интегративном обучении географии

Аннотация. Обеспечение интегративного преподавания предметов в школьной практике считается важным элементом образовательных реформ. Для достижения высоких результатов в преподавании различных предметов, где содержательные линии могут быть интегрированы, необходимо сделать процесс обучения интересным. Среди таких методических указаний особое место в педагогическом процессе занимают внеклассные и внеурочные мероприятия, в которых реализуется принцип наглядности. Потому что организация занятий в пространственных категориях географического кружка, детской площадки, кабинета, экскурсии, краеведческого музея активизирует познавательные функции учащихся и помогает им осознать межпредметную интеграцию.

Поскольку темы, связанные с географией, физикой, химией, биологией, математикой и историей, представлены в наглядном формате, возникает мотивация, возникают тенденции к синтезу и ассоциации. В статье анализируется значение внеклассной и внеурочной деятельности в интегративном образовании, их методические проблемы и воспитательные аспекты, а также пути их совершенствования. В дальнейшем предполагается совместное преподавание внеклассной и внеурочной деятельности по соответствующим содержательным направлениям.

Giriş. Qloballaşan dünyada təhsilin təşkili formalarında mühüm dəyişikliklər baş verir. Müşahidələr göstərir ki, müasir dövrün təhsilalanları qeyri-formal təhsil üsullarından istifadəyə meyillidir. Ona görə də məktəb mühitində şagirdləri öyrənmə prosesinə cəlb edə bilmək üçün onları əyləncəli və təbii mühitə istiqamətləndirmək müsbət metodiki tezislərdəndir. Bu mənada məktəb təcrübəsində fənlərarası inteqrasiyanı coğrafiya dərsinin sinifdənxaric və məktəbdənkənar təşkili formalarında (Coğrafiya dərnəyi, meydançası, kabineti, ekskursiya, diyarşünaslıq muzeyi) nəzərdən keçirək. Ümumtəhsil məktəblərində dərnəklər sinif və şagird sayına görə müəyyən olunur. Mövcud qaydalara əsasən dərnəklər şagirdlərin meyil və maraqları nəzərə alınaraq sorğu əsasında Pedaqoji Şuranın qərarı ilə 8 nəfərdən az olmamaqla təşkil oluna bilər. Qaydalara görə coğrafiya dərnəyinin təşkili birbaşa şagirdlərin seçimindən asılıdır. Əgər seçim müsbət olarsa, dərnəyin fəaliyyəti inteqrativ prinsiplərə uyğun istiqamətləndirilə bilər. Dərnəklərin seçilmiş inteqrativ mövzulara uyğun olaraq fizika, kimya, biologiya laboratoriyalarında təşkili şagirdlərin biliklərinin dərinləşməsinə xidmət edə bilər. Dərnəklərin maraqlı və effektiv təşkili üçün onları əyani keçirilməsi onun keyfiyyətini artırır. Tədqiqatın əsas məqsədi inteqrativ mövzuların fənlərarası kontekstdə sinifdənxaric və məktəbdənkənar formalarda təşkilini araşdırmaq və onun effektivliyini müəyyən etməkdən ibarətdir. Tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- İnteqrativ fənlərin qeyri-formal tədris mühitində öyrənilməsi mümkünlüyünün təhlili;
- Fənlərarası inteqrasiyanı coğrafiya dərnəyi, meydançası, kabineti, ekskursiyası, diyarşünaslıq muzeyi formalarında təşkilini öyrənmək;
- Əldə olunan nəticələrin təcrübi əhəmiyyətini müəyyənləşdirmək.

Materiallar və metodlar. Coğrafi materialların əyani keçirilməsi və vizual müşahidəsi üçün metodlardan biri də coğrafiya meydançasıdır. Coğrafiya fənninə aid müxtəlif mövzuların coğrafi meydançada tədris olunması və vizual müşahidələrin aparılması zamanı təhsilalanların dünya görüşü genişlənir, qavrama potensialı artır, onların elmi anlayışları dərk etməsi mümkün olur.

Diyarşünaslıqda istər fiziki-coğrafi, iqtisadi-coğrafi nöqteyi-nəzərdən onun vilayətlərinin oxşar və fərqli cəhətləri mövcuddur. Təbii-coğrafi mühitin və şəraitin xüsusiyyətlərinə uyğun olaraq təşkil olunan diyarşünaslıq muzeyində şagirdlər ölkənin fiziki-coğrafi və sosial-iqtisadi cəhətdən öyrənilməsi əlaqəli həyata keçirilir.

İ.İ.Nağıyeva öz tədqiqatında qeyd edir ki, pedaqoji və psixoloji ədəbiyyatın təhlili göstərir ki, şagirdlərin müstəqil işlərinin təşkilinin onların şəxsiyyət kimi formalaşmasında mühüm rola malikdir [5, s.10.]

Coğrafiya kabinetlərində müasir texniki informasiya kommunikasiya vasitələrinin olması təcrübələrin aparılması, təbii obyektlər üzərində aparılan müşahidə və onların nəticələrinin elmi cəhətdən əsaslandırılması, şagirdlərin müstəqil işlərinin əyani şəraitdə yerinə yetirilməsi fənlərarası münasibətlərdə təkamül sayıla bilər.

Ekskursiyaların qeyri-formal təhsil forması kimi tətbiqi məqsədəuyğundur. Coğrafiya müəllimi ilə yanaşı şagirdlərin ərazinin flora və faunası, torpaq örtüyü, landşaftları, süxurların üzvi aşınması ilə dolğun tanış olması üçün biologiya, riyazi hesablamalar və topoqrafik planaalma zamanı riyaziyyat, atmosferin, hidrosferin tərkibini, süxurların kimyəvi tərkibini və aşınmasını öyrənmək üçün yüksək metodiki göstərişlərdir.

Nəticələr və müzakirə. Coğrafiya, fizika, kimya, biologiya fənlərinin birgə inteqrativ dərnək nümunəsi üçün onu Azərbaycan Geologiya Muzeyində təşkili tövsiyə onuna bilər Muzeydə respublikamızın geoloji quruluşu, faydalı qazıntı yataqları, filiz və qeyri-filiz yataqları haqqında məlumat almaq olar. Muzeyin “mineralogiya” və “petroqrafiya” bölmələrində-coğrafiya, fizika, kimya, riyaziyyat; “poleontologiya” bölməsində coğrafiya-biologiya; fənlərinin inteqrasiyasını etmək mümkündür [Şəkil 1].

Yeniləşən cəmiyyətdə yeniləşmənin məzmunca əks olunması və yeniləşmə prosesinə təkan verilməsi, ilk növbədə təhsillə əlaqədardır [4, s.129].

Müşahidə və təcrübələrin meydançada təşkili şagirdlərdə əşya və hadisələrlə əyani tanış olmağa imkan verir. Burada şagirdlərə vətənpərvərlik şüurlu mənimsəmə, konkretlik və kollektivçilik aşılanır. Coğrafiya meydançasının məktəbin təlim-tədris sahəsinə yaxın yerləşdirilməsi,

biologiyadan bitki və heyvanat aləminin, fizikadan fiziki hadisələrin əlaqəli öyrənilməsinə imkan verir. Coğrafiya meydançasında 30-dan çox müxtəlif cihaz və vəsait qoyulmalı, sistemləşdirilməli və planlı yerləşdirilməlidir [2, s.71].

Şəkil 1. Azərbaycan Geologiya Muzeyi

Yeniləşən cəmiyyətdə yeniləşmənin məzmunca əks olunması və yeniləşmə prosesinə təkan verilməsi, ilk növbədə təhsillə əlaqədardır [4, s.129].

Müşahidə və təcrübələrin meydançada təşkili şagirdlərdə əşya və hadisələrlə əyani tanış olmağa imkan verir. Burada şagirdlərə vətənpərvərlik şüurlu mənimsəmə, konkretlik və kollektivçilik aşılanır. Coğrafiya meydançasının məktəbin təlim-tədris sahəsinə yaxın yerləşdirilməsi, biologiyadan bitki və heyvanat aləminin, fizikadan fiziki hadisələrin əlaqəli öyrənilməsinə imkan verir. Coğrafiya meydançasında 30-dan çox müxtəlif cihaz və vəsait qoyulmalı, sistemləşdirilməli və planlı yerləşdirilməlidir [2, s.71].

Meydançada fizika və riyaziyyatla fənlərarası inteqrasiya üçün yağıntıölçən (Tretyakov yağıntıölçəni), flüger (küləyin istiqaməti və sürəti), anemometr (küləyin sürəti), nefeskop, günəş halqası, ulduz oriyentri, günəş saatı, qnomon, eklimetr, qütb ulduzu göstəricisi, rumb halqası cihazı, nivelir, kompas, fizika və kimya ilə inteqrasiya üçün hiqrometr, o cümlədən, tük hiqrometri və psixrometr (rütubətölçən), hiqroqraf, termometr, termoqraf, qarölçən, qarölçən reyka, barometr, barometr-aneroid, baroqraf, sekki diski, riyaziyyatla bucaqölçən, teodalit, alətlərinin olması məqsədəuyğundur. Süxur nümunələri-kimya və fizika ilə inteqrasiyada mühüm rol oynayır. Biosfer mövzularını coğrafiya ilə sintez etmək üçün meydançada yerli şərait nəzərə alınmaqla iqlimlə kənd təsərrüfatı bitkiləri arasındakı əlaqələri müəyyən etmək olar. Fikrimizcə, məhəlldə praktiki işləri meydança şəraitində kompleks icrası zamanı çəkilən xərclərin optimallaşdırılması üçün inteqrativ fənn meydançaları da qurula bilər.

Məktəb təcrübəsində fənlərarası əlaqəni həm də coğrafiya kabineti vasitəsi ilə təşkil etmək olar. Fikrimizcə, tədris prosesində əyaniliyi təmin etmək üçün coğrafiya meydançası kimi, coğrafiya kabinetinin təşkili də məktəb rəhbərliyinin və coğrafiya müəllimin qarşısında duran mühüm vəzifələrdən biridir. Lakin qeyd etmək lazımdır ki, hazırda coğrafiya meydançaları kimi, fənn kabinetləri də ümumtəhsil məktəblərində formal xarakter daşıyır. Nəzərə alsaq ki, hər iki istiqamət məktəblərdə təlim-tərbiyə prosesinin mahiyyətində mühüm yer tutur, onda problem daha da aydınlaşar. İlk növbədə meydança və kabinetlərdə fənlərarası qarşılıqlı əlaqə əmələ gəlir, dərs vəsaiti və cihazlardan daha səmərəli istifadə olunur. Hesab edirik ki, inteqrativliyin meydança və kabinet sistemi üçün səmərəli olmasını nəzərə alaraq xüsusi ilə dəqiq və təbiət elmləri üçün sintetik əsasda fənn kabinetləri və meydan-

çaları təşkil olunmalıdır. Cihaz və vəsaitlərdən qarşılıqlı istifadə üçün tədris meydançaları və kabinetlər coğrafiya, fizika, riyaziyyat, biologiya, kimya, GÇQH-(hərbi toporafiya, meterologiya) fənlərinin kompleks təcrübə sahəsinə çevrilməsi məntiqi, metodiki və səmərələşdirici üsullardan hesab oluna bilər. Kabinetin əyani vəsaitlərlə yaxşı təchiz edilməsi, estetik tərtibatın yüksək səviyyədə olması təhsilalanları öyrənmə prosesinə diqqətini çəkir və müəllimlərin işinə dəstək olur. Tədris prosesində müasir dövrün tələbi kimi elektron lövhələr şagirdləri özünə maqnit kimi cəlb edir, onları mövzuları əlaqələndirib öyrənməyə sövq edir. Ona görə də kabinetdə internetə qoşulmuş interaktiv lövhənin olması kabinet işində mütləqdir.

Məktəbdə fənlərarası inteqrasiya üçün diyarşünaslıq işlərindən qismən istifadə olunur və gələcəkdə prosesin intensivləşdirilməsinə ehtiyac var.

Tarix-diyarşünaslıq materiallarının öyrənilməsində vətənpərvərlik tərbiyəsi mühüm rol oynayır [6, s.67].

Çünki diyarşünaslıq elminin tədqiqat obyekti diyar-yerli məhəll ölkənin kiçik coğrafi hissəsidir. Əvvəlcə ölkənin təbii-coğrafi xüsusiyyətləri, relyefi, iqlimi, quru suları, flora və faunası tədqiq edilir, nəticədə müəyyən cədvəllər, diaqramlar tərtib olunur. Diyarın sosial-iqtisadi öyrənilməsi zamanı isə diyarın iqtisadi-coğrafi mövqeyi, təsərrüfatı və onun ərazi quruluşu, sənaye və kənd təsərrüfatı müəssisələri, nəqliyyatı, idxal-ixrac dəyərləri, ixtisaslaşma sahələri, istehlak bazarları və s., əhalisi, şəhər və kənd əhalisinin məskunlaşması, urbanizasiya və miqrasiyası, yaş-cins qrupları da tədqiq olunur. Belə təqdirdə riyaziyyat, fizika, biologiya, kimya, tarix fənlərindən qazanılmış biliklər şagirdlərə daha məhsuldar nəticələr əldə etməyə kömək edir. İnteqrasiyanın olması üçün uyğun variantlardan biri də ekskursiyaların keçirilməsidir. Şagirdlərin tədris proqramlarına uyğun olaraq ekskursiyalara aparılması müstəqil tədqiqat tapşırığı kimi öz aktuallığını qoruyur [Şəkil 2].

Şəkil 2. İsmayıllı rayon Mücühəftəran kənd E.Həsənov adına tam orta məktəbi şagirdləri ekskursiya zamanı

Kimya, süxurların fiziki aşınması, temperatur, təzyiq, küləklər, denudasiya və akkumulyasiya, ekzarasiya, deflyasiya proseslərinin öyrənilməsi üçün fizika, tarixi və turizm ehtiyatlarının öyrənilməsi zamanı isə tarix müəlliminin ekskursiyada birgə iştirakı inteqrativ situasiyanın mahiyyətini artırır. Təbii mühitə və istehsal müəssisələrinə edilən ekskursiya zamanı şagirdlərin inteqrativ meyillərinin gücləndirilməsi üçün tapşırıqlar əvvəlcədən planlaşdırılmalı, sistemləşdirilməlidir.

E.Seyidova öz tədqiqatında qeyd edir ki,

diyarı fiziki cəhətdən öyrənərkən, ərazinin iqlimi, relyefi, daxili suları, flora və faunası, təbii zonaları və s. iqtisadi keyfiyyətlərini öyrənərkən isə ərazinin təsərrüfatı, əsas sahələri, ərazi üzrə paylanması, istehsal və kənd təsərrüfatı müəssisələri və s. kompleks araşdırma tələb edən mövzuları sintez halında məlumat almaq olur. Ona görə ki, ərazinin fiziki-coğrafi xüsusiyyətləri, sosial-iqtisadi xüsusiyyətləri ilə əlaqəlidir [7 s.1424].

Problemin məktəb təcrübəsində vəziyyətinin təhlili aparılarkən müəyyən olunmuşdur ki, fənlərarası inteqrasiya coğrafiyanın tədrisi prosesində yeni problem olmasa da, fənn müəllimlərinin inteqrativ işlərə münasibəti eyni deyil və sistemli icra olunmur. Yarımfəsildə tədqiqata cəlb olunan təhsil müəssisələrində fənlərarası inteqrasiyanın müəllimlərin təcrübəsində yer tutduğu müəyyən olunmuş, lakin bu istiqamətdə olan çatışmazlıqlar qeyd olunmuşdur. Dərs zamanı inteqrasiya imkanı olmasına baxmayaraq fənlərarası inteqrasiyaya müraciət etməyən müəllimlərin işləri də tədqiqatda nəzərə alınmışdır. Şagirdlər fənlərarası əlaqələrə aid tapşırıqları yerinə yetirərkən fərqli bilik mənbələrindən istifadə edə bilmələri, müxtəlif fənlərdən bilikləri müstəqil araşdırma səyləri aparılan müşahidə və səylərin əsasını təşkil etmişdir.

Fəndaxili inteqrasiya zamanı məzmun informasiya cəhətdən daha tutumlu olur [1].

Məktəb təcrübəsinin öyrənilməsi deməyə əsas verir ki, fənlərarası inteqrasiya prosesi tədris fəaliyyətinin vacib nüansı kimi onun sistemli və periodik tətbiqini tələb edir. İnteqrativ pedaqoji prosesdə coğrafiyadan sinifdənxaric işlərin rolu və əhəmiyyəti, pedaqoji və elmi ədəbiyyatda qoyuluşu təhlil olunmuş, onun təhsilalanlardan müəyyən koqnitiv fəaliyyətinə, dərsdə əldə olunmuş bilik və bacarıqların, təlim işi üsullarının, idrak metodlarının sintezinə çevrilməsini təmin edir. Sinifdənxaric inteqrativ işlər ancaq coğrafiya ilə deyil, eyni zamanda fizika, riyaziyyat, kimya, biologiya və tarix fənləri ilə də aparılmalı, elmilik prinsipinə müvafiq olaraq müxtəlif məzmunlu xəritələrdən, dərs vəsaitlərindən, məlumat kitabçalarından, internet resurslarından istifadə olunmalıdır. Müair inteqrativ kompetensiyalara ehtiyacı olan coğrafi prosesləri sadə və başadüşülən formaya çevirmək üçün fənn laboratoriyalarında, coğrafiya meydançasında, coğrafiya kabinetində, ekskursiyalarda, məhəldə fənlərarası təcrübələrə üstünlük verilməlidir.

Tarix və coğrafiyaya maraq göstərən çoxsaylı məktəblilər üçün dərsdənkənar və məktəbdənkənar işlər onların ehtiyaclarının ödənilməsini təmin edir [3, s.5].

Təcrübələrin uğurlu alınması üçün əsas şərt sinifdənxaric işlərdə əldə olunmuş materialların qaydaya salınması və onların sinifdə tədris zamanı praktiki istifadəsidir.

Fəaliyyətlərə fənn metodbirləşmələri cəlb oluna və tətbiqi işlər yerinə yetirə bilər.

Yekun nəticə. Aparılan təhlillər göstərir ki, müasir dövrdə ümumtəhsil məktəblərində sinifdənxaric və məktəbdənkənar fəaliyyətlərin inteqrativ təhsildə rolu və əhəmiyyəti artmaqdadır. Fənlərarası multidisiplinar yanaşmanın yeni prinsipləri kimi coğrafiya dərnəyi, meydançası, kabineti, ekskursiya, diyarşünaslıq muzeyi dərsin təşkilində önə çıxmaqdadır. Dərsin inteqrativ təşkilinə verilən yeni tələblərə uyğun müəllimlərin fənlərarası əlaqələr zamanı əməkdaşlığı zamanı onların bilik və bacarıqları artır. Gələcəkdə ümumtəhsil məktəblərində metodislərin ümumi fənn birləşmələrinin formalaşdırılması inteqrativ dərslərin keçirilməsində mühüm rola malik ola bilər. Pedaqoji prosesin qapalı mühitdən açıq məkanlara inteqrasiyası şagirdlərin koqnitiv mənimsəmə qabiliyyətini və mental proseslərini effektiv idarə etməyə imkan verir.

Ədəbiyyat

1. Dəmirova, G. Kimya dərslərində fəndaxili və fənlərarası inteqrasiya// Azərbaycan müəllimi. 2012-12 noyabr.
2. Eldarov, N.Ş. Coğrafiya kabineti və coğrafiya meydançası / N.Ş.Eldarov. Sumqayıt Dövlət Universiteti. – Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, – 2018. –104 s.
3. Əmirov, M.M. Tarix üzrə dərsdənkənar işlər tədris ekskursiyaları / M.M.Əmirov. – Bakı: [ADPU], –2024. – 359 s.
4. Haqverdiyev K.N., Cəfərov Y.İ. Pedaqoji innovasiyaların növləri və təhsilin modernləşdirilməsi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – S.6 . – 2021. C.88, №2. – s.117-120
5. Nağıyeva, İ.İ. Ümumtəhsil məktəblərində coğrafiyanın tədrisində şagirdlərin müstəqil

işinin təşkili: pedaqogika üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : – Bakı: 2016. – 22 s.
6. Rəfiyev, S. Şagirdlərin təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu və əhəmiyyəti // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 3, – 2018, – s.66-68
7. Seyidova, E., Məmmədov, B. Ərazinin coğrafi xüsusiyyətlərinin diyarşünaslıq cəhətdən öyrənilməsi //Akademik Tarih ve Düşünce Dergisi. – 2024, №11(2), – s.1417-1424

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 18.02.2025, qəbulolunma – 12.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.88-92
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.88-92
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.88-92

UOT: 94(100):37.03
https://doi.org/10.30546/670832.2025.01.917

Tarixin tədrisində istifadə olunan müasir təlim metodlar

Müəllif(lər):

İsmayıl Zeynalov
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
E-poçt: ismailzeynalov@gmail.com

Açar sözlər:təhsil, tədqiqat, tarix, müasir təlim metodları

Annotasiya. Məqalədə tarix fənninin tədrisində müasir təlim metodlarının rolu və əhəmiyyəti araşdırılır. Mövzunun aktuallığı XXI əsrdə təhsilin qarşısında duran əsas vəzifələrdən irəli gəlir. Belə ki, müasir dövrdə tədris prosesi yalnız faktların və biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərdə tənqidi və analitik düşüncə, yaradıcı yanaşma, problem həll etmə və müstəqil öyrənmə bacarıqlarının formalaşdırılmasını hədəfləyir.

Məqalənin məqsədi ənənəvi yanaşmalarla müqayisədə tarix dərslərində şagirdyönlü, fəal və interaktiv təlim üsullarının üstünlüklərini təhlil etmək və onların praktiki tətbiq imkanlarını müəyyənləşdirməkdir. Tədqiqat prosesində layihə əsaslı öyrənmə, problem əsaslı təlim, rol oynama, debatlar, interaktiv xəritə və cədvəllərlə iş, İKT-dən istifadə və qrup işləri kimi metodların tədrisdə istifadəsinin pedaqoji imkanları araşdırılmışdır.

Aparılan təhlillər göstərir ki, bu metodların tətbiqi şagirdlərin dərsə marağını artırır, onların öyrənmə prosesində aktiv iştirakını təmin edir və biliklərin praktik tətbiqinə şərait yaradır. Həmçinin şagirdlərdə hadisələr arasında əlaqə qurmaq, səbəb-nəticə münasibətlərini anlamaq, tarixi prosesləri qiymətləndirmək və müqayisə etmək bacarıqları inkişaf edir.

Nəticə olaraq, məqalə sübut edir ki, müasir təlim texnologiyalarının istifadəsi tarix fənninin tədris keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir, şagirdlərin sosial, intellektual və kommunikativ bacarıqlarını inkişaf etdirərək onların şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Author(s):

Ismayil Zeynalov
Nakhchivan State University,
PhD in History, Associate Professor
E-mail: ismailzeynalov@gmail.com

Key words:education, research, history, modern training methods

Modern teaching methods used in the teaching of history

Abstract. The article examines the role and importance of modern teaching methods in the teaching of history. The relevance of the topic arises from the main tasks facing education in the 21st century. In the modern era, the teaching process is not limited to the transmission of facts and knowledge, but also aims to develop students' critical and analytical thinking, creative approaches, problem-solving abilities, and independent learning skills.

The purpose of the article is to analyze the advantages of student-centered, active, and interactive teaching methods in history classes compared to traditional approaches, and to determine the possibilities of their practical application. During the research process, the pedagogical potential of methods such as project-based learning, problem-based teaching, role-playing, debates, working with interactive maps and charts, the use of ICT, and group work was explored.

The conducted analysis shows that the application of these methods increases students' interest in lessons, ensures their active participation in the learning process, and creates opportunities for the practical application of knowledge. Furthermore, students develop the ability to establish connections between events, understand cause-and-effect relationships, evaluate and compare historical processes.

As a result, the article demonstrates that the use of modern teaching technologies significantly improves the quality of teaching history, positively influences students' personal development by enhancing their social, intellectual, and communicative skills, and contributes to their formation as individuals.

Автор(ы):

Исмаил Зейналов
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
Э-почта: ismailzeynalov@gmail.com

Ключевые слова:образование, исследования, история, современные методы обучения

Современные методы обучения, используемые в преподавании истории

Аннотация. В статье рассматривается роль и значение современных методов обучения в преподавании истории. Актуальность темы обусловлена основными задачами, стоящими перед образованием в XXI веке. Так, в современную эпоху процесс обучения не ограничивается только передачей фактов и знаний, но и направлен на формирование у учащихся навыков критического и аналитического мышления, творческого подхода, решения проблем, самостоятельного обучения.

Целью статьи является анализ преимуществ ориентированных на учащегося, активных и интерактивных методов обучения на уроках истории по сравнению с традиционными подходами и выявление возможностей их практического применения. В процессе исследования изучались педагогические возможности использования в обучении таких методов, как проектное обучение, проблемное обучение, ролевые игры, дебаты, работа с интерактивными картами и таблицами, использование ИКТ, групповая работа.

Проведенный анализ показывает, что применение этих методов повышает интерес учащихся к уроку, обеспечивает их активное участие в процессе обучения, создает условия для практического применения знаний. Также у учащихся развиваются навыки установления связей между событиями, понимания причинно-следственных связей, оценки и сравнения исторических процессов.

В заключение статьи доказывается, что использование современных технологий обучения значительно повышает качество преподавания предмета История, положительно влияет на формирование у учащихся как личности, развивая их социальные, интеллектуальные и коммуникативные навыки.

Giriş. Təhsil elmi, xüsusilə didaktika və metodika sahələri, insanın bilik, bacarıq və dünyagörüşünü sistemli şəkildə formalaşdırmaq üçün müasir yanaşmalar təqdim edir. Bu sahələrin ən vacib anlayışlarından biri "təlim metodu"dur. Təlim metodu təhsilverən və təhsilalan arasında qarşılıqlı fəaliyyətin təşkilində əsas rol oynayır və qədim dövrdən başlayaraq tədrisin məzmununun mənimsənilməsi və qavranılmasını təmin edən sistem kimi qəbul edilmişdir. Yunan sözü olan "metodos" – yol, izah, şərh və xüsusilə "idrak yolu" mənalarını ifadə edir ki, bu da təlim prosesində idrakın əsas istiqamətlərindən birini təşkil edir [1].

Müasir təhsil sistemində, xüsusilə tarix fənninin tədrisində təlim metodlarının rolu daha da aktuallaşır. Tarixi biliklərin yalnız ötürülməsi deyil, həm də şagirdlərin dərsə maraq və fəallığının artırılması, onların tənqidi və məntiqi təfəkkür bacarıqlarının inkişafı müasir metodların düzgün seçimi və tətbiqinə birbaşa bağlıdır. Ənənəvi metodlarda müəllim əsas rol oynayaraq dərsi izah edir, şagirdlər isə passiv şəkildə məlumatı qəbul edirdi. Müasir metodlarda isə təhsilalan təlim prosesinin mərkəzinə yerləşdirilir və bütün tədris məqsədləri onun üzərində qurulur. Bu yanaşma şagirdlərin fəal iştirakı, müstəqil düşünməsi, analitik və tənqidi bacarıqlarının formalaşmasını təmin edir [5].

Tarix təlimi zamanı tətbiq olunan metodlar şagirdlərin idrak fəaliyyətinin fərqli istiqamətlərini əhatə etməli və onların təcrübi və praktik bacarıqlarını inkişaf etdirməlidir. Müasir dövrdə tarix fənninin tədrisində geniş istifadə olunan metodlar – şifahi (mühazirə, izah, söhbət), vizual (xəritə, diaqram, şəkil), praktik (mənbələrlə iş, layihələr), interaktiv və problemli təlim metodlarıdır. Bu metodlar dərsdə şagirdlərin fəal iştirakını təmin edir, dərsin əyani və maraqlı keçməsinə şərait yaradır, tənqidi düşüncənin inkişafına imkan verir.

Təlim metodu həmçinin müəllim və şagird arasında qarşılıqlı münasibətlərin düzgün qurulmasında mühüm rol oynayır. Müasir tarix müəllimi tədris prosesində yalnız bilik ötürən deyil, həm də şagirdlərin şəxsiyyət yönümlü inkişafını təmin edən pedaqoji vasitəçi rolunu daşıyır. Bu məqsədlə, müəllim fərdi yanaşma tətbiq etməli, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq təlim metodlarını seçməli və onların dərsdə fəal iştirakını təmin etməlidir. Müasir metodlar şagirdlərin yeni bilikləri tənqidi və analitik şəkildə mənimsəməsinə, problemləri həll etmə bacarıqlarının inkişafına və əməkdaşlıq bacarıqlarının formalaşmasına kömək edir.

Müasir texnologiyalar və informasiya-kommunikasiya vasitələri də tarix təlimində əhəmiyyətli rol oynayır. Kompüter təqdimatları, videometodlar, rəqəmsal resurslar və multimediya vasitələri dərsi daha interaktiv və əyani edir. Bu vasitələr yalnız informasiyanın ötürülməsini təmin etmir, həm də şagirdlərin fəal iştirakı, problemlərin həlli və yaradıcı fəaliyyətinə şərait yaradır. Beləliklə, tarix fənninin tədrisində müasir texnologiyalardan istifadə həm tədrisin keyfiyyətini yüksəldir, həm də şagirdlərin tarixi bilikləri mənimsəməsini sürətləndirir [4].

Tarix təlimində istifadə olunan müasir təlim metodlarının təsiri yalnız bilik ötürülməsi ilə məhdudlaşmır. Fəal/interaktiv metodlar şagirdlərin motivasiyasını artırır, dərsdə iştiraklarını stimullaşdırır, tarixi hadisələri analiz etməyə və öz müstəqil nəticələrini çıxarmağa imkan verir. Müəllim dərsi planlaşdırarkən induktiv və deduktiv yanaşmalardan istifadə etməli, mövzular arasında əlaqə yaratmalı və şagirdlərin diqqət və marağını qorumaq üçün uyğun vizual, praktik və interaktiv vasitələrdən faydalanmalıdır.

Əlavə olaraq, tarix müəlliminin pedaqoji bacarıqları və dünyagörüşü də dərsin səmərəliliyində vacib rol oynayır. Müəllim-şagird münasibətlərinin düzgün qurulması, qarşılıqlı hörmətin təşviqi, şagirdlərin maraq və istəklərinə uyğun təlim metodlarının seçilməsi, eləcə də şəxsiyyət yönümlü təlim yanaşmaları tədrisin effektini artırır. Tarix müəllimi yalnız tarixi bilikləri ötürməklə kifayətlənməməli, həm də şagirdlərin analitik, tənqidi və yaradıcı düşüncələrini inkişaf etdirməli, onların tarixi hadisələri anlamalarına və fərdi baxış formalaşdırmalarına şərait yaratmalıdır.

Bu tədqiqatın məqsədi tarix təlimində müasir təlim metodlarının effektivliyini araşdırmaq, şagirdlərin idrak fəaliyyətində və tarixi biliklərin mənimsənilməsində bu metodların rolunu müəyyən etməkdir. Həmçinin, müəllimlərin interaktiv təlim metodlarından, praktik tapşırıqlardan və müasir texnologiyalardan istifadə imkanlarını qiymətləndirmək və onların tədrisin keyfiyyətinə

təsirini analiz etməkdir. Bu yanaşma, tarix fənninin tədrisini daha məqsədyönlü, fəal və səmərəli etmək üçün elmi-praktik baza təmin edir.

Material və metodlar. Tədqiqatın materialı əsasən ümumtəhsil məktəblərində tarix fənninin tədrisi prosesində istifadə olunan müxtəlif təlim metodları və onların səmərəliliyi ilə bağlı elmi ədəbiyyatlar, pedaqoji təcrübələr, müəllim müşahidələri və dərs nümunələridir. Eyni zamanda tədqiqatın materialına şagirdlərin fəallığı, dərs zamanı qarşılıqlı fəaliyyətin keyfiyyəti və istifadə olunan əyani vasitələr də daxildir. Mənbələr arasında həm klassik dərsliklər, metodik göstərişlər, həm də müasir təlim texnologiyaları və rəqəmsal resurslar yer alır.

Tədqiqat metodikası bir neçə istiqamətdə qurulmuşdur:

1. Analitik metod – metodik ədəbiyyatların təhlili, müxtəlif təlim metodlarının nəzəri əsaslarının müqayisəsi və tədrisdə onların tətbiqi prinsiplərinin müəyyən edilməsi üçün istifadə olunmuşdur. Bu metod vasitəsilə həm ənənəvi, həm də müasir təlim metodlarının xüsusiyyətləri, üstünlükləri və mümkün çatışmazlıqları sistemləşdirilmişdir.

2. Müşahidə metodu – dərs prosesində müəllim-şagird qarşılıqlı fəaliyyətinin, şagirdlərin aktivliyinin və metodların dərsdə tətbiqinin müşahidəsi üçün istifadə edilmişdir. Müşahidə nəticələri dərsin səmərəliliyinin qiymətləndirilməsində və metodların praktik tətbiqi barədə nəticə çıxarılmasında əsas rol oynamışdır.

3. Eksperimental metod – müəyyən mövzuların tədrisində fərqli təlim metodlarının tətbiqi və onların şagirdlərin bilik, bacarıq və fəaliyyətinə təsirinin müqayisəli araşdırılması üçün aparılmışdır. Bu metodla şagirdlərin deduktiv, induktiv və interaktiv təlim şəraitində əldə etdikləri nəticələr qiymətləndirilmişdir.

4. Sorğu və anket metodu – şagirdlər və müəllimlər arasında təlim metodlarının qəbulu, dərs zamanı maraq və fəallıq səviyyəsi haqqında məlumat toplamaq məqsədilə istifadə edilmişdir. Bu metod vasitəsilə tədqiqatın subyektləri olan şagirdlərin təlimə münasibəti, onların fərdi xüsusiyyətlərinə uyğun metod seçiminin əhəmiyyəti qiymətləndirilmişdir.

5. Kommparativ metod – ənənəvi və müasir metodların effektivliyinin müqayisəsi aparılmışdır. Bu yanaşma vasitəsilə fəal-interaktiv təlim metodlarının, sözlü, əyani, praktik və problemli metodların şagirdlərin idrak və tənqidi düşüncə qabiliyyətlərinə təsiri sistemli şəkildə müəyyən edilmişdir.

Tədqiqatda istifadə olunan metodlar bir-birini tamamlayıcı xarakter daşıyır və məqsəd tarix fənninin tədrisində metod seçiminin düzgün qurulmasını, şagirdlərin fəallığını artırmaq və təlim keyfiyyətini yüksəltməkdir. Xüsusilə interaktiv və əyani metodlar, praktiki tapşırıqlar və İKT vasitələrinin tətbiqi tədqiqatın əsas fokus nöqtəsi olmuşdur.

Beləliklə, material və metodlar hissəsi tədqiqatın elmi əsaslarını və praktik yönünü birləşdirərək tarix fənninin tədrisində metodların səmərəli tətbiqi üçün baza rolunu oynayır.

Nəticə və müzakirə. Tədqiqat nəticələri göstərir ki, tarix fənninin tədrisində istifadə olunan metodların seçimi və tətbiqi dərsin keyfiyyətinə və şagirdlərin öyrənmə motivasiyasına birbaşa təsir edir. Analitik və eksperimental təhlillərdən əldə olunan məlumatlara görə:

1. Ənənəvi metodlar (sözlü izah, dərslik üzərindən tədris, əyani vasitələrin məhdud istifadəsi) əsas biliklərin ötürülməsi üçün faydalıdır, lakin şagirdlərin fəallığını və dərsə marağını uzunmüddətli saxlamaq baxımından məhdud imkanlar təqdim edir.

2. Müasir fəal və interaktiv metodlar (problemli təlim, induktiv metodlar, qrup işi, layihə əsaslı öyrənmə) şagirdlərin tənqidi və analitik düşünmə bacarıqlarını daha sürətlə inkişaf etdirir. Bu metodlar şagirdlərin dərs materialını daha yaxşı mənimsəməsinə, əldə edilən bilikləri praktik vəziyyətlərdə tətbiq etməsinə və dərs prosesində aktiv iştirakına şərait yaradır.

3. Metodların qarışıq tətbiqi – ənənəvi və müasir metodların balanslı şəkildə istifadə olunması dərs prosesinin həm informativ, həm də interaktiv olmasını təmin edir. Təhlil göstərir ki, belə yanaşma şagirdlərin bilik və bacarıqlarının hərtərəfli inkişafına səbəb olur.

Müzakirə zamanı müəyyən edilmişdir ki, təlim prosesində metod seçimi yalnız müəllimin şəxsi təcrübəsindən asılı olmamalıdır; o, həmçinin şagirdlərin yaş xüsusiyyətləri, dərs mövzusu və tədris resurslarının əlçatanlığı nəzərə alınaraq sistemli şəkildə aparılmalıdır. Eksperimental nə-

ticələr göstərir ki, interaktiv metodlardan istifadə edən müəllimlərdə şagirdlərin dərsə motivasiyası və fəallığı əhəmiyyətli dərəcədə yüksəkdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, müəllimlər dərs planlaşdırmasında metod seçimini optimallaşdıraraq dərs prosesini həm informativ, həm də əyləncəli və interaktiv edə bilərlər. Bu, şagirdlərin öyrənmə motivasiyasını artırır, dərs materialını uzunmüddətli yadda saxlamağa kömək edir və onların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir.

Nəticə olaraq, tarix fənninin tədrisində metodların məqsədli, sistemli və şagird mərkəzli tətbiqi, eləcə də ənənəvi və müasir yanaşmaların uyğun kombinasiyası tədrisin keyfiyyətinin yüksəldilməsi üçün vacibdir.

Yekun nəticə. Tədqiqatın yekun nəticəsi göstərir ki, tarix fənninin tədrisində metodların məqsədli və sistemli tətbiqi təhsil prosesinin səmərəliliyini birbaşa artırır. Analitik və eksperimental nəticələr sübut edir ki:

1. Müasir fəal və interaktiv metodlar şagirdlərin dərsə marağını artırır, tənqidi və analitik düşüncə qabiliyyətlərini inkişaf etdirir və öyrənilən biliklərin uzunmüddətli yadda qalmasını təmin edir.

2. Ənənəvi metodlarla müasir metodların balanslı şəkildə birləşdirilməsi dərsin informativliyini və interaktivliyini artırır, şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə imkanları yaradır.

3. Təlim prosesində metod seçimi yalnız müəllimin bacarığına deyil, həm də şagirdlərin yaş səviyyəsi, dərs mövzusu və mövcud tədris resursları nəzərə alınaraq aparılmalıdır.

4. Fəal/interaktiv təlim metodlarının tətbiqi, eləcə də müasir informasiya və kommunikasiya texnologiyalarının dərs prosesinə inteqrasiyası şagirdlərin öyrənmə motivasiyasını yüksəldir və dərs materialını daha əlçatan edir.

Nəticədə, tarix fənninin səmərəli tədrisi üçün müəllimlərin metodik bacarıqlarının artırılması, təlim strategiyalarının şagird mərkəzli planlaşdırılması və müasir texnologiyalardan istifadə tədrisin keyfiyyətini yüksəldən əsas amillərdən hesab olunur. Bu yanaşma həmçinin şagirdlərin tarixi bilik, bacarıq və dünyagörüşünün formalaşmasına, onların müstəqil düşünmə və tənqidi yanaşma qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu. Milli kurikulum yeni təlim metodlarında. Metodik vəsait. – Naxçıvan: – 2012. – 137 s.
2. Əliyev, F. Tarixin tədrisi metodikası. – Bakı: Elm və Təhsil, – 2015.
3. Əliqızı, V. "Müəllim-şagird münasibətləri səmimilik və sevgi üzərində qurulmalıdır." Azərbaycan müəllimi qəzeti, 20 fevral 2016
4. Əmirov, M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası / M.M.Əmirov. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. – Bakı: ADPU, – 2011. – 707 s.
5. Cəlilov, A. Azərbaycan tarixinin interaktiv təlim metodları ilə tədrisində şagirdlərdə tarixi anlayışların formalaşdırılması / A.Cəlilov. – Bakı: – 2006. – 155 s.
6. Hüseynov, Ə. Tarixin tədrisi metodları və formatları / Ə.Hüseynov. – Bakı: Maarif, – 2007.
7. İbrahimov, X. "Pedaqoji ünsiyyət mədəniyyətinin bəzi problemləri." Azərbaycan məktəbi jurnalı, – 1991, №1, – s.17.
8. İlyasov, M. Müəllimin pedaqoji ustalığı / M.İlyasov. – Bakı: Elm və Təhsil, – 2013. – 215 s.
9. İsmayılova, Ü. "Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi." Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2018, 85 cild, №3, – s.73-78
10. Kərimov, Y.Ş. Təlim metodları / Y.Ş.Kərimov. – Bakı: – 2007. – 264 s.
11. Məmmədova, N. "Tədrisin təşkilində müəllim-şagird münasibətləri." Azərbaycan müəllimi qəzeti, 14 iyul 2017, №13.
12. Məmmədova, N.S. "Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkili texnologiyalarının tədqiqi səviyyəsi." Pedaqoji Universitetin xəbərləri, – 2019, №1, Cild 67, – s.167-173.
13. Metodik işin təşkili, məzmunu, formaları və metodları. Metodik tövsiyə. – Bakı: –1989. – 31 s.
14. Musayev, D. Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları / D.Musayev. Monoqrafiya. – Bakı: – 2022. – 229 s.

15. Nəzərov, A.M. Pedaqoji ustalıq / A.M.Nəzərov, R.Ə.Məmmədov. – Bakı: Müəllim nəşriyyatı, –2008. – 84 s.
16. Orta məktəblərdə yeni təlim metodları. – Bakı: Açıq Cəmiyyət İnstitutu, – 2001. – 98 s
17. Paşayev, Ə.X. Pedaqogika (yeni kurs) / Ə.X. Paşayev, F.A.Rüstəmov. Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Nurlan, – 2007. – 464 s.

Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 12.03.2025

UOT: 37:631.52:54
https://doi.org/10.30546/670832.2025.01.1219

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.83-87
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.83-87
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.83-87

"Azotlu gübrələr" mövzusunun tədrisi zamanı qarşıya çıxan bəzi çətinliklər və onların həlli yolları

Müəllif(lər):
Mirnazim Seyidov
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-poçt: mirnazimseyidov@ndu.edu.az
Akif Əliyev
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-poçt: akifaliyev@ndu.edu.az
Ərus Abbasova
Naxçıvan Dövlət Universiteti
Magistrant

Açar sözlər: azot, fosfor, kalium, gübrə, ammonyak, nitrat turşusu, karbamid, ammonium-nitrat

Annotasiya. "Azotlu gübrələr" mövzusunun tədrisi şagirdlərdə həyati bacarıqların və vərdişlərin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edən mövzulardandır. Bu mövzunun tədrisi zamanı aydınlaşdırılmışdır ki, torpaq uzun müddət istismar edildikdən sonra onun tərkibinə daxil olan mineral maddələr tükənir. Bu səbəbdən də torpaqda əkilən bitkilərin məhsuldarlığı azalır və məhsulun keyfiyyəti aşağı düşür, məhsulun miqdarını artırmaq və məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün bitkilərə mineral maddələrin verilməsi tələbatı ortaya çıxır. Bu məqsədlə bitkilər üçün daha vacib olan azot, fosfor və kalium gübrələrindən istifadə edilir. Bu maddələr bitkilərin normal inkişafını təmin edir, məhsuldarlığı artırır və məhsulun miqdarının və keyfiyyətinin yüksəlməsinə səbəb olur.

"Azotlu gübrələr" bəhsinin izahı zamanı aydınlaşdırılmışdır ki, azotlu gübrələrin alınmasında ammonyak mühüm əhəmiyyətə malik olan maddələrdən biridir. Bu maddə atmosferdəki azotun hidrogenlə birləşməyə çevrilməsi nəticəsində sənayedə alınır. Yerdə qalan azotlu birləşmələr bu maddə əsasında sintez edilir. Tədqiqatın araşdırılması zamanı bu sahədə olan ədəbiyyatlar təhlil edilmişdir.

Ədəbiyyat araşdırmaları nəticəsində müəyyən edilmişdir ki, azotlu gübrələrin mühüm praktiki əhəmiyyəti var. Belə ki, bu gübrələr dənli bitkilərə verildikdə bu bitkilərin kollanma qabiliyyətini, məhsuldarlığını və tərkibində zülalın miqdarını artırır.

Author(s):
Mirnazim Seyidov
Nakhchivan State University
PhD in Chemistry, Associate Professor
E-mail: mirnazimseyidov@ndu.edu.az
Akif Aliyev
Nakhchivan State University, PhD in Chemistry, Associate Professor
E-mail: akifaliyev@ndu.edu.az
Arus Abbasova
Nakhchivan State University
Master student

Key words: nitrogen, phosphorus, potassium, fertilizer, ammonia, nitric acid, urea, ammonium-nitrate

Some difficulties encountered when teaching the topic of nitrogen fertilizers and their solutions

Abstract. During the teaching of this topic, it was clarified that after long-term exploitation of the soil, the mineral substances included in its composition are depleted. For this reason, the productivity of the plants planted in the soil decreases and the quality of the product decreases. There is a need to supply mineral substances to the plants in order to increase the quantity of the product and improve the quality of the product. For this purpose, nitrogen, phosphorus and potassium fertilizers, which are more important for plants, are used. These substances ensure the normal development of plants, increase productivity and increase the quantity and quality of the product.

During the explanation of nitrogenous fertilizers, it was clarified that ammonia is one of the important substances in the purchase of nitrogenous fertilizers. This substance is obtained in the industry as a result of the transformation of nitrogen in the atmosphere into a combination with hydrogen. Nitrogenous compounds remaining in the ground are synthesized on the basis of this substance.

Nitrogen fertilizers have important practical importance. When applied to cereal crops, they increase their tillering ability, productivity, and protein content.

Автор(ы):
Мирназим Сеидов
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
Э-почта: mirnazimseyidov@ndu.edu.az
Акиф Алиев
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
Э-почта: akifaliyev@ndu.edu.az
Арус Аббасова
Нахчыванский государственный университет
Магистрант

Ключевые слова: азот, фосфор, калий, удобрение, аммиак, азотная кислота, мочевина, аммиачная селитра

Некоторые трудности, возникающие при изучении темы «азотные удобрения», и пути их решения

Аннотация. Преподавание темы «Азотные удобрения» - одна из тем, имеющих важное значение для развития у учащихся жизненных навыков и привычек. В ходе преподавания данной темы было выяснено, что после длительной эксплуатации почвы минеральные вещества, входящие в ее состав, истощаются. По этой причине снижается урожайность посаженных в почву культур и снижается качество урожая, возникает потребность в подкормке растений минеральными веществами для увеличения количества урожая и улучшения качества урожая. С этой целью используют азотные, фосфорные и калийные удобрения, которые более важны для растений. Эти вещества обеспечивают нормальное развитие растений, повышают урожайность и приводят к повышению количества и качества урожая.

В ходе разъяснений по поводу азотных удобрений было выяснено, что аммиак является одним из веществ, имеющих важное значение при получении азотных удобрений. Это вещество получают в промышленности в результате преобразования атмосферного азота в соединение с водородом. На основе этого вещества синтезируются оставшиеся в земле азотистые соединения. В ходе исследования была проанализирована литература в этой области.

В результате литературных исследований установлено, что азотные удобрения имеют важное практическое значение. Таким образом, при внесении этих удобрений в зерновые культуры они увеличивают всхожесть, урожайность и содержание в них белка.

Giriş. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra bütün sahələrdə ciddi islahatlar aparılmağa başlandı. Belə islahatlardan biri də təhsil islahatı idi. Təhsil islahatının qarşısına qoyulan ən mühüm vəzifələrdən biri XXI əsrdə ölkənin siyasi, iqtisadi və sosial problemlərinin həll olunmasına yardım edə biləcək kadrların hazırlanması idi. Bu deyilən problemlərin həll olunmasında iştirak edə biləcək gənc nəslin yetişməsi üçün təhsilin keyfiyyətinin yaxşılaşdırılması əsas şərtlərdən biri oldu. Bunun üçün ciddi təhsil islahatlarının aparılması zəruriliyi meydana çıxdı. Bununla əlaqədar olaraq islahat proqramının mərhələlərindən biri kimi 2006-cı il oktyabrın 30-da "Azərbaycan Respublikasının ümumtəhsilin Konsepsiyası (Milli Kurikulumu)" çərçivə sənədi hazırlandı [1].

Sonrakı illərdə kurikulum təhsil sistemi ümumi təhsil məktəblərində tətbiq olundu. Fənyönümlü və şəxsiyyətyönümlü olmaqla kurikulum xarakterinə görə iki yerə bölünür. Fənyönümlü kurikulum biliyin həcminə və miqdarına görə qiymətləndirildiyi halda, şəxsiyyət yönümlü kurikulumlarında isə üstünlük həyati bacarıqlara və vərdişlərə verilir. Bu isə şagirdlərin gələcək həyatlarında çox mühüm rola malikdir. İnsanın şəxsi fəaliyyəti üçün lazım olan bacarıq və vərdişlər şəxsiyyətyönümlü kurikulumda əsas götürülür [4-5].

Bu mənada "Azotlu gübrələr" mövzusunun tədrisi şagirdlərdə həyati bacarıqların və vərdişlərin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edən mövzulardandır.

Azot gübrələrinin istehsalının və onların müxtəlif mədəni bitkilərin inkişafına təsirini şagirdlərə aydınlşdırmaqla onlarda həyat üçün lazım olan bacarıq və vərdişlərin formalaşdırmaq mümkün olur. Bu bacarıq və vərdişlər onların gələcək həyatı üçün ən vacib amillərdən biridir. Bu əxlaqi keyfiyyətləri şagirdlərdə formalaşdırmaq üçün qabaqcıl pedaqoji metodlardan məharətlə istifadə edilməlidir. Çox illik pedaqoji təcrübəmiz bu həqiqətləri isbat edir.

Azotlu gübrələr bitkilər üçün mühüm əhəmiyyətə malik olan gübrələrdir. Bu gübrələrin tərkibində olan azot bitkilərin hüceyrə protoplazmasının əsasını təşkil edir. Bu element sadə və mürəkkəb zülalların tərkibinə daxildir. Bitki protoplazmasının əsasını zülallar təşkil etdiyindən azot elementinin bitkilər üçün nə dərəcədə əhəmiyyətə malik olduğunu anlamaq olar.

Azot elementinin əhəmiyyəti bir də ondadır ki, onlar nuklein turşularının tərkibinə daxildir. Nuklein turşuları canlı orqanizmində son dərəcədə mühüm əhəmiyyətə malik olan maddələrdən biridir. İstər ribonuklein turşusunun, istərsə də dezoksiribonuklein turşularının orqanizmdə maddələr mübadiləsindəki rolu və digər əhəmiyyətləri haqqında geniş məlumata sahibik.

Bitki yarpaqlarının açıq yaşıl rəngdə olması, zəif böyüməsi və pis inkişafı onlarda azot elementinin çatışmamasını göstərən əlamətlərdir. Bitkilər azotu yalnız birləşmələr şəklində kökləri vasitəsilə alırlar. Baxmayaraq ki, atmosfer havasının 78 %-ni azot elementi təşkil edir, bitkilər həmişə azot "aclığı"ndan əziyyət çəkir. Atmosferin tərkibində olan azotdan istifadə edə bilmir. Bu azot mənbəyindən bitkilərin azota olan tələbatını ödəmək o zaman mümkün olur ki, atmosfer havasının tərkibindəki azot birləşmələrə çevrilsin. Atmosfer azotunun birləşmələrə çevrilməsi üçün onun mayeləşdirilməsi əsas şərtdir. Bu üsuldan istifadə etməklə sənaye miqyasında ammonyak sintez edilir. Ammonyakdan isə nitrat turşusu alınır. Bu, ammonyakın atmosfer təzyiqi altında katalitik oksidləşməsi yolu ilə mümkün olur. Nitrat turşusunun duzları və ammonium duzları bitkilərin qidalanmasında başlıca azot mənbəyi hesab edilir. Bitkilərin aldığı azotun son məhsulu onlar üçün lazım olan zülali maddələrdir. Mürəkkəb quruluşa malik olan zülal molekulu amin turşularından əmələ gəlir. Bitkilərdə amin turşuları fermentlərin iştirakı ilə ketokarbon turşularının ammonyakla birbaşa aminləşməsi hesabına sintez olunur. Bu reaksiya iki fazada gedir. İmin turşusu və suyun əmələ gəlməsi ilə nəticələnən mərhələ birinci faza, alınmış imin turşusunun amin turşularına qədər reduksiya olunması isə ikinci faza adlanır.





Bəzi aminturşuları isə NH_3 karbonturşuları ilə birbaşa qarşılıqlı təsir nəticəsində əmələ gələ bilər:



Yuxarıdakı reaksiya tənliyindən göründüyü kimi asparagin turşusu ammonyakın birbaşa fumar turşusuna birləşməsi yolu ilə əmələ gəlmişdir.

Bitki orqanizmində aminturşuların sintezinin başqa formaları da məlumdur. Orqanizmdə artıq miqdarda toplanmış amin turşuları öz amin qrupunu ketoturşulara keçirməklə çatışmayan amin turşularını sintez edə bilir. Bu cür aminləşməyə yenidənaminləşmə deyilir. Belə proseslərin canlı orqanizmlərində getməsi zülalların sintezində mühüm əhəmiyyətə malikdir. Bu yolla orqanizmdə çatışmayan aminturşular sintez olunur ki, bu da zülal sintezində mühüm əhəmiyyət kəsb edir.

Bütün bu izahatlardan sonra müəllim izah etməlidir ki, bitkilərdə zülalların sintezi ilə yanaşı onların aminturşulara parçalanması və ammonyakın ayrılma prosesi də gedir. Bu mürəkkəb quruluşa malik olan maddələrin hidrolizi bioloji aktiv maddələr olan fermentlərlə- proteazalarla kataliz olunur. Bu üzvi maddələrin parçalanması zamanı ayrılan ammonyak bitkilərin toxumalarında toplanmayıb, monoamin dikarbon turşularının – asparagin və qlütamin turşularının əmələ gəlməsində istifadə olunur. Dediklərimizdən belə məlum olur ki, bitkilərin normal inkişafında və yüksək məhsuldarlığa malik olmasında azot tərkibli mineral gübrələrin mühüm əhəmiyyəti vardır.

Bu mənada azotlu gübrələr sənaye miqyasında böyük həcmdə istehsal olunur. Bütün dünyada aşağıdakı azot gübrələri istehsal olunur:

1. Ammonyaklı-nitratlı gübrələr - əhəngli-ammonyaklı şora, ammonyak şorası, maye ammiakatlar.

2. Ammonyaklı gübrələr – ammonyaklı su, karboammiakatlar, ammonium-sulfat, ammonium-xlorid, maye ammonyak.

3. Nitrat gübrələri – natrium şorası, kalsium şorası.

4. Amidli gübrələr – karbamid, kalsium-sianamid.

Bu gübrələrdən ammonyaklı-nitratlı gübrə digər azotlu gübrələrdən əsaslı surətdə fərqlənir. Bu fərq ammonyaklı-nitratlı azot gübrəsində azotun miqdarının çox olması ilə əlaqəlidir. Həm də bu gübrədə azotun ammonium və nitrat formada olmasıdır. Bu gübrənin tərkibində standarta müvafiq olaraq azotun miqdarı 34,7 %-dir.

Sənayedə bu gübrəni 50-60%-li nitrat turşusunun qaz şəklində olan ammonyakla neytrallaşmasından alırlar.

Reaksiyanın tənliyini aşağıdakı kimi yaza bilərik:

$$HNO_3 + NH_{3(qaz)} = NH_4NO_3 + Q$$

Sənayedə bu gübrə fasiləsiz texnoloji proseslə alınır. Ona görə də məhsuldarlıq yüksək olur. Ancaq bu gübrə çox hiqroskopik olduğu üçün suyu özünə çəkərək yapıxır. Bu yapıxmanın qarşısını almaq üçün ammonyak şorasının tərkibinə 2-3% narın üyüdülmüş fosforit və ya sümük unu qatırlar.

Ammonium-nitrat gübrəsinin keyfiyyəti aşağıdakı şərtlərə müvafiq olmalıdır:

Qidalıq dəyəri ən azı 34,7 %, nəmliyi ən çox 1 %, suda həll olmayan qarışıqların miqdarı 0,1 %-dən artıq olmamalı, reaksiyası zəif turş və ya neytral olmalıdır.

Bu gübrə torpaq nəmində sürətli və tam həll olur. Ammonium-nitrat gübrəsinin hər iki azot forması (NH_4^+ və NO_3^-) bitki kökləri tərəfindən yaxşı udulur. Azotlu gübrələr içərisində ammonyak şorası öz əhəmiyyətinə görə birinci yeri tutur.

Çox qiymətli azot gübrələrindən biri də karbamiddir. Bu gübrənin tərkibində ballastı yoxdur və tərkibindəki azotun miqdarı 46 %-dir, ağ kristallik maddədir. Suda asan həll olur. Temperatur artdıqca bu gübrənin həll olma qabiliyyəti artır.

Bir sıra qiymətli sənaye məhsullarını sintez etmək üçün karbamiddən xammal kimi də istifadə edilir. Şüşənin və plastik kütlələrin alınmasında, süni qatranların istehsalında, əczaçılıq sənayesində, üzvi boyaların alınmasında karbamiddən xammal kimi istifadə edilir. Sintetik liflərin istehsalında, sintetik yapışdırıcıların alınmasında da bu maddədən xammal kimi, o cümlədən kənd təsərrüfatı sahəsində həm də mal yemi üçün azotlu əlavələr kimi də istifadə olunur [6-7].

Azotlu gübrələr bütün kənd təsərrüfatı bitkilərinə verilir. Bitkilər içərisində dənli bitkilər bu gübrəyə daha həssasdır. Çünki azot gübrələri dənli bitkilərdə kollanma qabiliyyətini yüksəldir, sünbülcüklərin inkişafını yaxşılaşdırır, dən məhsulunu və onlarda zülalın miqdarını artırır.

Azot gübrələrinin bitkilərə verilmə müddəti bitkilərin sortundan asılıdır. Kartof bitkisinə azot gübrələri kartof çiçəkləyəndən sonra verilməsi məqsədəuyğun hesab edilir. Ona görə ki, bu bitki qida maddələrini çiçəklənməyə başladıqdan sonra daha çox mənimsəyir. Bu dövrdə kartof yumruları daha güclü böyüməyə başlayır və bitkinin məhsuldarlığı xeyli artır. Ancaq azot gübrələrinin artıq miqdarda kartof çiçəkləyəndən sonra verilməsi bitkinin inkişafına mənfi təsir edir. Bitkinin vegetasiya dövrü uzanır və məhsuldarlıq xeyli miqdarda azalır. Bu kartof yumrularının inkişafının geriyə doğru olması ilə əlaqədar baş verir. Kartof bitkisi üçün ən yaxşı azot gübrəsi ammonium-sulfatdır. Bir hektarı təqribən 60-90 kq gübrənin verilməsi məqbul sayılır [2-3].

Azot gübrələri çay yarpağının məhsuldarlığının artırılmasında mühüm rol oynayır. Bu gübrələr çay yarpağının məhsuldarlığını 40-50 % artıra bilir. Bu bitkinin azot gübrəsinə olan tələbatının ödənilməsində mineral gübrələrlə yanaşı üzvi gübrələrdən də istifadə edilməsi ən yaxşı nəticələrin əldə edilməsinə səbəb olur.

Materiallar və metodlar: Tədqiqatın araşdırılması zamanı bu sahədə olan ədəbiyyatlar təhlil edilmişdir. Ələkbərov F., Zamanov P., Haluk U., Qarayev N. və başqalarının əsərlərində aparılmış elmi araşdırmalar belə bir fikrin formalaşmasına səbəb olur ki, bir sahədə illərlə əkin aparıldıqdan sonra torpaqda olan mineral maddələr tükənir. Bu səbəbdən də sonrakı illərdə həmin sahələrdə əkin aparıldıqda bitkilər normal inkişaf etmir və məhsuldarlıq aşağı düşür. Bunun qarşısını almaq üçün əkin sahələrinə mineral gübrələrin verilməsi lazım gəlir ki, bu da bitkilərin normal inkişaf etməsinə və məhsuldarlığın artmasına səbəb olur. Bu mineral gübrələrdən ən vaciblərindən biri də azot gübrələridir.

Nəticələr və müzakirə: Yuxarıda deyilənləri nəzərə alaraq, gübrələr mövzusunun şagirdlərə öyrədilməsi zamanı mövzunun yuxarıdakı qaydada izah edilməsini məqsədəuyğun hesab edirik.

Bu məqsədlə şagirdlərə izah edilməlidir ki, bitkilər də canlı orqanizmlərdən biridir, onların tərkibində həm üzvi, həm də qeyri-üzvi maddələr mövcuddur. Bu canlı orqanizmlərin tərkibinə 60-dan çox kimyəvi element daxildir. Bu elementlərdən bir neçəsi bitkilərin əsas kütləsini təşkil edir. Oksigen, karbon, hidrogen, azot, kalium, fosfor, dəmir və kükürd bitkinin əsas kütləsini təşkil edən elementlərə daxildir.

Bu elementlər içərisində kalium, fosfor və azot bitkilərin normal inkişafı üçün daha vacib hesab edilir. Tərkibində azot, kalium və fosfor olan mineral maddələr bitkilərin həyat fəaliyyətində əvəzolunmaz əhəmiyyətə malikdirlər. Bu maddələrin bitki həyatındakı əhəmiyyəti nə ilə əlaqəlidir? Azot, fosfor və kalium maddələri bitki orqanizmində maddələr mübadiləsinin yaxşılaşdırılmasına birbaşa təsiri mövcuddur. Belə ki, bu maddələr bitkilərin normal boy atmasına, məhsuldarlığına və qiymətli maddələrin çəkisinin yüksəlməsinə öz təsirini göstərir. Bu maddələrsiz bitkilərdən yüksək məhsuldarlıq əldə etmək mümkün deyildir. Qeyd olunan maddələr bitkilərdə nişastanın, şəkərin və zülalın çoxalmasına öz müsbət təsirini göstərir. Buna görə tarlada uzun müddət bitkilər yetişdirildiyi üçün torpaqda mineral maddələrin miqdarı azalır ki, bu da məhsuldarlığın aşağı düşməsinə və bitkilərin normal inkişaf etməməsinə səbəb olur.

Torpaqdan səmərəli istifadə etmək və ondan yüksək məhsuldarlıq əldə etmək üçün torpağa mineral maddələrin verilməsi vacib hesab edilir. Bu məqsədlə əkin sahələrinə azotlu, fosforlu və kaliumlu gübrələr verilir.

Yekun nəticə. Azotlu gübrələr mövzusunun tədrisi zamanı aydınlaşdırılmışdır ki, azotlu gübrələrin alınmasında ammonyak mühüm əhəmiyyətə malik olan maddələrdən biridir. Bu maddə atmosferdəki azotun hidrogenlə qarşılıqlı təsiri zamanı sənayedə alınır. Yerdə qalan digər azotlu birləşmələr bu maddə əsasında sintez edilir. Azotlu gübrələr mühüm kənd təsərrüfatı bitkilərinə verilir. Lakin azotlu gübrələrin torpağa verilməsi zamanı aşağıdakı məsələlərə xüsusi diqqət yetirmək lazımdır. Torpağın iqlim şəraiti və mədəni bitkilərin müxtəlif növlərinin bioloji xüsusiyyəti nəzərə alınmalıdır. Bu şərtlər nəzərə alınmaqla azot gübrələri sahələrə verildikdə həm məhsuldarlıq yüksək olur, həm də alınan məhsullar yüksək keyfiyyəti ilə seçilir. Mövzunun bu qaydada izah edilməsi şagirdlərin gələcək həyatları üçün lazım olan bacarıq və vərdişləri formalaşdırır və onları gələcək həyata hazırlayır.

Azotlu gübrələrin yuxarıda qeyd edilən formada şagirdlərə tədris edilməsi onların gübrələr haqqında biliklərinin həcmini genişləndirir və azotlu gübrələrdən düzgün istifadə etmə bacarığı formalaşdırır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) “Azərbaycan məktəbi” jurnalı, – 2007, № 2
2. Ələkbərov, F. Ş. İntensiv əkinçilikdə kimyəvi maddələrdən istifadənin aqroekoloji aspektləri // ADAU-nun elmi əsərləri, – 2013. № 1, – s.62-66
3. Haluk, U., Qarayev, N., Ələkbərov, F. Kartofun becərilməsi // SİEB üçün təlim materialı, – Bakı: –2014, – s.6-8
4. Məmmədova, A.Z. Kimyanın tədrisində müasir təlim texnologiyaları / A.Z.Məmmədova. Bakı, ADPU-nun nəşri, – 2012, – 242 s.
5. Veysova, Z. Fəal/interaktiv təlim / Z.Veysova. Müəllimlər üçün vəsait. – Bakı: YUNİSEF, –2007
6. Zamanov, P.B. Qida elementlərinin və gübrələrin torpaq xassələrinə və bitkilərin məhsuldarlığına təsirinin aqrokimyəvi əsasları / P.B.Zamanov. – Bakı, Elm, – 2017, – 266 s.
7. Zamanov, P.B. Torpaq və bitkilərin əsas qida maddələrinə tələbatı // Torpaqşünaslıq və aqrokimya əsasları toplusu. XX cild, – Bakı: Elm, – 2011, – s.367-371

Məqalə biologiya üzrə elmlər doktoru, professor Rauf Sultanov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 13.01.2025, son daxilolma – 10.02.2025, qəbulolunma – 14.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.93-97
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.93-97
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.93-97

UOT: 51.33:37.03
https://doi.org/10.30546/670832.2025.01.912

Məktəb riyaziyyatı kursunda elementar qurmaların tədrisi xüsusiyyətlərinə dair

Müəllif(lər):

Nazilə Muradova
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-poçt: nazilamuradova@gmail.com

Coşqun Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: memmedovcosqun920@gmail.com

Açar sözlər: riyaziyyat təlimi, həndəsə məzmun xətti, qurma məsələsi, elementar qurmalar

Annotasiya. Bu məqalədə məktəb riyaziyyat kursunun həndəsə məzmun xəttində qurma məsələlərinin tədrisinin pedaqoji əhəmiyyəti və bu məsələlərin şagirdlərin fəza təsəvvürlərinin inkişafındakı rolu araşdırılmışdır. Tədqiqatın məqsədi şagirdlərdə elementar qurma bacarıqlarını formalaşdırmaq, bu bacarıqları tətbiq etməklə mürəkkəb qurma məsələlərinin həllini asanlaşdırmaq və onların nəzəri əsaslarını izah etmə bacarığını inkişaf etdirmək olmuşdur. Tədqiqat zamanı elmi-nəzəri ədəbiyyatların analizi, məktəb riyaziyyat dərslərinin müşahidəsi, metodik materialların təhlili və didaktik modelləşdirmə üsullarından istifadə olunmuşdur. Məqalədə qurma məsələlərinin həlli prosesinin mərhələləri – analiz, qurma, isbat və araşdırma – pedaqoji yanaşma ilə izah olunmuş, elementar qurma məsələlərinin nümunələri və həll yolları təqdim edilmişdir. Araşdırma nəticəsində məlum olmuşdur ki, qurma məsələlərinin ardıcıl və mərhələli şəkildə tədrisi şagirdlərdə problemi anlama, həll yollarını tapma, isbat etmə və analiz etmə kimi mühüm idraki bacarıqların inkişafına xidmət edir. Əldə olunan nəticələr məktəb praktikasında tətbiq üçün əhəmiyyətlidir.

Author(s):

Nazila Muradova
Nakhchivan Teachers Institute
PhD in Mathematics, Associate Professor
E-mail: nazilamuradova@gmail.com

Joshgun Mammadov
Nakhchivan Teachers' Institute
Master student
E-mail: memmedovcosqun920@gmail.com

Key words: mathematics teaching, geometry strand, construction problem, elementary constructions

On the features of teaching elementary constructions in the school mathematics curriculum

Abstract. This article examines the pedagogical significance of teaching construction problems within the geometry strand of the school mathematics curriculum and their role in the development of students' spatial imagination. The aim of the study was to develop students' elementary construction skills, to facilitate the solution of complex construction problems through the application of these skills, and to improve their ability to explain the theoretical foundations underlying such problems. During the research, methods such as the analysis of scientific-theoretical literature, observation of school mathematics lessons, analysis of methodological materials, and didactic modeling were applied. The article explains the stages of solving construction problems—analysis, construction, proof, and exploration—from a pedagogical perspective, and provides examples of elementary construction problems together with their solutions. The study revealed that the consistent and step-by-step teaching of construction problems contributes to the development of essential cognitive skills in students, such as understanding the problem, finding solutions, providing proofs, and conducting analysis. The findings obtained are significant for practical application in school teaching.

Автор(ы):

Назиля Мурадова
Нахчыванский институт учителей
Доктор философии по математике, доцент
Е-почта: nazilamuradova@gmail.com

Джошгун Мамедов
Нахчыванский институт учителей
Магистрант
Е-почта: memmedovcosqun920@gmail.com

Ключевые слова: обучение математике, линия геометрического содержания, задача построения, элементарное построение

Об особенностях обучения элементарному построению в школьном курсе математики

Аннотация. В данной статье рассмотрена педагогическая значимость преподавания задач построения в геометрической линии содержания школьного курса математики и роль этих вопросов в развитии пространственных представлений учащихся. Целью исследования было формирование у учащихся элементарных умений конструирования, облегчение решения сложных задач на построение с применением этих умений и развитие умения объяснять их теоретические основы. В ходе исследования были использованы методы анализа научно-теоретической литературы, наблюдения за школьными уроками математики, анализа методических материалов, дидактического моделирования. В статье описаны этапы процесса решения задач конструирования – анализа, конструирования, доказывания и исследования – с педагогическим подходом, представлены примеры и решения элементарных задач на построение. Исследования показали, что последовательное и поэтапное обучение задачам построения служит развитию у учащихся важных когнитивных навыков, таких как понимание проблемы, поиск решений, доказательство и анализ. Полученные результаты значимы для применения в школьной практике.

Giriş. Məktəb riyaziyyat kursunda həndəsə məzmun xəttinin tədrisində şagirdlərin fəza təsəvvürlərinin inkişaf etdirilməsi ən vacib pedaqoji məsələdir. Qurma məsələləri isə şagirdlərin fəza təsəvvürlərinin inkişafında xüsusi rola malikdir.

Məktəb riyaziyyat kursunda qurma məsələlərinin tədrisi məsələləri şagirdlərin problemi qoya bilmə, qoyulmuş problemin həll yollarını axtarıb tapa bilmə, praktik tapılmış həll yolunun və həllin düzgünlüyünün nəzəri isbatını verə bilmə, məsələnin həlli ilə verilənləri təhlil edib, araşdırıb, mümkün variantları seçə bilmə bacarıqlara yiyələnməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq baxılan işin mövzusu aktuallıq kəsb edir.

Tədqiqatın məqsədi ümumi təhsil məktəblərində riyaziyyat təlimi prosesində elementar qurmaları tədqiq etməklə şagirdlərdə qurma bacarıqlarının formalaşdırılması və elementar qurmalar vasitəsilə mürəkkəb qurma məsələlərinin həllinin cəld yerinə yetirilməsi vərdişlərini formalaşdırmaqdır.

Aparılmış tədqiqatda ədəbiyyatlar təhlil olunmuş, ümumtəhsil məktəblərində riyaziyyat dərsləri dinlənilmişdir. Bu dərslər tədqiqat baxımından təhlil olunmuş və müəyyən nəticələr əldə edilmişdir.

Qurma məsələlərinə aid bacarıq və vərdişlər şagirdlərdə ibtidai siniflərdən ardıcıl və sistematik şəkildə formalaşdırılır. İbtidai siniflərdə şagirdlər qurmanı xətkeş, transportir, günyə, pərgar vasitəsilə yerinə yetirirlər. Belə ki, xətkeşlə hər hansı parçaya bərabər parçanı qurmaq, pərgarla verilmiş radiuslu çevrəni çəkmək, günyə ilə bucaq çəkmək və s. qurmaları yerinə yetirirlər. Lakin bu zaman qurmanın əsaslandırılması tələb olunmur. Yuxarı siniflərdə isə qurma məsələləri yalnız xətkeş və pərgarın köməyilə yerinə yetirilir. Bu da şagirdlərdə deduktiv təfəkkürün inkişafını sürətləndirir, çertyoj alətləri ilə işləmək vərdişlərini artırır, nəzəri və təcrübi bilikləri bir-biri ilə əlaqələndirir.

Həndəsi qurmalar nəzəri materialın şərhində də mühüm rol oynayır. Hesablamaya, isbata aid praktik xarakterli həndəsə məsələlərinin həllində də müxtəlif həndəsi qurmalardan istifadə olunur. Məhz məsələ məzmununun müxtəlif həndəsi fiqurlar və onların kombinasiyası vasitəsilə əyaniləşdirilməsi nəticəsində şagirdlər məsələnin həll yolunu asanlıqla müəyyən edə bilirlər.

Ümumiyyətlə, qurma məsələsi o vaxt həll olunmuş hesab edilir ki, bu həll postulatlar sistemi ilə müəyyən edilmiş və sonlu sayda elementar qurmalara gətirilmiş olsun. Qurmaya aid isə bir çox sadə məsələlər vardır ki, onlar daha mürəkkəb məsələlərin həllinə tərkib hissəsi kimi daxil olur. Buradan isə o nəticəyə gələ bilərik ki, bir sıra mürəkkəb qurma məsələlərinin həlli sadə qurma məsələlərinin həllinə gətirilir [1, s.17]. Onlara elementar həndəsi qurma məsələləri deyilir. Bu məsələlər qurma məsələlərində çox rast gəlinən həndəsi obrazların qurulmasına aid olan məsələlərdir. Elementar qurma məsələləri tipik məsələlər olub, praktikada çox rast gəlinir. Ona görə də deyə bilərik ki, mürəkkəb qurma məsələlərini həll etməyi bacarmaq üçün həmin məsələlərin həllini yaxşı bilmək və onları cəld yerinə yetirməyi öyrənmək lazımdır.

Qurma məsələlərinin həllinin əsas tərkib hissələri fiqurun qurulma üsulunu təsvir etmək və qurulmuş fiqurun məsələdə tələb olunan fiqur olmasını isbat etmək deməkdir. Ən sadə qurma məsələlərinin həllində də bu iki cəhət diqqət mərkəzində saxlanılmalıdır. Belə sadə məsələlərə məktəb riyaziyyat kursunun həndəsə məzmun xəttində baxılır. Qeyd edək ki, belə məsələlərin həcmi müəyyən olmadığından müxtəlif kitablarda onların sayı və məzmunu da eyni olmur. Beləliklə, elementar həndəsi qurmalara adətən aşağıdakı məsələlər aid edilir [2,s.244]:

1. Verilən düz xətt üzərində verilmiş parçaya konqruyent parçanın qurulması;
2. Verilən parçanın yarıya bölünməsi;
3. Verilən bucağın yarıya bölünməsi;
4. Verilən bucağa konqruyent bucağın qurulması;
5. Verilən nöqtədən keçib, verilən düz xəttə perpendikulyar olan düz xəttin qurulması;
6. Verilən nöqtədən keçib, verilən düz xəttə paralel olan düz xəttin qurulması;
7. Verilən parçanın verilmiş nisbətdə bölünməsi;
8. Verilmiş üç tərəfinə görə üçbucağın qurulması;
9. Hipotenuzuna və bir katetinə görə düzbucaqlı üçbucağın qurulması;

10. İki tərəfinə və onlar arasındakı bucağına görə üçbucağın qurulması;
11. Bir tərəfi və ona bitişik iki bucağına görə üçbucağın qurulması;
12. Verilən nöqtədən keçən və verilmiş çevrəyə toxunan düz xəttin qurulması;
13. Verilmiş iki çevrəyə çəkilmiş ortaq toxunanın qurulması;
14. Verilən parça üzərində verilmiş bucağın yerləşdiyi seqmentin qurulması.

Qeyd edək ki, elementar həndəsə qurma məsələlərinin əksəriyyəti məktəb riyaziyat kursunda verilmişdir. Onlardan bəzilərini göstərək.

Qurma 3. Verilən bucağı yarıya bölün. Başqa sözlə, verilən bucağını tənbölənini qurun.

Həlli. Bucağın tənböləni bu bucağın təpə nöqtəsindən çıxıb onu iki konqruyent bucağa bölən şüadır [3, səh 126].

Fərz edək ki, AOB bucağını yarıya bölmək tələb olunur. Bunun üçün pərgarın iti ucunu O nöqtəsinə yerlədirərək bucağın tərəflərini kəsən qövs çəkirik və qövsün tərəflərlə kəsişmə nöqtələrini C və D ilə işarə edək. Sonra pərgarın qollarını dəyişmədən iti ucunu C və D nöqtələrinə qoyub qövslər çəkirik. Daxilə çəkilmiş qövslərin kəsişmə nöqtəsini E hərfi ilə işarə edək. O və E nöqtələrini xətkeş vasitəsilə birləşdirsək alınan OE şüası AOB bucağının tənbölənidir. Beləliklə, biz pərgar və xətkeş vasitəsilə AOB bucağını yarıya bölmüş oluruq.



Qurma 8. Verilmiş üç tərəfinə görə üçbucaq qurun.

Həlli. Tərəfləri a, b və c olan üçbucaq quraq [3, s.113]. Bunun üçün hər hansı m düz xətti üzərində ixtiyari A nöqtəsini qeyd edək. Pərgarın qollarını tərəflərdən birinə, məsələn a-ya bərabər məsafədə açıb, mərkəzi A nöqtəsində radiusu a-ya bərabər olan çevrənin (və ya qövsün) m düz xətti ilə kəsişmə nöqtəsini qeyd edək və B hərfi ilə işarə edək. Daha sonra pərgarın qollarını b parçası qədər açıb mərkəzi A nöqtəsində radiusu b olan çevrə çəkək, c parçası qədər açıb mərkəzi B nöqtəsində radiusu c olan çevrə çəkək. Çevrələrin kəsişmə nöqtəsini C hərfi ilə işarə edək. AC və BC parçalarını birləşdirsək tələb olunan ABC üçbucağını qurmuş olarıq.





Həndəsə məzmun xəttində qurma məsələlərini həll etmək dedikdə verilmiş komponentlərinə görə tələb olunan həndəsi fiqurun qurulması başa düşülür. Təlimdə qurma məsələlərinin həll prosesini aşağıdakı mərhələlər üzrə yerinə yetirirlər[4, s.221]:

1. Həllin axtarılması mərhələsi- analiz;
2. Qurmanın yerinə yetirilməsi mərhələsi- qurma;
3. Həllin əsaslandırılması mərhələsi- isbat;
4. Həllin tədqiq olunması mərhələsi- araşdırma.

Ümumiyyətlə, qurma məsələləri bir o qədər də asan deyildir. Ona görə də məktəb riyaziyyatı kursunda qurma məsələlərinin yerinə yetirilmə mərhələləri haqqında şagirdlərə eyni zamanda məlumat vermək olmaz. Onlar bu mərhələlərlə tədricən tanış olmalıdırlar. Bu və ya digər yeni mərhələyə əvvəl öyrənilmiş mərhələlər möhkəm mənimsənildikdən sonra keçmək olar. Qurma məsələlərinin həlli prosesində istifadə olunan mərhələlər şagirdlərdən yaxşı mühakimə aparmağı, tələb olunan fiquru qurmağı, qurmanın doğruluğunu isbat etməyi, yəni qurulmuş fiqurun tələb olunan xassələri ödədiyini göstərməyi, həmçinin məsələ həllinin mümkün olub-olmadığını və ya neçə həllin olduğunu araşdırmağı tələb edir. Ümumiyyətlə, qurma məsələlərində fiqurun qurulma üsulu göstərilmişsə və göstərilən qurmalar nəticəsində tələb olunan xassələri ödəyən fiqurun alındığı isbat edilmişsə, onda məsələ həll olunmuş hesab edilir.

Məktəb riyaziyyatı kursunda qurma məsələlərinin həlli mərhələləri ilə şagirdlərin hansı ardıcıllıqla tanış edilməsi haqqında metodiki ədəbiyyatlarda müxtəlif fikirlər mövcuddur. Belə ki, qurma məsələsi çox sadə olduqda analiz və araşdırma mərhələlərini nəzərə almamaq olar. Bu zaman təbii olaraq məsələnin həllinə qurma və isbat mərhələlərindən başlamaq lazım gəlir. Qeyd edək ki, bu zaman məsələlər elə olur ki, onların həll yolu dərhal görünür. Bu halda analiz mərhələsinin yerinə yetirilməsinə ehtiyac qalmır. Həllin düzgünlüyünün əsaslandırılması haqqında isə şagirdlərin müəyyən təsəvvürünün əvvəlcədən olduğu məlumdur. Beləliklə, göstərilən iki mərhələ ilə bağlı olaraq şagirdlər müəyyən bacarıq və vərdişlər əldə etdikdən sonra onların diqqətini araşdırma mərhələsinə cəlb etmək olar. Şagirdlər öz bilik səviyyələrinə uyğun şəkildə qurma, isbat, araşdırma mərhələlərinin mahiyyətini mənimsədikdən sonra, onları analiz mərhələsi ilə tanış etmək məqsədəuyğundur. Çalışmaq lazımdır ki, şagirdlər qurma məsələlərini mərhələlərlə də yerinə yetirə bilsinlər.

Material və metodlar. Tədqiqatın məqsədi məktəb riyaziyyat kursunda həndəsə məzmun xəttinin tədrisində qurma məsələlərinin pedaqoji imkanlarını araşdırmaq və bu məsələlərin şagirdlərin fəza təsəvvürləri, deduktiv təfəkkürü və analitik bacarıqlarının inkişafına təsirini müəyyənləşdirmək olmuşdur. Bu məqsədə çatmaq üçün tədqiqatda müqayisəli təhlil, empirik müşahidə, elmi-nəzəri ümumiləşdirmə və didaktik modelləşdirmə metodlarından istifadə olunmuşdur.

İlk mərhələdə elmi ədəbiyyatların analizi aparılmış, xüsusilə məktəb riyaziyyatının həndəsə bölməsi üzrə mövcud proqram və metodik materiallar (dərsliklər, metodik vəsaitlər, təlim resursları) sistemli şəkildə araşdırılmışdır. M.Əmirov, F.Hüseynov, N.Əliyeva və digərlərinin işləri əsasında elementar qurma məsələlərinin tədrisində tətbiq olunan metodik yanaşmalar müəyyənləşdirilmişdir.

İkinci mərhələdə əməli müşahidə metodu ilə ümumtəhsil məktəblərində riyaziyyat dərsləri dinlənilmiş, qurma məsələlərinin tədrisində istifadə olunan üsulların effektivliyi müşahidə edilmiş və təhlil olunmuşdur. Bu mərhələdə dərslərin dinlənməsi, şagirdlərin fəaliyyətlərinin təhlili, müəllimlərin tətbiq etdiyi metodların sinif şəraitindəki nəticələri qeydə alınmışdır.

Üçüncü mərhələdə didaktik strukturlaşdırma və mərhələli yanaşma prinsipləri əsasında qurma məsələlərinin həlli mərhələləri – analiz, qurma, isbat və araşdırma – modelləşdirilmiş və onların tədris ardıcıllığı pedaqoji cəhətdən əsaslandırılmışdır. Bu mərhələdə məqsəd şagirdlərin tədricən sadədən mürəkkəbə doğru inkişaf edən bacarıq və vərdişlər sistemini formalaşdırmaq olmuşdur.

Aparılmış metodoloji yanaşmalar nəticəsində tədqiqat probleminin həllinə dair ümumiləşdirilmiş elmi və praktik nəticələr əldə edilmiş, şagirdlərin elementar qurma məsələləri üzərində işləyərək mürəkkəb məsələlərin həllinə hazırlıq səviyyələrinin yüksəldilməsi məqsədilə konkret tövsiyələr formalaşdırılmışdır.

Nəticə. Bu tədqiqatın nəticələri onu göstərir ki, məktəb riyaziyyat kursunda qurma məsələlərinin həlli mərhələləri ilə yerinə yetirən şagirdlər aşağıdakı bacarıqlara yiyələnə bilərlər:

-problemi qoya bilir;

-qoyulmuş problemin həll yollarını axtarır və tapa bilir;
-praktik tapılmış həll yolunun və həllin düzgünlüyünün nəzəri isbatını verir;
-məsələnin həlli ilə verilənləri təhlil edir, araşdırır, mümkün variantları seçir.

Tədqiqatda əldə edilən nəticələrin praktik əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər qurma ilə bağlı biliklərini elmi-nəzəri cəhətdən təkmilləşdirib, real həyatda bəzi məsələlərin həllinin qurma məsələlərinin köməyilə mümkünlüyünü müəyyənləşdirmək və uğurlu şəkildə tətbiq etmək bacarığını formalaşdırmaqdır.

Ədəbiyyat

1. Adıgözəlov, A. Həndəsi qurmalar. / A.Adıgözəlov, X.Həsənova. – Bakı, – 2011.
2. Adıgözəlov, A.S. Elementar həndəsə. / A.S.Adıgözəlov, T.M.Əliyeva, A.İ.Quliyev, M.T.Rzayev, Z.Ş.Qardaşova. – Bakı, – 2018. – 240 s.
3. İsmayılova, S. Riyaziyyat: ümumi təhsil müəssisələrinin VII sinfi üçün dərslik. / S.İsmayılova, S.Abdurahimov. – Bakı, – 2022. – 208 s.
4. Tahirov, B.Ö. Riyaziyyatın tədrisi üsulları. / B.Ö.Tahirov, F.M.Namazov, S.N.Əfəndi, E.A.Qasımov, Q.Z.Abdullayeva. – Bakı, – 2007. – 320 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 06.02.2025, qəbulolunma – 06.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.98-102
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.98-102
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.98-102

UOT: 37.03:94(100)
https://doi.org/10.30546/670832.2025.01.917

Tarix təliminin metodları və onların təsnifatına dair

Müəllif(lər):

Aytəkin Qəhrəmanova
Naxçıvan Müəllimlər İnstitutu
Tarix üzrə fəlsəfə doktoru
E-poçt: aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

Açar sözlər: tarix, təlim metodları, tənqidi təfəkkür, tarixi faktlar, müəllim, şagird

Annotasiya. Məqalədə tarix fənninin tədrisində tətbiq olunan təlim metodlarının elmi-pedaqoji əsasları, onların təsnifatı və müasir təhsil mühitində rolu təhlil olunur. Tədqiqatın məqsədi təlim prosesində istifadə edilən metodların mahiyyətini müəyyənləşdirmək, onların şagirdlərin tənqidi və analitik təfəkküründün inkişafına təsirini araşdırmaqdır. Ənənəvi və müasir təlim metodları arasında aparılan müqayisə göstərir ki, fəal təlimə əsaslanan şagirdyönümlü yanaşmalar – layihə metodu, problemyönlü təlim, debat, diskussiya və şifahi şərh – şagirdlərin təlimə aktiv cəlb olunmasını təmin edir və onların tarixə marağını artırır. Məqalədə təlim metodlarının idrak fəaliyyəti səviyyəsinə, bilik mənbəyinə və təşkilati formalarına görə sistemləşdirilməsi və bu təsnifatların tədrisdə tətbiq prinsipləri izah olunur. Eyni zamanda müəllimin pedaqoji bacarığı, şagirdlərin fərdi xüsusiyyətləri və dərsin məqsədinə uyğun metod seçimi məsələləri də vurğulanır. Nəticə olaraq qeyd edilir ki, təlim metodlarının düzgün seçimi şagirdlərə tarixi hadisələri dərindən təhlil etmək, səbəb-nəticə əlaqələrini qurmaq, mənbələrlə işləmək və praktik bacarıqlar qazanmaq imkanı yaradır.

Author(s):

Aytakin Gahramanova
Nakhchivan Teachers Institute
PhD in History
E-mail: aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

Key words: history, teaching methods, critical thinking, historical facts, teacher, student

On the methods of teaching history and their classification

Abstract. The article analyzes the scientific and pedagogical foundations of the teaching methods applied in the instruction of the history subject, their classification, and their role in the modern educational environment. The aim of the research is to identify the essence of the methods used in the teaching process and to examine their impact on the development of students' critical and analytical thinking. A comparison between traditional and modern teaching methods shows that student-centered approaches based on active learning – such as the project method, problem-based learning, debates, discussions, and oral commentary – ensure active student engagement in learning and increase their interest in history. The article explains the systematization of teaching methods according to the level of cognitive activity, sources of knowledge, and organizational forms, as well as the principles of applying these classifications in teaching. It also emphasizes the importance of the teacher's pedagogical skills, students' individual characteristics, and the selection of appropriate methods in line with the lesson objectives. As a result, it is noted that the correct selection of teaching methods enables students to deeply analyze historical events, establish cause-effect relationships, work with sources, and acquire practical skills.

Автор(ы):

Айтекин Гахраманова
Нахчыванский институт учителей
Доктор философии по истории
E-почта: aytekinqehramanova@nmi.edu.az
https://orcid.org/ 0009-0008-4946-1824

Ключевые слова: история, методы обучения, критическое мышление, исторические факты, учитель, ученик

К методам обучения истории и их классификациям

Аннотация. В статье анализируются научно-педагогические основы методов обучения, применяемых в преподавании исторического предмета, их классификация и роль в современной образовательной среде. Целью исследования является выявление сущности методов, используемых в процессе обучения, изучение их влияния на развитие критического и аналитического мышления учащихся. Сравнение традиционных и современных методов обучения показывает, что ориентированные на учащихся подходы, основанные на активном обучении – метод проектов, проблемное обучение, дебаты, дискуссии и вербальные комментарии – обеспечивают активное вовлечение учащихся в обучение и повышают их интерес к истории. В статье объясняется систематизация методов обучения по уровню познавательной деятельности, источникам знаний и организационным формам, а также принципы применения этих классификаций в обучении. При этом выделяются вопросы педагогической компетентности учителя, индивидуальных особенностей учащихся и выбора методов, соответствующих цели урока. В заключение отмечается, что правильный выбор методов обучения дает возможность учащимся глубоко анализировать исторические события, устанавливать причинно-следственные связи, работать с источниками, приобретать практические навыки.

Təlim metodları pedaqoji prosesin ayrılmaz hissəsi olub, təlimin məqsəd və məzmununa uyğun olaraq müxtəlif formalarda təzahür edir. Digər fənlərdə olduğu kimi, tarix fənninin də tədrisinin keyfiyyət və səmərəliliyinin artırılması müasir təlim metdodlarının düzgün seçilməsindən birbaşa asılıdır. Aydındır ki, təlim metodları müəllimin qarşısına qoyduğu məqsədə nail olmaq üçün istifadə etdiyi yollar və vasitələr sistemidir. Tədris prosesində düzgün seçilən təlim metodları müəllim və şagirdlər arasında qarşılıqlı əlaqənin yaradılmasında mühüm rol oynayır, eyni zamanda tətbiq edilən metodlar təlim prosesinin həm fəallığını, həm də səmərəliliyini artırır [2, s.247].

Əgər metodlar düzgün seçilib təsnifləşdirilərsə və tədris prosesində düzgün tətbiq edilərsə, o zaman şagirdlərdə tənqidi və analitik düşüncənin inkişafına sitimul verilər. Bununla yanaşı, şagirdlərdə tarixi hadisələri təhlil edib, müqayisə aparmaq və bunun nəticəsində əldə etdikləri məlumatlar əsasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verər, eyni zamanda onlarda praktik bacarıqlar formalaşdırar.

Bu günkü tədris sistemində əsas məqsəd şagirdlərin bilikləri hazır şəkildə deyil, müəllimin bələdçiliyi (fasilitasiya) ilə müstəqil şəkildə əldə etmələrindən ibarətdir.

Bu tədqiqatın aparılmasında əsas məqsəd təlim prosesi zamanı tətbiq olunan metodların elmi-pedaqoji mahiyyətini araşdırmaq, onların təsnifat prinsiplərini müəyyənləşdirmək və müasir təhsil sistemində daha yüksək səmərəlilik və keyfiyyət əldə etməkdir. Eyni zamanda tədris prosesində şagirdlərin müstəqil şəkildə işləmək bacarıqlarını formalaşdırmaq, bilikləri hazır şəkildə deyil, müəllimin bələdçiliyi ilə müstəqil şəkildə əldə etməkdən ibarətdir.

Tədqiqatın vəzifəsi əsasən təlim metodlarının mahiyyətini, tarixini və inkişaf mərhələlərini izah etmək, müxtəlif pedaqoji yanaşmaların təlim metodlarına təsirini göstərmək, təlim metodlarını məqsədlərinə, məzmununa, müəllim-şagird münasibətlərinə və tətbiq sahələrinə görə sistemləşdirmək, verilən təsnifatın məntiqi əsaslarını izah etmək və praktik nümunələrlə zənginləşdirmək, müəllimlər üçün metodların düzgün seçimi və tətbiqi ilə bağlı tövsiyələr vermək, metodların üstünlükləri və çatışmazlıqları təhlil etmək, yaş qrupları üzrə uyğun təlim metodlarının seçilməsinə istiqamət verməkdən ibarətdir.

Müasir təlim metodları. Müasir təlim metodları şagird yönümlü olub, fəal təlim prinsipinə əsaslanır. Bu metodlar cəmiyyətin inkişaf dinamikasına uyğun olaraq onun tələbatına cavab verir və şagirdlərin fəallığını artırır. Müasir təlim metodlarına Layihə metodunu misal göstərmək olar. Bu metod şagirdin müəyyən bir problemin həllinə yönəlmiş fəaliyyətini təşkil edir. Bu metod zamanı şagirdlər fərdi, ya da kollektiv şəkildə tədqiqat aparır, material toplayır və yaradıcı şəkildə təqdim edirlər. Bu, şagirdlərdə tənqidi təfəkkürün inkişafına şərait yaradır. Problemyönlü təlimdə müəllim problemli vəziyyət yaradır və şagirdləri bu problemin həllinə yönəldir. Bu, onları müstəqil düşünməyə, qərar qəbul etməyə sövq edir. Diskussiya, debat, beyin həmləsi, rol oyunu kimi metodlar interaktivliyi artırır və şagirdlərin dərsə fəal cəlb olunmasını təmin edir [10, s.42].

Bütün fənlərdə olduğu kimi, tarix dərsinin tədrisi prosesinin səmərəli və keyfiyyətli olması üçün ilk növbədə metodların düzgün seçilməsi bununla yanaşı, müəllimin həm təcrübəsi, həm də tədris etdiyi fənni dərindən bilməsindən irəli gəlir. Müəllim tədris prosesində metodları düzgün seçməklə bərabər, həm də şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq, onların mövzunu daha mükəmməl və ətraflı mənimsəmələri üçün geniş bilik və bacarığa malik olmalıdır. Eyni zamanda dərsin keyfiyyətini və səmərəliliyini artırmaq məqsədi ilə müəllim, mövzuya uyğun tətbiq etdiyi metodla yanaşı, digər təlim metodlarından da istifadə etməlidir. Bu zaman sinifdə dinamik və fəal mühit yaranır.

Ümumiyyətlə, tarix dərslərində təlim metodu müəyyən edilərkən müəllim əsasən təlimin məqsədi və vəzifələrini, şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini, dərsin məzmununu və fənnin spesifik xüsusiyyətlərini, həmçinin maddi-texniki imkanları və digər bu kimi meyarları nəzərə alır.

Tarix fənnin tədrisində tarix elminin xüsusiyyətlərinə uyğun metodları tətbiq etmək, yəni tarixi hadisələrin izahı, mənbələrlə iş, müzakirə və təhlil kimi üsulların istifadəsini sistemləşdirmək lazım gəlir. Onda dərs daha səmərəli və keyfiyyətli olar. Təlim metodları cəmiyyət inkişaf etdikcə, onun tələblərinə, eyni zamanda təhsil

sisteminin inkişafına uyğun olaraq dəyişir, yenilənir və təkmilləşir. Digər fənlərlərdə olduğu kimi, tarix fənninin tədrisində də bu yanaşmalar nəzrə alınır.

Qeyd etmək lazımdır ki, tədris zamanı tətbiq olunan metodlar müxtəlif meyarlar əsasında təsnif olunur:

İdrak fəaliyyəti səviyyəsinə görə təsnifləşdirmə. Bu təsnifatda əsas diqqət şagirdlərin təfəkkür səviyyəsinə yönəlir və pedaqoqlar onu bir sıra metodlara ayırırlar:

- İzahat-illüstrativ metod: Bu metodda müəllim yeni məlumatı izah edir, şagirdlər isə onu qəbul edir və yadda saxlayır. Bu metod ənənəvi dərslərdə daha geniş yayılmışdır.

- Reproduktiv metod: Şagirdlər müəllimin təqdim etdiyi biliklər əsasında verilən tapşırıqları yerinə yetir;

- Problemli izahat metodu: Müəllim dərs zamanı problem vəziyyəti yaradır və onun həllini şagirdlərlə birlikdə axtarır;

- Tədqiqat metodu. Şagirdlər özləri tədqiqat aparır, nəticələr çıxarır və müstəqil düşüncə formalaşdırırlar [4, s.69].

Bilik mənbəyinə görə təsnifləşdirmə: Bu təsnifatda əsasən təlimin informasiya resursları nəzərə alınır. Bu təsnifata aiddir:

- Şifahi metodlar: Mühazirə, söhbət, izah, müzakirə, hekayə.

- Vizual (görmə) metodlar: Demonstrasiya, illüstrasiya, ekskursiyalar.

- Praktik metodlar: Laboratoriya işləri, məşğələlər, təcrübələr, praktiki fəaliyyətlər [1, s.118].

Təlimin təşkilati formalarına görə təsnifləşdirmə. Bu təsnifata addir: fərdi metodlar- şagirdlər təkbaşına fəaliyyət göstərir; qrup metodları-şagirdlər birgə işləyir, məsələn: layihə metodu, debat, və s.; cütlərlə iş - şagirdlər bir-birinə öyrədir [6, s.87].

Tarix fənninin tədrisi prosesində tətbiq edilən metodlardan biri müasir tədris mühitində hələ də öz əhəmiyyətini bu gün də qoruyub saxlayan şifahi şərh metodur. Şifahi şərh metodu uzun illərdir ki, təhsil sistemində tətbiq edilir. Bu metodun əsas məqsədi hadisələrin səbəb və nəticə əlaqələrini, zaman və məkan kontekstində ardıcıl və canlı şəkildə təqdim etməkdir [3, s.87]. Metodun tətbiqi zamanı müəllim şifahi şərh, mühazirə, diskusiya, müsahibə, sual-cavab və s. nəqletmə materiallarından istifadə edərək mövzunu şagirdlərə çatdırır [2, s.248-249]. Şagirdlər isə müəllim tərəfindən hazır şəkildə nəql edilən mövzunu öyrənib, təkrar edib, yadda saxlayırlar, növbəti dərsdə isə öyrəndikləri mövzunun mətnini danışırlar.

Məsələn, "Gülüstan müqaviləsi və onun Azərbaycanda yeri" mövzusunun tədrisi zamanı müəllim mövzunun mətnini şərh edərkən qeyd edir ki, 1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsi Azərbaycanın tarixi taleyində dönüş nöqtəsi olmuşdur. Müqaviləyə əsasən, Şimali Azərbaycan torpaqlarının böyük bir hissəsi Rusiya tərəfindən işğal olunub Rusiya imperiyasının tərkibinə daxil edilmiş, Cənubi Azərbaycan isə Qacarların hakimiyyətində qalmışdır. Bu müqavilə ilə Azərbaycan torpaqları iki yerə bölünmüş, bir millətin coğrafi və siyasi bütövlüyü pozulmuşdur. Müqavilə, həm də Cənubi Qafqazın gələcək siyasi xəritəsini müəyyən edən sənədlərdən biri olmuşdur.

Bu mövzu ilə əlaqədar müəllim şagirdə bu cür suallar verə bilər:

1. Gülüstan müqaviləsinin imzalanmasına səbəb olan amillər hansılardır?

2. Bu müqavilənin Azərbaycan xalqı üçün doğurduğu nəticələr nələr olmuşdur?

3. Müqavilənin imzalanması ilə bölgədə hansı dəyişikliklər baş verdi?

4. Sizcə, bu hadisə Azərbaycan xalqının milli birliyinə necə təsir göstərdi?

Suallarla yanaşı, müəllim şagirdlərə fikri şifahi şəkildə şərh etmələri üçün belə bir tapşırıq verə bilər: "Gülüstan müqaviləsi təkcə bir sənəd deyil, həm də Azərbaycan tarixində dərin iz buraxmış faciəvi bir ayrılığın başlanğıcıdır". Bu suallara hər bir şagird subyektiv olaraq öz fikirini söyləyir. Müəllimin mövzunu şagirdlərə ətraflı şərh etməsi, mövzu ilə bağlı şagirdlərə ətraflı suallar verməsi nəticəsində şagirdlər Gülüstan müqaviləsinin bağlanma səbəblərini öyrənir, onun siyasi nəticələrini anlayır və bu hadisəni şifahi şəkildə nəql edə bilirlər. Göründüyü kimi, bu metod təkcə informasiya ötürməyə deyil, həm də şagirdin təfəkkürünü və təxəyyülünü inkişaf etdirməyə yönəlmişdir [11, s.45-51].

Şifahi şərh metodunun tətbiqi zamanı müəllimin səs tonunun dəyişkənliyi, nitqinin aydın və

səlis olması, mövzunun məzmununu daha təsirli və inandırıcı edir. Əgər müəllim tarix dərsinə şagirddə maraq oyatmaq istəyirsə, onlara bilik vermək, onları bir şəxsiyyət kimi formalaşdırmaq istəyirsə, özünün nitq mədəniyyəti üzərində müntəzəm işləməli, şərh üslubunu təkmilləşdirməli, veriləcək materialların məzmununa marağın artırılması uyğun yeni metodların tətbiqindən çəkinməməlidir [7, s.35].

Tarix dərslərində şifahi şərh metodu daha çox xronoloji hadisələrin izahı, səbəb-nəticə əlaqələrinin qurulması, tarixi şəxsiyyətlərin fəaliyyəti və tarixi dövrlərin təhlili zamanı tətbiq olunur. Məsələn, Azərbaycan tarixi fənnindən "Azərbaycan erkən orta əsrlərdə (III-IX əsrlər)" mövzusunun tədrisi zamanı mühazirə üsulnundan istifadə edərkən mövzunu dərindən təhlil edərək tarixi hadisələr şərh edilib, səbəb-nəticə əlaqələri izah edilir. Şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi ilə müəllim mühüm məqamları vurğulamaqla diqqəti həmin istiqamətə yönəltməyə çalışmalıdır. Yeni dərsin izahı zamanı tarixi hadisələr və hadisələri əhatə edən dövrlər (illər) ardıcıllıqla sistemli şəkildə lövhəyə yazıb şagirdlərə çatdırılır. Şagirdlər isə dərs müddətində geniş həcmdə məlumatlar əldə edirlər. Dərsin izahı zamanı mövzular arasında əlaqə yaratmaq məqsədi ilə keçmiş dərsə inteqrasiya edilməsi dərsi daha da maraqlı edir. Çalışmaq lazımdır ki, bu metodu tətbiq edən zaman şagirdlər passiv olmasın. Çünki, bu metodun çatışmayan cəhəti də məhz dərs prosesində şagirdlərin məlumatı passiv dinləməsidir, bu isə dərsin fəallığını azalda bilər. Şagirdlər tarixi hadisələr barədə tənqidi düşünmək və müzakirə aparmaq üçün daha az imkan əldə edirlər. Bu metodun tətbiqi zamanı onlarda yadda saxlama çətinliyi yarana bilər. Bütün bu çatışmayan cəhətləri aradan qaldırmaq məqsədi ilə bütün şagirdləri tədris prosesinə cəlb etmək üçün onlara mövzuya dair suallar verilməsinə təşviq etmək lazımdır. Məsələn: şagirdlərə mövzu ilə bağlı aydın, daha sadə və konkret sualla müraciət etmək olar: "Erkən orta əsrlədə Azərbaycanda hansı dövlətlər mövcud idi?" və yaxud "Onların yaranma tarxi haqqında nə deyə bilərsiniz?". Bu zaman hər bir şagird suala fərdi baxış bucağından baxaraq cavablandırır. Verilən cavablar nəticəsində zəif şagird də sual-cavabda iştirak edir, sinifdə olan bütün şagirdlər bu prosesə cəlb olunur. Əslində verilən suala cavab lövhədə öz əksini tapmışdır. Çünki, mövzuya dair hadisələr və dövrlər müəllim tərəfindən mövzunu izah edərkən lövhədə xronoloji ardıcıllıqla yazılır. Bu sualı verməkdə müəllimin məqsədi sinifdə zəif olan şagirdləri dərs prosesinə cəlb etməkdir. Aydındır ki, dərs müəyyən dərəcədə səsli-küylü keçir. Bu zaman dərs prosesini tam nəzarətdə saxlamağa çalışmaq lazımdır.

Mühazirə üsulunu tətbiq etdikdə şagirdlərin fəal iştirakını təmin etmək üçün suallar vermək və cavabları müzakirə etmək, mühazirə şagirdləri yormasın deyə, onun əsas məqamlarını vurğulamaq lazımdır. Bu prosesdə müəllim əlavə olaraq qrup işləri, debatlar və interaktiv müzakirələr əlavə etməklə dərsi daha canlı edə bilər. İnteraktiv müzakirələr dərsi daha yaddaqalan və səmərəli edər, bununla yanaşı, şagirdlərin nitq qabiliyyətləri daha da inkişaf edər.

Material və metodlar. Tədqiqat aparılarkən elmi-nəzəri təhlil metodu ilə bağlı mövcud elmi ədəbiyyatlardan M.Əmirovun, S.Əhmədovun, A.Əliyevanın, T.Hüseynovun, M.Məmmədovanın və digərlərinin elmi ədəbiyyatlarının təhlili aparılmış, müxtəlif pedaqoqların yanaşmaları müqayisə edilmişdir. Araşdırmalar zamanı ənənəvi və müasir təlim metodlarının tarix dərslərindəki tətbiqi müqayisə edilmiş, onların üstün və zəif cəhətləri müəyyənləşdirilmişdir. Tədqiqatın məqsədinə uyğun olaraq aşağıda təlim metodlarını təsnifatı və tətbiq edilən metodlardan bəhs edilmişdir.

Nəticə və müzakirə. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, təlim metodlarının düzgün seçimi və məqsədyönlü tətbiqi tarix fənninin tədris keyfiyyətinə birbaşa təsir göstərir. Ənənəvi və müasir metodlar arasında aparılan müqayisə göstərir ki, müasir – yəni şagirdyönümlü və fəal təlim metodları – tənqidi və analitik təfəkkürün inkişafına daha çox şərait yaradır. Tarix dərslərində problemyönümlü təlim, layihə metodu, diskussiya və beyin həmləsi kimi üsullar şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların müstəqil fikir yürütmə və tarixi hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək bacarıqlarını da inkişaf etdirir.

Təlim metodlarının təsnifatı üzrə aparılmış təhlil onu göstərir ki, hər bir təsnifat kriteriyası

(idraki fəaliyyət səviyyəsi, bilik mənbəyi, təşkilati formalar) müəllimin metod seçiminə sistemli yanaşmasını təmin edir. Belə yanaşma dərsin məqsəd və vəzifələrinə, şagirdlərin fərdi xüsusiyyətlərinə, fənnin spesifikasına uyğun metodların tətbiqinə şərait yaradır. Eyni zamanda, araşdırmalarda müəllimin pedaqoji ustalığının, resurs imkanlarının və tədris mühitinin təlim metodlarının effektivliyində mühüm rol oynadığı vurğulanır.

Yekun nəticə. Tarix fənninin tədrisi prosesində təlim metodlarının və onların təsnifləşdirilməsi istiqamətində əsas məqsəd, şagirdlərin tarixi bilikləri daha dolğun mənimsəmələrini, təfəkkür qabiliyyətlərinin inkişaf etmələrini, o cümlədən analitik düşünmə bacarıqlarını formalaşdırmalarını təmin etməkdir. Tarixin tədrisi prosesində mövzuya uyğun olaraq metodların seçilməsi nəticəsində tarixi faktlar, hadisələr və proseslər həm ardıcıl həm də şagirdlərin başa düşəcəkləri anlaşıqlı şəkildə izah edilməlidir. Metodların düzgün seçilməsi və təsnifləşdirilməsi tədris prosesində şagirdlərin tənqidi və analitik düşüncənin inkişafına səbəb olur və şagirdlərə tarixi hadisələri analiz etmək, müqayisə aparmaq və səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı yaradır, onlarda praktik bacarıqlar formalaşır. Yəni tarixi mənbələrlə, o cümlədən xəritələr üzərində işləmək, statistik məlumatları əldə edib onları qiymətləndirmək kimi bacarıqlar inkişaf etdir, onlarda fənnə qarşı maraq oyadır.

Ədəbiyyat

1. Babayev, Ə. Pedaqoji texnologiyalar / Ə.Babayev. – Naxçıvan: NDU, – 2015. – 372 s.
2. Əmirov, M. Tam orta məktəbdə tarixin fəal/ interaktiv təlimi metodikası: ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M.Əmirov. – Bakı, – 2011. – 706 s.
3. Əhmədov, S. Tarixin tədrisində metodik yanaşmalar / S.Əhmədov. – Bakı: Təhsil, – 2019. – 154 s.
4. Əliyeva A. Müasir təlim metodları və texnologiyaları / A.Əliyeva. – Bakı: Təhsil, – 2020.
5. Hüseynov, T. Tarix fənninin tədrisində interaktiv metodların rolu // Elm və təhsil. – 2022. № 6(1). – s. 58–64.
6. Kərimov, T. Təlimdə yeni yanaşmalar / T.Kərimov. – Gəncə: Elm və təhsil, – 2017. – 87 s.
7. Məmmədova, M. Tarixin tədrisinin aktual problemləri: dərs vəsaiti / M.Məmmədova.– Bakı: Bakı Universiteti, – 2015. – 112 s.
8. Nasibli, R. Tarix tədrisində müəllim nitqinin rolu // Müəllim və zaman. – 2020. Vol. 4(1). – s. 27-32.
9. Qasımov, A. Tarix dərslərində şifahi şərh və vizual materialların sintezi // Təhsil problemləri. – 2017. № 2(4). – s. 71–76.
10. Səfərov, R. İnnovativ tədris metodları / R Səfərov. – Sumqayıt: Müəllim, 2021. – 42 s.
11. Vəliyev, M. Tarix dərslərində şifahi izah üsullarının effektivliyi // Pedaqoji elmlər. – 2021. № 3(2). – s. 45–51.
12. Vıqotski, L.S. Pedoqoji psixologiya / L.S. Vıqotski. – Moskva: Prosveşşeniye, 1982.

Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 25.02.2025, qəbulolunma – 11.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.103-107
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.103-107
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.103-107

UOT: 37.091:373.3:51
https://doi.org/10.30546/670832.2025.01.921

Müəllim hazırlığının təkmilləşdirilməsinin ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinin keyfiyyətinin yüksəldilməsində əhəmiyyəti haqqında

Müəllif(lər):

Fatma Hacıyeva
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-poçt: fatmahaciyeva022@gmail.com

Açar sözlər: riyaziyyatın tədrisi, müəllim hazırlığı, kurikulum, metodologiya, təlim texnologiyaları, differensial yanaşma

Annotasiya. Məqalədə ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinin keyfiyyətinin yüksəldilməsi üçün müəllim hazırlığının müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməsi məsələləri kompleks şəkildə araşdırılır. Təhsil sistemində aparılan islahatlar yalnız kurikulum səviyyəsində deyil, eyni zamanda müəllimlərin pedaqoji və metodik hazırlığının təkmilləşdirilməsini də zəruri edir. Riyaziyyatın tədrisi şagirdlərin məntiqi təfəkküründün, intellektual inkişafının və həyati bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Buna görə də müəllimin rolu bu prosesin əsas aparıcı qüvvəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Aparılan tədqiqatda həmçinin müəllimlərin yeni təlim texnologiyalarından istifadə bacarığı, tədris prosesində fərdi və diferensial yanaşmanın tətbiqi, təhsilalanların maraq və qabiliyyətlərinə uyğun metodların seçilməsi məsələləri ön plana çəkilir. Məqalədə yerli və beynəlxalq təcrübələrə istinad edilərək göstərilir ki, müasir müəllim yalnız fənn üzrə bilikli olmaqla kifayətlənməməli, eyni zamanda psixoloji, pedaqoji və texnoloji səriştələrə də malik olmalıdır. Bu da müəllim hazırlığında strateji yanaşmaların tətbiqini və təhsilin məzmununun davamlı olaraq yenilənməsini tələb edir.

Tədqiqatda metodoloji yanaşmalar tətbiq olunmuş, normativ sənədlər, təhsil strategiyaları və pedaqoji ədəbiyyatlar əsasında məsələlər elmi cəhətdən əsaslandırılmışdır. Nəticə olaraq qeyd edilmişdir ki, təhsilin keyfiyyətinin artırılması birbaşa müəllim hazırlığının səviyyəsi ilə bağlıdır və bu sahədə atılacaq hər bir addım ölkənin elmi-pedaqoji potensialına müsbət təsir göstərəcəkdir.

Author(s):

Fatma Hajiyeva
Nakhchivan State University
PhD in Pedagogy, Associate Professor
E-mail: fatmahaciyeva022@gmail.com

Key words: mathematics teaching, teacher training, curriculum, methodology, teaching technologies, differentiated approach

The importance of improving teacher training for enhancing the quality of mathematics teaching in general education schools

Abstract. The article comprehensively examines the issues of updating teacher training in accordance with the requirements of the modern era to improve the quality of mathematics teaching in general education schools. Reforms carried out in the education system necessitate not only changes at the curriculum level but also the improvement of teachers' pedagogical and methodological preparation. Teaching mathematics plays a vital role in the formation of students' logical thinking, intellectual development, and essential life skills. Therefore, the teacher's role as the driving force of this process is of great importance.

The study also emphasizes teachers' ability to apply new teaching technologies, the use of individual and differentiated approaches in the teaching process, and the selection of methods tailored to learners' interests and abilities. Referring to both local and international practices, the article highlights that a modern teacher should not only possess subject knowledge but also psychological, pedagogical, and technological competences. This, in turn, requires the application of strategic approaches in teacher training and the continuous renewal of educational content.

Methodological approaches were applied in the study, and the issues were scientifically substantiated on the basis of normative documents, educational strategies, and pedagogical literature. As a result, it is concluded that improving the quality of education is directly linked to the level of teacher training, and every step taken in this area will positively influence the country's scientific and pedagogical potential.

Автор(ы):

Фатма Гаджиева
Нахчыванский государственный университет
Доктор философии по педагогике, доцент
Е-почта: fatmahaciyeva022@gmail.com

Ключевые слова: преподавание математики, подготовка учителей, учебная программа, методика, технологии обучения, дифференциальный подход

О значении совершенствования подготовки учителей в повышении качества преподавания математики в общеобразовательных школах

Аннотация. В статье комплексно рассматриваются вопросы обновления подготовки учителей в соответствии с требованиями современности для повышения качества преподавания математики в общеобразовательных школах. Реформы системы образования требуют совершенствования не только на уровне куррикулума, но и педагогической и методической подготовки учителей. Преподавание математики играет важную роль в формировании логического мышления, интеллектуального развития и жизненных навыков учащихся. Поэтому роль учителя как главной ведущей силы этого процесса приобретает важное значение.

В проводимом исследовании также на первый план выдвигаются вопросы умения педагогов использовать новые технологии обучения, применения индивидуального и дифференцированного подхода в учебном процессе, выбора методов, соответствующих интересам и способностям обучающихся. В статье со ссылкой на отечественный и международный опыт показано, что современный учитель должен не только обладать знаниями по предмету, но и обладать психолого-педагогической и технологической компетентностью. Это также требует применения стратегических подходов к обучению учителей и постоянного обновления содержания образования.

В исследовании были применены новые методологические подходы, научно обоснованы вопросы на основе нормативных документов, образовательных стратегий и педагогической литературы. В заключение было отмечено, что повышение качества образования напрямую связано с уровнем подготовки учителей, и каждый шаг, который будет сделан в этой области, окажет положительное влияние на научно-педагогический потенциал страны.

Giriş. Azərbaycan Respublikasının ümumi təhsilin milli kurikulum çərçivə sənədinə əsasən, ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi yalnız şagirdlərin zəruri riyazi biliklərinin formalaşdırılması ilə məhdudlaşmamalı, həm də onların intellektual, məntiqi və analitik bacarıqlarının inkişaf etdirilməsinə xidmət etməlidir. Bu yanaşma şagirdlərin yaş xüsusiyyətlərinə uyğun bacarıqları qazanmasına, gündəlik həyat situasiyalarında riyazi bilikləri tətbiq edə bilməsinə imkan yaradır (Azərbaycan məktəbi, 2013). Xüsusilə ehtimal anlayışının öyrənilməsi şagirdlərə təsadüfi hadisələri analiz etmək və real həyatda qərar vermə bacarığını formalaşdırmaq imkanı verir. Beləliklə, riyaziyyat fənni yalnız nəzəri biliklər deyil, həm də şagirdlərin təfəkkür və qərarvermə bacarıqlarının inkişaf etdirilməsi üçün mühüm vasitə kimi çıxış edir (İbrahimbəyli, 2015).

Kurikulumun tətbiqi ibtidai sinif müəllimlərindən yüksək səviyyədə yaradıcılıq və innovativ yanaşma tələb edir. Ənənəvi təlim prosesində dərsin məqsədi "öyrətmək", "mənimsətmək" və "formalaşdırmaq" kimi mücərrəd anlayışlarla ifadə olunurdusa, müasir pedaqoji yanaşmada şagirdlərin fəaliyyəti konkret hərəkətlər üzərində qurulur: "yazır", "oxuyur", "çəkir" və s. (Mahmudov, 2015). Bu isə göstərir ki, dərsin məqsədində müəllimin rolu yalnız bilik ötürmək deyil, həm də şagirdlərin fəal iştirakını təmin etməkdir. İbtidai sinif müəllimi bilməlidir ki, kiçikyaşlı şagirdləri həyati bacarıqlara yiyələndirmək üçün dərs prosesində təlim fəallığını artırmalı, riyaziyyatın tədrisini isə məqsədyönlü və sistemli şəkildə təşkil etməlidir (Cavadov, 2014).

Müstəqillik illərində ölkəmizdə təhsil sahəsində aparılan islahatlar, Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın təhsil sisteminin dünya təhsil standartlarına uyğunlaşdırılmasını əsas hədəf kimi qarşıya qoymuşdur (Quliyeva, 2011). Bu istiqamətdə aparılan dəyişikliklər riyaziyyat kursunun inkişafını və müəllim hazırlığının təkmilləşdirilməsini təmin etməklə yanaşı, şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirməyi də qarşıya məqsəd qoyur. Müasir dövrdə riyaziyyat elminin təlim metodları elmi və pedaqoji nəzəriyyələrin birgə tətbiqi ilə inkişaf edir. Riyaziyyatın müxtəlif nəzəriyyələrinin və metodlarının tədrisi müəllim üçün mürəkkəb bir prosesə çevrilmiş, bu isə onun peşəkar və metodik bacarıqlarının daim təkmilləşdirilməsini zəruri etmişdir (Kərimova, 2014).

Riyaziyyatın tədrisi metodikasının əsas vəzifəsi yalnız riyazi bilikləri ötürmək deyil, həm də şagirdlərin idrak fəaliyyətini, məntiqi və analitik düşüncəsini inkişaf etdirməkdir (Mahmudov, 2014). Bu məqsədə nail olmaq üçün metodika elmi riyaziyyat, pedaqogika, psixologiya, fəlsəfə və məntiq kimi sahələrin kəsişməsində yerləşir və şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasında sistemli yanaşmadan istifadə edir. Müasir dövrdə köhnəlmiş metodlarla riyaziyyatın tədrisi artıq kifayət qədər effektiv deyil; yeni, innovativ təlim texnologiyaları tətbiq olunmalı, dərslik və dərs vəsaitləri elmi cəhətdən təkmilləşdirilməli və müəllimlərin peşəkarlığı artırılmalıdır (Əkbərova,2019).

Diferensial yanaşma riyaziyyat dərslərində şagirdlərin fərdi imkanlarını nəzərə almaqla tədrisin effektivliyini yüksəldir. Bu yanaşma çətinliyi fərqli səviyyədə olan şagirdlərin tədris materialını onların qabiliyyət və maraqlarına uyğun mənimsəməsini təmin edir. Müəllim şagirdləri həm fərdi, həm də qrup şəklində təşkil edərək onların əməkdaşlıq, liderlik və məsuliyyət bacarıqlarını inkişaf etdirə bilər. Bununla yanaşı, diferensial təlim şagirdlərin riyaziyyat fənninə marağını artırır, onların müstəqil fəaliyyət göstərmə bacarıqlarını inkişaf etdirir və təlim nəticələrinin keyfiyyətini yüksəldir (Mahmudov, 2004).

Hazırda müəllimlərin qarşısında duran əsas vəzifələrdən biri müasir təlim texnologiyalarından istifadə, elektron resursları tədris prosesinə inteqrasiya etmək və şagirdlərin idrak fəaliyyətini artırmaqdır. Bu isə müəllim hazırlığında müasir tələblərə uyğun innovativ metodların tətbiqini zəruri edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Bütün işlər məhz məktəbdən başlayır, təhsilə diqqət, müəllimə qayğı həmişə olmalıdır." Bu baxımdan müəllim hazırlığı və peşəkar inkişaf davamlı dövlət diqqətinin mərkəzindədir (İsgəndərov, 2008).

Beləliklə, riyaziyyatın tədrisi yalnız biliklərin ötürülməsi deyil, həm də şagirdlərin intellektual, psixoloji və praktik bacarıqlarının formalaşdırılması üçün strateji əhəmiyyət daşıyan prosesdir. Bu məqam müəllim hazırlığının müasir tələblərə uyğun təşkilini, təlim metodlarının yenilənməsini, diferensial yanaşmanın tətbiqini və

tədrisin səmərəliliyinin yüksəldilməsini prioritet sahəyə çevirir (Mahmudov, 2010). Bu tədqiqatın əsas məqsədi ibtidai siniflərdə riyaziyyat fənninin tədrisində şagirdlərin intellektual və məntiqi bacarıqlarının inkişafını təmin edən müasir təlim texnologiyalarını müəyyən etmək, müəllimlərin fəaliyyətini optimallaşdırmaq və diferensial yanaşmanın tətbiq imkanlarını araşdırmaqdır

Tədqiqatın konkret məqsədləri aşağıdakılardır:

1. Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi zamanı şagirdlərin fəaliyyətini artıran metod və vasitələri müəyyən etmək;

2. Müəllimlərin peşəkar səriştələrinin artırılmasında müasir təlim texnologiyalarının rolunu təhlil etmək;

3. Diferensial yanaşmanın riyaziyyat dərslərində tətbiqi prinsiplərini və şagirdlərin fərdi qabiliyyətlərinə uyğun təlim üsullarını göstərmək;

4. Şagirdlərin riyazi təfəkkürünü, analitik düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirən tədris strategiyalarını işləyib hazırlamaq;

5. Azərbaycan və xarici ölkə təcrübəsinə əsaslanaraq riyaziyyat təlimində innovativ metodların tətbiq imkanlarını qiymətləndirmək.

Bu məqsəd və vəzifələr tədqiqatın həm nəzəri, həm də praktik nəticələrinin əldə olunmasını təmin edir və müəllim hazırlığının müasir tələblərə uyğun təşkili üçün elmi əsas yaradır.

Material və metodlar. Tədqiqat zamanı Azərbaycan Respublikasının ümumi təhsilin milli kurikulum çərçivə sənədləri, ibtidai siniflər üçün riyaziyyat dərslikləri, dərs vəsaitləri, elmi məqalələr, metodik tövsiyələr və digər pedaqoji nəşrlər əsas material kimi istifadə edilmişdir. Eyni zamanda, şagirdlərin təlim fəaliyyətini müşahidə etmək, onların fərdi və qrup bacarıqlarını qiymətləndirmək üçün real dərs prosesində aparılmış müşahidələrdən, sorğulardan və test tapşırıqlarından əldə olunan məlumatlar material bazasını təşkil etmişdir.

Tədqiqatda aşağıdakı metodlardan istifadə olunmuşdur:

1. Analitik-metod – mövcud ədəbiyyat və kurikulum sənədlərinin təhlili ilə riyaziyyat dərslərində təlim prosesinin aktual problemləri və metodik yanaşmaları müəyyən edilmişdir.

2. Müşahidə metodu – ibtidai sinif dərslərində şagirdlərin fərdi və qrup fəaliyyətlərinin təşkili və müəllimin tətbiq etdiyi təlim metodlarının effektivliyi qiymətləndirilmişdir.

3. Sorğu və anket metodu – müəllimlərin və şagirdlərin riyaziyyat dərslərində müasir təlim texnologiyalarına münasibəti, dərs prosesində qarşılaşdıqları çətinliklər və ehtiyacları öyrənilmişdir.

4. Eksperimental metod – diferensial yanaşmanın tətbiqi yolu ilə şagirdlərin riyazi bacarıqlarının inkişafı müşahidə olunmuş və nəticələr müqayisəli şəkildə qiymətləndirilmişdir.

5. Kəmiyyət və keyfiyyət təhlili – əldə olunan nəticələr statistik və interpretativ üsullarla təhlil edilərək şagirdlərin performansındakı fərqliliklər və təlim metodlarının effektivliyi müəyyən edilmişdir.

Bu metodlar vasitəsilə tədqiqat həm nəzəri əsaslarla, həm də praktik müşahidələr və eksperiment nəticələri ilə dəstəklənmişdir. Nəticədə, ibtidai siniflərdə riyaziyyat fənninin tədrisində şagirdlərin idrak və təfəkkür bacarıqlarının inkişafına xidmət edən optimal təlim metodları müəyyən edilmişdir.

Şəxsiyyət özünün motivasiyası, dəyərləri, yönəlişləri, sərvət meylləri, maraqları ila ahəngdar qaydada inkişaf edir. Onun ətraf aləmə münasibəti də bu amillər zəminində, hayat fəaliyyətində formalaşır. Nəticədə şəxsiyyətin mənəvi yönümləri və intellektual imkanları aydınlaşır. Onun ən sadə formaları hələ məktəbəqədər yaşda özünü göstərir. Psixoloqlar insanın normal inkişafının əsas şərtini də mühit təsirlərinin şəxsiyyətə yönəldilməsində, bu zəmində müvəffəqiyyətli fəaliyyətində görürlər. Profilaktik məqsəd həm də bununla izah olunur insanda özünəinam yaratmaqla səmərəli fəaliyyətə, özünüinkişafa yönəltmək. [1, s.90]

Psixoprofilaktik işin üçüncü forması sosial əhəmiyyətli bacarıqların aktiv sosial təlimidir. Qrup təlimləri şəklində həyata keçirilir. Aşağıdakı təlim növləri ümumidir:

• müqavimət təlimi - mənfi sosial təsirə qarşı müqavimət. Təlim zamanı deviant davranışa münasibət dəyişdirilir, reklam strategiyalarını tanımaq bacarıqları formalaşır, həmyaşıdların təzyiqi zamanı "yox" demək bacarığı inkişaf etdirilir;

• həyat bacarıqlarının inkişafı üzrə təlim. Həyat bacarıqları fərdin ən vacib sosial bacarıqları kimi başa düşülür. İlk növbədə, bu, ünsiyyət qurmaq, dostluq münasibətlərini saxlamaq və münaqişələri konstruktiv həll etmək bacarığıdır.

"Profilaktika və reabilitasiya işlərində təkcə şəxsin davranışına təsir göstərilmir, eləcə də sosial mühitin vəziyyəti və şəxsin ətrafında müsbət sosial sahənin formalaşmasına yönəldilmiş olur, buna görə də bu zaman fərqli metodlardan istifadə edilə bilər. Formalaşmağa başlayan nevrotik reaksiya və dezadaptiv davranış formaları müşahidə olunan uşaqlarda-hələ xəstə sayılmayan, lakin artıq sağlam da olmayan uşaqlardan-nevrozun qarşısının alınması üçün psixokorreksiya metodundan istifadə olunur"(4, s.65).

Dördüncü forma deviant davranışa alternativ olan fəaliyyətlərin təşkilidir. Bu iş forması deviant davranışın əvəzedici təsiri ideyası ilə əlaqələndirilir, o, artıq formalaşmış deviant davranış hallarında yardım göstərən demək olar ki, bütün proqramlarda həyata keçirilir.

Beləliklə, praktik psixoloq psixoprofilaktik işlər vasitəsilə müəllimlərdə, tərbiyəçilərdə, uşaqlarda, valideynlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyəti formalaşdırır, psixoloji biliklərdən uşaqlarla iş zamanı sitifadə olunmasını, hər bir yaş mərhələsində uşağın mükəmməl inkişafı üçün şəraitin yaradılması gedişində yol verilən pozuntular haqqında vaxtında xəbərdarlıq edilməsini nəzərdə tutur.

Yekun nəticə. Təhsil prosesində praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə apardığı psixoprofilaktik işlər məktəb mühitinin psixoloji sağlamlığını qorumağa və sosial münasibətləri yaxşılaşdırmağa yönəlib. Müəllimlər stressi idarə etməyi və şagirdlərlə effektiv ünsiyyət qurmağı öyrənir, valideynlər uşaqların psixoloji xüsusiyyətlərini daha yaxşı anlayaraq düzgün tərbiyə metodlarını tətbiq edirlər. Şagirdlər isə emosional sabitlik, sosial bacarıqlar və münaqişələrin həlli sahəsində inkişaf edirlər. Bu tədbirlər bütövlükdə uşaqların təhsil mühitinə uğurla adaptasiya olmasına və onların psixi sağ-

lamlığının qorunmasına töhfə verir.

Psixoprofilaktika insan sağlamlığının ümumi psixoloji profilaktikası tendensiyasıdır ki, bu da bir sıra tibbi və sosial elmlərlə əlaqəli olduğunu və hər kəs üçün zəruri olduğunu bildirir. Məlumdur ki, xəstəliyin qarşısını almaq onu müalicə etməkdən daha asandır. Lakin proses artıq başlayıbsa, psixoprofilaktika mövcud vəziyyəti sabitləşdirmək üçün vaxtında həll yolu tapa bilər. Eyni zamanda, psixoprofilaktika həm normal sağlam insanlarla işləməyə yönəlib, həm də artıq bir növ psixi xəstəliyi olan cəmiyyətin üzvlərinə təsir göstərir.

Ədəbiyyat

1. Əmrahlı, L.Ş. "Psixoloji xidmətin əsasları" / L.Ş.Əmrahlı. I kitab. – Bakı: – 2007. – 284 s.
2. Çələbiyev, N.Z. "Təhsil sistemində psixoloji xidmət" / N.Z.Çələbiyev. I hissə, – Bakı. – 2008. – 308 s.
3. Nuriyev, S.Ş. "Təhsildə sosial-psixoloji xidmət" (dərs vəsaiti) / S.Ş.Nuriyev, D.R.İbrahimov. – Bakı: – 638 s.
4. Güləliyeva, İ. Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması / İ.Güləliyeva. – Bakı: – 2020. – 128 s.
5. Абрамов, Г.С. Практикум по психологическому консультированию. – М.: ПЕР СЭ, – 2005. – 120-122 с.
6. Грановская, Р.М., Никольская, И.М. Защита личности: психологические механизмы. – СПб.: Знание, – 2009. – 37-38 с.
7. Куташов, В.А., Барабанова, Л.В.,Куташова, Л.А. Современная медицинская психология / И.А.Куташов, Л.И.Барабанова, Л.А.Куташова. – Воронеж: – 2013. – 170 с.
8. Куташов, В.А., Кунин, В.А., Куташова Л.А. Помощь лицам с кризисными состояниями и суицидальным поведением. Монография. – Воронеж: – 2013. – 224 с.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 08.01.2025, son daxilolma – 12.02.2025, qəbulolunma – 14.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.130-137
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.130-137
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.130-137

UOT: 004.8:37.015.3
https://doi.org/10.30546/670832.2025.01.3005

Proqramlaşdırma bacarıqlarının inkişafında psixoloji ölçmələrin rolu: idrak, motivasiya və sosial dinamikaların təhlili

Müəllif(lər):

Aysel Fətəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Doktorant
E-poçt: ayselfataliyeva33@gmail.com
https://orcid.org/0009-0004-6279-777x

Açar sözlər: proqramlaşdırma təhsili, psixoloji ölçmələr, idrak bacarıqları, motivasiya, sosial dinamika

Annotasiya. Bu araşdırma proqramlaşdırma təhsilində idrak bacarıqları, motivasiya və sosial dinamikaların inteqrasiyasında psixoloji ölçmələrin rolunu təhlil edir. Tədqiqat, koqnitiv yük nəzəriyyəsi, metakoqnitiv strategiyalar və sosial konstruktivizm əsasında qurulmuş qarışıq metodologiya (kəmiyyət və keyfiyyət üsulları) ilə Gəncə Dövlət Universitetində 57 ikinci kurs tələbəsi üzərində aparılmışdır. Mental Rotasiya Testi (MRT) və Səhv Axtarışı İnventarı (DSI) kimi idrak ölçmələr, motivasiya anketləri (MSLQ) və cüt proqramlaşdırma sessiyalarının müşahidələri əsasında toplanan məlumatlar təhlil edilmişdir. Nəticələr göstərir ki, yüksək mental rotasiya bacarığı olan tələbələr alqoritmik problemləri 30% daha sürətli həll etmiş, DSI-də yüksək nəticə göstərənlər isə kod səhvlərini 25% azaltmışdır. Daxili motivasiyalı tələbələr layihələrin 92%-ni uğurla tamamlamış, cüt proqramlaşdırma isə səhvləri 50% azaldaraq kodun oxunaqlılığını 35% yaxşılaşdırmışdır. Tədqiqat idrak bacarıqlarını inkişaf etdirən modulların, daxili motivasiyanı stimullaşdıran layihələrin və sosial üsulların tədrisə inteqrasiyasının tələbə performansını əhəmiyyətli dərəcədə artırdığını təsdiqləyir. Bu nəticələr proqramlaşdırma təhsilində psixoloji alətlərin strategiyalara daxil edilməsi üçün empirik əsas təqdim edir.

Author(s):

Aysel Fataliyeva
Azerbaijan State Pedagogical University
Doctorate
E-mail: ayselfataliyeva33@gmail.com
https://orcid.org/0009-0004-6279-777x

Key words: programming education, psychological measurements, cognitive skills, motivation, social dynamics

The role of psychological measurements in the development of programming skills: analysis of cognitive, motivation and social dynamics

Abstract. This study analyses the role of psychological measurements in integrating cognitive skills, motivation and social dynamics into programming education. Grounded on cognitive workload theory, metacognitive strategies and social constructivism, the research was carried on a mixed methods (quantitative and qualitative methods) involving 57 second-year students at Ganja State University. Data collected from cognitive measurements like Mental Rotation Test (MRT), Debugging Skill İnventory (DSİ), motivation questionnaries (MSLQ) and observations of pair programming sessions were analyzed, Results revealed that students with high mental rotation skills solved algorithmic problems 30% faster, while persons with advanced debugging skills reduced code errors by 25%. İnner motivated students successfully completed 92% of projects and pair programming decreased errors by 50%, improving code readability by 35%. The study confirms that, integrating cognitive skill development modules, projects stimulating inner motivation and collaborative methods integration into education significantly enhances performance of students. These results provide empirical support for incorporating psychological tools into educational strategies in programming education.

Автор(ы):

Айсель Фаталиева
Азербайджанский государственный педагогический университет
Докторант
Э-почта: ayselfataliyeva33@gmail.com
https://orcid.org/0009-0004-6279-777x

Ключевые слова: обучение программированию, психологические измерения, когнитивные навыки, мотивация, социальная динамика

Роль психологических измерений в развитии навыков программирования: анализ когнитивной, мотивационной и социальной динамики

Аннотация. В этом исследовании анализируется роль психологических измерений в интеграции когнитивных навыков, мотивации и социальной динамики в обучении программированию. Исследование проводилось на 57 студентах второго курса Гянджинского государственного университета с использованием смешанной методологии (количественные и качественные методы), основанной на теории когнитивной нагрузки, метакогнитивных стратегиях и социальном конструктивизме. Были проанализированы данные, собранные на основе когнитивных измерений, мотивационных опросов (MSLQ) и наблюдений за сеансами парного программирования, таких как тест на ментальную ротацию (MRT) и инвентаризация поиска ошибок (DSI). Результаты показывают, что студенты с высокими навыками ментальной ротации решали алгоритмические задачи на 30% быстрее, в то время как студенты с высокими результатами в DSI снижали количество ошибок кода на 25%. Студенты с внутренней мотивацией успешно завершили 92% проектов, в то время как двойное программирование снизило количество ошибок на 50% и улучшило читаемость кода на 35%. Исследование подтверждает, что интеграция в обучение модулей, развивающих когнитивные навыки, проектов, стимулирующих внутреннюю мотивацию, и социальных методов значительно повышает успеваемость студенты. Эти результаты обеспечивают эмпирическую основу для включения психологических инструментов в стратегии обучения программированию.

Giriş. Proqramlaşdırma rəqəmsal dövrün əsas bacarıqlarından biri olsa da, tələbələrin bu bacarığı əldə etmə prosesi təkcə texniki bilik ötürməklə məhdudlaşmır. Proqramlaşdırma təhsili mürəkkəb idrak prosesləri, motivasiya maneələri və sosial qarşılıqlı təsir dinamikaları ilə iç-içə olan çoxölçülü bir təcrübədir. Tələbələr alqoritmik düşüncə, abstraksiya və problem həlli kimi idrak bacarıqları yanında, səhv idarəetmə, özünütənzimləmə və komanda işi kimi psixoloji və sosial bacarıqlar da inkişaf etdirməlidir. Lakin ənənəvi təhsil modelləri çox vaxt sintaksis və texniki alətlərə diqqət yetirərək bu dinamikaları nəzərə almır, bu da tələbələrin potensialını tam açmasının qarşısını alır.

Proqramlaşdırma psixologiyası (PoP) bu boşluğu doldurmaq üçün fənlərarası yanaşma təklif edir. İdrak psixologiyası, təhsil elmləri və proqram mühəndisliyini birləşdirən bu sahə, tələbələrin zehni modellərini, motivasiya mənbələrini və sosial strategiyalarını təhlil edərək tədris proseslərini optimallaşdırmağı hədəfləyir. Məsələn, Green tərəfindən inkişaf etdirilən "İdrak ölçüləri nəzəriyyəsi" proqramlaşdırma dillərinin istifadəçi dostluğunu və öyrənmə əyrisini formalaşdıran amilləri müəyyən edir [4]. Bu nəzəriyyəyə görə, dilin "rol ifadəçiliyi" tələbələrin kontekstsiz kod fraqmentlərini başa düşmə bacarığını birbaşa təsirləndirir. Valovy (2022) isə cüt proqramlaşdırma zamanı pilot və naviqator rollarının tələbələrin daxili motivasiyasını artırdığını və sosial bacarıqlarını gücləndirdiyini göstərmişdir.

Araşdırmanın məqsədi: proqramlaşdırma təhsilində psixoloji ölçmələrin rolu. Bu araşdırma, proqramlaşdırma təhsilində psixoloji ölçmələrin əhəmiyyətini və onların təhsil prosesinə necə inteqrasiya edildiyini üç əsas istiqamətdə araşdırmağı hədəfləyir [5]. Bunlar İdrak bacarıqları və kod performansı, motivasiya və özünütənzimləmə və sosial qarşılıqlı təsir və komanda dinamikasıdır.

İdrak bacarıqları və kod performansı: Proqramlaşdırma, tələbələrin yalnız texniki bacarıqları deyil, eyni zamanda zehni və idrak qabiliyyətlərini də tələb edən bir sahədir. Zehni fırlatma (mental rotation), abstraksiya və səhv axtarış (debugging) kimi idrak bacarıqları, kod yazma prosesində müvəffəqiyyəti birbaşa təsir edə bilər. Bu araşdırma idrak bacarıqlarının proqramlaşdırma vəzifələrində uğura necə təsir etdiyini araşdırır və psixoloji ölçmələrin bu bacarıqların inkişafına necə dəstək olduğunu incələyir. Misal üçün, abstraksiya bacarığı olan tələbələr daha mürəkkəb proqramlaşdırma problemlərini daha rahat həll edə bilər, ancaq səhv axtarış strategiyalarının inkişaf etdirilməsi tələbələrin kod yazma bacarıqlarını əhəmiyyətli dərəcədə artırır [2]. Bu kontekstdə, psixoloji testlərin və test metodlarının proqramlaşdırma təhsilində necə istifadə olunduğunu və bu alətlərin tələbələrin idrak bacarıqlarını inkişaf etdirməyə necə kömək etdiyini araşdırmaq vacibdir.

Motivasiya və özünütənzimləmə: Proqramlaşdırma öyrənmək, təkcə texniki məsələlərə deyil, həm də tələbələrin motivasiyasına və öyrənmə qabiliyyətlərinə bağlıdır. Daxili və xarici motivasiya mənbələri, tələbələrin öyrənmə prosesində necə iştirak etdiklərini və bu prosesin uzunmüddətli uğurunu müəyyən edir. Özünəinam və öyrənmə hədəfləri, tələbələrin çətinliklərlə qarşılaşdıqlarında nə qədər davamlı olduqlarını və kod yazma prosesində nə qədər müstəqil və məhsuldar olduqlarına təsir edir. Araşdırma, psixoloji ölçmələrin (məsələn, motivasiya testləri və özünütənzimləmə meyarları) bu motivasiya faktorlarını necə ölçdüyünü və təhsil mühitində necə inkişaf etdirilə biləcəyini araşdırılmışdır. Bu, həmçinin tələbələrin daxili motivasiyasını necə artırmağın yollarını və xarici motivasiya vasitələrinin (məsələn, mükafatlar və qiymətləndirmələr) effektivliyini əhatə edəcəkdir.

Sosial qarşılıqlı təsir və komanda dinamikası: Proqramlaşdırma təhsili təkcə fərdi bacarıqlara deyil, həm də tələbələrin əməkdaşlıq etmə bacarığına əsaslanır. Sosial qarşılıqlı təsir, xüsusilə cüt proqramlaşdırma (pair programming), tələbələr arasında əlaqələrin güclənməsinə və təfəkkürün inkişafına kömək edir. Cüt proqramlaşdırma, tələbələrin bir-birilərinə real vaxtda texniki dəstək verməsi və həll yolları barədə fikir mübadiləsi etməsi üçün bir fürsət yaradır. Geri bildirim mədəniyyəti və liderlik modelləri isə tələbələrin kod yazma prosesində daha effektiv və özünə güvənən qərarlar vermələrinə kömək edir. Psixoloji ölçmələr bu sosial qarşılıqlı təsirləri və komanda dinamikalarını ölçmək və daha inklüziv təhsil metodları inkişaf etdirmək üçün əsas vasitə ola bilər.

Bu məqalə ali təhsil müəssisələrinin psixoloji ölçmələrdən istifadə edərək proqramlaşdırma təhsilini daha effektiv və inklüziv hala gətirilməsi yollarını nəzəri çərçivə və təcrübə ilə dəstəkləyəcəkdir. Hər üç istiqamət üzrə toplanan məlumatlar, təhsil metodologiyalarını yenidən qiymətləndirmək və proqramlaşdırma təhsilində psixoloji aspektlərin tətbiqi üçün tövsiyələr irəli sürmək məqsədini daşıyır. Növbəti bölmələrdə metodologiya, qlobal təcrübələr və təklif olunan siyasi və təhsil strategiyaları ətrafında geniş müzakirələr aparılacaqdır.

Nəzəri Çərçivə: proqramlaşdırma psixologiyasının əsasları. Proqramlaşdırma psixologiyası, insan-kompüter qarşılıqlı təsirini mərkəzə alaraq, proqramçıların idrak hüdudlarını və öyrənmə proseslərini dərindən araşdıran bir sahədir. Bu sahə, proqramçıların kod yazma, alqoritmik düşünmə və problem həll etmə bacarıqlarının psixoloji əsaslarını anlamağa çalışır. Proqramlaşdırma psixologiyasının tədqiqatları, psixologiyanın müxtəlif sahələrindən istifadə edərək, insanın proqramlaşdırma vəzifələrini necə yerinə yetirdiyini və bu prosesin necə təkmilləşdirilə biləcəyini müəyyən etməyə yönəlir. Bu sahənin əsasını təşkil edən üç əsas nəzəriyyə, proqramçıların psixoloji proseslərinin daha yaxşı başa düşülməsinə imkan verir.

Koqnitiv yük nəzəriyyəsi. Koqnitiv yük nəzəriyyəsi beynin məlumatı işləmə qabiliyyətinin məhdudiyyətlərini və müxtəlif növ məlumatların bu sistem üzərində yaratdığı təsirini araşdırır. Proqramlaşdırma zamanı tələbələr yalnız kod yazmaqla məşğul olmur, eyni zamanda onları analiz edir, səhvləri tapır, müvafiq strukturlar qurur və müxtəlif problemləri həll edir. Bu proseslər koqnitiv yük yaradır, yəni beyin məlumatı işləməkdə müəyyən məhdudiyyətlər yaşayır. Koqnitiv yük nəzəriyyəsi, bu yükün idarə olunmasında ən optimal yanaşmaların tapılmasına kömək edir. Məsələn, mürəkkəb problemləri kiçik, idarə olunan hissələrə ayırmaq, tələbələrin daha az koqnitiv yükə məruz qalmasını təmin edə bilər və beləliklə, onların proqramlaşdırma bacarıqları daha effektiv inkişaf edə bilər.

Koqnitiv yük nəzəriyyəsi, həmçinin proqramlaşdırma öyrənmə prosesində "işləmə yaddaşı" və "uzunmüddətli yaddaş" arasındakı fərqi vurğulayır. Əgər bir tələbə öyrəndiyi mövzunu təkrarlayır və tətbiq edirsə, bu məlumat uzunmüddətli yaddaşına köçürülür və daha az koqnitiv yük yaranır. Proqramlaşdırma təhsilində bu nəzəriyyə, müəllimlərə tələbələrə düzgün məlumat strukturları təqdim etməyə və onların koqnitiv yükünü azaldaraq daha effektiv öyrənmə metodları inkişaf etdirməyə kömək edir.

Metakoqnitiv nəzəriyyə. Metakoqnisiya şəxsin öz zehni proseslərini düşünməsi, nəzarət etməsi və tənzimləməsi qabiliyyətidir. Proqramlaşdırma təhsili üçün metakoqnitiv nəzəriyyə, tələbələrin öz öyrənmə və problem həll etmə strategiyalarını şüurlu şəkildə idarə etmələrinin və düzəltmələrinin vacibliyini vurğulayır. Proqramçıların metakoqnitiv bacarıqları, onların kod yazma prosesi zamanı baş verən səhvləri necə aşkar etmələri, bu səhvləri necə təhlil etmələri və necə düzəltmələri ilə əlaqədardır.

Metakoqnitiv düşünmə, tələbələrin proqramlaşdırma vəzifələrinə necə yanaşdıqlarını və hər bir mərhələdə hansı yanaşmaları seçdiklərini müəyyən edir. Bu nəzəriyyə tələbələrə proqramlaşdırma prosesində istifadə etdikləri strategiyaları və metodları nəzərdən keçirmək və lazım olduqda onları dəyişdirmək bacarığı qazandırır. Metakoqnitiv təhlil, tələbələrin düşünmə bacarıqlarını gücləndirir və onların proqramlaşdırma üzrə özünütənzimləmə qabiliyyətlərini artırır. Tələbələr həmçinin öz güclü və zəif tərəflərini müəyyən etməyə, daha səmərəli öyrənmə yolları inkişaf etdirməyə və qarşılaşdıqları problemləri daha tez və düzgün həll etməyə imkan tapır.

Sosial konstruktivizm nəzəriyyəsi. Sosial konstruktivizm nəzəriyyəsi, öyrənmənin sosial və əməkdaşlıq mühitində baş verdiyini vurğulayan bir yanaşmadır. Bu nəzəriyyə, proqramlaşdırma öyrənməsinin təkcə fərdi deyil, həm də sosial bir proses olduğunu irəli sürür. İnsanlar başqalarından öyrənir, birgə problemlər üzərində çalışır və bu qarşılıqlı təsirlər nəticəsində öz biliyini inkişaf etdirir. Cüt proqramlaşdırma (pair programming) kimi əməkdaşlıq metodları, tələbələrə daha yaxşı öyrənmə təcrübəsi təqdim edir, çünki onlar bir-birlərindən öyrənir və problemləri birgə həll edirlər.

Sosial konstruktivizm, həmçinin, öyrənmə mühitinin və müəllimin rolunun əhəmiyyətini vurğulayır. Proqramlaşdırma öyrənmə prosesi, tələbələrin yalnız məlumatı deyil, həm də bu mə-

lumatı necə tətbiq edəcəyini, problemləri necə həll edəcəyini və başqa tələbələrlə necə əməkdaşlıq edəcəyini öyrənmələri ilə bağlıdır. Tələbələr, digər proqramçılarla əlaqə quraraq yeni fikir və yanaşmalar əldə edir, öz yanaşmalarını sınayır və bu, onların kod yazma bacarıqlarını inkişaf etdirir. Bu yanaşma, proqramlaşdırma təhsilində psixoloji ölçmələrin və sosial qarşılıqlı təsirlərin vacibliyini göstərir.

Nəzəri çərçivənin ümumi dəyərləndirilməsi. Bu üç əsas nəzəriyyə - koqnitiv yük nəzəriyyəsi, metakoqnitiv nəzəriyyə və sosial konstruktivizm - proqramlaşdırma öyrənmə prosesində tələbələrin fərdi və sosial psixoloji proseslərini aydınlaşdırmağa kömək edir. Proqramlaşdırma psixologiyasının bu nəzəriyyələri, təhsil metodlarını inkişaf etdirmək və proqramlaşdırma bacarıqlarının daha effektiv şəkildə öyrədilməsi üçün əsas bir çərçivə təqdim edir. Bu nəzəriyyələr tələbələrin həm fərdi düşünmə və problem həll etmə bacarıqlarını, həm də sosial əməkdaşlıq və qarşılıqlı təsir vasitəsilə öyrənmə bacarıqlarını inkişaf etdirmək üçün istifadə oluna bilər.

Proqramlaşdırma psixologiyası insan-kompüter qarşılıqlı təsirini mərkəzə alaraq proqramçıların idrak hüdudlarını və öyrənmə proseslərini araşdırır. Bu sahənin əsasını üç nəzəriyyə təşkil edir:

1. İdrak ölçüləri nəzəriyyəsi. Green tərəfindən irəli sürülən "İdrak Ölçüləri" nəzəriyyəsi proqramlaşdırma dillərinin müxtəlif xüsusiyyətlərinin tələbələrin öyrənmə və problem həll etmə bacarıqlarına necə təsir etdiyini izah edir [4]. Bu nəzəriyyədə xüsusilə iki əsas ölçü ön plana çıxır: "rol ifadəçiliyi" və "abstraksiya səviyyəsi".

"Rol ifadəçiliyi" proqramlaşdırma dilinin istifadəçiyə təqdim etdiyi sintaktik və semantik strukturların müxtəlifliyini, "abstraksiya səviyyəsi" isə həmin dilin verilənlər və əmrləri necə təmsil etməsini əhatə edir.

Məsələn, Green-in yanaşmasına əsasən, Python kimi yüksək səviyyəli proqramlaşdırma dili intuitiv sintaksisi və çoxsaylı hazır funksiyaları sayəsində tələbələr üçün daha asan və sürətli öyrənmə imkanı yaradır. Əksinə, C++ kimi aşağı səviyyəli bir dil isə daha az abstraksiya təmin etdiyi və daha çox texniki detal tələb etdiyi üçün öyrənmə prosesində daha çətin görünə bilər.

Bu nəzəriyyə proqramlaşdırma təlimində istifadə olunan dillərin tələbələrin idrak bacarıqlarına necə təsir etdiyini anlamağa kömək edir. Eyni zamanda, müəllimlərə konkret dərslər və ya mövzular üçün ən uyğun proqramlaşdırma dilini seçməkdə əsaslı istiqamət göstərir.

2. Öz-müəyyənləşmə nəzəriyyəsi. Ryan və Deci tərəfindən irəli sürülən Öz-müəyyənləşmə nəzəriyyəsi, insan motivasiyasının və özünü tənzimləməsinin təhsil və öyrənmə prosesinə necə təsir etdiyini izah edir [3]. Bu nəzəriyyə, insanların daxili motivasiya ilə hərəkət etmələrinin, öyrənmə və inkişaf prosesində daha müsbət nəticələrə yol açacağını vurğulayır. Proqramlaşdırma öyrənmək, yalnız dilin sintaksisini öyrənmək deyil, həm də tələbənin şəxsi maraq və inamına əsaslanan bir prosesdir. Bu nəzəriyyəyə görə, tələbələr öz öyrənmə proseslərini nə qədər idarə edə bilərlərsə, proqramlaşdırma bacarıqlarını da bir o qədər yaxşı inkişaf etdirə bilərlər. Daxili motivasiya tələbələrin öyrənməyə qarşı daha çox həvəs və maraq göstərmələrinə, öz bacarıqlarına inam yaratmalarına və çətinliklərlə qarşılaşdıqda daha çox müstəqil qalmalarına səbəb olur. Öz-müəyyənləşmə nəzəriyyəsi, proqramlaşdırma təhsilində daxili motivasiya mənbələrinin artırılmasına diqqət yetirməyi təşviq edir, belə ki, tələbələr öz öyrənmə məqsədlərinə çatmağa daha çox maraq göstərəcək və daha effektiv öyrənəcəklər [3].

3. Paylanmış idrak nəzəriyyəsi. Paylanmış idrak nəzəriyyəsi, bilik mübadiləsinin və komanda işinin öyrənmə və problem həll etmə proseslərinə necə təsir etdiyini vurğulayan bir yanaşmadır. Hutchins tərəfindən təklif edilən bu nəzəriyyə, fərdi idrak proseslərinin, sosial və komanda qarşılıqlı təsirindən necə təsirləndiyini izah edir [1]. Proqramlaşdırma təhsilində, tələbələr yalnız fərdi olaraq kod yazmır, eyni zamanda müxtəlif əməkdaşlıq modelləri vasitəsilə bilik və təcrübə mübadiləsi edirlər. Cüt proqramlaşdırma (pair programming) və kod rəyləri (code reviews) kimi əməkdaşlıq üsulları, tələbələrə bir-birləri ilə real vaxtda əlaqə quraraq problemləri həll etməyə kömək edir. Bu proseslərdə bilik paylanır və kollektiv iş təmin edilir, bu da tələbələrin daha sürətli və daha effektiv problem həll etmələrini təmin edir. Paylanmış idrak nəzəriyyəsi, proqramlaşdırma təhsilində tələbələrin komanda şəklində işləyərək daha yaxşı öyrənmələri və müxtəlif perspektivlərdən faydalanma-

ları üçün vacib bir nəzəriyyədir. Bu yanaşma, komanda dinamikanın və sosial qarşılıqlı təsirlərin öyrənmə və inkişafda nə qədər əhəmiyyətli olduğunu göstərir [1].

Paylanmış idrak nəzəriyyəsinin proqramlaşdırma təhsilində istifadəsi, komandalar arasında ortaq düzənlərin yaradılması və tələbələrin sosial öyrənmə imkanlarından istifadə etməsi baxımından çox vacibdir. Komanda daxilində bilik mübadiləsini artırmaq üçün interaktiv metodlar (məs., hakatonlar, cüt proqramlaşdırma) tətbiq edilə bilər.

Bu nəzəriyyələrin tətbiqi proqramlaşdırma təhsilinin daha effektiv olmasına, tələbələrin idrak bacarıqlarının dərinləşməsinə və inklüziv tədris strategiyalarının formalaşmasına kömək edir. Sonrakı bölmələrdə bu nəzəriyyələrin tətbiqi üçün konkret metodologiyalar, beynəlxalq təcrübələr və siyasi tövsiyələr işıqlandırılacaq.

Material və metodlar. Araşdırma proqramlaşdırma təhsilində psixoloji ölçmələrin rolunu daha yaxşı başa düşmək və tətbiq sahələrini araşdırmaq məqsədilə qarışıq üsul (mixed-methods) yanaşması ilə həyata keçirilmişdir. Bu yanaşma həm kəmiyyət, həm də keyfiyyət məlumatlarının toplanmasını və təhlil edilməsini əhatə edir, beləliklə, fərqli məlumat növlərini birləşdirərək daha dərin və etibarlı nəticələr əldə etmək mümkündür. Aşağıda, istifadə olunan kəmiyyət və keyfiyyət məlumat toplama üsulları və təhlil metodları geniş şəkildə izah ediləcəkdir.

Kəmiyyət Məlumat Toplama: Kəmiyyət məlumat toplama, araşdırmanın əsasını təşkil edən psixoloji ölçmələri və tələbələrin proqramlaşdırma bacarıqlarını statistik olaraq qiymətləndirmək üçün istifadə olunmuşdur. Bu məlumatlar müxtəlif testlər, anketlər və performans ölçmələri vasitəsilə toplanmışdır:

• **İdrak Testləri:** Tələbələrin proqramlaşdırma vəzifələrində necə uğur qazandıqlarını müəyyən etmək üçün bir sıra idrak bacarıqlarını ölçən psixoloji testlərdən istifadə olunmuşdur. Bu testlərdən ikisi xüsusi əhəmiyyət kəsb edir:

o **Mental Rotation Testi (MRT)**: Bu test, tələbələrin zehni döndərmə bacarığını ölçür. Zehni döndərmə, üçölçülü obyektləri fərqli baxış bucaqlarından təsəvvür etmək və proqramlaşdırma problemlərini vizual olaraq anlamaqda əhəmiyyətlidir.

o **Debugging Skill Inventory (DSI)**: Bu test tələbələrin səhv tapma və düzəltmə bacarıqlarını qiymətləndirir. Bu bacarıq, proqramlaşdırma prosesində qarşılaşılan səhvləri tapmaq və düzəltmək üçün lazım olan strategiyaları əhatə edir.

• **Anketlər:** Tələbələrin motivasiya səviyyələrini və özünəinamlarını qiymətləndirmək məqsədilə müxtəlif anketlərdən istifadə edilmişdir. Ən geniş istifadə edilənlərdən biri Motivated strategies for learning questionnaire (MSLQ) olub, tələbələrin öyrənmə məqsədləri və motivasiya səviyyələri barədə məlumat toplamışdır. Bu anket vasitəsilə, həmçinin tələbələrin özünəinamları və öyrənmə hədəfləri də ölçülmüşdür [2].

• **Performans Ölçmələri:** Tələbələrin proqramlaşdırmadakı müvəffəqiyyətini və kod yazma bacarıqlarını ölçmək üçün bir sıra konkret göstəricilər nəzərə alınmışdır. Bu göstəricilər arasında kodun keyfiyyəti və səhv faizi yer alır. Kod keyfiyyəti, yazılmış kodun düzgünlüyünü, oxunaqlılığını və təkrar istifadəyə yararlılığını ölçür. Səhv faizi isə kodda tapılan səhvlərin ümumi yazılmış koda nisbətini göstərir.

Keyfiyyət məlumat toplama: Keyfiyyət məlumat toplama, daha dərindən və kontekstual bir anlayış əldə etmək üçün istifadə edilmişdir. Bu məlumatlar, tələbələrin proqramlaşdırma təcrübələrini, sosial qarşılıqlı təsirlərini və komanda dinamikalarını daha yaxşı başa düşməyə kömək etmişdir:

• **Müsahibələr:** Tələbələrin proqramlaşdırma prosesində yaşadıqları çətinlikləri, motivasiya mənbələrini və sosial qarşılıqlı təsirlərini daha yaxından anlamaq üçün müsahibələr keçirilmişdir. Müsahibələrdə, həmçinin cüt proqramlaşdırma təcrübələrinin tələbələrin proqramlaşdırma bacarıqlarına təsiri ilə bağlı məlumatlar toplanmışdır. Müsahibə sualları, tələbələrin qarşılaşdıqları ən çətin məsələləri, özünəinam səviyyələrini və komanda daxilindəki əməkdaşlıq və qarşılıqlı təsirləri əhatə etmişdir.

• **Müşahidələr**: Cüt proqramlaşdırma sessiyalarının müşahidəsi, tələbələrin əməkdaşlıq etmə bacarıqlarını və sosial qarşılıqlı təsirlərini qiymətləndirmək üçün tətbiq olunmuşdur. Bu

müşahidələr, tələbələrin bir-biri ilə necə əlaqə qurduqlarını, problemləri necə həll etdiklərini və komanda dinamikalarının necə inkişaf etdiyini anlamağa kömək etmişdir. Eyni zamanda, bu müşahidələr, tələbələrin birgə işləyərkən qarşılaşdıqları çətinlikləri və bu çətinliklərin öhdəsindən gəlmək üçün istifadə etdikləri strategiyaları ortaya qoymuşdur.

Bu məlumat toplama üsulları, proqramlaşdırma təhsilində psixoloji faktorların necə təsir göstərdiyini və tələbələrin performansını necə inkişaf etdirmək lazım olduğunu anlamağa kömək edir.

Eksperiment və təhlil üsulları. Toplanmış məlumatların təhlili, müxtəlif statistik və keyfiyyət üsulları ilə həyata keçirilmişdir. Kəmiyyət və keyfiyyət məlumatlarının inteqrasiyası ilə daha geniş bir baxış açısı əldə edilib.

• *ANOVA (Variance Analysis):* Kəmiyyət məlumatlarının təhlilində ANOVA istifadə edilmişdir. Bu üsul, fərqli qruplar arasında, məsələn, yüksək və aşağı motivasiya səviyyəsinə sahib tələbələrin proqramlaşdırma performanslarının fərqliliyini ölçmək üçün tətbiq edilmişdir. ANOVA, müxtəlif qruplar arasında dəyişkənliyi və bu dəyişkənliyin statistik əhəmiyyətini müəyyən etməyə kömək edir [6].

• *Reqressiya təhlili:* Motivasiya və özünütənzimləmə kimi psixoloji faktorların tələbələrin kod yazma performansına necə təsir etdiyini anlamaq üçün istifadə edilmişdir. Bu üsul, müəyyən dəyişənlərin (məsələn, motivasiya səviyyələri) proqramlaşdırma nəticələrinə necə təsir etdiyini müəyyən etməyə kömək edir.

• *Tematik analiz:* Keyfiyyət məlumatlarının təhlilində tematik analiz üsulu istifadə edilmişdir. Bu üsul, müsahibələr və müşahidələr əsasında toplanan məlumatlardan əsas mövzuları və təkrarlanan naxışları çıxarmağa kömək edir. Tematik analiz, cüt proqramlaşdırma və komanda dinamikaları ilə əlaqədar olan əsas mövzuları, həmçinin tələbələrin qarşılaşdıqları çətinlikləri və bu çətinlikləri necə aşdıqlarını aşkar etməyə imkan vermişdir.

Bu metodologiya, araşdırmanın müxtəlif ölçmələr vasitəsilə əldə edilən məlumatları sistemli şəkildə toplamağa və təhlil etməyə imkan verir, nəticədə proqramlaşdırma təhsilində psixoloji ölçmələrin rolunu daha dərindən anlamağa və tətbiq sahələrini genişləndirməyə kömək edir.

Bu araşdırma çərçivəsində, proqramlaşdırma təhsilində psixoloji ölçmələrin rolunu qiymətləndirmək məqsədilə bir təcrübə həyata keçirilmişdir. Eksperiment 2024-cü ilin payız semestrində, Gəncə Dövlət Universitetinin Kompüter Elmləri fakültəsinin 57 ikinci kurs tələbəsi arasında aparılmışdır. Tələbələr müxtəlif proqramlaşdırma kurslarında iştirak edirlər. Eksperimentin əsas məqsədi, tələbələrin idrak bacarıqları, motivasiya səviyyələri və sosial dinamikalarının onların proqramlaşdırma performansına təsirini ölçməkdir.

Təcrübə iştirakçıları müxtəlif qruplara bölünmüşdür:

1. İdrak bacarıqları: Tələbələr, mental rotasiya (MRT) və səhv axtarışı (DSI) testləri ilə qiymətləndirilmişdir. Hər bir tələbənin mental rotasiya bacarığı və səhv axtarışı bacarıqları ölçülmüşdür. Bu nəticələrə əsasən, tələbələr yüksək və aşağı performans qrupu olaraq iki yerə bölünmüşdür.

- **Mental rotasiya testi (MRT):** 30 tələbə yüksək, 27 tələbə isə aşağı performans qrupu üçün seçilmişdir.
- **Səhv Axtarışı testi (DSI):** 32 tələbə yüksək performans, 25 tələbə isə aşağı performans qrupu olaraq təsnif edilmişdir.

2. Motivasiya: Tələbələrə Motivated Strategies for Learning Questionnaire (MSLQ) anketi tətbiq olunmuşdur. Bu anket vasitəsilə daxili və xarici motivasiya səviyyələri qiymətləndirilmişdir. Nəticələrə əsasən, tələbələr daxili motivasiya və xarici motivasiya olaraq iki qrupa ayrılmışdır.

3. Sosial dinamika: Tələbələr həm fərdi, həm də cüt proqramlaşdırma üsullarında iştirak etmişlər. Cüt proqramlaşdırma metodunda, iki tələbə birlikdə kod yazaraq proqramlaşdırma problemlərini həll edir. Sosial qarşılıqlı təsirlərin qiymətləndirilməsi məqsədilə bu üsul tətbiq olunmuşdur. Cüt proqramlaşdırma sessiyaları, 30 tələbə ilə həyata keçirilmiş, bu sessiyalarda tələbələrin əməkdaşlıq və sosial qarşılıqlı təsir bacarıqları qiymətləndirilmişdir. Fərdi proqramlaşdırma isə 27 tələbə ilə tətbiq edilmişdir.

Eksperimentin nəticələri, hər bir iştirakçının fərdi və komanda şəraitindəki proqram-

laşdırma performansını müqayisə edərək analiz ediləcəkdir. Bu məlumatlar, tələbələrin psixoloji ölçmələrin müxtəlif aspektlərinin proqramlaşdırma təhsilinə necə təsir etdiyini daha ətraflı şəkildə başa düşməyə kömək edəcəkdir.

Proqramlaşdırma təhsilində psixoloji ölçmələrin rolunu göstərən Venn diaqramı



Diaqram1. Proqramlaşdırma təhsilində psixoloji ölçmələrin qarşılıqlı təsiri

Yuxarıda göstərilən Venn diaqramı, proqramlaşdırma təhsilində psixoloji ölçmələrin üç əsas aspektinin qarşılıqlı təsirini və bu aspektlərin tələbələrin proqramlaşdırma performansına necə təsir etdiyini vizuallaşdırır. İdrak bacarıqları, motivasiya və sosial dinamikaların hər biri fərdi olaraq müsbət təsir göstərir, lakin onların birləşməsi tələbələrin daha yüksək nəticələr əldə etmələrinə kömək edir. Qrafik olaraq da baxsaq, daha aydın üfüqi xətlə seçib ayırmaq olar.

Psixoloji ölçmələrin proqramlaşdırma təhsilində təsiri



Diaqram 2. Psixoloji ölçmələrin tələbələrin performansına təsiri

Yuxarıdakı qrafik, psixoloji ölçmələrin proqramlaşdırma təhsilindəki təsirini vizual olaraq göstərir. İdrak bacarıqları, motivasiya və sosial dinamika üzrə tələbələrin performans artışı göstərilir, hər bir ölçümün proqramlaşdırma performansına olan müsbət təsirini aydın şəkildə ortaya qoyur.

Nəticə və tövsiyələr. Proqramlaşdırma təhsili idrak, motivasiya və sosial dinamikaları inteqrasiya edən tamamlı yanaşma tələb edir. Tədqiqat

nəticələri psixoloji ölçmələrin tələbə potensialının açılmasında kritik rolunu təsdiqləyir. Təhsil siyasətləri üçün aşağıdakı tövsiyələr irəli sürülür:

• İdrak bacarıqlarını inkişaf etdirən modulların daxil edilməsi.

• Daxili motivasiyanı artıran layihə əsaslı təlim.

• Cüt proqramlaşdırma kimi sosial üsulların geniş tətbiqi.

Bu yanaşma tələbələrin təkcə kod yazmaq deyil, həm də problemləri səmərəli həll edən və komanda ilə işləyən mütəxəssislər kimi yetişməsini təmin edəcəkdir.

Ədəbiyyat

1. Hutchins E. Cognition in the Wild. – Cambridge, MA: MIT Press, 1995. – 402 p.
2. Pintrich P.R., Smith D.A., García T., McKeachie W.J. A manual for the use of the Motivated Strategies for Learning Questionnaire (MSLQ). – Ann Arbor, MI: University of Michigan, National Center for Research to Improve Postsecondary Teaching and Learning, 1991. – 75 p.– URL: https://files.eric.ed.gov/fulltext/ED338122.pdf
3. Ryan R.M., Deci E.L. Self-determination theory: Basic psychological needs in motivation, development, and wellness. – New York: The Guilford Press, 2017. – 756 p.– URL: https://doi.org/10.1521/978.14625/28806
4. Green T.R.G. Cognitive dimensions of notations // In: Sutcliffe A., Macaulay L. (Eds.). People and Computers V. – Cambridge: Cambridge University Press, 1989. – pp. 443–460
5. Vandenberg S.G., Kuse A.R. Mental rotations, a group test of three-dimensional spatial visualization // Perceptual and Motor Skills. – 1978. – Vol. 47(2). – p. 599–604.– URL: https://doi.org/10.2466/pms.1978.47.2.599(əldəolunma tarixi: 23.06.2025).
6. Valový M. Effects of Pilot, Navigator, and Solo Programming Roles on Motivation: An Experimental Study // In: International Conference on Software Process Improvement. – Cham: Springer International Publishing, 2022, October. – pp. 84–98.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru Quliyev Çapay tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 10.02.2025, qəbulolunma – 11.03.2025

UOT: 159.955.6:37.017
https://doi.org/10.30546/670832.2025.01.1225

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.138-141
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.138-141
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.138-141

Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə rolu

Müəllif(lər):

Arzu İsmayıllı
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: ismayilliarzu856@gmail.com

Açar sözlər: mənlik, milli mənlik, emosional mühit, ailə, sosial mühit, şəxsiyyət

Annotasiya. Məqalədə emosional mühit insanın sosiallaşma prosesində mühüm amillərdən biri kimi çıxış edir və onun özünü dərk etməsinə, milli kimliyini mənimsəməsinə birbaşa təsiri göstərilir. Tədqiqat işində emosional mühitin müsbət və mənfi təsirləri, milli mənlik şüurunun inkişafına yönəlik psixoloji və pedaqoji yanaşmalar təhlil olunur.

Mövzunun aktuallığı müxtəlif dövrlərdə olduğu kimi bu gün də milli mənlik şüurunun inkişaf xüsusiyyətlərinin formalaşmasının böyük əhəmiyyət daşıması ilə bağlıdır. Tədqiqatın məqsədi emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşmasına təsirini araşdırmaqdır. Xüsusilə ailə, sosial mühit və kütləvi informasiya vasitələrinin insanın öz kimliyini dərk etməsində oynadığı rolu təhlil edilir. Tədqiqatın metodologiyasını dialektik idrak nəzəriyyəsi, milli mənlik şüuruna dair fəlsəfi, psixoloji-pedaqoji tədqiqatlarla bağlı müvafiq nəzəri biliklər təşkil edir. Tədqiqat zamanı müxtəlif metodlardan (müşahidə, eksperiment, müsahibə, sorğu və s.) istifadə olunmuşdur.

Tədqiqatın sonunda emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşması üçün ailədə sevgi və qarşılıqlı hörmətin təşviq edilməsi, məktəbdə emosional dəstəyin təmin olunması və milli dəyərlərin qorunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi nəticə olaraq qeyd edilmişdir.

Author(s):

Arzu Ismayıllı
Nakhchivan Teachers Institute
Master student
E-mail: ismayilliarzu856@gmail.com

Key words: identity, national identity, emotional medium, family, social medium, personality, self-understanding

The role of emotional medium ın the formation of self-consciousness and national consciuosness of a personalit

Abstract. In the article emotional medium acts as one of the important factors in the process of human socialization and its direct impact on self-understanding and the acquisition of national identity.The research analyzes positive and negative effects of the emotional medium, as well as psychological and pedagogical approaches aimed in developing national identity.

The actuality of the topic is connected with the formation of the developmental characteristics of national identity today that is of great importance, like in various periods.The purpose of the study is to investigate the impact of emotional medium to the formation of self-consciousness and national consciousness of a personality.İn particular, the role of family, social medium and mass media in identifying personality is analyzed. The methodology of the study is formed by relevant theoretical knowledge related to the theory of dialectical cognition, philosophical, psychological and pedagogical research on national identity.Various methods (observation, experiment, interview, survey and etc.) were used during the research.

At the end of the study it was noted that, the emotional medium should promote love and mutual respect in the family, provide emotional support at school and implement measures aimed in protecting national values in order to form a sense of identity and national identity.

Автор(ы):

Арзу Исмаилли
Нахчыванский институт учителей
Магистрант
Э-почта: ismayilliarzu856@gmail.com

Ключевые слова: самосознание, национальная идентичность, эмоциональная среда, семья, социальная среда, личность

Роль эмоциональной среды в формировании самосознания личности и ее национальной идентичности

Аннотация. В статье эмоциональная среда рассматривается как одним из важных факторов в процессе социализации человека и показано ее непосредственное влияние на его самореализацию, усвоение национальной идентичности. В исследовательской работе анализируются положительные и отрицательные влияния эмоциональной среды, психолого-педагогические подходы, направленные на развитие национального самосознания.

Актуальность темы обусловлена тем, что сегодня, как и в разное время, большое значение имеет формирование особенностей развития национального самосознания. Цель исследования-изучить влияние эмоциональной среды на формирование самосознания личности и национального самосознания. В частности, анализируется роль семьи, социальной среды и средств массовой информации в восприятии человеком своей идентичности. Методологию исследования составляют диалектическая теория познания, соответствующие теоретические знания о философских, психолого-педагогических исследованиях национального самосознания. Во время исследования используются различные методы (наблюдение, эксперимент, интервью, опрос и т. д.).) используется.

В заключении исследования отмечается, что эмоциональная среда является результатом воспитания любви и взаимоуважения в семье для формирования самосознания личности и национального самосознания, обеспечения эмоциональной поддержки в школе и осуществления мероприятий, направленных на сохранение национальных ценностей.

Giriş. Müasir psixologiya elmi sübut edir ki, cəmiyyətin bir üzvü olan insan bir şəxsiyyət olaraq onun özü ilə inikas olunan mövcud obyektiv münasibətləri beynində əks etdirir. Ətraf aləmdə baş verən hadisələrin insan beynindəki inikası zamanı həmin şəxsiyyətin hisslərini və emosional aləmini təşkil edir. Deməli, insanın emosional halı onun hisslərindən doğur. Emosional mühit şəxsiyyətin formalaşmasında, xüsusilə də mənlik şüuru və milli mənlik şüurunun inkişafında mühüm rol oynayır. İnsanlar sosial varlıq olaraq ətraf mühitlə, cəmiyyətlə və ailə ilə qarşılıqlı əlaqədə formalaşır və bu prosesdə emosional mühit əsas təsir edən faktorlar sırasındadır.

Emosional mühitin mənlik şüuruna təsiri. Mənlik şüuru insanın özünü dərk etməsi, kim olduğunu anlaması və öz şəxsiyyətini formalaşdırması prosesidir. Bu şüurun formalaşması üçün emosional mühit bir neçə istiqamətlərdə təsir göstərir. İlk olaraq, sevgi və dəstək dolu bir mühitdə böyüyən fərdlər özlərini daha inamlı hiss edirlər, emosional baxımdan sağlam ailə və cəmiyyət içində böyüyən insanlar başqaları ilə ünsiyyətdə daha rahat olur, ailə və cəmiyyətin verdiyi emosional siqnallar fərdin hansı dəyərləri mənimsədiyini müəyyənləşdirir.

Şəxsiyyətin özünü dərk etməsi, öz kimliyini anlaması və cəmiyyətdə özünü necə ifadə etməsi əsasən onun ətraf mühitdən aldığı emosional təsirlərdən asılıdır. Bu təsirlər müsbət (pozitiv) və ya mənfi (neqativ) ola bilər.

Pozitiv emosional mühit. Ailədə sevgi dolu atmosfer, cəmiyyətdə dəstəkləyici münasibətlər şəxsiyyətə özünə inam yaradır və milli dəyərlərə olan marağını artırır. Şəxsiyyətin mənlik şüurunun sağlam şəkildə formalaşmasına, özünü dəyərləndirməsinə və milli mənlik şüurunun güclənməsinə səbəb olur. Ailə, məktəb və cəmiyyətin göstərdiyi dəstək və anlayış insanın özünü cəmiyyətin bir üzvü kimi hiss etməsinə kömək edir. Rəğbət və müsbət rəy insanın öz bacarıqlarını inkişaf etdirməsinə və cəmiyyətdə aktiv rol oynamasına şərait yaradır. Pozitiv mühitdə böyüyən insanlar daha sosial və ünsiyyətcil olurlar, cəmiyyətə daha rahat uyğunlaşırlar. İnsan dəyərləndirildiyini, fikirlərinin önəmli olduğunu hiss etdikdə özünəinamı artır. Bu, onun şəxsiyyət kimi inkişaf etməsinə müsbət təsir edir. Dəstəkləyici emosional mühit şəxsiyyətin öz məqsədlərinə çatmasına, potensialını tam şəkildə reallaşdırmasına kömək edir.

Neqativ emosional mühit. Ailədə münasibətlərin soyuması, cəmiyyətdə diskriminasiya və sosial təcrid insanın özünü tapmasını çətinləşdirir, milli kimliyə qarşı biganəlik yarada bilər. Bu mühit insanın psixoloji durumuna mənfi təsir edərək, mənlik və milli mənlik şüurunun pozulmasına gətirib çıxara bilir. Daimi tənqid, laqeydlik və mənfi rəy insanın öz dəyərini şübhə altına almasına səbəb olur. Neqativ emosional mühit insanın cəmiyyətdən uzaqlaşmasına, özgələşməsinə və sosial əlaqələrinin zəifləməsinə səbəb olur. Əgər şəxsiyyət öz milli mənsubiyyətini mənfi emosional mühitdə yaşayaraq formalaşdırırsa, bu, onun milli kimliyinə yadlaşmasına və ya dəyərsiz yanaşmasına gətirib çıxara bilər.

Milli mənlik şüuru insanın öz milliyətinə aid olduğunu dərk etməsi və bu aidiyyətin hissi münasibətlərə çevrilməsidir. Milli dəyərlərin qorunması, tarixi biliklərin aşılanması və mədəni irsin tanıdılması bu şüurun formalaşmasında vacib rol oynayır. Ailədə və təhsil sistemində verilən dəyərlər sayəsində uşaqlarda milli kimlik şüuru yaranır və onlar öz millətlərini daha yaxşı qavraya bilirlər.

Vətənpərvər olmaq üçün hər bir şəxsiyyətin mənlik şüurunda həm də şərəf və ləyaqət hissi olmalıdır. Belə ki, ədalətli və insaflı olmasından ötrü insanda humanizm duyğuları onda baş qaldırmalıdır. Ədalətli insanın mənlik şüurunda insaflılıq elementləri daha zəngin olur. Çünki ədalətlilik hissindən daha çox insaflılıq duyğuları şəxsiyyətin mənlik şüurunu zənginləşdirir.

Materiallar və metodlar. Bu məqalədə şəxsiyyətin mənlik və milli mənlik şüurunu araşdırmaq üçün bir sıra materiallardan istifadə olunmuşdur. Tədqiqatın metodologiyasını dialektik idrak nəzəriyyəsi, milli mənlik şüuruna dair fəlsəfi, psixoloji-pedaqoji tədqiqatlarla bağlı müvafiq nəzəri biliklər təşkil edir.

Dialektik idrak nəzəriyyəsi, insanın şüurunun formalaşmasının sosial, mədəni və psixoloji amillərlə qarşılıqlı təsirini öyrənməyə imkan verir. Milli mənlik şüuruna dair fəlsəfi yanaşmalar isə fərdin öz mədəni kimliyini dərk etməsi və kollektiv milli dəyərləri mənimsəməsi prosesini izah edir. Eyni zamanda, psixoloji-pedaqoji yanaşmalar da mühüm yer tutur. Şəxsiyyətin inkişa-

fında emosional mühitin rolu psixoloji baxımdan analiz edilir və pedaqoji aspektlər nəzərə alınaraq, tərbiyə və təhsil prosesində emosional mühitin əhəmiyyəti vurğulanır.

Tədqiqat zamanı müxtəlif metodlardan (müşahidə, eksperiment, müsahibə, sorğu və s.) istifadə olunmuşdur.

Müşahidə metodu – Fərqli emosional mühitlərdə böyüyən şəxslərin davranışları, sosial münasibətləri və şəxsiyyətin inkişafı müşahidə edilmişdir.

Sorğu və müsahibə metodu – Müxtəlif yaş qruplarında olan şagirdlər arasında sorğular və fərdi müsahibələr aparılmışdır.

Eksperimental metod – Fərqli emosional şəraitlərdə (məsələn, dəstəkləyici və ya neqativ mühitlərdə) olan şəxslərin mənlik şüurunun inkişafına təsiri müəyyənləşdirilmişdir.

Nəticələr və müzakirə. Emosional mühitin şəxsiyyətin mənlik və milli mənlik şüurunun təşəkkülündə oynadığı rol çoxşaxəli və mürəkkəb bir prosesdir. Bu mühitin pozitiv və neqativ təsirləri fərdin öz kimliyini dərk etməsi, ictimai norma və dəyərləri mənimsəməsi ilə sıx bağlıdır. Müxtəlif psixoloji və pedaqoji araşdırmalar göstərir ki, sağlam emosional mühitdə böyüyən insanlar özünü dərk etmə baxımından daha güclü olur, sosial adaptasiya və psixoloji rifah baxımından daha sabit xarakter nümayiş etdirirlər.

Aparılan tədqiqatlar göstərir ki, ailədə, məktəbdə və cəmiyyətdə yaradılan emosional mühit şəxsiyyətin psixososial inkişafında mühüm rol oynayır. Pozitiv və dəstəkləyici mühit fərdin özünü rahat və güvəndə hiss etməsinə imkan yaradır, bu isə həm fərdi, həm də milli kimliyin sağlam şəkildə formalaşmasını təmin edir.

Yeniyetmələr üçün emosional mühitin ünvanını müəyyənləşdirməklə onlara psixoloji təsiri məqsədyönlü, planlı və mütəşəkkil olaraq təşkil etmək üçün eksperimental iş həyata keçrilmişdir. Tədqiqatın planına və işçi fərziyyəsinin tələblərinə müvafiq olaraq seçilən VIII-IX və X-XI sinif şagirdlərindən ibarət eksperimental qruplar yaradıldı.

Naxçıvan Muxtar Respublikasının 12 saylı tam orta məktəbinin VIIIa, IXa, Xa və XIa siniflərində apardığımız psixoloji müşahidələrin nəticələrinə əsasən şagirdlərə müvafiq suallarla müraciət edərkən qaneedici cavablar alınmadı. Həmin sualların sırasında "Mənlik nədir?", "Milli mənlik nədir?", "Mənlik şüuru nədir?", "Milli mənlik şüuru nədir?", "Özünüqiymətləndirmə deyəndə nə başa düşülür?", "Milli mənəvi dəyərlərə hörmətlə yanaşma deyəndə nə başa düşülür?" suallarına verilən cavabların primitiv, şablon xarakterli və qeyri-elmi olduğundan apardığımız təhlillərdən sonra aşağıdakı qənaət hasil oldu.

Şagirdlərin mənlik və milli mənlik şüuru ilə bağlı təsəvvürləri bəsit olduğu üçün onlarla bu barədə məqsədyönlü, planlı və mütəşəkkil olaraq işlərin aparılması məqsədəmüvafiq hesab edilməlidir. Şagirdlər üçün milli mənlik şüuru adı altında "dəyirmi masa", "şagird konfransları", "maraq kursları", kimi tədris kursları təşkil edilməlidir. Yeniyetmə şagirdlər üçün mənəvi dəyərlər, milli mənəvi dəyərlərlə bağlı mövzular ətrafında söhbətlər təşkil edilməlidir.

Yekun nəticə. Araşdırmalar göstərir ki, emosional mühit şəxsiyyətin mənlik və milli mənlik şüurunun formalaşmasında mühüm rol oynayır. Pozitiv emosional mühit fərdin özünə inamını artırır, onu cəmiyyətə daha sağlam şəkildə inteqrasiya edir və milli kimliyini qorumasına kömək edir. Ailə, məktəb, sosial institutlar və media emosional mühitin formalaşmasında əsas amillərdir. Cəmiyyətin və fərdlərin rifahı üçün sağlam emosional mühitin yaradılması vacibdir. Bu məqsədlə ailədə sevgi və qarşılıqlı hörmətin təşviq edilməsi, məktəbdə emosional dəstəyin təmin olunması və milli dəyərlərin qorunmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi tövsiyə olunur.

Beləliklə, sağlam emosional mühit yaratmaq, fərdin özünə və milli kimliyinə hörmətini artıran şərait formalaşdırmaq, gələcək nəsillərdə güclü mənlik şüurunun və milli identikliyin inkişafına töhfə vermək baxımından olduqca vacibdir. Bu səbəbdən ailələr, təhsil müəssisələri və cəmiyyət bu məsələyə xüsusi diqqət yetirməli və sağlam emosional mühitin yaradılması üçün sistemli şəkildə fəaliyyət göstərməlidir.

Gələcək tədqiqatlar emosional mühitin konkret amillərinin şəxsiyyətin mənlik və milli mənlik şüuruna necə təsir etdiyini daha ətraflı araşdırmalı, müxtəlif sosial qruplar üzərində aparılan empirik tədqiqatlarla bu mövzunun aktuallığını daha da gücləndirməlidir.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə / A.N.Abbasov. – Bakı: Mütərcim, – 2008. – 296 s.
2. Abbasov, A.N. Pedaqogika / A.N.Abbasov, H.Ə.Əlizadə. – Bakı, – 2000
3. Abdullayev, Ə. Yaş və pedaqoji-psixologiya. II hissə / Ə.Abdullayev, Ə.Məmmədov, Ə.Bayramov, M.Həmzəyev. – Bakı: ADPU, – 1981. – s.30-42
4. Ağayev, Ə.Ə. Pedaqoji fikrimiz: Dünənimiz, bu günümüz / Ə.Ə.Ağayev. – Bakı: Elm, – 2000. – 299 s.
5. Axundov, S.S. Mənəvi tərbiyə və peşə ariyentasiyası / S.S.Axundov. – Bakı: Qapp Poliqraf Korporasiyası, – 2003. – s.10–29

Məqalə psixologiya üzrə fəlsəfə doktoru, professor Gültac Əliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 18.02.2025, qəbulolunma – 06.03.2025

UOT: 159.922.7:159.955.6
https://doi.org/10.30546/670832.2025.01.1232

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.142-145
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.142-145
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.142-145

Yeniyetməlik dövründə yaşanan psixoloji hallar və yaş böhranı problemi haqqında

Müəllif(lər):

Əzizə Cəfərzadə
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: ezizeceferzadee@gmail.com
https://orcid.org/0009-0009-8127-9747

Açar sözlər: yeniyetməlik, yaş böhranları, psixoloji hallar, kimlik axtarışı

Annotasiya. Yeniyetməlik dövrü, həm fiziki, həm də psixoloji baxımdan bir çox dəyişikliklərin baş verdiyi bir mərhələdir. Bu dövrdə yaşanan psixoloji hallar fərdlərin şəxsiyyət inkişafı, sosial əlaqələr, emosional tarazlıq və gələcək həyatla bağlı düşüncələrinə təsir edir. Yeniyetmələr, bu dövrün müxtəlif mərhələlərində bir çox çətinliklər və təcrübələr yaşayırlar. Tədqiq olunan problemin aktuallığı onunla şərtlənir ki, insan ömrünün bütün yaşlarında dəyişikliklər baş verir. Bu tədqiqatda yeniyetməlik dövründə psixoloji böhranların təsirlərini öyrənmək məqsədilə nəzəri və empirik metodların kombinasiyasından istifadə edilmişdir. Praktik və nəzəri əhəmiyyəti yeniyetməlik dövründə baş verən konfliktlər haqqında subyektiv qavrayışların müəyyən edilməsidir. Yeniyetmələrin məktəb praktikasında, konstruktiv vəziyyətdə olan qarşıdurmalarda, məktəb psixoloqları, valideynlər, müəllimlər və təlimçilərin fəaliyyətlərində istifadə edilə bilər Bu yazıda yeniyetməlik dövrü inkişaf psixologiyası baxımından müxtəlif inkişaf ölçüləri ilə müzakirə edilir və dövrün ümumi profili yaradılmağa cəhd edilir. Tədqiqatın məqsədi sosial-psixoloji mühitdə gələcəyə savadlı kadr hazırlamaq üçün yeniyetmələrə dəstək olmaqdır.

Author(s):

Aziza Jafarzade
Nakhchivan Teachers Institute
Master student
E-mail: ezizeceferzadee@gmail.com
https://orcid.org/0009-0009-8127-9747

Key words: adolescence, age crises, psychological states, identity search

Psychological conditions and the issue of age-related crises during adolescence

Abstract. Adolescence is a stage characterized by numerous physical and psychological changes. The psychological experiences during this period influence individuals' personality development, social relationships, emotional balance, and perspectives on their future. Adolescents go through various challenges and experiences at different stages of this phase. The relevance of the studied issue is based on the fact that changes occur at all stages of human life. Today, society requires individuals who are rational, educated, cooperative, and capable of making responsible decisions. However, since the physical and psychological transformations in adolescence lead to significant changes in a teenager's life, it is essential to take this period seriously. Regarding its practical and theoretical significance, the study focuses on identifying subjective perceptions of conflicts occurring during adolescence. The findings can be applied in school practices, constructive conflict situations, and in the work of school psychologists, parents, teachers, and trainers. This paper discusses adolescence from the perspective of developmental psychology, examining different dimensions of growth and attempting to outline a general profile of this stage. The primary aim of the study is to support adolescents in their social-psychological environment to prepare them as competent individuals for the future.

Автор(ы):

Азиза Джафарзаде
Нахчыванский институт учителей
Магистрант
Э-почта: ezizeceferzadee@gmail.com
https://orcid.org/0009-0009-8127-9747

Ключевые слова: подростковый возраст, возрастные кризисы, психологические состояния, поиск идентичности

О психологических состояниях в подростковом возрасте и проблеме возрастного кризиса

Аннотация. Подростковый возраст - это этап, на котором происходит множество изменений, как физических, так и психологических. Психологические состояния, пережитые в этот период, влияют на то, как люди думают о личностном развитии, социальных связях, эмоциональном балансе и будущей жизни. Подростки испытывают множество трудностей и переживаний на разных этапах этого периода. Актуальность изучаемой проблемы обусловлена тем, что изменения происходят во всех возрастах жизни человека. В этом исследовании использовалось сочетание теоретических и эмпирических методов с целью изучения последствий психологических кризисов в подростковом возрасте. Практическое и теоретическое значение имеет выявление субъективных представлений о конфликтах, происходящих в подростковом возрасте. Его можно использовать в школьной практике подростков, конфликтах в конструктивных ситуациях, в деятельности школьных психологов, родителей, педагогов и тренеров. В этой статье обсуждается подростковый возраст с точки зрения психологии развития с различными аспектами развития, и делается попытка создать общий профиль периода. Цель исследования - поддержка подростков в социально-психологической среде для подготовки грамотных кадров будущего.

Giriş. Şəxsin həyatında qarşılaşdığı bir çox psixoloji problemlər, bilavasitə onun müəyyən yaş dövrlərində yaşadığı travmalar, bu travmalarla bağlı keçirdiyi hisslər və emosional gərginliklər, ailə tərbiyəsi və digər psixososial amillərlə bağlıdır. Bu problemlər, xüsusilə yetkinlik dövründə daha aydın şəkildə özünü göstərir. İnsanın başqalarını aqressiya hədəfi kimi seçməsinin, daxili konfliktlərə meyilli olmasının, keçirdiyi daxili narahatlıqların və depressiv hallara meyilliyinin kökündə məhz müxtəlif yaş dövrlərində yaranmış psixoloji problemlər dayanır. Hər bir yaş dövrünün özünəməxsus xüsusiyyətlərini və psixoloji dəyişikliklərini bilmək, həmin dövrü yaşayan insanları daha yaxşı anlamağa və onlara uyğun yanaşmağa imkan yaradır. Bu cür psixoloji vəziyyətlərdən biri də böhran vəziyyətidir. Böhran – insanın daxili dünyası ilə ətraf mühit arasındakı narazılıqdan qaynaqlanan, uzunmüddətli psixoloji vəziyyətdir. O, insanın ən fundamental dəyərlərinə və həyati tələbatlarına təsir edir, güclü emosional gərginliklə müşayiət olunur və daxili dünyasında dominant mövqe tutur.

Yeniyetməlik dövrü insanın uşaqlıq və gənclik mərhələləri arasında keçid dövrüdür. Bu keçidin mahiyyətini məhz yeniyetməlik dövründəki inkişafın spesifik xüsusiyyətləri və məzmunu təşkil edir. Məlumdur ki, yeniyetməlik yaş dövrü tez-tez "keçid dövrü" və ya "böhranlı yaş dövrü" kimi xarakterizə edilir. Bu təsnifat təsadüfi deyildir, çünki yeniyetmənin orqanizmində baş verən psixofizioloji dəyişikliklər, münasibətlər sferasının yenilənməsi, özünə və başqalarına münasibətin dəyişməsi, davranış və rəftar modelinin yenidən qurulması şəxsiyyət inkişafına ciddi təsir göstərir. Bu dövrdə yeniyetmələr öz "mən"lərini daha dərindən dərk etməyə, yeni potensial imkanlarını və keyfiyyətlərini kəşf etməyə başlayırlar. Sözügedən amillər yeniyetmənin əqli, intellektual və mənəvi-psixoloji keyfiyyətlərinin inteqrasiyasını təmin edir, eyni zamanda, onun öz kimliyini təsdiq etməsinə, ideya və arzularının müəyyən istiqamətə yönəlməsinə səbəb olur.

Yeniyetmə dövründə yaranan böhranlar, əsasən, ictimai həyatın onlara verdiyi sosioloji tələblərlə əlaqəlidir. Yeniyetmə, böyüklər aləmində müəyyən mövqe tutmaq istədikdə, artan müstəqillik tələbatı ilə bu müstəqilliyi həyata keçirmək imkanları arasında ziddiyyətlər meydana çıxır. Valideynlər və böyüklər adətən bu böhranın qarşısını almaq üçün yeniyetmənin yeni tələbatlarını qarşılamağa çalışırlar. Lakin təcrübə göstərir ki, yeniyetmələr çox vaxt valideynlərini və böyükləri sərhədləri genişləndirməyə məcbur edirlər. Onlar icazə verilməyən davranışları nümayiş etdirərək öz güclərini yoxlamaq və şəxsi sərbəstliklərini artırmaq istəyirlər. Məhz belə qarşıdurmalar zamanı yeniyetmə özünü daha yaxşı tanımağa, qiymətləndirməyə və imkanlarını dərk etməyə başlayır, özünütəsdiq ehtiyacını ödəyir. Əgər bu proses baş verməzsə və yeniyetməlik dövrü tamamilə sakit, konfliktsiz keçərsə, sonradan, adətən 17-18 yaşlarında və ya daha gec yaş dövrlərində daha mürəkkəb və gecikmiş böhran halları meydana çıxa bilər. Bu isə gəncin uzun müddət infantil mövqedə qalması ilə xarakterizə olunur. Beləliklə, yeniyetmə nisbətən təhlükəsiz bir mühitdə müstəqillik uğrunda apardığı mübarizə sayəsində özünü dərk etmə və özünü təsdiqləmə tələbatlarını ödəyir. Bu proses nəticəsində yalnızca özünə inam formalaşmır, eyni zamanda, əxlaqi dəyərlər də inkişaf edir ki, bu da gələcəkdə qarşılaşacağı həyati çətinliklərin öhdəsindən daha asan gəlməsinə imkan yaradır.

Materiallar və metodlar. Bu tədqiqatda yeniyetməlik dövründə psixoloji böhranların təsirlərini öyrənmək məqsədilə nəzəri və empirik metodların kombinasiyasından istifadə edilmişdir. Yeniyetməlik dövrünün psixoloji və sosial xüsusiyyətlərini izah etmək üçün tədqiqatların, nəzəriyyələrin və statistik məlumatların öyrənilməsi məqsədilə elmi ədəbiyyatlar təhlil edilmişdir. Psixoloji inkişaf nəzəriyyələrinin tətbiqi Erik Eriksonun psixososial inkişaf mərhələləri, Jan Piagetin idrak inkişafı nəzəriyyəsi və Alfred Adlerin sosial maraq nəzəriyyəsi çərçivəsində yeniyetmələrin böhran vəziyyətlərini analiz etməyə əsaslanır.

Anket və sorğular yeniyetmələr arasında özünüdərketmə, sosial adaptasiya və müstəqillik meyilləri ilə bağlı sorğuların keçirilməsini nəzərdə tutur. Müşahidə metodu yeniyetmələrin gündəlik sosial mühitlərdə davranışlarının müşahidəsi və bu davranışların onların psixoloji vəziyyəti ilə əlaqəsinin təhlili üçün istifadə olunur. Klinik görüşlər zamanı yeniyetmələrlə fərdi müsahibələr aparılaraq onların böhranları necə keçirdiyi və psixoloji problemlərlə necə müba-

rizə apardıqları haqqında məlumat toplanmışdır. Sorğu zamanı istifadə edilən suallar uyğun olaraq razıyam, razı deyiləm, nə razıyam nə də narazı formasında variantları əhatə edir.

- Mən tapşırıqları vaxtında yerinə yetirirə
- Mən özümə qarşı məsuliyyətliyəm.
- Mən planlı və təşkilatlanmış şəkildə işləməyi sevirəm.
- Mən işləri yarımçıq qoymuram.

Verilən cavablara əsasən 41-60% nəticə əldə edən yeniyetmələrin sayı daha çoxdur. Bu göstəricilərə əsaslanaraq qeyd etmək lazımdır ki, yeniyetməlik yaş dövründə davamlılıq və məsuliyyət problemləri ilə daha çox qarşılaşılır.

Faiz göstəricisi	Yorum
0-40%	Aşağı vicdanlılıq səviyyəsi: məsuliyyət və planlılıq zəifdir.
41-60%	Orta səviyyə: bəzən məsuliyyətlidir, amma davamlı deyil.
61-80%	Yaxşı səviyyə: əksər hallarda məsuliyyətlidir və təşkilatlıdır.
81-100%	Yüksək vicdanlılıq: çox məsuliyyətli, planlı və etibarlıdır.

Bu metodların tətbiqi yeniyetməlik dövrünün psixoloji problemlərini daha dərindən anlamağa və bu problemlərin aradan qaldırılması üçün effektiv yanaşmalar inkişaf etdirməyə kömək edir.

Nəticələr və müzakirə. Yeniyetməlik dövrü şəxsiyyətin formalaşması baxımından kritik bir mərhələdir və bu dövrdə baş verən psixoloji və sosial dəyişikliklər gələcəkdə fərdin davranışlarına və qərarlarına ciddi təsir göstərə bilər. Müzakirə kontekstində yeniyetməliyin böhran xarakteri və onun fərdin sosial və emosional inkişafına təsiri dəyərləndirilmişdir. Tədqiqatlar göstərir ki, yeniyetmələrin müstəqillik ehtiyacı və böyüklər tərəfindən qoyulan məhdudiyyətlər arasında yaranan qarşıdurmalar onların psixoloji rifahına təsir edə bilər. Bağımsızlıq ehtiyacı ilə sosial nəzarət arasında balansın düzgün qurulmaması yeniyetmədə ya itaətkar, passiv davranışlara, ya da üsyankar və impulsiv reaksiyalara səbəb ola bilər. Məhz bu dövrdə özünü tanıma və özünütəsdiq ehtiyacları daha güclü şəkildə ortaya çıxır. Bu faktorlar yeniyetmələrin psixososial inkişafının əsasını təşkil edir.

Ayrıca, yeniyetmənin kimlik axtarışına yönələn prosesləri ilə sosial mühit arasında əlaqənin olması vacibdir. Əgər yeniyetmə ona uyğun sosial mühit tapa bilməzsə və ya böhranlarını düzgün idarə edə bilməzsə, bu, emosional qeyri-sabitlik, depressiya və sosial narahatlıq kimi problemlərə gətirib çıxara bilər. Bu səbəbdən böhranların aradan qaldırılması üçün ailə, müəllimlər və psixoloqların dəstəyi əhəmiyyətlidir. Yeniyetmənin psixoloji sağlamlığını qorumaq və onun şəxsiyyət inkişafını dəstəkləmək üçün emosional dəstək, sağlam ünsiyyət mühiti və psixoloji müdaxilə metodları mühüm rol oynayır.

Yekun nəticə. Yekun olaraq vurğulamaq lazımdır ki, yalnız yeniyetməlik dövründə deyil, insan həyatının müxtəlif mərhələlərində baş verən böhranlar mürəkkəb psixoloji struktura malikdir və öz təzahür formalarına görə fərqlənir. Böhran, insanın həyatının adi axarını pozaraq gündəlik fəaliyyətinə təsir edir və onun həyat tərzində ciddi dəyişikliklərə səbəb olur. Bu vəziyyət insanın indiyə qədər əhəmiyyət verdiyi və həyatının əsasını təşkil edən dəyərləri yenidən dəyərləndirməsini tələb edir, eyni zamanda, onun ətraf mühit və insanlar ilə münasibətlərini dəyişməyə yönəldir. Böhranlar, yalnız mənfi emosional təcrübə ilə deyil, eyni zamanda şəxsiyyətin inkişafına töhfə verən yenilənmə və transformasiya prosesi kimi də qiymətləndirilə bilər. Onların uğurla həll edilməsi insan üçün həyati əhəmiyyət daşıyır və nəticədə yeni, müsbət keyfiyyətlərin formalaşmasına şərait yaradır.

Qeyd edildiyi kimi, yeniyetməlik dövründə yaşanan böhranlar təbii prosesin bir hissəsidir. Bu böhranlar qısa müddətli olsa da, yeniyetmənin psixoloji inkişafı və şəxsiyyətinin formalaşması baxımından mühüm rol oynayır. Yeniyetmənin qarşılaşdığı mənfi amillər, onun inkişafı üçün yaradılan əlverişli və ya qeyri-əlverişli mühit, sosial əhatəsinin ona münasibəti, bu dövrün konstruktiv

və ya destruktiv xarakter daşımasına birbaşa təsir edir. Yeniyetmələrin emosional stabilliyi və sosial adaptasiyası üçün ailə və təhsil müəssisələri bu prosesdə mühüm rol oynayır. Bu səbəbdən, yeniyetmənin böyüdüyü ailə, təhsil aldığı pedaqoji kollektiv və onunla ünsiyyətdə olan digər insanlar bu dövrün psixoloji xüsusiyyətlərini nəzərə almalı və ona uyğun münasibət göstərməlidirlər. Çünki cəmiyyətin gələcəyi üçün sağlam, emosional və sosial baxımdan balanslı, məsuliyyətli fərdlərin yetişdirilməsi hər bir vətəndaşın mənəvi və ictimai məsuliyyətidir. Yeniyetmələrin sağlam inkişafına dəstək olmaq, onların gələcək həyatlarında daha güclü və uğurlu fərdlərə çevrilməsinə kömək edəcəkdir.

Ədəbiyyat

1. Abbasov, A.N. Ailə / A.N.Abbasov, Ə.Ə.Əlizadə. – Bakı: Maarif, – 1988. – 312 s.
2. Abbasov, A.N. Məktəb şagirdlərini ailə həyatına hazırlamağın bəzi məsələləri / A.N.Abbasov. – Bakı: Təhsil Nazirliyi, – 1989. – 41 s.
3. Bayramov, Ə.S. Psixologiya / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. – Bakı: Çinar çap, – 1998.
4. Əlizadə, Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi / Ə.Ə.Əlizadə. – Bakı: Maarif, – 1986. – 224 s.
5. Əlizadə, Ə. Məktəblinin psixologiyası / Ə.Əlizadə, Q.Əzimov, E.Quliyev. – Bakı, – 2015, – 114 s.
6. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə.Əlizadə. – Bakı:Pedaqogika, – 2004. – 431 s.
7. Əmrahlı, .L.Ş. Psixoloji xidmətin əsasları / L.Ş.Əmrahlı. – Bakı, – 2007. – 23s
8. Əliyev, Ə. Məktəbə psixoloji xidmət, problemlər, düşüncələr / Ə.Əliyev. – Bakı, – 1993.
9. Həmzəyev.M. Ünsiyyətin psixologiyası. Dərs vəsaiti / M.Həmzəyev, S.Əmraslanova. – Bakı, – 2007, – 180 s.
10. Həmzəyev, M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları / M.Ə.Həmzəyev. – Bakı, – 2003, – 14 s.
11. Həsənov, A. Pedaqogika / A.Həsənov, Ə.Ağayev. – Bakı: Nasir, – 2007, – 494 s.
12. Həmzəyev, Ə.M. Pedaqoji psixologiya / Ə.M.Həmzəyev.– Bakı, – 1991.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 20.02.2025, qəbulolunma – 06.03.2025

UOT: 159.953:159.922.7
https://doi.org/10.30546/670832.2025.01.1235

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.146-148
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.146-148
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.146-148

Əqli keyfiyyətlərin mahiyyəti, strukturu və əsas xüsusiyyətlərinə dair

Müəllif(lər):

Bahar Rzayeva
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-poçt: baharrza20@gmail.com

Açar sözlər: idrak fəaliyyətləri, koqnitiv bacarıqlar, multidisipliner yanaşma, kritik düşünmə, emosional intellekt, kreativ düşüncə, məntiqi təfəkkür, koperasiya bacarıqları (ünsiyyət bacarıqları)

Annotasiya. Əqli keyfiyyətlərin öyrənilməsi yalnız təhsil və psixologiya sahələrində deyil, həmçinin əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanmasında idarəetmə strategiyalarının qurulmasında mühüm əhəmiyyətə malikdir. Cəmiyyətin inkişafı və fərdi potensialın tam şəkildə ortaya çıxarılması, şəxsiyyətin intellektual qabiliyyətinin öyrənilməsini və bu sahədə yeni yanaşmaların tətbiqini zəruri edən amillərdəndir. Tədqiqatın əsas məqsədi əqli keyfiyyətlərin mahiyyətini açıqlamaqla birgə onların struktur və funksiyalarını müəyyənləşdirməkdir. Əqli keyfiyyətlərə diqqət yönəltmə, məntiqi təfəkkür analitik yanaşma, sürətli düşünmə yaradıcılıq kimi keyfiyyətlər aid edilə bilər.

Məqalədə elmi mənbələrə və müşahidə nəticələrinə əsaslanmış, əqli keyfiyyətlərin formalaşmasına və inkişafına təsir edən faktorlar təhlil olunmuşdur. Əqli fəaliyyətin tərkib hissəsi olan bu keyfiyyətlərin inkişafı üçün təlimin məzmunu, tədris metodları və mühitin rolu xüsusi ilə vurğulanmışdır.

Nəticələr göstərir ki, əqli keyfiyyətlərin məqsədyönlü inkişafı fərdin idrak potensialının formalaşmasında kritik düşünmə, məntiqi təfəkkür bu və ya digər idrak bacarıqları müstəsna rol oynayır.

Author(s):

Bahar Rzayeva
Nakhchivan Teachers Institute
Master student
E-mail: baharrza20@gmail.com

Key words: cognitive activities, cognitive skills, multidisciplinary approach, critical thinking, emotional intelligence, creative thinking, logical thinking, cooperation skills (communication skills)

The essence, structure and main properties of mental qualities

Abstract. The study of mental qualities is of great importance not only in the fields of education and psychology, but also in the establishment of management strategies for the preparation of qualified personnel in accordance with the requirements of the labor market. The development of society and the full disclosure of individual potential are factors that make the study of the intellectual abilities of a person and the application of new approaches necessary in this field. The main goal of the study is to reveal the essence of mental qualities, as well as to determine their structure and functions. Mental qualities include qualities such as attention, logical thinking, analytical approach, quick thinking, creativity.

The article analyzes the factors affecting the formation and development of mental qualities, based on scientific sources and observation results. The role of the content of training, teaching methods and the environment for the development of these qualities, which are an integral part of mental activity were specially emphasized.333

The results show that, the purposeful development of mental qualities, critical thinking, logical thinking, several cognitive skills plays an exceptional role in the formation of the cognitive potential of a person.

Автор(ы):

Бахар Рзаева
Нахчыванский институт учителей
Магистрант
Э-почта: baharrza20@gmail.com

Ключевые слова: когнитивная деятельность, когнитивные навыки, междисциплинарный подход, критическое мышление, эмоциональный интеллект, творческое мышление, логическое мышление

К вопросам о сущности, структуре и основных свойствах умственных качеств

Аннотация. Изучение умственных качеств имеет важное значение не только в области образования и психологии, но и в построении управленческих стратегий подготовки квалифицированных кадров в соответствии с требованиями рынка труда. Развитие общества и полное раскрытие индивидуального потенциала являются одними из факторов, которые делают необходимым изучение интеллектуальных способностей личности и применение новых подходов в этой области. Основной целью исследования является выявление сущности умственных качеств и совместно с ней определение их структуры и функций. К умственным можно отнести такие качества, как целенаправленность, аналитический подход к логическому мышлению, сообразительность, креативность.

В статье, основанной на научных источниках и результатах наблюдений, анализируются факторы, влияющие на формирование и развитие умственных качеств. Специально выделены содержание обучения, методы обучения и роль среды для развития этих качеств, составляющих психическую деятельность.

Результаты показывают, что целенаправленное развитие умственных качеств критического мышления, логического мышления, тех или иных познавательных навыков играет исключительную роль в формировании познавательного потенциала личности.

Giriş. Əqli keyfiyyətlərin mahiyyətini və strukturunu öyrənmək müasir dövrdə elmi və praktik əhəmiyyət kəsb edən əsas mövzulardan biridir. İnsanların analitik və yaradıcı düşüncə qabiliyyətləri cəmiyyətin inkişafında həlledici rol oynayır. Hazırkı dövrün rəqabətli və dinamik mühiti, idrak proseslərinin daha dərindən araşdırılmasını zəruri edir. Əqli keyfiyyətlər fərdin şəxsi və peşəkar həyatında uğur qazanması üçün mühüm amillərdən biridir. Təhsil sistemində tələbələrin əqli bacarıqlarını inkişaf etdirmək üçün yeni yanaşmalara ehtiyac duyulur. Əqli keyfiyyətlərin tədqiqi, onların inkişafına yönəlmiş daha səmərəli tədris və təlim proqramlarının yaradılmasını təmin edir. Bu mövzu sosial problemlərin həlli və daha dayanıqlı cəmiyyətin formalaşması baxımından da böyük əhəmiyyət kəsb edir. İnsanların düzgün qərarlar qəbul etməsi, mürəkkəb problemləri analiz etməsi və kreativ həllər tapması üçün əqli keyfiyyətlərin inkişafı vacibdir. İnnovativ texnologiyaların tətbiqi ilə idrak proseslərinin daha dəqiq öyrənilməsi mümkün olur. Süni intellekt və kognitiv elmlərin sürətli inkişafı, əqli keyfiyyətlərin araşdırılmasını daha da aktual edir. Beyin fəaliyyətinin analizi və onun idrak proseslərinə təsirinin tədqiqi müasir elmi axtarışların prioritetlərindən biridir. Multidissiplinar yanaşmalar əqli keyfiyyətlərin öyrənilməsində daha əhatəli nəticələr əldə etməyə imkan verir. Əqli keyfiyyətlərin strukturu haqqında məlumatlar fərdi təlim metodlarının inkişafına töhfə verə bilər. Müxtəlif ölkələrin təcrübələrinin müqayisəsi universal əqli inkişaf metodlarının formalaşdırılmasına səbəb ola bilər. Bu mövzu insanların yalnız intellektual inkişafı üçün deyil, həm də emosional və sosial bacarıqlarının inkişafı üçün əhəmiyyətlidir. Əqli keyfiyyətlərin öyrənilməsi, liderlik və qərar qəbuletmə bacarıqlarının artırılması üçün də vacibdir. Cəmiyyətin rifahı, insanların düşüncə səviyyəsinin inkişafı ilə birbaşa əlaqəlidir. Əqli keyfiyyətlərin inkişafı, müasir peşə bazarında rəqabət üstünlüyü qazandırır. Bu sahədə aparılan tədqiqatlar gələcəkdə daha innovativ texnologiyaların və metodların yaradılmasına səbəb olacaq. Beləliklə, əqli keyfiyyətlərin mahiyyəti və xüsusiyyətlərinin öyrənilməsi həm fərdi, həm də cəmiyyətin ümumi inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Material və metodlar. Bu tədqiqatda əqli keyfiyyətlərin öyrənilməsi mövzusunun hərtərəfli tədqiqi üçün sadə və effektiv elmi metodlardan istifadə edilmişdir. Metodlar mövzunun xüsusiyyətlərinə uyğun seçilmiş və onun əsas aspektlərini əhatə etməyə imkan yaratmışdır. Əqli keyfiyyətlərin tarixi inkişafını və bu sahədə tətbiq edilmiş müxtəlif metodları araşdırmaq üçün analitik metoddan istifadə edilmişdir. Bu yanaşma vasitəsilə mövcud ədəbiyyat, elmi məqalələr və əqli qabiliyyətlərin öyrənilməsinə dair əvvəlki araşdırmalar təhlil edilmişdir. Fərdlərin əqli fəaliyyətlərini müşahidə etməklə onların qabiliyyətlərinin təzahürü və inkişafı ilə bağlı məlumatlar toplanmışdır. Bu metod real vəziyyətlərdə əqli keyfiyyətlərin necə işlədiyini anlamağa imkan vermişdir. Əqli keyfiyyətlərin öyrənilməsində istifadə olunan metodlarla bağlı müəllimlər, tələbələr və psixoloqlarla sorğular aparılmışdır. Bu yanaşma mövzu ilə bağlı praktik təcrübələri öyrənməyə imkan yaratmışdır. Tədqiqatın müəyyən mərhələsində əqli keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı sadə təcrübələr aparılmışdır. Bu eksperimentlər vasitəsilə müxtəlif metodların effektivliyi yoxlanılmış və onların nəticələri müqayisə edilmişdir. Əqli keyfiyyətlərin öyrənilməsi sahəsində müxtəlif dövrlərdə və ölkələrdə tətbiq olunan metodlar arasında müqayisələr aparılmışdır. Bu yanaşma, fərqli yanaşmaların üstün və zəif cəhətlərini müəyyən etməyə imkan vermişdir. Əqli keyfiyyətlərin öyrənilməsinə dair toplanmış məlumatlar statistik olaraq təhlil edilmişdir. Bu metod vasitəsilə metodların effektivliyi, nəticələrin ümumiləşdirilməsi və müəyyən trendlərin aşkarlanması təmin edilmişdir. Bu metodlar mövzunun hərtərəfli öyrənilməsini təmin etmiş və əqli keyfiyyətlərin öyrənilməsi sahəsində praktiki və nəzəri nəticələr əldə etməyə imkan yaratmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, ilk növbədə əqli keyfiyyətlərin öyrənilməsi və inkişaf etdirilməsi sahəsində əldə edilən nəticələrin geniş tətbiq imkanları ilə bağlıdır. Tədqiqatın nəticələri təhsil, psixologiya və insan resurslarının idarə edilməsi sahələrində real fayda vermişdir və gələcəkdə də tətbiq ediləcəkdir. Əvvəla, tədqiqatın təqdim etdiyi metodlar təhsil müəssisələrində şagirdlərin və tələbələrin intelektual qabiliyyətlərinin artırılması üçün uğurla istifadə edilmişdir. Bu yanaşmalar tədris proqramlarının

tərtibatında, fərdi təhsil strategiyalarının hazırlanmasında, həmçinin tədris prosesində müəllimlər və digər təhsil işçiləri üçün effektiv vasitə olmuşdur və bu istiqamətdə istifadəsi davam etdiriləcəkdir. Tədqiqatın nəticələri psixologiya sahəsində də böyük praktiki əhəmiyyət kəsb edir. Əqli keyfiyyətlərin inkişafı ilə bağlı təqdim edilən yanaşmalar fərdi və qrup psixoterapiyası proqramlarının hazırlanmasında tətbiq olunmuşdur. Psixoloqlar və psixoterapevtlər bu nəticələrdən istifadə edərək daha effektiv qiymətləndirmə və inkişaf metodları tətbiq etmişlər.

Nəticə və müzakirələr. Əqli keyfiyyətlər fərdin intellektual bacarıqlarını, perspektivə yiyələnmə potensialını özündə ehtiva edən psixi xüsusiyyətlərdəndir. Əqli keyfiyyətlər, insanın zəka səviyyəsini və idrak qabiliyyətlərinin inkişafını təyin edir. Yüksək əqli bacarıqlar fərdin problemləri həlletmə qabiliyyətlərini, analitik düşünmə bacarığını və yaradıcı təfəkkür gücünü artırır. Bu şəxsiyyətin çevik və adaptiv düşünmə potensialını inkişaf etdirir və ona qarşılaşdığı problemlərin effektiv həlletmə imkanları verir.

İdrak qabiliyyətinin məqsədyönlü inkişafı fərdi motivasiyasını artırmaqla yanaşı, onun hərtərəfli, dünyagörüşlü, milli və ümumbəşəri dəyərlərə malik şəxsiyyətə çevrilməsində istisna rol oynayır. Bu da fərdin emosional intellektini idarə etmə, empatiya hissəsinin yüksək səviyyədə formalaşdırmasına gətirip çıxarır. Tədqiqatlar göstərir ki, əqli qabiliyyətlərin inkişafı, fərdin insanlararası münasibətlərində bacarıqlarının qurulmasında mühüm rol oynayır.

Problem situasiyadan çıxış yollarını tapmaq, çevik və sürətli düşünmək, kollektivlə iş, liderlik, təşəbbüskarlıq, produktivlik, kreativ və kritik düşünmə, kommunikasiya bacrıqlarının formalaşması əqli keyfiyyətlərin inkişaf dərəcəsindən asılıdır. Bununla yanaşı, XXI əsrin cəmiyyətin üzvlərinin qarşısında qoyduğu əsaslı tələblər onlardan idrak bacarıqlarını inkişaf etdirmələrini zəruri edir. Müasir dövrün dəyişən tələbləri ilə ayaqlaşmaq üçün daim yenilənən biliklərin əldə olunması, həmin biliklərin düzgün analiz edilib, etibarlığının yoxlanılması və praktikada tətbiqi əqli keyfiyyətlərin inkişafından xəbər verir. Bu keyfiyyətlərə yiyələnmiş hər kəs innovativ düşünmə, məhsuldar fəaliyyətlə məşğul olma, stressi idarə etmə daxili balansı qoruma kimi xüsusiyyətlərə malik olur. Psixoloji sağlamlığın əsas göstəricilərindən ən vacibi əqli keyfiyyətlərin yüksək səviyyədə inkişafıdır. Fərdin intellekti, əslində məlumatın təhlili, onun mənimsənilməsi və müvafiq vəziyyətlərdə tətbiq olunmasında əsas rol oyanyır.

Yekun nəticə. Cəmiyyətə təsiri baxımından, əqli keyfiyyətlərin inkişafı insanların daha məhsuldar və daha düşüncəli vətəndaşlar olmalarını təmin edir. Sosial dəyişikliklərin və yeniliklərin həyata keçirilməsi üçün təhsil sistemi vasitəsilə əqli keyfiyyətlərin inkişaf etdirilməsi cəmiyyətin ümumi inkişafına təsir edir. Beləliklə, təhsil yalnız bilik və bacarıqları artırmır, eyni zamanda cəmiyyətin daha ağıllı və effektiv fəaliyyət göstərməsini təmin edir. İnsanlar daha yaxşı idarəetmə bacarıqları, daha dərin düşüncə qabiliyyətləri və müsbət sosial təsirlər göstərən fəaliyyətlərdə iştirak edirlər.

Nəticə olaraq, əqli keyfiyyətlərin öyrənilməsi, təhsilin məqsədinə çatmaq üçün yalnız biliklərin artırılması deyil, həm də sosial inkişafın, əməkdaşlığın və insanlıq keyfiyyətlərinin inkişafı ilə əlaqəlidir. Bu, cəmiyyətin sağlam və sabit inkişafını təmin etmək üçün zəruri olan bir amildir.

Ədəbiyyat

1. Əhmədov, A. Əqli inkişafın əsas prinsipləri / A.Əhmədov. − Bakı: Elm və təhsil, − 2020.
2. Əliyev, R. Psixoloji yanaşmalar və əqli bacarıqlar / R.Əliyev. − Bakı: Təhsil, − 2021.
3. Hüseynov, T. Yaddaş və düşünmə prosesləri / T.Hüseynov. − Bakı: Azərnəşr, − 2019.
4. Məmmədov, S. Əqli keyfiyyətlər və onların inkişafı / S.Məmmədov. − Bakı: Elm və təhsil, − 2020.
5. Abbasov, M. İnsan psixologiyasının nəzəriyyələri / M.Abbasov. − Bakı: Bakı Universiteti, − 2018.
6. Quliyev, T. Əqli inkişafın psixoloji aspektləri / T.Quliyev. − Bakı: Nurlar, − 2021.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru, professor Gültac Əliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 13.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.149-156
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.149-156
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.149-156

UOT: 904:930.85:39
https://doi.org/10.30546/670832.2025.01.1240

Orta əsr müsəlman epiqrafikası abidələrində qadınların daşıdığı titullar haqqında (Naxçıvan materialları əsasında)

Müəllif(lər):

Hacıfəxrəddin Səfərli
Naxçıvan Dövlət Universiteti
AMEA-nın müxbir üzvü, professor
E-poçt: seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

Açar sözlər: Naxçıvan, epiqrafik abidə, kitabə, xatın, banu, bikə, xanım

Annotasiya. Məqalədə orta əsrlər dövründə Naxçıvan bölgəsində yaradılmış müsəlman epiqrafikası abidələri əsasında qadınlara verilən titul və müraciət formalarının tarixi, semantik və sosial-mədəni aspektləri araşdırılmışdır. Tədqiqat göstərir ki, bu dövrün ictimai münasibətləri çərçivəsində qadınlara "xatın", "xanım", "bikə", "banu", "şahbanu" kimi titullarla müraciət edilməsi onların yaşına, ailə vəziyyətinə, ictimai statusuna və dini mənsubiyyətinə uyğun olaraq müəyyən olunmuşdur. Məqalədə Möminə xatın, Qudi xatın, Həvva Bədr bikə xatın, Ziba xanım, Banu şahbikə, Qureyş şahbanu, Mikeysə xanım və digər tarixi şəxsiyyətlərin timsalında bu titul və epitetlərin konkret istifadəsi epiqrafik mətnlər əsasında təhlil olunmuşdur.

Tədqiqatın nəticələri göstərir ki, qadınlara verilən bu titullar sadəcə rəsmi-məişət müraciətləri deyil, həm də onların cəmiyyətdəki nüfuzunu, dini və mənəvi keyfiyyətlərini, sosial statusunu və ailə mənsubiyyətini əks etdirən mühüm identifikasiya vasitəsidir. Epiqrafik yazılar qadınların ictimai həyatda fəal iştirak etdiyini, bəzən siyasi və dini proseslərə təsir göstərdiyini sübut edən dəyərli tarixi mənbə rolunu oynayır. Məqalə bu baxımdan Azərbaycan qadınının tarixi və sosial vəziyyətinin daha dərindən öyrənilməsinə mühüm töhfə verir.

Author(s):

Haji Fakhraddin Safarli
Nakhchivan State University
Corresponding member of ANAS, professor
E-mail: seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

Key words: Nakhchivan, epigraphic monument, inscription, khatun, banu, bike, khanim

Regarding the titles held by women as depicted in the monuments of Muslim epigraphy from the Middle Ages. (Based on Nakhchivan materials)

Abstract. The article examines the historical, semantic, and sociocultural aspects of the titles and forms of address given to women based on the monuments of Muslim epigraphy created in the Nakhchivan region during the Middle Ages. The study shows that within the framework of social relations of this period, addressing women with titles such as "khatun," "khanum," "bike," "banu," and "shahbanu" was determined according to their age, marital status, social status, and religious affiliation. The article analyzes the specific use of these titles and epithets in the examples of Momina Khatun, Gudi Khatun, Havva Badr Bike Khatun, Ziba Khanum, Banu Shahbike, Qureish Shahbanu, Mikeysa Khanum, and other historical figures based on epigraphic texts.

The results of the study show that these titles given to women are not just official and household addresses but also an important means of identification reflecting their influence in society, religious and moral qualities, social status, and family affiliation. Epigraphic inscriptions play the role of a valuable historical source proving that women actively participated in public life, sometimes influencing political and religious processes. In this regard, the article makes a significant contribution to a deeper study of the historical and social status of Azerbaijani women.

Автор(ы):

Гаджифахраддин Сафарли
Нахчыванский государственный университет
Член-корреспондент НАНА, профессор
Э-почта: seferli949@mail.ru
https://orcid.org/0009-0007-1665-8906

Ключевые слова: Нахчыван, эпиграфический памятник, надпись, хатын, Бану, Бике, ханум

О титулах, которые носили женщины в средневековых памятниках мусульманской эпиграфики (На основе Нахчыванских материалов)

Аннотация. В статье рассматриваются исторические, семантические и социокультурные аспекты титулов и форм обращения к женщинам на основе памятников мусульманской эпиграфики, созданных в Нахчыванской области в Средние века. Исследование показывает, что в рамках общественных отношений этого периода обращение к женщинам с такими титулами, как «хатын», «ханым», «бике», «бану», «шахбану» определялось в соответствии с их возрастом, семейным положением, социальным статусом и религиозной принадлежностью. В статье проанализировано конкретное использование этих титулов и эпитетов на примере Момина хатын, Гуди хатын, Хавва Бадр Бике хатын, Зиба ханум, Бану шахбике, Курайш шахбану, Микейса ханум и других исторических личностей на основе эпиграфических текстов.

Результаты исследования показывают, что эти титулы, присвоенные женщинам, являются не просто официально-бытовыми обращениями, но и важным средством идентификации, отражающим их авторитет в обществе, религиозные и духовные качества, социальный статус и семейную принадлежность. Эпиграфические надписи служат ценным историческим источником, доказывающим активное участие женщин в общественной жизни, иногда влияя на политические и религиозные процессы. В связи с этим статья вносит важный вклад в более глубокое изучение истории и социального положения азербайджанской женщины.

Giriş. Orta əsrlər zamanı Azərbaycanda, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarında yaradılan müsəlman epiqrafikası abidələri ölkəmizin siyasi, iqtisadi və mədəniyyət tarixinin bir sıra məsələlərini işıqlandırmaq üçün zəngin məlumatlar verirlər. Belə məsələlərdən biri də islam dininin hakim olduğu orta əsrlər dövründə qadınlara münasibət və müraciət məsələsidir. İslam dininin, şəriət qanunlarının hakim olduğu orta əsrlər dövründə qadınlara Qurani-Kərimin "Hicab" ayəsinin tələblərinə uyğun münasibət göstərilərək onlardan naməhrəmlər qarşısında örtülü olmaq tələb olunsa da, yüksək hörmət və ehtiramın əlaməti olaraq onlara bir sıra titullarla müraciət olunurdu. Bu baxımdan qadınlara müxtəlif formalarda müraciət formaları yaranmışdı. Həmin müraciət formaları orta əsr yazılı mənbələrində, o cümlədən tarixin obyektiv və təhrif olunmamış mənbələrindən hesab olunan epiqrafik abidələrdə də öz əksini tapmışdır. Həmin titul və müraciət formaları dünyasını dəyişmiş qadınların xatirəsinə hazırlanmış məzar kitabələrində onların adlarına əlavə olunurdu və həmin kitabələr vasitəsi ilə bizə qədər gəlib çatmışdır.

Ədəbiyyat materiallarından və internet resurslarından məlumdur ki, qədim zamanlardan başlayaraq Azərbaycan xalqı arasında qadınlara xüsusi müraciət formaları (xanım, xatın, banu, bəyim və s.) olmuşdur. Həm də bu zaman qadınların yaşı nəzərə alınmışdır. Belə ki, 15 yaşına qədər olan qızlara banu, 15-35 yaşlı qızlara və qadınlara bəyim, 35-55 yaşlı olanlara xanım, 55-75 yaş arasında olan qadınlara xatın, 75 yaşdan yuxarı olan qadınlara isə xanım-xatın deyə müraciət edilmişdir [7].

Ancaq, orta əsr yazılı mənbələri təsdiq edirlər ki, türk xalqlarında qadınlara digər müraciət formaları da olmuşdur. Bu sıradan qadınların adına əlavə olunan "bikə", "şahbanu" və s. titulları da qeyd etmək olar. Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz müsəlman epiqrafikası abidələrinin mətnində qadın adlarına əlavə olunan bir sıra müraciət formalarına, o cümlədən "xanım", "xatın", "banu", "bikə", "şahbanu" titullarına rast gəlinmişdir.

Orta əsrlər zamanı işlənən qadın titulları arasında "xatın" titulu ən yüksək titul sayılırdı. Əsasən hökmdar, xüsusilə xaqanların arvadlarının daşıdığı bu titul hazırda Azərbaycan dilində həm də qadın anlamında və şəxsi ad kimi işlənməkdədir. Naxçıvan Muxtar Respublikasının epiqrafik abidələrində bu titula beş dəfə rast gəlinmişdir.

Möminə xatın. Möminə xatının adına Naxçıvan şəhərində özünün qəbri üzərində ucaldılan türbənin kitabəsində rast gəlinmişdir [2, s.59-60]. Möminə xatın Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin banisi Şəmsəddin Eldənizin xanımıdır. Bu görkəmli qadın – şəxsiyyətin adı Naxçıvan şəhərində, Atabəylər meydanında, indiki Əcəmi seyrəngahında əzəmətlə ucalan Möminə xatın türbəsinin qurşaq hissəsində yazılan əsas kitabədə qalmışdır. Əvvəl İraq Səlcuq Sultanı II Toğrulun, sonra isə Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin əsasını qoyan Şəmsəddin Eldənizin arvadı olduğuna görə Möminə "xatın" titulu daşımışdır. Sultan Toğrul 1135-ci ildə vəfat etdikdən sonra taxt-tacda onu əvəz edən Sultan Məsud dul Möminə xatını vaxtilə II Toğrulun sarayına qul kimi satın alınan, ancaq, özünün yüksək qabiliyyəti, bacarığı sayəsində sarayda böyük nüfuz qazanan, bu səbəbdən də Sultanın şəxsi məmlükləri sırasına keçirilən və Sultan mətbəxinin başçısı vəzifəsinə, həmçinin Sultanın azyaşlı oğlu Arslanşahın atabəyi təyin edilən, əmir rütbəsinədək yüksələn Şəmsəddin Eldənizlə evləndirir. Möminə xatının Atabəy Şəmsəddin Eldənizlə bu izdivacından Atabəy Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan adlı iki oğlu və bir qızı dünyaya gəlmişdir.

Eldənizlər dövlətinin birinci xanımı kimi Möminə xatın ağlı, qabiliyyəti, bacarığı ilə sarayda və xalq arasında böyük hörmət qazanmışdır. O, sarayda mühüm söz sahibinə, əri Şəmsəddin Eldənizin yaxın məsləhətçisinə çevrilmiş, Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin siyasi həyatında fəal rol oynamış, özünün ağıllı məsləhətləri və tövsiyələri ilə dövlətin idarə olunmasında iştirak etmişdir. Möminə xatın diplomatik manevrləri sayəsində sarayda yaranan ziddiyyətləri, hətta oğlu Arslanşahla əri Şəmsəddin Eldəniz arasındakı narazılığı aradan qaldıra bilmiş və onlar arasında normal münasibətlərin yaranmasına nail olmuş, beləliklə əri Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və onun bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail olmuşdu. Şəmsəddin Eldəniz ölkəyə

səyahətləri zamanı ən yaxın silahdaşı kimi Mömünə xatını özü ilə aparmış, dövlət əhəmiyyətli məsələlərin həllində həmişə onun tövsiyə və məsləhətlərini nəzərə almışdır. Nəticədə, Şəmsəddin Eldəniz heç vaxt saraydaxili çəkişmələrə, intriqalara, fitnə-fəsadlara uymamış, obyektiv mövqe tutmuşdur.

Mömünə xatın 1175-ci ildə vəfat etmişdir. Doğum tarixi dəqiq bilinməsə də, daşıdığı "xatın" tituluna əsasən onun vəfat edərkən 75 yaş ərəfəsində olmasını təxmin etmək olar. Müsbət və nadir keyfiyyətlərinə görə, Naxçıvan şəhərindəki qəbri üzərində ucaldılan türbənin kitabəsində Mömünə xatının adı "dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların sərəfi" kimi sözlərlə müşayiət olunmuşdur [2, s.59-60].

Qudi xatın. Bu qadının adına Kəngərli rayonunun Qarabağlar kəndində indiyədək qalan memarlıq kompleksinə daxil olan qoşa minarələri birləşdirən baştağın üzərindəki kitabədə rast gəlinmişdir. Zaman keçdkcə çox hissəsi aşınaraq məhv olmuş kitabənin qaqlan hissəsinin mətninin tərcüməsi belədir: "Bu binanın [tikilməsini] ... Cahan Qudi xatın əmr etdi" [5, s.390].

Qudi xatın 1258-ci ildə əsası qoyulan Hülakülər dövlətinin banisi Hülakü xanın xanımıdır. Hökmdar arvadı olduğuna görə o, kitabədə "xatın" titulu ilə təqdim olunmuşdur. Orta əsr mənbələrində Qutuy xatın kimi xatırlanan Qudi xatın Hülakülər (Elxanilər) sarayında böyük nüfuz və söz sahibi olmuşdur. O, öz ağlı və bacarığı sayəsində yaşadığı dövrdə, xüsusilə oğlu Sultan Əhmədin hakimiyyəti illərində Hülakülər dövlətinin idarə olunmasında yaxından iştirak etmişdir [6, s.16]. Təəssüf ki, adının qaldığı kitabənin mətni tam olmadığı üçün Qarabağlar türbəsi kimi möhtəşəm bir abidəni Qudi xatının kimin şərəfinə inşa etdrməsini müəyyən etmək mümkün olmamışdır.

Həvva Bədr Bikə xatın. "Xatın" titulu daşıyan Həvva Bədr bikə xatının adına Culfa rayonunun Xanəgah kəndində indiyədək qalan Xanəgah Memarlıq Kompleksinə daxil olan və Şeyx Hacı Lələ Məliyin qəbri üzərində inşa etdirilən ikinci türbənin üzərindəki kitabədə və qadının özünün məzarı üzərində qoyulan sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən epitafiyada – məzar kitabəsində rast gəlinmişdir.

Türbə-məscidin ərəb dilində iki sətirdə həkk olunmuş kitabəsinin məzmunundan aydın olur ki, bu abidəni hicri-qəməri təqvimi ilə 901-ci ildə (miladi ilə, 21.09.1495-08.09.1496-cı il) bir müddət xanəgahda fəaliyyət göstərən sufi təriqəti mənsublarına rəhbərlik etmiş Şeyx Hacı Lələ Məliyin qəbri üzərində Həvva Bədr bikə xatın inşa etdirmişdir [3, s.84].

Həvva Bədr bikə xatının adı həm də onun xatirəsinə hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən kitabədə rast gəlinmişdir. Onun xatirə abidəsi keçən yüzilliyin 80-ci illərində Əlincəçay xanəgahının şərq divarı yanında abadlıq işləri aparılarkən torpağın altından aşkar olunmuşdur. Səthinin yan haşiyələrində Qurani-Kərimdən II surənin 255-ci ayəsi yazılan qəbirüstü xatirə abidəsinin üzərindəki kitabənin mətni belədir: "Bu bağça qazı Məcd əd-Dinin qızı, mərhumə Həvva Bədr Bikənindir" [3, s.89].

Həvva Bədr bikə xanəgahın şeyxlərindən olan Şeyx Hacı Lələ Məliyin arvadı olmuşdur. Türbənin kitabəsində qeyd olunduğu kimi, əri Şeyx Hacı Lələ Məliyin qəbri üzərində türbə inşa etdirməsi və xanəgahın divarları yanında dəfn olunması göstərir ki, Həvva Bədr bikə xatın xanəgah şeyxinin arvadı olduğu üçün əri ilə birlikdə xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur. Orta əsr qaynaqları da təsdiq edirlər ki, təriqət başçıları, xanəgah rəhbərləri olan şeyxlər ailə üzvləri ilə birlikdə xanəgah komplekslərinə daxil olan xüsusi yerlərdə yaşamışlar və öldükdən sonra isə xanəgahda və ya ətrafında dəfn olunmuşlar.

Həvva Bədr bikə xatının xatirəsinə yazılan məzar kitabəsində vəfat tarixi qeyd edilməmişdir. Ancaq, inşa etdirdiyi türbənin kitabəsinin məlumatından aydın olur ki, 1495-1496-cı illərdə, abidənin inşası başa çatan vaxt o sağ imiş. Buradan belə bir nəticəyə gəlmək olar ki, ərinin ölümündən sonra Həvva Bədr bikə xatın bir müddət xanəgahda yaşamış, vəfatından sonra xanəgahın şərq divarı yanında dəfn olunmuşdur. Bu fakta, həmçinin xanəgah ətrafından tapılmış digər abidələrlə oxşar cəhətlərinə görə müqayisəsinə əsasən ehtimal etmək olar ki, Həvva Bədr bikə xatın XV əsrin sonu – XVI əsrin əvvəllərində vəfat etmişdir. "Xatın" titulunu adətən 55-75 yaşlı qadınlar daşıdığı üçün vəfat edərkən onun 75 yaşa yaxın yaşda olmasını ehtimal etmək olar.

Məzar kitabəsinin məlumatlarına əsasən demək olar ki, Həvva Bədr bikə xatın əsil-nəca-

bətli ailədən çıxmış bir xanım, şəriət hakimi (qazı) qızı olmuşdur. Türbə-məscidin kitabəsində onun adı "kəramətli, əzəmətli xatın" və "bikə" titul və epitetləri ilə, məzar kitabəsində isə ancaq, "bikə" titulu ilə təqdim olunmuşdur. Fikrimizcə, Həvva Bədr bikə xatın xanəgahda fəaliyyət göstərən sufi təriqətinin mənsubu, yaxud da təəssübkeşi olmuşdur. Ərinin xatirəsinə onun qəbri üzərində möhtəşəm türbə tikdirməsinə əsasən ehtimal etmək olar ki, o çox imkanlı qadın olmuşdur və bu səbəbdən də xanəgahda fəaliyyət göstərən təriqət mənsublarını lazım olduqda yeməklə və pulla təmin etmiş, başqa xeyriyyəçilik işlərini də həyata keçirmişdir [3, s.95].

Naxçıvan Muxtar Respublikası epiqrafik abidələri içərisində rast gəlinən qadın titullarından biri də "Bikə" tituludur. Bu titula ərazidə tədqiq olunan dörd ədəd kitabədə təsadüf edilmişdir. Bu kitabələrdən ikisi əvvəldə haqqında bəhs olunan Həvva Bədr bikəyə aiddir. Hərfi mənası "bəy arvadı" olan "bikə" titulu orta əsrlər zamanı, xüsusilə XIV-XV əsrlərdə türk xalqları arasında geniş yayılmışdı və bu titulla əsasən ərə getməmiş qızlara, əsilzadə qadınlara müraciət edilirdi. Müasir dövrdə "Bikə" titulu həm də şəxsi ad kimi istifadə edilməkdədir. Hətta bu titulun "xanım" titulu ilə birləşməsindən "Bikəxanım" mürəkkəb şəxs adı da yaradılmışdır.

Ziba xanım. Ziba xanımın adı Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığındakı qəbirinin üzərində qoyulan özünəməxsus sənduqə formalı qəbirüstü xatirə abidəsi üzərində ərəb dilində həkk edilmiş kitabə vasitəsi ilə aşkar edilmişdir. XVI əsrə aid kitabənin mətni belədir: "Bu bağça əmir Bədiül-Mülkün qızı, alim, abid, hörmətli xatın Ziba xanımındır" [4, s.84-85].

Məzar kitabəsinin məzmunundan göründüyü kimi, Ziba xanım "əmir" rütbəsinə yüksəlmiş sərkərdə qızı olmaqla kübar ailəyə mənsub olmuş, bu səbəbdən də kitabədə "hörmətli xatın" və "xanım" titulları ilə təqdim olunmuşdur.

Həmçinin kitabədən aydın olur ki, Ziba xanım "alim" və "abid" olmuşdur.

Banu Şahbikə. Tədqiq olunan kitabələrdə rast gəlinən qadın titullarından biri də "Banu" və bu titulun digər bir titulla birləşməsindən əmələ gətirilən "Şahbanu" tituludur. "Banu" fars mənşəli söz olub mənası "qadın hökmdar" deməkdir. Bu söz Osmanlı ləhcəsində "gözəl və cazibədar qadın" mənasında işlənmişdir. Bir sıra mənaları olsa da, "banu" Azərbaycan dilində əsasən kübar qadınlara verilən titul və şəxsi ad kimi istifadə olunmuşdur.

Banu Şahbikənin adı vaxtilə Naxçıvan şəhər imamzadəsinin ətrafında yerləşən, ancaq, şəxsiyyətə pərəstiş illərində məhv edilən qəbiristanlıqda olan özünəməxsus sənduqə formalı qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş məzar kitabə vasitəsi ilə aşkar edilmişdir. Qəbiristanlıq məhv edilərkən bu xatirə abidəsi torpağın altında qalmış, sonralar imamzadənin ətrafında abadlıq-bərpa işləri aparılarkən təsadüfən tapılmışdır.

Ortadan iki yerə bölünmüş, boz daşdan hazırlanmış sənduqə tipli həmin qəbirüstü xatirə abidəsinin (ölçüsü: 131x25x22 sm) səthi təbii qüvvələrin təsiri nəticəsində güclü aşınmaya məruz qaldığından orada heç bir kitabə və ornament izi qalmamışdır. Sənduqənin sağ və sol yanında lentvari haşiyə şəklində həkk edilmiş kitabə vəfat etmiş şəxs haqqında məlumat verir. Kitabənin mətnindən aydın olur ki, xatirə abidəsi mərhumə, günahları bağışlanmış, xoşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba[nu] Şahbikənin xatirəsinə hazırlanmışdır. Həmçinin kitabə bizə çatdırır ki, Ba[nu] Şahbikə hicri-qəməri təqvimilə doqquz yüz altıncı ildə (miladi ilə, 1500-cü ildə) fani dünyadan əbədi dünyaya köçmüşdür [2, s.79-80].

"Bikə" titulu vasitəsi düzələn Şahbikə adını daşıyan qadının adına həm də "banu" titulunun əlavə olunması, həmçinin Naxçıvan şəhər İmamzadəsinin ətrafında dəfn olunması onun kübar ailəyə mənsub olmasını göstərir. Xatirəsinə həsr olunmuş məzar kitabəsində "xoşbəxt şəhid" epiteti ilə təqdim edilməsi isə Banu Şahbikənin, öz əqidəsi və ya din uğrunda şəhid olmasından irəli gəlmişdir.

Qureyş şahbanu. Qureyş şahbanunun adı Culfa rayonundakı Xanəgah kəndində yerləşən sufiliklə bağlı mərkəzin – xanəgahın ətrafında bərpa işləri zamanı təsadüfən aşkar olunan və hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən məzar kitabəsi vasitəsi ilə aşkar edilmişdir. Kitabənin mətninin tərcüməsi belədir: "Bu bağça əmir Ərəbşahın qızı Qureyş şahbanunundur. 848-də (miladi

ilə, 20.04.1444-8.04.1445-ci il)" [2, s.93].

Kitabədən məlum olur ki, "şah" və "banu" titullarının birləşməsindən əmələ gələn, hərfi mənası "şah arvadı" demək olan "şahbanu" titulunu daşıyan Qureyşin atası Ərəbşah "əmir" titulu daşımışdır. Deməli, yüksək hərbi rütbə daşıyan bu adam Qaraqoyunlu dövlətinin ordusunda böyük məqam sahibi olmuşdur. Belə yüksək rütbəli bir şəxsiyyətin qızı olmasına, həmçinin xanəgah ətrafında dəfn olunmasına əsasən ehtimal şəklində olsa da, demək olar ki, Qureyş şahbanu xanəgahda fəaliyyət göstərən dərvişlərin rəhbərlərindən birinin arvadı olmuş, əri və ailəsi ilə birlikdə xanəgahda yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur.

Bikə Sultan. Bu qadının adı Culfa rayonunun Xanəgah kəndinin cənub-şərq tərəfində yerləşən qəbiristanlıqda özünün qəbri üzərində qoyulmuş sənduqə tipli qəbirüstü xatirə abidəsi üzərindəki məzar kitabəsi vasitəsi ilə aşkar olunmuşdur. Kitabədə yazılmışdır: "Məlik Məhəmmədin qızı, mərhumə Bikə Sultanın vəfatı. Doqquz yüz dördüncü il (miladi ilə, 19.08.1498-07.08.1499)" [3, s.116].

Kitabədə Bikə Sultanın şəxsiyyəti, yaşadığı XV əsrdə tutduğu mövqe və s. haqqında fikir söyləmək üçün əsaslı bir fakt və ya nişanə yoxdur. Ancaq, onun məzarı üzərində gözəl kitabələr və incə, nəfis ornamentlər həkk edilmiş gözəl xatirə abidəsi qoyulması göstərir ki, o, imkanlı ailəyə mənsub bir adam olmuşdur. Atası Məhəmmədin adına əlavə olunmuş və orta əsrlər zamanı yerli hakimlərin daşıdığı "Məlik" titulu göstərir ki, o, Əlincəçay mahalının yerli hakimlərindən olmuşdur.

Mərhumənin adına əlavə olunan və türk xalqlarında zadəgan silkinə məxsus qadınlara verilən "Bikə" titulu da onun kübar ailəyə mənsub olduğunu təsdiq edir.

Xanbikə. Orta əsrlər zamanı, həmçinin müasir dövrdə də "Bikə" titulu ilə digər titulların birləşməsindən qadın şəxs adları düzəldilmiş (məsələn, Xanbikə, Şahbikə və s.) və qız uşaqlarına verilmişdir. Bunu Naxçıvan Muxtar Respublikası ərazisində tədqiq etdiyimiz məzar kitabələri də təsdiq edir. Xanbikənin adı Ordubad şəhərinin əsas məzarlığı olan "Malik İbrahim" qəbiristanlığındakı qəbirinin üzərində qoyulan özünəməxsus başdaşı formalı qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabə vasitəsi ilə aşkar edilmiş və elmi dövriyyəyə daxil olunmuşdur. Kitabənin mətni belədir: "Ey rəhmlilərin rəhmlisi! Bu bağça Sultan Sadi bəyin qızı, mərhumə, günahları bağışlanmış, pak həyat tərzi keçirən, salehə [qadın] Xanbikənindir. Doqquz yüz səksən birinci il (miladi ilə, 03.05.1573-22.04.1574-cü il)" [4, s.87].

Kitabənin məlumatlarından aydın olur ki, xatirəsinə belə bir abidə hazırlanmış Xanbikə bəy qızı olmuşdur. Həmçinin onun adına əlavə olunan "günahları bağışlanmış, pak həyat tərzi keçirən, salehə [qadın]" epitetləri göstərir ki, o dindar, mömin bir qadın olmuş, haramlardan çəkinmiş, özünün pak həyat tərzi ilə tanınmış, xeyirxah əməlləri ilə məşhur olmuşdur. "Xan" və "Bikə" titullarından yaranmış Xanbikə adı "böyük", "üstün", "ali xanım" mənalarına gəlir.

Mikeysə xanım. Naxçıvan Muxtar Respublikası ərazisində indiyək gəlib çatan qadınlara məxsus məzar kitabələrində ən çox işlənən titul "xanım" tituludur. "Xanım" sözü qadınlara müraciət forması olub, "xanın arvadı, xanın qadını" anlamına gəlir. "Xanım" titulunun yaranmasını bəzən monqol hökmdarı Çingiz xanla bağlayırlar. Onların fikrincə, Çingiz xan bir gün bütün xanları ətrafına toplamış, sağ tərəfində isə arvadını oturtmuşdur. O, xanlara müraciətlə "mən xanlar xanı Çingiz xanam, hamınızın xanıyam" demiş, sonra isə arvadını göstərərək "bu da mənim xanımdır" söyləmişdir. Beləliklə, "xanım" sözü yaranmışdır [8].

"Xanım" deyərkən həm də qadın, arvad, zövcə başa düşülmüş və bəzi hallarda bu titul mürəkkəb qadın adlarının ikinci tərkib hissəsinə (Minaxanım, Xırdaxanım, Balacaxanım və s.) çevrilmişdir [1, s.423]. Sonralar, xüsusilə müasir dövrdə bu titul hörmət əlaməti olaraq bütün qadınlara müraciət formasına çevrilmişdir.

Mikeysə xanımın adı Culfa rayonundakı Xanəgah kəndinin şərq tərəfində, Əlincəçay sahilində yerləşən xanəgahın ətrafında təsadüfən aşkar olunan və hazırda Naxçıvan Dövlət Tarix muzeyində nümayiş etdirilən, mərmərin xüsusi növü oniksdən hazırlanmış sənduqə tipli xatirə abidəsinin baş tərəfində həkk edilən epitafiya – məzar kitabəsi vasitəsi ilə elmi dövriyyəyə daxil edilmişdir. Kitabədən aydın olmuşdur ki, nəfis şəkildə hazırlanmış "bu bağça kamil şeyx Hacı

Hilalullahın qızı, mərhumə Mikeysə xanımındır" [2, s.89].

Yaşadığı dövrdə tutduğu mövqe haqqında fikir yürütmək üçün kitabədə "xanım" titulu ilə təqdim olunan Mikeysənin adına əlavə başqa bir titul və ya epitet əlavə olunmamışdır. Ancaq, onun atası kitabədə "şeyx", həm də "kamil şeyx" titulu ilə təqdim olunmuşdur. Bu titul göstərir ki, Hacı Hilalullah XV yüzillikdə Əlincəçay xanəgahının rəhbər şeyxlərindən biri olmuşdur. Bu fakta əsasən demək olar ki, Mikeysə xanım atası ilə birlikdə xanəgahda yaşamış, ehtimal ki, xanəgahın rəhbər şeyxlərindən birinə ərə getmiş və orada yaşamasını davam etdirmişdir. Öldükdən sonra isə xanəgahın divarları yanında dəfn olunmuşdur.

Sənduqə üzərindəki başqa bir kitabədən məlum olur ki, Mikeysə xanım hicri 897-ci ildə (miladi ilə, 14.11.1491-22.10.1492) vəfat etmişdir [2, s.90].

Şərəf xanım. Bu qadının adı Naxçıvan şəhərinin cənub tərəfində yerləşən Köhnə qalada (Naxçıvanqalada) bərpa işləri zamanı təsadüfən torpağın altından aşkar olunan özünəməxsus başdaşı tipli xatirə abidəsi üzərində həkk edilən kitabə vasitəsi ilə emi dövriyyəyə daxil edilmişdir. Mərmər lövhə üzərində həkk edilmiş kitabənin əvvəlində şiə aləmində "14 məsum" kimi tanınan müqəddəslərn adı yazılmış, mərkəzi hissədə isə mərhumə haqqında məlumat verilmişdir: "Bu qəbir Rüfətin qızı, əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların-H.S.) zinəti Şərəf xanımındır – ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı. Məhərrəm ayı, min qırx doqquzuncu il. İmarətin binası qoyuldu, 1049 (miladi ilə, 04.05-02.06. 1639-cu il) [2, s. 106]".

Kitabədə mərhumənin adına əlavə olunan əməlisaleh, səcdə edən, bakirə, rüku edən, örtülülərin (hicablıların) zinəti sözləri onun yaşadığı dövrdə saleh əməlləri, ibadəti, Qurani-Kərimin "Hicab" haqqında ayəsinə əməl edən bakirə bir qız olduğunu göstərir. Həmçinin kitabədə Şərəf xanımın "ali məqam sahibi və düz yol göstərənlərin istinadgahı" kimi təqdim olunması onun Naxçıvan şəhərində fəaliyyət göstərən hansı isə sufi təriqətinə mənsub olmasına işarədir. Kitabədə onun "bakirə" kimi təqdim olunması, yəni ərə getməməsi də onun dərviş-qadın olduğunu təsdiq edir.

İzz Şərəf xanım. İzz Şərəf xanımın adını bizə keçən yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında abadlıq-bərpa işləri aparılarkən torpağın altından aşkar olunmuş mərmərdən hazırlanmış başdaşı üzərində həkk olunmuş məzar kitabəsi çatdırmışdır. Kitabənin mətni belədir: "Quran LV-26. Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169 (miladi ilə, 07.04.1756-cı il)" [2, s.98].

Kitabədən göründüyü kimi, xatirəsinə mərmərdən gözəl başdaşı hazırlanmış İzz Şərəf xanım görkəmli alim Nəsirəddin Tusi nəslindən olan Mirzə İnayət adlı adamın qızı olmuşdur. Səfəvilər zamanından başlayaraq irsi olaraq Ordubad şəhərini idarə edən Nəsirəddin Tusi nəsli Ordubadın sayılıb-seçilən tayfalarından olmuşdur. Onlar Ordubad şəhərini irsən idarə etməklə bərabər, həm də bölgənin iri feodalları kimi çoxlu kəndlərə, torpaq sahələrinə malik olmuşlar. Ehtimal etmək olar ki, Mirzə İnayət də Ordubad şəhərinin siyasi, iqtisadi və mədəni həyatında mühüm rolu olan şəxsiyyət olmuşdur. Bu səbəbdən də onun qızı məzar kitabəsində "xanım" titulu ilə təqdim olunmuşdur.

İzz Şərəf xanımın şəxsiyyəti haqqında tutarlı fikir söyləmək mümkün olmasa da, Ordubad şəhərinin baş məscidi olan Came məscidinin yanında dəfn olunması onun heç də sıradan bir vətəndaş olmadığını göstərir. Müsəlman Şərqində Came məscidləri yanında əsasən cəmiyyətin həyatında yüksək hörməti və mövqeyi olan tanınmış, görkəmli şəxsiyyətlər dəfn olunduğundan burada dəfn olunması onun nüfuzlu ailəyə mənsub olmasından irəli gəlməklə yanaşı, özünün də cəmiyyətin həyatında mənsub olduğu mövqedən də qaynaqlana bilərdi.

Xanım Əta Mülk. Bu qadının adına Ordubad şəhərinin "Malik İbrahim" qəbiristanlığında özünəməxsus qəbrin üzərində qoyulmuş başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilən məzar kitabəsində rast gəlinmişdir. Ərəb dilli kitabədə yazılmışdır: "Bu bağça böyük sədr Rükn əd-Din amid əl-Mülkün – onun yatağı sərin olsun – qızı, mərhumə, günahları bağışlanmış xanım Əta Mülkündür. Onun ölümü səkkiz yüz

on birinci il, məhərrəmin on ikisində (miladi ilə, 07.06.1408-ci il)" [4, s.82].

Kitabədən aydın olur ki, mərhumə xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsr Azərbaycan dövlət aparatında mühüm vəzifələrdən sayılan "böyük sədr" vəzifəsində çalışmışdır. Orta əsr müəllifləri tərəfindən "yüksək vəzifə" kimi dəyərləndirilən və qaynaqlarda "sədr", "sədr əl-əzəm", "sədr əl-müəzzəm", "sədr əl-kəbir" və s. kimi təqdim olunan sədr vəzifəsini tutan adamlar böyük imtiyazlara malik olaraq bəzən dövlət aparatında üçüncü yeri tutmuşlar.

Kitabədə mərhumənin atası böyük sədr Rükn əd-Dinin adına əlavə olunan "amid əl-mülk" titulu isə orta əsrlər zamanı dövlətin əsas vəzifələrindən sayılan vəzirlik məqamını tutan adamlara verilirdi. Bu titul göstərir ki, xanım Əta Mülkün atası Rükn əd-Din XIV əsrin sonu-XV əsrin əvvəllərində Azərbaycan dövlət aparatında böyük sədr və vəzir vəzifəsini icra etmişdir. Deməli, yüksək vəzifəli məmurun qızı kimi xanım Əta Mülk kübar ailəyə mənsub olmuş, bu səbəbdən də məzar kitabəsində "xanım" titulu ilə təqdim olunmuşdur.

Qeyd olunan epiqrafik nümunələr əsasında belə bir nəticəyə gəlmək olar ki, orta əsrlər zamanı naxçıvanlı qadınlar, onların timsalında bütün Azərbaycan qadınları "xatın", "banu", "bikə", "xanım" və s. titullar daşımışdır. Bu titullar bəzən eyni dövrdə bir-biri ilə paralel olaraq işlənmişdir. Bəzi hallarda qadınların iki titulla təqdim olunması hallarrına da rast gəlinmişdir. Kitabələrdə qalan tarixlərdən məlum olur ki, Naxçıvan ərazisində XII-XVI əsrlərdə qadınlara "xatın", XV əsrdə onunla birlikdə "bikə", XV-XVI əsrlərdə "banu", XV-XVIII əsrlərdə və sonrakı dövrlərdə "xanım" titulu ilə müraciət olunmuşdur.

Material və metodlar. Bu tədqiqat işi orta əsrlər dövründə Azərbaycan, o cümlədən onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarında qadınlara verilən titul və müraciət formalarının müəyyən edilməsi məqsədi daşıyır. Tədqiqat zamanı epiqrafik mənbələrdən – inşaat və məzar kitabələrinin məlumatlarından informasiya mənbəyi kimi istifadə olunmuşdur. Araşdırmaya daxil edilən epiqrafik nümunələr əsasən Naxçıvan Muxtar Respublikası ərazisində – Naxçıvan şəhərində, Ordubad, Culfa və Kəngərli rayonlarında yerləşən orta əsr qəbiristanlıqlarından və memarlıq abidələrindən götürülmüşdür.

İşin material bazasını həm sahə tədqiqatları zamanı toplanmış məlumatlar, həm də Naxçıvan Muxtar Respublikası ərazisindəki muzeylərin fondlarında qorunub saxlanılan kitabə mətnləri və elmi nəşrlərdə dərc olunmuş epiqrafik sənədlər təşkil etmişdir.

Tədqiqatın aparılmasında aşağıdakı elmi metodlardan istifadə olunmuşdur:

• Tarixi-analitik metod – epiqrafik mətnlərdə rast gəlinən titul və müraciət formalarının mənşəyi, semantikası və tarixi kontekstdə təhlili üçün tətbiq olunmuşdur;

• Mənbəşünaslıq metodu – orta əsr yazılı mənbələri və müasir tədqiqat ədəbiyyatı ilə müqayisəli şəkildə istifadə edilmişdir;

• Semantik təhlil metodu – titul və müraciət formalarının leksik mənaları və funksional istifadəsi öyrənilmişdir;

• Sosiomədəni yanaşma – qadınların sosial statusu, dini-mənəvi, məişət mövqeyi və ailə mənsubiyyətinin titul seçiminə təsiri araşdırılmışdır;

• Tipoloji müqayisə metodu – müxtəlif kitabələrdə rast gəlinən titul və müraciət formaları arasında oxşar və fərqli cəhətlər sistemləşdirilmişdir.

Bütün epiqrafik nümunələr orijinal mənbələr əsasında təhlil edilmiş, tarixi dövrlər üzrə təsnif olunmuş və qadınların cəmiyyətdəki mövqeyini əks etdirən faktoloji əsaslarla dəyərləndirilmişdir.

Nəticə. Aparılmış tədqiqatlar əsasında belə qənaətə gəlmək olar ki, orta əsrlər dövründə Naxçıvan bölgəsində qadınlara verilən titul və müraciət formaları – "xatın", "xanım", "bikə", "banu", "şahbanu" və s. – yalnız formal nitq vahidləri deyil, həm də qadınların cəmiyyətdəki yerini, nüfuzunu, mənəvi dəyərlərini və sosial statusunu əks etdirən simvolik göstəricilər olmuşdur. Epiqrafik abidələr bu titul və epitetlərin daşıyıcılarının şəxsiyyəti, dini dünyagörüşü, ailə mənsubiyyəti və ictimai mövqeyi haqqında mühüm tarixi-mədəni məlumatlar təqdim edir.

Bu titulların müxtəlif dövrlərdə və fərqli bölgələrdə eyni zamanda və ya ardıcıl şəkildə işlədilməsi, həmçinin bir şəxsin adına birdən çox titulun əlavə olunması, orta əsr cəmiyyətində qadınlara verilən dəyərin çoxşaxəli və kompleks xarakter daşıdığını göstərir. Xüsusilə qeyd olunmalıdır ki, bu titullar vasitəsilə qadınların yalnız

ailədaxili funksiyaları deyil, həm də dini, siyasi və mədəni sferadakı fəallıqları da tarixə düşmüşdür.

Epiqrafik mətnlər göstərir ki, Naxçıvan qadınları öz dövrlərində həm ailə daxilində, həm də cəmiyyət səviyyəsində nüfuzlu şəxsiyyətlər kimi tanınmış, dövlət və dini həyatda fəal mövqe tutmuşlar. Onların xatirəsinə ucaldılmış türbələr və xatirələrinə həkk edilmiş kitabələr bu tarixi həqiqəti bir daha təsdiqləyir.

Beləliklə, Naxçıvan bölgəsindəki qadınlara aid epiqrafik abidələrin tədqiqi həm qadın tarixi, həm də sosial-siyasi baxımdan mühüm nəticələr verir və bu sahədə gələcək elmi araşdırmalar üçün zəngin və etibarlı mənbə bazası yaradır.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. – Bakı: Şərq-Qərb, – 2006. – 792 s.
2. Səfərli, H. Naxçıvan şəhərinin epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan:Əcəmi, – 2019. – 152 s.
3. Səfərli, H. Əlincəçay mahalının epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan: Əcəmi, – 2020. – 200 s.
4. Səfərli, H. Ordubad bölgəsinin epiqrafik abidələri / H.Səfərli. – Naxçıvan: Əcəmi, – 2021. – 336 s.
5. Алескерзаде, А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами. // Архитектура Азербайджана эпохи Низами. – Москва-Баку, – 1947. – с. 390.
6. Рашидаддин, Ф. Джами ат-таварих (сборник летописей) / Ф.Рашидаддин. – Баку, – 1957, том 3. – с. 16.
7. https://m.facebook.com/rqalagoz/photos/a137169596385355/3406069242828701/?type=3
8. https://www.facebook.com/mingechevir.dovlet.dram.teatri/posts/744133412366684/

İlkin daxilolma – 09.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 05.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.157-162
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.157-162
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.157-162

UOT 94(497.61):070.5
https:// doi.org/10.59849/2218-4783.2024.2.33

II Dünya müharibəsi illərində Naxçıvan ziyalılarının yaradıcılığı "Şərq qapısı" qəzetinin səhifələrində

Müəllif(lər):

Fəxrəddin Cəfərov
Naxçıvan Dövlət Universiteti
Tarix elmləri doktoru
E-poçt: fexreddinceferov@edu.az
https://orcid.org//0009-0006-5541-6814
Yaşar Rəhimov
AMEA Naxçıvan Bölməsi
Tarix üzrə fəlsəfə doktoru
E-poçt: yasarrahimov@yahoo.com

Açar sözlər: "Şərq qapısı" qəzeti, ziyalı, Naxçıvan, II Dünya müharibəsi, vətənpərvərlik

Annotasiya. Araşdırılan mövzu indiyə kimi ayrıca bir təsqiqat obyekti olmamışdır. Buna görə o aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalənin yazılmasında əsas məqsəd "Şərq qapısı" qəzetinin materiallarına söykənərək II Dünya müharibəsi illərində Naxçıvan ziyalılarının yaradıcılığını ətraflı şəkildə, elmi metodlarla araşdırmaqdan ibarətdir. Məqalənin metodoloji əsasını tarixi dərketmənin elmi prinsipləri-tarixilik və obyektivlik təşkil edir. Tədqiqat zamanı tarixi tədqiqatın konkret metodlarından biri olan məntiqilik metodundan da istifadə edilmişdir. Alınan nəticələrə əsasən Böyük Vətən müharibəsi gətirdiyi ağrı-acılarla bərabər, gənclərdə yazıb-yaratmaq həvəsi oyatdı, ədəbiyyata yeni poetik nəfəsi olan gənclər gətirdi. Müharibə qələbə ilə qurtardı, bu böyük tarixi hadisə xalqın sevincinə, yaradıcı gənclərin coşğun ilhamına səbəb oldu. Cəbhəyə getmiş şairlər Müzəffər Nəsirli, İslam Səfərli və başqaları vətənə qayıtdılar. Məqalənin təcrübi əhəmiyyəti onunla izah edilir ki, məqalədə istifadə olunmuş faktiki materiallardan və əldə edilmiş nəticələrdən ali məktəblərin tarix fakültələrində ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə Naxçıvan tarixinə dair elmi tədqiqat işlərinin aparılmasında və dərslərin tədrisində də istifadə edilməsi mümkündür.

Author(s):

Fakhraddin Jafarov
Nakhchivan State University
Doctor of History
E-mail: fexreddinceferov@edu.az
https://orcid.org//0009-0006-5541-6814
Yashar Rahimov
PhD in History
Azerbaijan National Academy of Sciences, Nakhchivan Branch
E-mail: yasarrahimov@yahoo.com

Key words: "Sharq Kapisi" newspaper, intellectual, Nakhchivan, World War II, patriotism

The creativity of Nakhchivan intellectuals during the years of World War II in the pages of the "Sharg Gapisi" newspaper

Abstract. The subject under study has not been a separate object of study so far. Therefore it is of paramount importance in terms of relevance. The main purpose of the article is to study the creativity of Nakhchivan intelligentsia during World War II by scientific methods based on the materials of "Sharg gapisi" newspaper. The methodological basis of the article is the scientific principles of historical understanding-historicity and objectivity. In the course of the study the method of logicism, one of the specific methods of historical research was also used. According to the results obtained along with the pain caused by The Great Patriotic War, it aroused the desire to write and create in young people, brought young people with a new poetic breath to literature. The war ended with victory, this great historical event caused the joy of the people, the enthusiastic inspiration of Creative Youth. Poets Muzaffar Nasirli, Islam Safarli and others who went to the front returned home.The practical significance of the article is explained by the fact that the actual materials used in the article and the results obtained can be used in conducting specialized courses in the history faculties of higher schools writing generalized works, preparing teaching and teaching aids. In addition it can be used in conducting scientific research works on the history of Nakhchivan and teaching lessons. The importance of literature is greater during the period when the people lived a peaceful life and were engaged in creative labor but its importance increases even more during the war when the whole people took up arms and rose to defend their homeland from the enemy. A number of writers and poets worked in Nakhchivan during the war..The works written during those times were mainly published in newspapers and magazines operating in Nakhchivan at that time. These include "Sharq Kapisi" newspaper, "Edebiyyat" newspaper and "Vatan yurdu" magazine.

Автор(ы):

Фахраддин Джафаров
Нахчыванский государственный университет
Доктор исторических наук
Э-почта: fexreddinceferov@edu.az
https://orcid.org//0009-0006-5541-6814
Яшар Рагимов
Нахчыванское Отделение НАНА
Доктор философии по истории
Э-почта: yasarrahimov@yahoo.com

Ключевые слова: Нахчыван, интеллигенция, газета «Шарг гапысы», Вторая Мировая война, патриотизм

Творчество Нахчыванской интеллигенции на страницах газеты «Шарг гапысы» в годы Второй Мировой войны

Аннотация. Рассматриваемая тема до сих пор не являлась объектом отдельного исследования. Поэтому он имеет важное значение с точки зрения актуальности. Основной целью написания статьи является детальное, научными методами исследование творчества Нахчыванской интеллигенции в годы Второй Мировой войны, опираясь на материалы газеты «Шарг гапысы». Методологическую основу статьи составляют научные принципы исторического осмысления - историчность и объективность. В ходе исследования также использовался логический метод, один из конкретных методов исторического исследования. Основываясь на полученных результатах, Великая Отечественная война наряду с принесенными страданиями пробудила в молодежи страсть к писательству, привнесла в литературу молодых людей с новым поэтическим дыханием. Война закончилась победой, это великое историческое событие вызвало радость народа, бурное вдохновение творческой молодежи. Ушедшие на фронт поэты Музаффар Насирли, Ислам Сафарли и другие вернулись на родину. Практическая значимость статьи объясняется тем, что фактические материалы, использованные в статье, и полученные результаты могут быть использованы при проведении профильных курсов на исторических факультетах высших учебных заведений, при написании обобщающих работ, при разработке учебников и учебных пособий. Кроме того, его можно использовать при проведении научно-исследовательских работ по истории Нахчывана и преподавании уроков.

Giriş. "Şərq qapısı" qəzetinin 25 iyun 1941-ci il tarixli nömrəsində ilk dəfə qələmə sarılaraq öz münasibətini ifadə edən Səməd Vurğunun "Bilsin ana torpaq, eştsin vətən, müsəlləh əsgərəm mən də bu gündən" misraları ilə başlayan şeri təqdim olunur. Azərbaycan şairinin ilk təqdimatı yerli qələm sahiblərinə bir çağırış olur. Elə həmin nömrədən başlayaraq naxçıvanlı şairlər mübariz ruhlu bədii nümunələrlə mətbuatda çıxış etməyə başlayırlar. Sözü qılıncdan kəsərli sayan görkəmli ədəbiyyatşünas Əziz Şərifin "Kəskin silah" adlı məqaləsində oxuyuruq: "Qoy bizim də bədii sözümüz cəbhədəki igid döyüşçülərimizi, arxadakı yorulmaq bilməyən fəhlə və kolxozçularımızı, gözünü həsrət və ümidlə döyüş cəbhəsinə dikən ana və bacılarımızı ruhlandırsın, onlardan cəllad hitlerçilərə qarşı sarsılmaz ədavət yaratsın, onları qarı düşmənə qarşı mübarizə üçün istər cəbhədə, istərsə də arxada səfərbərliyə alsın". Ədib öz məqaləsində Azərbaycan söz ustalarının kəskin silahdan səmərəli istifadə etməyi bacardığını, yaratdıqları əsərlərlə xalqı səfərbərliyə alaraq onun qoluna qüvvət, gözünə nur verdiyini Süleyman Rüstəmdən gətirdiyi misalla əsaslandırır:

Yer üzündə nə vardır ki,
əziz olsun vətəndən?
İnsan necə yaşar deyin,
can ayrılsa bədəndən?

Materiallar və metodlar. Məqalənin işlənib hazırlanmasında "Şərq qapısı" qəzetinin materillarından istifadə edilmişdir. Bu materiallar həmin dövrün ziyalılarının yaradıcılıq mənzərəsini yaratmaqda xeyli yardımçı olmuşlar. Məqalədə istifadə olunmuş faktiki materiallardan ali məktəblərin tarix fakültələrində ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə həmin materiallardan Naxçıvan tarixinə dair elmi tədqiqat işlərinin aparılmasında və dərslərin tədrisində də istifadə edilməsi mümkündür. Məqalənin metodoloji əsasını tarixi dərketmənin elmi prinsipləri-tarixilik və obyektivlik təşkil edir. Tədqiqat zamanı tarixi tədqiqatın konkret metodlarından biri olan məntiqilik metodundan da istifadə edilmişdir.

Əsas hissə.

Naxçıvan ziyalılarının yaradıcılığı "Şərq qapısı" qəzetinin səhifələrində.

Naxçıvanın tanınmış yazalarından sayılan, 1949-cu ildən "Şərq qapısı" qəzetində əməkdaşlıq edən Hüseyn Razinin ilk yaradıcılıq məhsulu sayılan şeirləri məhz Böyük Vətən müharibəsi illərində qələmə alınmış və mütamadi olaraq "Şərq qapısı" qəzetində nəşr olunmuşdur. Qəzetin 10 oktyabr 1941-ci il tarixli 183-cü nömrəsində dərc olunmuş "Partizanın andı" şerində gənc şair qəlbinin harayı hiss olunur:

Dünyalar baş əysin bu həqiqətə,
Xoş həyat yaşadaq bəşəriyyətə,
Qıraq zəncirləri, daş qəfəsləri,
Ucalsın göylərə zəfər səsləri
Bizik məzlumlara böyük xilaskar,
Partlasın Berlində həqiqət,bahar!
[4, 1941, 10 oktyabr]

1941-1945-ci illərdə kəsərli silah olan sözdən məharətlə istifadə etmək bacarığı olan şairlərdən Adil Babayev və Hacı Əsgərov yaradıcılığı da diqqətəlayiq nümunələrlə zəngindir. Yaradıcılığa yeni başlayan Adil Babayev nəzmindəki kəsərlilik sözün təsirini artırmaqla yanaşı, oxucuya çatdırmaq istədiyi qayəni daha aydın təqdim etməyə imkan verir:

Əzminlə yerləri, göyləri titrət,
Söylə ki, bitməzdir məndəki qüdrət,
Çəkil qabağımdan, ey cani düşmən!
Günəşi örtərmi bir qara zülmət?!

Hacı Əsgərov isə vətənpərvərlik ruhunda yazılmış şeirlərində daha çox müharibədə qəhrəmanlıq və şüsacət göstərən döyüşçülərdən bəhs edir, onların timsalında Azərbaycan gənclərinə müraciət etməklə insanları döyüşə, düşmənlə vuruşa səsləyirdi. Şair Noraşen (Şərur) rayon Qıvraq kəndinin "Qırmızı Oktyabr" kolxozundan ordu sıralarına getmiş, Cənub-Qərb cəbhəsində alman işğalçılarına qarşı döyüşlərdə ən yaxşı minaatıcı kimi mərdlik və qəhrəmanlıq nümunəsi göstərərək "İgidliyə görə" medalı ilə təltif olunan Cəboş Baxşəliyevə ithaf etdiyi "Alqış vətənimin şanlı oğluna" şeirində qəhrəmanın keçdiyi döyüş yoluna nəzər salır, igidliyindən bəhs edir:

Gecədir səmada ulduzlar, aylar,
Görünür kənddə odlar, alovlar.
Atdığın minadan öldükcə düşman,
Zaman da söylədi yaşa qəhrəman!...
Ey əziz qardaşım, dinlə bir məni,
İgid oğlu bilir ellərin səni,
Vuruş meydanında, odlu çağında,

Qorxu duyulmadı qaş-qabağında.
[4, 1942, 22 mart]

Qəzetin 3 aprel 1942-ci il il tarixli nömrəsində müəllifi Həsən Fətullayev olan "Azərbaycan fəxr edir" başlıqlı bir şeir çap olunmuşdur. Həmin şerində həmyerlimiz Naxçıvan (Babək) rayonunun Şıxmahmud kəndində anadan olmuş Bəxtiyar Oruc oğlu Kərimovun Böyük Vətən müharibəsi cəbhələrindəki qəhrəmanlığı haqqında söhbət açmışdır: [4, 1942, 3 aprel]

Bu gün tarix aç sinəni, keçmişlərə göz vuraq,
Hər misrandan bir ölməyən dastan yazıb söz quraq.
Mənim məğrur laləzarlı ana yurdum bu gülşən,
Bu dik başlı anasına öz təmiz, tünd qanını
Söyləyərək, gənc Bəxtiyar qurban verdi canını.
Hər igidin gözlərində şanlı zəfər güləcək
Onun büllur güzgüsündə əks edəcək gələcək.
Həyat minmiş kəhərinə gələcyə yol gedir
Hər gərdişdə bir əməllə Azərbaycan fəxr edir.
[4, 1942, 3 aprel]

Qəzetin 16 iyun 1942-ci il tarixli 139-cu nömrəsində "Şəlalə" adlı romanın III hissədən bir parçasında partizan Telman haqda yazır:

"Qalın bir meşədir, ala qaranlıq
Ulduzlar parlayır səmada sıq-sıq
Oturmuş ağacın dalında İlham
Dinləyir onu bir qoca partizan
Yağıya baş əyməz bu azad əllər
Aslan yatağıdır hər dağın başı.
Sığınmış dağlara vətən qardaşı.
Vəhşət gətirdiniz ellərimizə
Tarix baxacaqdır məhkəmənizə!
Hamı bir ağızdan dilə gələcək
Hitler boğazından asılsın gərək!
Dedikcə sözlərin Vüqarla İlham!
Parlayır gözündə qanlı intiqam
[4, 1942, 16 iyun]

8 avqust 1942-ci il buraxılışında isə müəllifi Zeynal Xəlil olan "Danışan sünbüllər" başlıqlı şeir dərc edilmişdir [4, 1942, 8 avqust].

1942-ci il avqustun 21-də yazıçı Məmməd Səid Ordubadi öz doğma şəhəri Ordubada gəlmişdir. Yerli sovet partiya və ictimai təşkilat nümayəndələri Azərbaycan SSR Baş Soveti deputatı, ordenli yazıçı M.S.Ordubadini səmimiyyətlə qarşılamışlar. Həmin gün axşam M.S.Ordubadinin 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi münasibətilə respublika fəallarının nümayəndələrinin iştirakı ilə Ordubad rayon mədəniyyət evində ədəbi-bədii gecə keçirilmiş və yazıçı ilə səmimi görüş təşkil olunmuşdur. Gənc şairlərdən olan H.Əzimov M.S.Ordubadiyə yazmış olduğu şeirini oxumuşdur [4, 1942, 23 avqust].

Yazıçı M.S.Ordubadinin anadan olmasının 70 illiyi və ədəbi fəaliyyətinin 50 illiyi ilə əlaqədar olaraq Ordubad şəhər xəstəxanası ilə mədəniyyət parkına M.S.Ordubadinin adı verilmişdir [4, 1942, 9 oktyabr].

Bu illərdən Ordubadi yenə də satirik şeir-felyetonlar yazmağa başladı. Bu mənzum felyetonlarda o, faşist işğalçılarını ifşa edir, onların iddia etdikləri kimi "Yenilməz" olmadıqlarını xalqa və xüsusilə döyüşçülərə izah edir, faşist rejiminin qanlı siyasətini, ölüm və taunlar üzərində qurulduğunu başa salırdı. Müharibənin ilk aylarında faşizmin bütün vəhşiliyini, qeyri insani sifətlərini hələ lazımınca bilməyən geniş kütlələrə onu lazımınca tanıtmaq, xalqın nifrətini çatdırmaq üçün şair bir sıra felyotonlar yazmışdır. Bunlardan "Canavarsan, canavar", "Hitlerin siqəxanasında", "Hitler cənnətində" və başqalarını göstərmək olar. Bu illər Ordubadi "Serjant İvanov adına körpələr evi" və "Xəstəxana" hekayələrini yazır. Bu hekayələr ədibin müharibə illərində yazdığı ən səmimi və təsirli əsərlərindəndir. "Serjant İvanov adına körpələr evi" hekayəsində Sovet döyüşçülərinin böyük humanizmi, odlar alovlar içərisində belə insana, xüsusən körpələrə qayğı və məhəbbəti gözək vermişdir.

"Gənc çekistlər" romanını ədib müharibənin birinci ilində yazmış və çapa vermişdir. Roman müharibə dövrü üçün əhəmiyyətli olan bir mövzudan bəhs edir. Burada ədib döyüş cəbhələrinə can atan gənclərin, komsomolçuların onların arxa cəbhədə fədəkarlıqla çalışan ata-analarının, yoldaşlarının işini maraqlı tərzdə işıqlandıran bədii surətlər yaratmışdır. Eyni zamanda yazıçı faşist quldurlarının açıq və gizli vəhşiliklərindən bəhs edir, onların gizli fəaliyyətinə xalqın diqqətini cəlb etmək istəyir.

Qəzetin 10 oktyabr 1942-ci il il tarixli nömrəsində Azərbaycan SSR Xalq artisti Sidqi Ruhullanın Naxçıvana gəlməsi, Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulan "Vaqif" əsərində Qacar rolunda çıxış etməsi və teatrın kollektivi ilə söhbətlər aparması barədə xəbər verilir. Xəbər materialında həmçinin vətən müharibəsi

dövründə aktyorların qarşısında duran vəzifələrdən bəhs olunur [4,1942, 10 oktyabr].

Əziz Şərifin qəzetin 10 oktyabr 1942-ci il il tarixli nömrəsində "Naxçıvanlı gənc şairlər Böyük Vətən müharibəsi günlərində" adlı məqaləsində ötən nömrədə toxunduğu mövzunu davam etdirərək yerli şairlərdən Hüseyn Əzim, Hacı Əsgərov, Əsgər Səfərov, müəllim Əli Məmmədov yaradıcılığındakı vətənpərvərlik motivlərinə toxunur, bəzi nümunələri oxuculara təqdim edir.

Əziz Şərif məqaləsində yazır ki, Azərbaycan yazıçıları ailəsinin üzvü olan Naxçıvanın gənc şairləri də ana yurdun döyüş cəbhəsindən çox uzaqda olmasına baxmayaraq, vətən müharibəsinin ilk günündən vətən qarşısında öz müqəddəs vəzifəsini düzgün anlayaraq, qələmini qalibiyyət uğrunda işlətmiş, əsərlərini sovet xalqının tarixində görünməmiş qəhrəmanlıq mübarizəsinə həsr etmişdir [4,1942, 10 oktyabr].

"Şərq qapısı" qəzetinin 1941-1945-ci illər rus-alman müharibəsi dövründə işıq üzü görən 11 oktyabr 1942-ci il tarixli nömrəsində gənc şairlərin vətənin müdafiəsi zamanı qəhrəmanlıqla vuruşanlara, arxa cəbhədə yorulmadan çalışanlara həsr olunmuş şeiriləri də dərc edilmişdir. Qəzetin 11 oktyabr 1942-ci il tarixli nömrəsində gənc şairlərdən H.Əzimov yazır:

Döyüşdə yüksəlir igidin adı,
Analar da sevir igid övladı.
Azadlıq istəyən versin gərək qan,
Gərək ad qazansın bu işdə insan.
Hər kimin qəlbində vətən eşqi var,
Onun mərd əlləri dağı parçalar.

Ümumiyyətlə, qəzetin oktyabr 1942-ci il tarixli nömrələrində gənc şairlərdən H.Əzimovun, Ə.Cəfərovun, İ.Səfərlinin, H.Əsgərovun və başqalarının vətənə, doğma yurdumuza həsr olunmuş şeirləri verilmişdir.

Qəzet özünün 23 oktyabr 1942-ci il tarixli nömrəsində döyüşən ordudan Əli Vəliyevin "Mayor Akim Abbasov" (10 oktyabr 1942-ci il) adlı məqaləsini dərc etmişdir. Məqalədə A.Abbasovun Qərb cəbhəsi tərkibində Belqorod ətrafındakı 17 yaşayış məntəqəsinin işğaldan azad edilməsində fəal iştirak etməsi geniş təhlil edilmişdir [4, 23 oktyabr 1942].

Qəzet özünün 22 noyabr 1942-ci il tarixli nömrəsində "N" saylı hərbi hissənin döyüşçüləri, komandirləri və siyasi işçilərinin tapşırığı ilə mayor Abbasovun, siyasi hissə üzrə müavin-batalyon komissarı Məmmədovun, partiya bürosunun katibi, siyasi rəhbər Quliyevin imzaları ilə "Naxçıvan ASSR zəhmətkeşlərinə" adlı yazı, Böyük Oktyabr Sosialist inqilabının 25-ci ildönümü münasibətilə təbrik məktubu, döyüşən ordudan baş leytenant A.Zamanovun imzası ilə "Serjant Barat Süleyman oğlu" adlı və "Böyük Stalinin göstərişləri şərəflə yerinə yetirilir" adlı məqalələr dərc etdirmişdir [4, 22 noyabr 1942-ci il].

"Şərq qapısı" qəzetinin 12 avqust 1943-cü il tarixli nömrədə döyüşçü Əkbər Məmmədovun Naxçıvan Dövlət Dram teatrının artistlərindən İbrahim Həmzəyev, Səməd Mövləvi və Əyyub Haqverliyevin adlarına göndərdiyi məktub dərc edilmişdir. Məktubda deyilirdi: "Bir gün istirahətdə ikən hissəmizə Azərbaycan qəzetləri çatdırıldı. "Kommunist" qəzetini oxuyarkən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanına rast gəldim. Bu fərmanla Azərbyacanın bir qrup incəsənət işçilərinə Azərbaycan SSR-nin fəxri adları verilmişdir. Bunların arasında Siz - İbrahim Həmzəyev, Səməd Mövləvi və Əyyub Haqverdiyev də vardır. Sizi Azərbaycan SSR-nin əməkdar artisti kimi fəxri ad almanız münasibətilə təbrik edirəm. Biz cəbhədə düşmənlə amansızcasına mübarizə apardığımız kimi siz də xalqımıza yüksək bədii tamaşalar göstərməklə əlinizdən gələni əsirgəməyin... " [4, 1943, 12 avqust].

"Şərq qapısı" qəzetinin 1 oktyabr 1943-cü il tarixli nömrəsində Əsgər Cəfərovun "Müzəffər ordumuza" şeri nəşr edilmişdir. Şerdə yazılırdı:

Vətən deyil səndən iraq
Gəl düşmənə ellik vuraq
Sönməz yandırdığın çıraq
Basılmaz yada yurdumuz
Sən ey müzəffər ordumuz!
Əzəldən mərddir yurdumuz
Sən ey müzəffər ordumuz!
Günəşdir ana yurdumuz!
Sən ey müzəffər ordumuz! [4, 1943, 1 oktyabr]

Qəzetin 6 dekabr 1943-cü il tarixli nömrəsində H.İbrahimovun "Qorxma kapitan" adlı məqaləsində cəsur komandir İsmayıl Sayılovun qəhrəmanlıqla vuruşmasından danışılır.

Qəzetin 17 oktyabr 1944-cü il tarixli nömrəsində bir çox yazılarla yanaşı Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan filialı, Naxçıvan Vilayət Partiya Komitəsinin təbliğat-təşviqat

şöbəsi ilə birlikdə keçirilən Naxçıvanın gənc yazıçılarının yığıncağından danışılır. Yığıncaqda gənc yazıçı Hüseyn İbrahimov yazmış olduğu "Baloğlan" adlı pyesini oxumuşdur. Sonra Lətif Hüseynov, Əli Hüseynov, Əsgər Axundov, Əsəd Cəfərli, Kamil Bektaşi, Məmmədəli Tarverdiyev, İsa Musayev, Pəri İbrahimova çıxış edərək əsər haqqında öz fikirlərini söyləmiş və müəyyən məsləhətlər vermişlər [4, 17 oktyabr 1944-cü il]. Yığıncağın sonunda H.İbrahimov çıxış edərək tənqidçilərə öz razılığını bildirmiş və əsər üzərində yenidən ətraflı işləyəcəyini qeyd etmişdir.

Müharibə dövrünün daha gənc və öz yaradıcılığı ilə tanınan yazıçılarından biri də Nağı Nağıyev olmuşdur. O, bir sıra əsərlərin müəllifi idi. N.Nağıyev müharibədən qayıtdıqdan sonra Azərbaycan K(b)P-nın Naxçıvan Vilayət Komitəsinin informasiya şöbəsinin müdiri vəzifəsində işləmiş və həmçinin də Yazıçılar Birliyinin Naxçıvan Filialında işləmişdir. O öz yaradıcılığında əsərlərini xalqı düşmənlə barışmazlığa və fədakar əməyə ruhlandırmağa yönəltmişdir. Bunlardan "Polad", "Səadət" və başqa əsərlərini göstərmək olar. O, "Polad" 5 pərdəli dram əsərini 1944-cü ildə yazmış və həmin əsər Naxçıvan Dövlət Dram teatrında oynanılmışdır. Pyesdə sovet ordusunun qəhrəman və mübariz döyüşçülərinin sovet vətəninin azadlıq və istiqlaliyyəti uğrundakı misilsiz hünəri, Azərbaycan xalqının igid oğlu Poladın cəbhədəki qəhramanlığı öz əksini tapmışdır. Bundan başqa o həmin dövrlərdə "Zərifə və Qəhraman", "Həkim" povestini, 7 şəkildə olan "Hal əhliləri" komediyasını və bir neçə hekayələr yazmışdı. Nağı Nağıyev həmçinin rəssamlıqla da məşgul olmuşdur [4, 1945, 3 iyul].

Böyük Vətən müharibəsi illərində məsul partiya işində çalışan jurnalist-yazıçı Məmmədəli Tarverdiyev döyüşlərdə iştirak etmiş həmyerlilərimiz haqqında bir sıra oçerklər qələmə almışdır. Bundan başqa o, müharibə dövründə arxa cəbhə ilə atəş xətti arasındakı sarsılmaz əlaqəni əks etdirən "Zaman" pyesini yazmış və həmin pyes "Şərq qapısı" qəzetinin 1945-ci il iyul tarixli nömrələrində hissə-hissə oxuculara təqdim olunmuşdur.

Müharibəyə kimi və müharibə dövründə Naxçıvanda yaşıyıb-yaradan şairlərdən biri də Əkbər Məftun idi. Əkbər Məftun müharibə dövründə öz yaradıcılığını davam etdirərək Azərbaycan oğullarını qəhramanlığa çağıran şeirlər yazmışdır. Bunlardan Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevə həsr etdiyi "Sən könül mülkünün iftixarısan", "Xilaskar Ordu", "Ey vətən" kimi lirik şeirlərini göstərmək olar. Əkbər Məftun həmin şeirlərində özünün vətənə sədaqətini, alman faşist işğalçılarına qarşı apardığı mübarizəsini "Partizanın hekayəsi" adlı şeirində ifadə etmişdir.

Böyük Vətən müharibəsi illərində gənc şairlərimiz və ziyalılarla bərabər ata-analarının öz övladlarına yazdıqları məsləhətli məktublar və şeirlər də dərc edilmişdir. Qəzetin 19 avqust 1943-cü il tarixli nömrəsində Naxçıvan şəhərinin Vorovski küçəsindəki 16 nömrəli evdə yaşayan Nərgiz Məmmədəliyevanın ön cəbhədə vuruşan oğlu Əliyə yazdığı şeri dərc olunmuşdur:

Başına döndüyüm mərd oğlum Əli,
Ananın incisi, yaqutu, ləli.
Könlümün arzusu, dilim əzbəri,
Var böyük ümidim yenə görüşək.
Ürəkli ol, ürəyimin dayağı,
Qəhrəman adını eşitsin yağı.
Kəsilsin ölkəmdən düşmən ayağı
Onda da var ümidim yenə görüşək.

Nəticə və müzakirələr. Araşdırılan mövzu indiyə kimi ayrıca bir tədqiqat obyekti olmadığı üçün o, aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalənin yazılmasında əsas məqsəd "Şərq qapısı" qəzetinin materiallarına söykənərək II Dünya müharibəsi illərində Naxçıvan ziyalılarının yaradıcılığını ətraflı şəkildə, yeni müstəvidə araşdırmaqdan ibarətdir. Aparılan müzakirələr və gəlinən nəticələr onu deməyə əsas verir ki, xalqın dinc həyat sürdüyü, yaradıcı əməklə məşğul olduğu dövrdə ədəbiyyatın əhəmiyyəti nə qədər böyükdürsə müharibə günlərində, bütün xalq silaha sarılaraq öz vətənini düşməndən qorumağa qalxdığı zaman bu əhəmiyyəti daha da artır. Müzakirələrin yekunu olaraq əldə edilən nəticələrə əsasən müharibə dövründə Naxçıvanda bir sıra yazıçılr və şairlər fəaliyyət göstərmişdilər. Həmin dövrlərdə yazılan əsərlər əsasən Naxçıvanda o dövrdə fəaliyyət göstərən qəzet və yurnallarda nəşr edilirdi. Bunlara "Şərq qapısı" qəzetini, "Ədəbiyyat" qəzetini, "Vətən uğrunda" jurnalını göstərmək olar.

Nəticə. "Şərq qapısı" qəzetini səhifələrində dərc olunan materiallardan aydın olur ki,

Böyük Vətən müharibəsi gətirdiyi ağrı-acılarla bərabər, gənclərdə yazıb-yaratmaq həvəsi oyatdı, ədəbiyyata yeni poetik nəfəsi olan gənclər gətirdi. İslam Səfərli, Davud Ordubadlı, Hüseyn İbrahimov, Əbülfəz Abbasquluyev kimiləri həmin dövrdən ədəbi yaradıcılığa başladılar. Müharibə qələbə ilə qurtardı, bu böyük tarixi hadisə xalqın sevincinə, yaradıcı gənclərin coşğun ilhamına səbəb oldu. Cəbhəyə getmiş şairlər Müzəffər Nəsirli, İslam Səfərli və başqaları vətənə qayıtdılar. İstər gənclər, istərsə də yaşlı nəslin nümayəndələri yeni yaradıcılıq yoluna qədəm qoydular.

Ədəbiyyat

1. "İşıqlı yol" qəzeti. 8 may 1990-cı il.
2. "Nuh yurdu" qəzeti. 5 iyun 2021-ci il.
3. "Sovet Naxçıvanı" qəzeti. 26 dekabr 1981-ci il.
4. "Şərq qapısı" qəzeti.

Məqalə tarix üzrə elmlər doktoru, dosent Emin Şxəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 17.01.2025, son daxilolma – 10.02.2025, qəbulolunma – 13.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.163-167
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.163-167
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.163-167

UOT: 902:930.25
https://doi.org/10.30546/670832.2025.01.1215

Tarixi tədqiqatlarda arxealojı qazıntıların və yazılı mənbələrın rolu

Müəllif(lər):

Rəsul Bağırov
Naxçıvan Dövlət Universiteti
dosent
E-poçt: bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

Açar sözlər: mənbələr, mixi yazılar, yaşayış məskənləri, daş kitabələr, arxealoji abidə, yazılı mənbələr

Annotasiya. Məqalənin yazılmasında əsas məqsəd Azərbaycanın qədim dövrlər tarixini arxeoloji və yazılı mənbələr əsasında ətraflı şəkildə əsaslandırmaqdır. Yazılı mənbələr sinifli cəmiyyət yarandıqdan sonra meydana gəlmişdir. Tarixə dair sənədli mənbələrin üçüncü tipini yazılı abidələr təşkil edir. Tarixin tədrisində sənədli yazılı və maddi mənbələrdən istifadə edilməsinin böyük təhsil-tərbiyəvi əhəmiyyəti vardır. Bu sənədlər şagirdlərlə dövrün dili ilə danışaraq hadisəyə tənqidi münasibətin yaratmasını göstərir. Tarixi yazılı sənətləri şərti olaraq bir neçə qrupa bölünür. Azərbaycan yer üzünün ən qədim mədəniyyət mərkəzlərindən biridir. Onun tarixi ərazisinin sakinləri minilliklər ərzində zəngin mədəni irs qoyub getmişlər. Tarixi tədqiqatlarda yazılı qaynaqların böyük əhəmiyyəti var. Tarixi qaynaqlar – maddi və yazılı abidələr əsasında öyrənilir. Arxeoloji qazıntılar nəticəsində tarixi hadisələrə verilən elmi qiymətlərin və öyrənilən materialarla dair çıxarılan digər nəticələrin məktəblilər üçün inandırıcı etmək lazımdır. Uşaqlar üçün həqiqi kimi qəbul etdikləri va mexaniki surətdə əzbərlədikləri ümumi müddalar deyil, fəal təfəkkür və emosional hisslər nəticəsində gəlib çıxdıqları nəticələr daha inandırıcı olur.

Author(s):

Rasul Baghirov
Nakhchivan State University
Associate Professor
E-mail: bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

Key words: sources, cuneiform inscriptions, settlements, stone inscriptions, archaeological site, written sources

The role of archaeological excavations and written sources in historical research

Abstract. The main goal of writing the article is to substantiate the history of ancient times of Azerbaijan in detail on the basis of archaeological and written sources. Written sources appeared after the emergence of class society. The third type of historical documentary sources are written monuments. The use of documentary written and material sources in the teaching of history has great educational significance. These documents show the creation of a critical attitude to the event by speaking to the students in the language of the time. Historical written arts are conventionally divided into several groups. Azerbaijan is one of the oldest cultural centers on earth. The inhabitants of its historical territory have left a rich cultural heritage for millennia. Written sources are of great importance in historical research. Historical sources are studied on the basis of material and written monuments. As a result of archeological excavations it is necessary to make the scientific values given to historical events and other conclusions about the studied materials believable for schoolchildren. For children the conclusions that they get as a result of active thinking and emotional feelings are more convincing than general terms that they accept as true and mechanically memorize. In the end it was concluded that the article reflects the detailed study of archaeological excavations and written sources in the study of the history of Azerbaijan.

Автор(ы):

Расул Багиров
Нахчыванский государственный университет
доцент
Э-почта: bagirovresul11@gmail.com
https://orcid.org/0009-0001-0812-6682

Ключевые слова: источники, клинописные надписи, поселения, каменные надписи, археологический памятник, письменные источники

Роль археологических раскопок и письменных источников в исторических исследованиях

Аннотация. Основная цель написания статьи – детально обосновать историю древних времен Азербайджана на основе археологических и письменных источников. Письменные источники появились после возникновения классового общества. Третий тип исторических документальных источников - письменные памятники. Большое воспитательное значение имеет использование документальных письменных и материальных источников в преподавании истории. Эти документы свидетельствуют о формировании критического отношения к событию путем общения со студентами на языке того времени. Историческое письменное искусство условно делят на несколько групп. Письменные источники имеют большое значение в исторических исследованиях. Исторические источники изучаются на основе материальных и письменных памятников. В результате археологических раскопок необходимо сделать правдоподобными для школьников научное значение, придаваемое историческим событиям, и другие выводы об изученных материалах. Для детей выводы, к которым они приходят в результате активного мышления и эмоциональных переживаний, более убедительны, чем общие понятия, которые они принимают за истинные и механически запоминают. В итоге был сделан вывод, что статья отражает детальное изучение археологических раскопок и письменных источников в изучении истории Азербайджана. Азербайджан – один из старейших культурных центров на земле. Жители его исторической территории на протяжении тысячелетий оставили богатое культурное наследие.

Giriş. Azəbaycanın Naxçıvan ərazisində yerləşən II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövləti üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdi. V.H.Əliyevin apardığı araşdırmalar göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəllərində ətrafı divarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdir. Narın qalanın divarları 2-2,5 m qalınlığındadır. O, dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin, narın qalasının planı tamamilə müəyyənləşdirilmiş, onun ilkin şəhər üçün xarakterik olan strukturu aşkara çıxarılmışdır. Narın qalanın proporsional arxitekturası, binaların küçələr boyunca yerləşməsi yaşayış yerinin əvvəlcədən müəyyən edilmiş plan asasında tikildiyini deməyə imkan verir. Hakim təbəqənin və varlıların yaşadığı Narın qalanın yaşayış yerinin digər hissələrindən qalın divarla ayrılması cəmiyyətdə kəskin sosial ziddiyyətlərin olduğunu göstərir. Orta tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının formalaşdığını, şəhər dövlətlərinin yarandığını göstərir [8, s.369-372].

Azərbaycanda erkən tayfa ittifaqlarının yaranması, e.ə. III minillikdə Azərbaycanda müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi ilə müşahidə olunur. Sosial və mülki bərabərsizliyin yaranması zəminində tayfa ittifaqları getdikcə güclənir, maldarlığın və əkinçiliyin inkişafi nəticəsində tayfa başçıları əllərinə sərvət toplayır. Bütün bunların sosial-iqtisadi inkişaf zəminində intişarı heç şübhəsiz ki, qonşu tayfalarla münaqişələrin artmasına və basqınlara səbəb olmuş, elə həmin səbəbdən də müdafiə sədləri ilə möhkəmləndirilmiş şəhər qalalar tikilmişdi. Ərazidə müdafiə qalalarının çoxluğu yerli tayfaların əminəmanlıq siyasətini əks etdirir. Təbii ki, Azərbaycan ərazilərində uzun illər aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan dəyərli faktlar (tunc dövrü): maddi-mədəniyyət abidələri (yaşayış yerləri, ibadətgahlar, qalalar, möhtəşəm kurqanlar, dəfn adətləri və s.) mixi yazılı mənbələrdə olan məlumatlar (ərazidə gedən döyüşlər, əldə olunan qənimətlər), abidələrdə izlənilən sosial bərabərsizlik, güc strukturlarının mövcudluğu, əhalinin sıxlığı (qəbir abidələrində II minillikdə siniflı cəmiyyətin yaranması ilə bağlı izlənilən əşyavi mənbələr), sənətkarlığın, incəsənətin, fəlsəfi duyumların yüksək səviyyədə inkişafi (dulusçuluq, metalişləmə sahəsində), təsərrüfatın inkişafı (oturaq əkinçilik və maldarlıq), maddi-mədəniyyət nümunələri içərisində təsadüf olunan müxtəlif tip məişət və dini xarakterli əşyalar, tuğ bayraqlar, möhürlər, silahlar heç şübhəsiz ki, ərazidə möhkəm tayfa birliklərinin yaranmasından, yüksək mədəniyyət zəminində qurulan şəhər və dövlətlərin olmasından xəbər verir. Göründüyü kimi, Azərbaycanın qədim dövr dövlətçilik ənənələrinin tədqiqində əsas mənbələr arxeoloji və yazılı mənbələrdir. Arxeoloji mənbələr nəticəsində əldə olunan dəyərli faktlar, mixi yazılı mənbələrdə olan məlumatlar Azərbaycanın hərb və dövlətçilik tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan tarixi üzrə yazılı qaynaqlar arxeoloji materillardan fərqli olaraq Azərbaycanın yalnız sosial-iqtisadi, maddi-mənəvi mədəniyyət tarixi-haqqında zəngin materiallarla xarakterizə olunur. Yazılı mənbələr aşağıdakı hissələrdən ibarətdir:

Sələnamə tipli mənbələr, memuar xarakterli mənbələr, sənətli materiallar. Sələnamə tipli qaynaqları dil prinsiplərinə uyğun olaraq bir neçə qrupa bölmək olar: mixi yazı parçaları, Antik, tarixi-coğrafi ədəbiyyat, gürcü dilli qaynaqlar, yerli qaynaqlar. Orta əsr ərəb-fars və türk dilli qaynaqlar.

Materiallar və metodlar. Yazılı qaynaqların böyük bir qismi sələnamə xarakterli qaynaqlardan ibarətdir. Nəsrani qaynaqların xronoloji baxımdan birinci qismi hərbi sələnaməli mənbələrlə Şumer-Akkad, Aşşur, Urartu mixi yazı parçaları ilə təmsil olunmuşdur. Hərbi yürüşlər zamanı hökmdarların diktəsi ilə yazılan bu yazı parçalarında adətən hadisələr bir tərəfli təsvir olunmuşdur. Bununla belə mixi yazılarda Azərbaycan ərazisində erkən etnik birliklər, dövlətlər, onların qonşuları ilə sosial-iqtisadi və siyasi münasibətləri, maddi və mənəvi dünyalar haqqında maraqlı məlumatlar öz əksini tapmışdır.

Cənubi Azərbaycan və həmsərhəd ərazilərin tayfaları haqqında məlumat verən ən qədim qaynaqlar Şumer-Akkad mətnləridir. Şumer və qədim Akkad dillərində tərtib olunmuş bu kitabələr e.ə. II minilliyə və II minilliyin başlanğıcına aiddir. Bu mətnlərin meydana çıxması əsasən Şumer və Akkad çarlarının Zaqros dağları zona-

sına yürüşlərinə, habelə kuti hakimlərinin Cənubi Beynənnəhreyindəki bir əsirlik hökmranlığına borcludur. Ən ilkin yazılı qaynaqlar sırasında lulubi hökmdarlarının bir neçə qısa yerli kitabələrini də xatırlamaq lazımdır [1, s.8].

Mixi yazıların oxunması İran çarlarının yazılarının nəşrindən sonra mümkün olmuşdur. İlk İran kitabələri Əhəməni çarı III Daradan bizə gəlib çatmışdır, amma bu yazı midyalılar dövründə də labüddür. Akkad yazısının açılmasına İranda Kermanşah yaxınlığında Büsutun qayası üzərində aşkar olunmuş, üç dildə (qədim fars, elam və babil) yazılmış mətnlərdən sonra başlamışdır. Sonralar geniş kəşfiyyat və arxeoloji qazıntılar zamanı ayrı-ayrı ərazilərdə qayaüstü yazılar və bir sıra siyasi-iqtisadi xarakterli mətnlərlə yanaşı həm də ədəbi (dastan, bayatı, əfsanə), fəlsəfi, dini etiqad mətləvi (dua, fala baxma) aşkar edilmişdir.

Hal-hazırda qədim dillərdə - Şumer, Akkad (aşşur-babil), elam kitabələri, huri, ebla, Urartu və s. dillərdə yazılmış mətnlər maraq doğurur. Mətnlər dəfələrlə müasir dillərə tərcümə edilmiş və nəşr olunmuşdur.

Tədqiqatlar göstərir ki, Azərbaycanın qədim tarixi bütün şərq ölkələrinin tarixi ilə sıx şəkildə əlaqəlidir. Aşşur-Babil mənşəli yazılı mənbələr əsasən Urmiya gölü ətrafındakı əraziləri işıqlandırır [5, s.6].

Su və turukki tayfaları haqqında bəzi mənbələrdə kifayət qədər məlumat olsa da, şimal bölgələri haqqında mixi yazılı mənbələrdə çox az məlumat verilir. Şumer-Akkad, Aşşur və Urartu mixi yazılarından məlumdur ki, erkən Şumer dövlətləri qədim Azərbaycan (Urniya gölü hövzəsi) ərazisi ilə siyasi və iqtisadi əlaqələr yaratmışlar (e.ə. III-I minillikdə).

Bəzi Şumer dastanları, bu haqda məlumat saxlamışdır. Akkad hökmdarlarının sələnamələrində Azərbaycan ərazisində yaşayan tayfaların İkiçayarasına hücumlarını dəf etmələri haqqında məlumat yer almışdır. Həmin tayfalar ilə döyüşlər də Akkad hökmdarlarının sələnamələrində öz əksini tapmışdır. Aşşur hökmdarları Azərbaycanın qərb torpaqlarında, həmçinin, ərazinin daxilinə hərbi yürüşlər edir, ölkəni çapıb talayırdılar. Qədim Azərbaycan əraziləri barədə daha çox Aşşur mixi yazılı mənbələri məlumat verir [2, s.5-7].

"Avesta" mühüm mənbələrdən biridir. Zərdüştlük və onunla bağlı olan dini fəlsəfi sistemlər Cənubi Azərbaycan ərazisində min ildən xeyli artıq olan uzun bir dövr ərzində yayılmışdır.

E.ə. XIX əsrin sonu – XVIII əsrin birinci yarısında döyüşkən turukkilər mütəşəkkil hərbi-siyasi qüvvə kimi çıxış etmiş yarım əsr ərzində Aşşur hökmdarları ilə savaşlara girmiş, Aşşurun Şərqə hərbi təcavüzünün dayandıraraq tarixi Azərbaycan torpaqlarını işğal təhlükəsindən qurtarmışlar. Mari məktublarında türükki hökmdarı Lidayanın adı aşşurlara qarşı vuruşan türükki başçısı kimi xatırlanmışdır.

E.ə. XIV-XIII əsrlərə kimi kuti Lullubi, Su tayfaları ilə birlikdə trukkilər də assurların tez-tez baş verən yürüşlərinə qarşı birlikdə mübarizə aparırdılar. Bu tayfalar Azərbaycanın qədim tarixində mühüm rol oynamışlar. E.ə. I minilliyin başlanğıcında Azərbaycanda öz dövlətlərini yaradan mannalılar həmin tayfaların varisləri hesab olunur [3, s.15].

Azərbaycanın cənubunda, o cümlədən, Azərbaycan və Naxçıvanda türkdilli Kuti-Araz mədəniyyətinin daşıyıcıları türk dilli kuti, lullubi, su və turukki tayfalar olmuşlar. Bu tayfaların Urmiya hafizəsi və Mesopotomiyadakı fəaliyyəti ilə bağlı yazılı mənbələrin məlumatları e.ə. III minilliyin sonlarına aiddir. Tədqiqatlar e.ə. III-I minilliklərdən Cənubi Azərbaycan əhalisinin Kuti və Lullubilərdən ibarət olduğunu göstərmişdir. Bu tayfaların etnik baxımdan Elam və Zarqo-Elam dil qrupuna aid tayfalara yaxın olduğu, bu dövrdə Azərbaycanda Şumer dilinin yayıldığı qeyd edilmişdir. Naxçıvanın zəngin toponimikası da onların varlığından xəbər verir. Onlar arasında aparıcı rol kuti, lullubi, su və trukkilər oynamışdır.

Nəticə və müzakirə. Naxçıvan qədim sivilizasiya mərkəzlərindən aralı olduğu üçün bu ərazilərdəki siyasi qurumlar haqqında yazılı mənbələrdə məlumat qalmamışdı [8, s.368].

Solmaz Qaşqayın "Qədim Azərbaycan mixi yazılı" mənbələrdə, kitabında Azərbaycan sakinlərinin yaşadığı ərazilər haqqında məlumat verən dəyərli mənbələr mövcuddur. Həmin mənbələrdə M.M.Meşşaninovun gölün sağ və çöl sahillərində yerləşdiyi 23 çar ölkələr sırasına Solmaz Qaşqayın kitabına istinadən Göyçə gölünün Şərqində yerləşən daha bir neçə ölkə Alistu, Arkukiu Amuşa və İda (müasir Sisian ətrafında) Aza (müasir Armavır yaxınlığında Araz çayının sol sahilində Ayanianu, Culfa rayonu) İlandağ

ərazisində Arsikuka (Culfa rayon İlandağ ərazisində), Arsini (Culfa rayon İlandağ ərazisində müasir Ərəzin kəndinin adında saxlanılmasını demək olar) ölkələri də daxil etmək məqsədəuyğundur [4, s.69].

Antik yazıçılar Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Hellanik və b. əsərlərində də Azərbaycan üzrə müəyyən məlumatlar var. E.ə. VI-V əsrlərin yunan yazıçısı, ən qədim coğrafi xəritə əlavə olunmuş məşhur "Yerin təsviri" əsərinin müəllifi Miletli Hekatey Cənubi Azərbaycanda məskunlaşmış matienlər tayfasının Arazboyu mülklərin Kaspi dənizi sahilində yaşayan hansısa katannların adını çəkir [1, s.9].

Məşhur Roma tarixçisi 35 kitabı və itib-batmış cildlərin bir qədər fraqmentləri qorunub saxlanılmış "Roma" tarixi əsərlərinin müəllifi Tit Livi Roma müdaxiləsi dövrü albanlar haqqında məlumatlar verir. İçərisində "Annalar" ("Salnamələr") və "Tarixlər" kimi xüsusilə seçilən əsərin müəllifi məşhur romalı tarixçi Korneli Tasit qiymətli məlumat vermişdir. Onun əsərlərinin Romanın Qafqaz ölkələri, o cümlədən, Albaniya, habelə, Parfiya ilə münasibətlərdən bəhs edilən səhifələri müstəsna dərəcədə mühüm qaynaqdır.

M.Kalankaytuklunun "Alban tarixi" əsəri VII əsr Azərbaycan tarixi üzrə yerli original yazılı mənbədir. Mənbə dövrümüzə qrabar dilində gəlib çatmışdır. "Alban tarixi" əsərinin dövrümüzə qrobar dilində gəlib çatmasına baxmayaraq, onun orijinalının alban dilində yazılması ehtimal olunur. "Alban tarixi" əsərinin mənbəşünaslıq bazası olduqca geniş olmuş və əsər yerli yazılı və şifahi alban mənbələrindən başqa erməni, gürcü, yunan, roma, bizans və Suriyanı mənbələri əsasında tərtib edilmişdir. Qafqaz Albaniyası tarixi məktəbinin ikinci böyük siması XII-XIII əsr müəllifi Mxitar Qoş olmuşdur [7, s.111-112].

Türk dilli xalqlarda dövlətçilik ənənələrinin olduqca qədim tarixə malik olmalarına baxmayaraq, türk tarixi təfəkküründün formalaşmaq və ilk türk yazılı abidələrinin yaranması erkən orta əsrlərə təsadüf edir. Türk xalqlarının erkən orta əsrlər dövrü tarixinin bərpası üçün mənbə məşhur "Kitabi-Dədə Qorqud" dastanlar toplusudur. "Kitabi-Dədə Qorqud" dastanlar toplusu qədim türkdilli xalqların, xüsusilə də oğuzların dini-mifoloji baxışlarının, sosial-iqtisadi həyatının, təsnifat və mədəniyyətinin öyrənilməsi, VI-VIII əsr siyasi və tarixi hadisələrin bərpası baxımından olduqca qiymətli mənbədir.

Qafqaz tarixinin orta yüzilliklər dövrünün öyrənilməsində ərəb mənbələrinin əhəmiyyəti olduqca böyükdür. Ərəb tarixçisi Ubeyd ibn Şəriyy əl Gürhumi ərəb işğalı zamanı Qafqazın etnik mənzərəsi haqqında qiymətli məlumat olduğunu qeyd etmişdir. Əl-Kufi, Ət-Təbəri Əl-Bəlazuri öz əsərlərində Qafqazın ərəblər tərəfindən işğalı və yerli xalqların ərəb ağalığına qarşı mübarizəsi, xüsusən Xurəmilər hərəkatı və Babək haqqında idarəçilik üsulu vergilər, Azərbaycan və Dağıstana ərəb tayfalarının köçürülməsi məsələlərindən bəhs etmişlər [9].

Yekun nəticə. Fars dilli qaynaqlarda XI əsrdən etibarən Qafqaz ölkələri ilə bağlı qiymətli əsərlərə rast gəlmək mümkündür. Bunların içərisində Səlcuq dövlətinin yaranması və dövlət quruluşu və idarəçilik qaydaları haqqında Nizam-ül-mülkün "Siyasətnamə", monqol yürüşləri və Elxani dövləti, Qazan xanın islahatları haqqında Fəzlullah Rəşidəddinin "Cəmi-ət-təvarix", XIV əsrdə Qafqazda baş verən hadisələr haqqında Həmdullah Qəzvinin "Nüzhatül-qülub" Səfəvi dövlətinin XVI əsr dövrü haqqında Həsən bəy Rumlunun "Əhsən ət-Təvarix", İsgəndər bəy Münsinin "Tarixi aləm arayi Abbasi" əsərləri xüsusi yer tutur.

Qafqazın Orta yüzilliklər dövrünün öyrənilməsi üçün Avropa qaynaqları çox qiymətlidir. Bu mənbələr əsasən XIII əsrin ortalarından sonrakı dövr tarixini öyrənmək üçün dəyərli informasiyalarla zəngindir. Venesiyalı səyyahlar Morko Polo və Ambroco Kontarini, Kastilya elçisi Klavixo, ingilis tarixi Antoni Cenikson, Venesiya elçisi V.Alessandri, alman səyyahı Adam Oleari, hollandiyalı Van Streys və digər müəlliflər Qafqaz haqqında digər mənbələrdə rast gəlinməyən xeyli məlumatlar vermişlər (9).

XVI əsrin ortalarından etibarən Rusiyanın Volqaboyunu işğal edib, Xəzər dənizinə çıxması və Qafqaz hüdudlarına yaxınlaşması ilə əlaqədar rus dilində olan mənbələrdə Qafaqaz region ilə bağlı məlumatlar verilir. Xüsusən XVII-XVIII əsrlərdə rus səyyah və diplomatlarının hərbçilərin Qafqazda baş verən ictimai-siyasi proseslər, social-iqtisadi vəziyyət haqqında çeşidli məlumatlar böyük əhəmiyyətə malikdir. Sonda belə bir nəticəyə gəlinmişdir ki, məqalədə Azərbaycan

tarixinin öyrənilməsində arxealoji qazıntıların və yazılı mənbələrin ətraflı şəkildə öyrənilməsi öz əksini tapmışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild. – Bakı: Elm, – 1998. – 476 s.
2. Azərbaycan tarixi: ali məktəblər üçün dərslik. I cild. – Bakı: Çıraq, – 2011. – 719 s.
3. Azərbaycan tarixi: ali məktəblər üçün dərslik. – Bakı: Bakı Universiteti, – 2015. – 407 s.
4. Avşarova, İ.N. Azərbaycan ərazisinin arxeoloji və yazılı mənbələr əsasında tədqiqi tarixindən // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. – 2019. – s. 65-74.
5. Qaşqay, S. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. / S.Qaşqay. – Bakı: Təhsil, 2006. – 147 s. (AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu nəşri)
6. Qaşqay, S. Gədəbəy rayonunun tarixi abidələri haqqında // AMEA Tarix İnstitutu. – Bakı, 2009. – Cild 29. – s. 7–12.
7. Məmmədova, S. Mənbəşünaslığa giriş: dərs vəsaiti. / S.Məmmədova. – Bakı: Mütərcim, – 2008. – 220 s.
8. Naxçıvan abidələri ensiklopediyası. – Naxçıvan: AMEA Naxçıvan Bölməsi, –2008. – 519 s.
9. https://az.wikipedia.org/wiki

Məqalə tarix üzrə elmlər doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 11.02.2025, qəbulolunma – 05.03.2025

UOT: 327.7:338.242
https://doi.org/10.30546/670832.2025.01.1090

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.168-173
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.168-173
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.168-173

Geosiyasi böhran şəraitində Avropa İttifaqının enerji təhlükəsizliyi: çağırışlar və yeni yanaşmalar

Müəllif(lər):

Huseyn Abbasov
Azərbaycan Milli Elmlər Akademiyası
Dissertant
E-poçt: huseynabbasov109@gmail.com

Açar sözlər: Avropa İttifaqı, enerji təhlükəsizliyi, Ukrayna-Rusiya müharibəsi, enerji diversifikasiyası, bərpa olunan enerji

Annotasiya. Məqalədə Avropa İttifaqının (Aİ) enerji təminatı təhlükəsizliyini Ukrayna-Rusiya müharibəsi kontekstində təhlil edir. Enerji təhlükəsizliyi, müasir dövrdə dövlətlərin iqtisadi inkişafı və geosiyasi strategiyalarının əsas elementlərindən biri hesab edilir. Aİ uzun müddət ərzində Rusiyadan enerji asılılığını azaltmaq və enerji təchizatını diversifikasiya etmək məqsədilə müxtəlif strategiyalar qəbul etmişdir. Lakin 24 fevral 2022-ci ildə başlayan müharibə bu siyasətləri daha da sürətləndirmiş, yeni enerji mənbələri və tədarük marşrutlarının axtarışını aktuallaşdırmışdır. Məqalə çərçivəsində enerji təhlükəsizliyi anlayışı konseptual və tarixi baxımdan araşdırılmış, Aİ-nin enerji siyasətində baş verən dəyişikliklər və bu siyasətin qarşısında duran əsas risklər qiymətləndirilmişdir. Xüsusilə, geosiyasi qeyri-müəyyənliklər, iqtisadi məhdudiyyətlər və iqlim dəyişikliyi ilə bağlı çağırışlar Aİ-nin enerji strategiyalarına təsir edən əsas amillər kimi göstərilmişdir. Bununla yanaşı, bərpa olunan enerji mənbələrinə keçid, enerji şaxələndirilməsi və enerji qənaəti siyasətləri Aİ üçün uzunmüddətli həll yolları kimi nəzərdən keçirilmişdir. Araşdırmanın nəticələri göstərir ki, Aİ-nin enerji təhlükəsizliyini tam təmin etmək üçün bərpa olunan enerji sektoruna daha çox investisiya qoyması, alternativ tədarük marşrutları yaratması və enerji siyasətini vahid şəkildə koordinasiya etməsi zəruridir. Məqalə, həmçinin Aİ-nin enerji siyasətində gələcək perspektivlərə dair tövsiyələr irəli sürür və enerji təhlükəsizliyinin davamlı inkişaf üçün əhəmiyyətini vurğulayır.

EU energy security in the context of geopolitical crises: challenges and new approaches

Author(s):

Huseyn Abbasov
Azerbaijan National Academy of Sciences
Doctoral Candidate
E-mail: huseynabbasov109@gmail.com

Key words: European Union, energy security, Ukraine-Russia war, energy diversification, renewable energy

Abstract. The article analyzes the energy supply security of the European Union (EU) in the context of the Ukraine-Russia war. Energy security is considered one of the key elements of states' economic development and geopolitical strategies in the modern era. For a long time, the EU has adopted various strategies to reduce dependence on Russian energy and to diversify energy supplies. However, the war that began on February 24, 2022, accelerated these policies and intensified the search for new energy sources and supply routes. Within the scope of the article, the concept of energy security is examined both conceptually and historically. The changes in EU energy policy and the main risks faced by this policy are evaluated. In particular, geopolitical uncertainties, economic constraints, and challenges related to climate change are identified as the main factors affecting EU energy strategies. Furthermore, the transition to renewable energy sources, energy diversification, and energy efficiency policies are considered as long-term solutions for the EU. The findings suggest that, to fully ensure its energy security, the EU needs to invest more in the renewable energy sector, establish alternative supply routes, and coordinate energy policies in a unified manner. The article also provides recommendations for the future direction of EU energy policy and emphasizes the importance of energy security for sustainable development.

Энергетическая безопасность ЕС в условиях геополитического кризиса: вызовы и новые подходы

Автор(ы):

Гусейн Аббасов
Национальная Академия Наук Азербайджана
Диссертант
Э-почта: huseynabbasov109@gmail.com

Ключевые слова: Европейский Союз, энергетическая безопасность, война между Украиной и Россией, диверсификация энергетики, возобновляемые источники энергии.

Аннотация. В статье анализируется энергетическая безопасность Европейского Союза (ЕС) в контексте украинско-российской войны. Энергетическая безопасность считается одним из ключевых элементов экономического развития и геополитической стратегии государств в современную эпоху. ЕС уже давно принимает различные стратегии по снижению энергетической зависимости от России и диверсификации поставок энергоносителей. Однако война, начавшаяся 24 февраля 2022 года, ускорила реализацию этой политики и сделала поиск новых источников энергии и маршрутов поставок неотложным. В статье рассматривается концепция энергетической безопасности с концептуальной и исторической точки зрения, а также оцениваются изменения в энергетической политике ЕС и основные риски, с которыми сталкивается эта политика. В частности, геополитическая неопределенность, экономические ограничения и проблемы изменения климата были названы ключевыми факторами, влияющими на энергетические стратегии ЕС. Между тем, переход на возобновляемые источники энергии, диверсификация энергетики и политика энергоэффективности рассматриваются в качестве долгосрочных решений для ЕС. Результаты исследования показывают, что ЕС необходимо больше инвестировать в сектор возобновляемой энергетики, создавать альтернативные маршруты поставок и координировать энергетическую политику единым образом для полного обеспечения энергетической безопасности. В статье также излагаются рекомендации относительно будущих перспектив энергетической политики ЕС и подчеркивается важность энергетической безопасности для устойчивого развития.

Giriş. Enerji təminatı təhlükəsizliyi, qlobal iqtisadiyyatın və siyasi sabitliyin fundamental elementlərindən biri olmaqla yanaşı, milli təhlükəsizlik strategiyalarının əsas istiqamətlərindən biri kimi qəbul edilir [1, s.5]. Xüsusilə, müasir dövrdə enerji resurslarının tədarükü və bölgələrarası paylanması, dövlətlərin iqtisadi inkişafı və strateji məqsədləri üçün mühüm əhəmiyyət kəsb edir [4, s.12]. Enerji mənbələrinin davamlı təminatı və qiymət sabitliyi, ölkələrin iqtisadi fəaliyyətini və sosial rifahını qorumaq üçün vacib amillərdən biri hesab olunur. Bu səbəbdən, enerji təhlükəsizliyi yalnız tədarük mənbələrinin mövcudluğu ilə məhdudlaşmır, həm də onların siyasi və iqtisadi risklərdən qorunmasını tələb edir [7, s.23].

"Avropa İttifaqı (Aİ) uzun illər ərzində enerji təhlükəsizliyini təmin etmək məqsədilə müxtəlif mexanizmlər və əməkdaşlıq strategiyaları formalaşdırmışdır. Lakin bu strategiyalar əsasən Rusiyadan idxal olunan təbii qaz və neftə əsaslandığından, İttifaqın enerji siyasətində ciddi asılılıq yaranmışdır" [8, s.35]. 24 fevral 2022-ci ildə başlayan Ukrayna-Rusiya müharibəsi, bu asılılığın risklərini daha da artırmış və Aİ-nin enerji strategiyalarını yenidən nəzərdən keçirməsinə səbəb olmuşdur. Müharibənin başlanması ilə Rusiya qazının Aİ-yə tədarükü əhəmiyyətli dərəcədə azalmış, bu da enerji bazarında qeyri-müəyyənlik və qiymət artımına gətirib çıxarmışdır [6, s.41]. Bundan əlavə, tətbiq edilən sanksiyalar, enerji tədarükünün diversifikasiyasını sürətləndirmiş və Avropa ölkələrinin alternativ enerji mənbələri axtarışını zəruri etmişdir [7, s.67].

Bu kontekstdə Aİ-nin enerji siyasətində əsas prioritetlərdən biri, təbii qazın və neftin alternativ mənbələrdən təmin edilməsi və bərpa olunan enerji texnologiyalarına investisiyaların artırılması olmuşdur. Xüsusilə, Norveç, Əlcəzair və ABŞ-dan mayeləşdirilmiş təbii qaz (LNG) idxalının genişləndirilməsi, yeni enerji boru kəmərlərinin inkişafı və daxili enerji səmərəliliyi siyasətlərinin gücləndirilməsi əsas tədbirlər kimi qəbul edilmişdir [2, s.14]. Bununla yanaşı, Aİ ölkələri daxili enerji bazarının birləşdirilməsi və enerji şəbəkələrinin modernizasiyası üçün intensiv addımlar atmağa başlamışdır [5, s.32].

Məqalədə, Aİ-nin enerji təhlükəsizliyini təmin etmək məqsədilə qəbul etdiyi strategiyaları, bu sahədə mövcud olan riskləri və Ukrayna-Rusiya müharibəsinin enerji bazarına təsirlərini akademik kontekstdə araşdırır. Araşdırma çərçivəsində Aİ-nin enerji siyasətinin tarixi inkişafı, mövcud çağırışlar və gələcək perspektivlər təhlil ediləcəkdir. Məqalənin əsas məqsədi, Aİ-nin enerji siyasətində baş verən dəyişiklikləri dəyərləndirmək və enerji təhlükəsizliyi baxımından mümkün həll yollarını təqdim etməkdir.

Metodologiya

Bu tədqiqatda Avropa İttifaqının enerji təminatı təhlükəsizliyinə Ukrayna-Rusiya müharibəsinin təsiri analitik və sənəd təhlili metodları çərçivəsində araşdırılmışdır. Mövzu üzrə əsaslı nəticələr əldə etmək məqsədilə həm normativ yanaşmalar, həm də aktual siyasi-strateji proseslər birgə təhlil edilmişdir.

Tədqiqatda ilk olaraq analitik-təhlil metodu tətbiq edilmiş, enerji təhlükəsizliyi anlayışının tarixi inkişafı, Avropa İttifaqının enerji strategiyalarının təkamülü və müharibə ilə bağlı yaranmış təhdidlərin mahiyyəti elmi baxımdan şərh olunmuşdur. Müxtəlif dövrlərə (2006, 2009, 2022) və aktorlara (Rusiya, ABŞ, Norveç, Əlcəzair və s.) aid hadisələr arasında komparativ yanaşma qurulmuş, geosiyasi və iqtisadi fərqliliklər nəzərə alınaraq müqayisəli nəticələr çıxarılmışdır.

Bununla yanaşı, sənəd təhlili (document analysis) metodu vasitəsilə Avropa Komissiyasının rəsmi sənədləri, Avropa Yaşıl Razılaşması (Green Deal), Beynəlxalq Enerji Agentliyi (IEA), BP Statistical Review və digər açıq mənbələrdə təqdim olunan məlumatlar sistemli şəkildə təhlil olunmuşdur. Bu sənədlər vasitəsilə Avropa İttifaqının enerji siyasətində baş verən konseptual dəyişikliklər və regionun enerji xəritəsindəki transformasiyalar empirik əsaslarla müəyyənləşdirilmişdir.

Eyni zamanda, deskriptiv (təsviri) metod vasitəsilə enerji təchizatında müşahidə olunan dəyişikliklər, yeni infrastruktur layihələri (məsələn, LNG terminalları və interkonnektor xətləri) və enerji mənbələrinin şaxələndirilməsi istiqamətində atılan addımlar təsviri şəkildə təqdim edilmişdir. Beləliklə, tədqiqat, həm nəzəri konsepsiyalar, həm də praktiki dəyişiklikləri sintez edərək çoxsəviyyəli bir yanaşma ortaya qoymağı hədəfləmişdir.

Enerji Təminatı Təhlükəsizliyinin Kon-

septual və Tarixi Konteksti

Enerji təminatı təhlükəsizliyi, enerji resurslarının fasiləsiz, münasib qiymətlərlə və uzunmüddətli dayanıqlıqla təmin edilməsini nəzərdə tutur [3, s.89]. XX əsrin ikinci yarısından etibarən enerji resurslarının tədarükü beynəlxalq siyasətin əsas komponentlərindən birinə çevrilmişdir (6, s. 3). Bu anlayış təkcə enerji tədarükünün davamlı olması ilə məhdudlaşmır, həm də enerji mənbələrinin coğrafi şaxələndirilməsi, bazar sabitliyinin qorunması və enerji infrastrukturunun dayanıqlılığı kimi amillərlə sıx bağlıdır [7, s.45].

Enerji təhlükəsizliyi XX əsrin ortalarından etibarən qlobal siyasi və iqtisadi strategiyaların mərkəzində dayanmışdır. 1973-cü ildə baş verən neft böhranı bir çox ölkə üçün enerji təminatının milli təhlükəsizlik məsələsi kimi qəbul edilməsinə səbəb olmuşdur [9, s.51]. OPEC ölkələrinin neft tədarükünü məhdudlaşdırması, enerji idxalına yüksək dərəcədə bağlı olan Avropa və ABŞ iqtisadiyyatlarında ciddi böhran yaratmışdır. Bu hadisədən sonra, inkişaf etmiş ölkələr enerji mənbələrini diversifikasiya etmək və daxili enerji istehsalını artırmaq üçün yeni siyasətlər qəbul etməyə başlamışdır [4, s.67].

Aİ enerji təhlükəsizliyi siyasətinə nəzər yetirdikdə, İttifaqın əsas məqsədlərindən birinin enerji tədarükünün diversifikasiyası olduğu müşahidə edilir. Xüsusilə, XX əsrin sonlarından etibarən Aİ Rusiyadan enerji asılılığını azaltmaq üçün müxtəlif alternativ enerji strategiyalarını inkişaf etdirmişdir [7, s.34]. Bununla belə, son onilliklər ərzində geosiyasi gərginliklər və bazar qeyri-müəyyənlikləri Aİ-nin enerji strategiyasının davamlı olaraq yenilənməsinə ehtiyac yaratmışdır [8, s.92].

Enerji təhlükəsizliyi konsepti həmçinin ekoloji dayanıqlılıq və iqlim dəyişikliyi ilə də əlaqəlidir. Aİ-nin "Yaşıl Razılaşma" çərçivəsində həyata keçirdiyi siyasətlər, karbon emissiyalarını azaltmaq və bərpa olunan enerji mənbələrinə keçidi sürətləndirmək məqsədi daşıyır (5, s.78). Lakin bu keçid strategiyası, qısa və orta müddətdə yeni çağırışlar yaradır. Məsələn, bərpa olunan enerji mənbələrinin yetərli səviyyədə inkişaf etməməsi, qaz və neft kimi ənənəvi enerji mənbələrinin hələ də vacib rol oynamasına səbəb olur [7, s.56].

Enerji təhlükəsizliyi anlayışının inkişafında Aİ üçün mühüm mərhələlərdən biri də 2006 və 2009-cu illərdə baş verən Rusiya-Ukrayna qaz böhranları olmuşdur. Həmin illərdə Rusiya qazın nəqlini məhdudlaşdırmış, nəticədə bir çox Aİ ölkəsi enerji qıtlığı ilə üzləşmişdir (6, s.81). Bu böhranlar göstərmişdir ki, enerji təhlükəsizliyinin təmin olunması yalnız alternativ mənbələrin inkişafı ilə deyil, həmçinin infrastruktur modernizasiyası və hüquqi tənzimləmə çərçivələrinin gücləndirilməsi ilə də bağlıdır [2, s.102].

Gələcək perspektivlər baxımından, Aİ-nin enerji təhlükəsizliyi strategiyası əsasən üç istiqamətdə inkişaf edir:

1. Tədarük mənbələrinin diversifikasiyası – Rusiya qazına alternativ olaraq Norveç, ABŞ, Əlcəzair və Qətər kimi ölkələrlə enerji müqavilələrinin genişləndirilməsi [8, s.113].

2. Bərpa olunan enerji mənbələrinin təşviqi – Günəş və külək enerjisinə investisiyaların artırılması və texnoloji innovasiyaların dəstəklənməsi [4, s.92].

3. Enerji səmərəliliyi və qənaət siyasətləri – Sənaye və məişət sektorlarında enerji istehlakının optimallaşdırılması və yeni texnologiyaların tətbiqi [7, s.67].

Beləliklə, Aİ enerji təhlükəsizliyini təmin etmək üçün həm geosiyasi, həm iqtisadi, həm də ekoloji amilləri nəzərə alan çoxistiqamətli bir yanaşma formalaşdırmağa çalışır. Bu yanaşma, İttifaqın uzunmüddətli enerji siyasətinin əsasını təşkil edir və gələcək illərdə daha da inkişaf etdiriləcəkdir.

Rusiyanın Aİ-yə Enerji Təchizatı: Dəyişikliklər və Risklər Kontekstində Təhlil

Rusiya uzun illər ərzində Avropa İttifaqı (Aİ) üçün əsas enerji tədarükçüsü olmuşdur. 2021-ci ildə ittifaqın ümumi qaz idxalının təxminən 40%-i məhz Rusiyadan təmin olunmuşdur [7, s. 67]. Lakin 24 fevral 2022-ci ildə başlayan Ukrayna-Rusiya müharibəsi, Aİ-nin enerji təhlükəsizliyi baxımından kritik məqamlarla üzləşməsinə səbəb olmuşdur. Bu vəziyyət Aİ üçün yeni enerji siyasətlərinin tətbiqini və enerji şaxələndirmə səylərinin sürətləndirilməsini labüd etmişdir [8, s.89].

Müharibənin başlanması ilə Aİ, Rusiyaya qarşı iqtisadi sanksiyalar tətbiq etmiş və nəticədə Rusiya qazının tədarükü əhəmiyyətli dərəcədə azalmışdır. 2022-ci ilin sonlarına doğru Rusiya

Avropaya qaz nəqlini əvvəlki illə müqayisədə 55% azaltmış, bu da Avropada enerji böhranına səbəb olmuşdur [6, s.74]. Xüsusilə Şimal Axını 1 qaz kəmərinin fəaliyyətinin dayandırılması və Yamal-Avropa boru kəmərinin tutumunun azaldılması, Aİ-nin enerji təhlükəsizliyini daha da zəiflətmişdir [2, s.33].

Rusiya enerji bazarında dominant mövqeyə sahib olduğundan, bu azalma qlobal qaz qiymətlərinin kəskin yüksəlməsinə və Aİ daxilində inflyasiya səviyyəsinin artmasına səbəb olmuşdur. Eyni zamanda, Rusiyanın enerji siyasəti artıq yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi alət kimi də istifadə olunmuşdur [9, s.112].

Aİ üzv ölkələri, Rusiyadan olan enerji asılılığını azaltmaq üçün müxtəlif strategiyalar formalaşdırmışdır. Bu strategiyalar əsasən aşağıdakı istiqamətlər üzrə həyata keçirilmişdir:

1. Yeni Tədarük Marşrutları və Tərəfdaşlar – Norveç, Əlcəzair, ABŞ və Qətər kimi alternativ enerji tədarükçüləri ilə müqavilələr imzalanmışdır (7, s.102). Xüsusilə ABŞ-dan mayeləşdirilmiş təbii qaz (LNG) idxalı əvvəlki illərə nisbətən 2022-ci ildə iki dəfədən çox artmışdır (4, s.48).

2. LNG İnfrastrukturlarının Genişləndirilməsi – Aİ mayeləşdirilmiş təbii qaz idxalını artırmaq üçün Almaniya, İspaniya və Hollandiya kimi ölkələrdə yeni LNG terminallarının tikintisini sürətləndirmişdir (2, s.67).

3. Bərpa Olunan Enerji Mənbələrinə İnvestisiyalar – Günəş və külək enerjisi kimi alternativ enerji mənbələrinə qoyulan investisiyalar artırılmışdır (5, s.55).

4. Enerji Səmərəliliyi və Qənaət Strategiyaları – Aİ daxilində enerji istifadəsinin optimallaşdırılması və sənaye sahələrində enerji israfının azaldılması məqsədilə yeni qanunvericilik təşəbbüsləri irəli sürülmüşdür (8, s.91).

Aİ-nin Enerji Təhlükəsizliyinə Təsir Edən Risklər

Aİ-nin enerji təhlükəsizliyinə təsir edən əsas risklər aşağıdakı aspektlərdə cəmlənir:

• **Geosiyasi Risklər** – Ukrayna-Rusiya münaqişəsi səbəbindən Rusiya ilə enerji tədarükü əlaqələrinin qeyri-müəyyənliyə çevrilməsi Aİ üçün uzunmüddətli strateji problem yaratmışdır (8, s. 103).

• **İqtisadi Çətinliklər** – Alternativ enerji mənbələrinin inkişaf etdirilməsi böyük maliyyə yatırımları tələb edir. Qısa müddət ərzində bu keçidin tam həyata keçirilməsi çətinliklər yaradır (7, s.84).

• **İqlim Dəyişiklikləri və Ekoloji Faktorlar** – Aİ-nin bərpa olunan enerji mənbələrinə keçid strategiyası uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini artıracaq, lakin bu proses müəyyən ekoloji və iqtisadi çağırışlarla müşayiət olunur (5, s.77).

Rusiya-Aİ enerji münasibətlərində yaşanan dəyişikliklər Avropa İttifaqının enerji strategiyasına fundamental təsir göstərmişdir. Aİ Rusiyadan enerji asılılığını minimuma endirmək üçün müxtəlif alternativ enerji təchizatı mənbələri və diversifikasiya layihələri üzərində iş aparır. Bununla belə, bu keçidin tam həyata keçirilməsi üçün uzunmüddətli strategiyalara və böyük maliyyə yatırımlarına ehtiyac vardır.

Gələcək illərdə Aİ enerji siyasətində əsas diqqət bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsinə, enerji səmərəliliyinin artırılmasına və yeni tədarük marşrutlarının qurulmasına yönələcəkdir. Bu istiqamətdə atılan addımlar Aİ-nin enerji təhlükəsizliyini daha dayanıqlı etmək və iqtisadi sabitliyi qorumaq baxımından mühüm rol oynayacaqdır.

Müzakirə

Ukrayna-Rusiya müharibəsi, Avropa İttifaqının (Aİ) enerji təminatı təhlükəsizliyi sahəsində mövcud strateji yanaşmalarını əsaslı şəkildə dəyişməyə məcbur etmişdir. Müharibə nəticəsində Rusiyaya qarşı tətbiq edilən sanksiyalar və enerji nəqlindəki kəsintilər, Aİ-nin uzun illər boyu davam edən enerji asılılığını strateji zəiflik kimi üzə çıxarmışdır. Bu şəraitdə, enerji təhlükəsizliyi anlayışı təkcə resursların mövcudluğu və qiymət sabitliyi ilə deyil, həm də geosiyasi risklərin və diplomatik gərginliklərin idarə olunması ilə sıx əlaqələndirilmişdir.

Tədqiqat göstərir ki, Aİ-nin enerji siyasətində əsas diqqət artıq mənbə şaxələndirməsinə, infrastrukturun dayanıqlılığına və bərpa olunan enerji texnologiyalarının inkişafına yönəlmişdir. Bu yanaşma, yalnız enerji bazarında deyil, həm də beynəlxalq münasibətlərdə Avropanın strateji mövqeyini yenidən qurmaq niyyətini əks etdirir. Norveç, ABŞ və Əlcəzair kimi alternativ tədarükçülərlə əməkdaşlığın genişləndirilməsi və LNG

(mayeləşdirilmiş təbii qaz) terminallarının tikintisi, qısa müddətli çevik reaksiyaların mühüm nümunəsidir.

Digər tərəfdən, müharibənin yaratdığı enerji təzyiqləri, Aİ daxilində sosial-iqtisadi təsirləri də özündə əks etdirmişdir. İstehlak qiymətlərində artım, sənaye fəaliyyətində yavaşlama və enerji ehtiyatlarının tənzimlənməsi kimi nəticələr, enerji siyasətinin təkcə texniki deyil, sosial və siyasi ölçülərinin də nəzərə alınmasını zəruri etmişdir. Bu baxımdan, Aİ-nin gələcək enerji təhlükəsizliyi strategiyalarının, həm daxili dayanıqlığı artırmağa, həm də xarici təsirlər qarşısında müqaviməti gücləndirməyə yönəlməsi gözlənilir.

Nəhayət, Aİ-nin enerji siyasəti ilə bağlı bu yeni yanaşma, geosiyasi transformasiyaların sadəcə enerji bazarlarına deyil, ümumilikdə beynəlxalq təhlükəsizlik arxitekturasına necə təsir etdiyini də ortaya qoyur. Ukrayna-Rusiya müharibəsi kontekstində formalaşan bu vəziyyət, enerji siyasətinin artıq diplomatik, iqtisadi və hərbi strategiyaların bir hissəsi olduğunu açıq şəkildə nümayiş etdirmişdir.

Nəticə

Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyi siyasəti son onilliklər ərzində dinamik dəyişikliklərə məruz qalmış və xüsusilə Ukrayna-Rusiya müharibəsi kontekstində ciddi şəkildə yenidən formalaşdırılmışdır. Ənənəvi olaraq Rusiya qazına və neftinə yüksək asılılığı olan Aİ, bu müharibədən sonra enerji mənbələrinin diversifikasiyası, bərpa olunan enerji texnologiyalarına keçid və enerji infrastrukturunun modernizasiyası kimi yeni strategiyalar üzərində cəmləşmişdir. Müharibə nəticəsində ortaya çıxan enerji böhranı, ittifaq ölkələrini enerji təhlükəsizliyi baxımından daha dayanıqlı və uzunmüddətli həllər tapmağa məcbur etmişdir.

Aİ üçün əsas çağırışlardan biri, ənənəvi enerji mənbələrinin əvəzinə yeni tədarük marşrutları və alternativ enerji mənbələrinin inkişaf etdirilməsidir. Xüsusilə ABŞ, Norveç, Əlcəzair və Qətər kimi ölkələrdən mayeləşdirilmiş təbii qaz (LNG) idxalının artırılması, Aİ-nin enerji strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bununla yanaşı, enerji infrastrukturunun yenilənməsi və yeni LNG terminallarının tikilməsi, Aİ ölkələrinin enerji müstəqilliyini artırmaq istiqamətində atdığı əsas addımlardan biridir.

Bununla belə, enerji siyasətindəki bu dəyişikliklər bir sıra iqtisadi və texnoloji çağırışları da özü ilə gətirmişdir. Bir tərəfdən, enerji resurslarının diversifikasiyası və yeni enerji tədarükü layihələrinin həyata keçirilməsi böyük maliyyə yatırımları tələb edir. Qısa müddət ərzində Rusiya qazına alternativ tapmaq çətin olduğu üçün Aİ ölkələri enerji qiymətlərində qeyri-sabitlik və inflyasiya kimi problemlərlə qarşılaşmışdır. Digər tərəfdən, bərpa olunan enerji mənbələrinə keçid siyasəti uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini gücləndirsə də, texnoloji infrastrukturun yetərsizliyi və müvafiq maliyyə dəstəyinin məhdud olması bu keçidin tam reallaşdırılmasını ləngidə bilər.

Müharibə fonunda qəbul edilən enerji siyasətləri göstərmişdir ki, Aİ-nin enerji təhlükəsizliyini təmin etmək üçün çoxistiqamətli və balanslı bir yanaşmaya ehtiyacı vardır. Bu çərçivədə üç əsas strategiya ön plana çıxır:

1. Enerji şaxələndirilməsi və yeni tədarük mənbələri – Aİ, Rusiyadan olan enerji asılılığını minimuma endirmək üçün alternativ enerji tədarükçüləri ilə uzunmüddətli müqavilələr bağlamalıdır. Xüsusilə Cənub Qaz Dəhlizi və Şərqi Aralıq dənizi qaz layihələri enerji təhlükəsizliyi baxımından mühüm rol oynaya bilər.

2. Bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi – Günəş, külək və hidrogen enerjisi kimi alternativ enerji mənbələrinə investisiyalar artırılmalı, həmçinin bu sahədə texnoloji innovasiyalar və araşdırmalar dəstəklənməlidir. Avropa Yaşıl Razılaşması çərçivəsində qəbul edilən tədbirlər, Aİ-nin enerji təhlükəsizliyini uzunmüddətli perspektivdə daha dayanıqlı edəcəkdir.

3. Enerji səmərəliliyi və qənaət tədbirləri – Aİ daxilində enerji istifadəsinin optimallaşdırılması, sənaye sahələrində enerjiyə qənaət mexanizmlərinin tətbiq edilməsi və enerji israfının qarşısının alınması uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini artıracaqdır.

Bütün bu tədbirlərin uğurla həyata keçirilməsi Aİ-nin enerji təhlükəsizliyini gücləndirəcək və geosiyasi risklərə qarşı daha dayanıqlı enerji bazarı formalaşdırmasına imkan yaradacaqdır. Ancaq bu prosesdə həm maliyyə, həm də texnoloji çağırışların mövcud olduğunu nəzərə almaq vacibdir.

Son olaraq qeyd etmək lazımdır ki, Aİ-nin enerji təhlükəsizliyi siyasəti yalnız iqtisadi və texnoloji tədbirlərlə məhdudlaşmır. Geosiyasi risklərin azaldılması və beynəlxalq əməkdaşlığın gücləndirilməsi də enerji təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayır. Gələcəkdə Aİ-nin enerji siyasətində daha çox regional və qlobal əməkdaşlıq strategiyalarına üstünlük verməsi, yeni enerji tədarük marşrutlarının yaradılması və yaşıl enerji texnologiyalarının inkişaf etdirilməsi gözlənilir. Bu istiqamətdə aparılacaq tədqiqatlar və həyata keçiriləcək layihələr, Aİ-nin enerji təhlükəsizliyi məsələsində daha da müstəqil və davamlı bir sistem qurmasına töhfə verəcəkdir.

Ədəbiyyat

1. Abbasov, H. − 2023. Avrupa Birliği'nin enerji arz güvenliğine Ukrayna-Rusya savaşı çerçevesinde yeni bir bakış [Yüksek lisans tezi, Ankara Üniversitesi].
2. BP Statistical Review. − 2022. Statistical review of world energy. BP.\
3. herp, A., & Jewell, J. − 2014. The concept of energy security: Beyond the four As. Energy Policy, 75, 415¬421. https://doi.org/10.1016/j.enpol.2014.09.005
4. European Commission. − 2022. European Green Deal and energy transition policies. European Union Publications.
5. European Green Deal. − 2022. The European Green Deal: Energy transition and climate change policies. European Union.
6. Eurostat. − 2022. EU energy consumption and production data. https://ec.europa.eu/eurostat/statistics
7. International Energy Agency (IEA). − 2022. Energy security in the European Union. IEA Publications.
8. Tagliapietra, S. − 2022. The EU's energy policy in times of crisis. Bruegel Policy Papers.
9. Yergin, D. − 2020. The new map: Energy, climate, and the clash of nations. Penguin Random House.

Məqalə tarix üzrə elmlər doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 12.03.2025

UOT: 327.56:327.53
https://doi.org/10.30546/670832.2025.01.005

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.174-178
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.174-178
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.174-178

Türkiyənin Cənubi Qafqazdakı etnik münaqişələrə yanaşması: Cənubi Osetiya nümunəsində

Müəllif(lər):

Hüseyn Hüseynli
Bakı Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
E-poçt: huseyn.huseynli@bsu.edu.az
https://orcid.org/0000-0001-7954-0381

Açar sözlər: Türkiyə, Gürcüstan, Cənubi Osetiya, Rusiya, Cənubi Qafqaz

Annotasiya. Gürcüstanın etnik qütbləşməsi və Cənubi Osetiyanın separatçı meylləri SSRİ-nin süqutundan sonra regionda gərginlik yaratdı. 2008-ci il Rusiya-Gürcüstan müharibəsi bölgəyə ciddi təsir etdi, bu da Türkiyənin Cənubi Qafqazdakı sabitliyi qorumaq üçün balanslı siyasət yürütməsinə səbəb oldu. Ankara Gürcüstanın ərazi bütövlüyünü dəstəkləsə də, Rusiya ilə strateji əlaqələrini nəzərə alaraq münaqişəyə birbaşa müdaxilə etmədi. Türkiyənin vasitəçilik və diplomatik həll təşəbbüsləri, eyni zamanda enerji təhlükəsizliyi maraqları bu siyasətə təsir göstərdi. Bununla yanaşı, Ankara bölgədə hərbi eskalasiyadan qaçınaraq beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərməyə üstünlük verdi. Türkiyənin bu münaqişəyə ehtiyatlı yanaşması onun həm Qərblə, həm də Rusiya ilə balans siyasətini qorumaq cəhdlərini əks etdirirdi. Bu kontekstdə, Türkiyənin Cənubi Qafqazdakı xarici siyasətini və regional güc balansındakı mövqeyini öyrənmək aktuallıq kəsb edir. Məqalənin məqsədi Türkiyənin Cənubi Osetiya münaqişəsinə münasibəti və onun regional siyasəti araşdırmaqdır. Metodlar: araşdırma zamanı müqaisəli təhlil metodundan istifadə edilmişdir. Praktik və nəzəri əhəmiyyəti: material ali təhsil müəssisələrində mühazirə və seminar dərslərində istifadə oluna bilər, tarix və siyasətlə maraqlananlar yararlana bilərlər. Nəticə: Türkiyə beynəlxlaq hüquq normalarına hörmət sərgiləyir, Cənubi Osetiya ilə heç bir siyasi, iqtisadi və ya mədəni əlaqə qurmamışdır. İkinci Qarabağ müharibəsinin başlanması Cənubi Osetiyada narahat doğurmuşdur.

Author(s):

Huseyn Huseynli
Baku State University
Doctor of Philosophy in History, Associate Professor
E-mail: huseyn.huseynli@bsu.edu.az
https://orcid.org/0000-0001-7954-0381

Key words: Turkey, Georgia, South Ossetia, Russia, South Caucasus

Turkey's Approach to Ethnic Conflicts in the South Caucasus: The Case of South Ossetia

Abstract. The ethnic polarization of Georgia and the separatist tendencies of South Ossetia created tension in the region after the collapse of the USSR. The 2008 Russo-Georgian war seriously affected the region, which led Turkey to pursue a balanced policy to maintain stability in the South Caucasus. Although Ankara supported the territorial integrity of Georgia, it did not directly intervene in the conflict, taking into account its strategic relations with Russia. Turkey's mediation and diplomatic settlement initiatives, as well as energy security interests, influenced this policy. At the same time, Ankara preferred to operate within the framework of international organizations, avoiding military escalation in the region. Turkey's cautious approach to this conflict reflected its attempts to maintain a policy of balance with both the West and Russia. In this context, it is relevant to study Turkey's foreign policy in the South Caucasus and its position in the regional balance of power. The aim of the article is to examine Turkey's attitude to the South Ossetia conflict and its regional policy. Methods: The comparative analysis method was used during the research. Practical and theoretical significance: the material can be used in lectures and seminars at higher education institutions, and those interested in history and politics can benefit. Conclusion: Turkey respects international law and has not established any political, economic or cultural relations with South Ossetia. The outbreak of the Second Karabakh War caused concern in South Ossetia.

Автор(ы):

Гусейн Гусейнли
Бакинский государственный университет
Доктор философии по истории, доцент
Э-почта: huseyn.huseynli@bsu.edu.az
https://orcid.org/0000-0001-7954-0381

Ключевые слова: Турция, Грузия, Южная Осетия, Россия, Южный Кавказ

Подход Турции к этническим конфликтам на Южном Кавказе: Пример Южной Осетии

Аннотация. Этническая поляризация Грузии и сепаратистские тенденции Южной Осетии создали напряженность в регионе после распада СССР. Российско-грузинская война 2008 года оказала серьезное влияние на регион, что заставило Турцию проводить сбалансированную политику для поддержания стабильности на Южном Кавказе. Хотя Анкара поддерживает территориальную целостность Грузии, она не вмешивалась напрямую в конфликт, учитывая свои стратегические связи с Россией. На эту политику оказали влияние посреднические и дипломатические инициативы Турции по урегулированию, а также интересы энергетической безопасности. При этом Анкара предпочитала действовать в рамках международных организаций, избегая военной эскалации в регионе. Осторожный подход Турции к этому конфликту отражал ее попытки поддерживать политику баланса как с Западом, так и с Россией. В этом контексте актуально изучение внешней политики Турции на Южном Кавказе и ее положения в региональном балансе сил. Целью статьи является рассмотрение отношения Турции к конфликту в Южной Осетии и ее региональной политики. Методы: В ходе исследования использовался метод сравнительного анализа. Практическая и теоретическая значимость: материал может быть использован на лекционных и семинарских занятиях в высших учебных заведениях, а также может быть полезен всем интересующимся историей и политикой. Вывод: Турция уважает международное право и не устанавливает никаких политических, экономических или культурных связей с Южной Осетией. Начало Второй Карабахской войны вызвало обеспокоенность в Южной Осетии.

Giriş. Gürcüstan, muxtar bölgələr baxımından intensiv etnosiyasi qütbləşmənin yaşandığı və regional kimlik anlayışının son dərəcə mürəkkəb olduğu bir ölkədir. 5 milyonluq Gürcüstan əhalisini 76% gürcülər, 5% azərbaycanlılar, 4% ermənilər, 4% osetinlər, 3% ruslar, 3% abxazlar və qalan 5% digər etnik qruplar təşkil edir. SSRİ-nin süqutundan sonra müstəqilliyini elan edən Gürcüstanda kökləri dərin və keçmişə söykənən etnik münaqişələr yenidən alovlanmağa başladı. Rusiya Prezidenti Boris Yeltsin və Gürcüstan Prezidenti Eduard Şevardnadze arasında əldə edilən razılaşma ilə bölgədəki qarşıdurma "yekunlaşdı". Bu razılaşmaya əsasən, Rusiya, Gürcüstan və osetin qüvvələrindən ibarət üçtərəfli sülhməramlı qüvvələr muxtar bölgənin Gürcüstanla sərhədinə yerləşdirildi. 1992-ci ilin oktyabrında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin müşahidəçiləri üçtərəfli sülhməramlı qüvvələrin bölgədəki qarşıdurmanın qarşısını aldığını və sabitliyi təmin etdiyini bəyan etdi. Buna baxmayaraq, Cənubi Osetiya probleminə daimi siyasi həll yolu tapılmadı. Cənubdakı osetinlər Şimali Osetiya ilə birləşmək və Rusiyanın idarəçiliyi altına keçmək istəklərini davam etdirdilər. Bütün qeyd edilən bu məqamlar mövzunu aktual edir.

Tədqiqatın məqsədi Türkiyənin Cənubi Qafqazdakı etnik münaqişələrə yanaşmasını Cənubi Osetiya nümunəsində tədqiq etməkdir.

Tədqiqatın vəzifələri isə Türkiyənin Cənubi Qafqazdakı etnik münaqişələrə yanaşmasını mövcud vəziyyətlə və şəraitdə təhlil etmək, şərtləndirən amilləri müəyyən etmək, Osetiya münaqişəsini tədqiq etməkdir.

Material və metodlar: Tədqiqat aparılarkən müqayisə və təhlil metodlarından istifadə edilmişdir.

Gürcü xalqı osetinlərin Gürcüstanda "xüsusi statusa" sahibi olmaları üçün heç bir tarixi və hüquqi əsaslarının olmadığını iddia edir. Onlara görə, Cənubi Osetiya vaxtilə SSRİ tərəfindən tamamilə təsadüfi səbəblərlə muxtar vəziyyətə gətirilib. Tbilisi hökuməti Cənubi Osetiyanın gözləyə biləcəyi ən böyük imtiyazın mədəni muxtariyyət olacağını müdafiə edirdi. Gürcü xalqı bu mövqeyini 1995-ci ildə qəbul etdikləri ölkə konstitusiyasında açıq şəkildə göstərdi. Konstitusiyada Abxaziya və Acarıstana muxtariyyət verildiyi halda, Cənubi Osetiyaya yalnız mədəni imtiyazlar barədə güzəştlər edildi [6, s.30]. 4-5 mart 1997-ci il tarixində problemin sülh yolu ilə həlli məqsədi ilə tərəflər arasında geniş danışıqlar başladı. Bu dövrdən etibarən Gürcüstan mərkəzi rəhbərliyi Cənubi Osetiya ilə dialoq kanallarını açıq saxlamağa çalışdı və miqrantların evlərinə qayıtması və Cənubi Osetiyanın iqtisadi vəziyyətinin yaxşılaşdırılması, həmçinin problemin siyasi həll yolunun tapılması məsələləri tərəflər arasındakı birgə komitə iclaslarında müzakirə edildi.

Cənubi Osetiya Respublikasının Konstitusiyası 8 aprel 2001-ci il tarixli referendumla qəbul edildi. 23 may 2004-cü ildə Cənubi Osetiyada keçirilən parlament seçkilərində 25 min seçici, 30 millət vəkilini seçmək üçün səs verdi. Ancaq 4 yer kənd yerlərində yaşayan gürcülər üçün ayrılsa da, gürcülər səs vermədi və seçkini boykot etdilər. "Gürcüstan xaricində Rusiya ilə birlik" şüarı ilə seçki kampaniyasını aparan Eduard Kokoytının rəhbərlik etdiyi "Yedintsvo" (Birlik) Partiyası seçkilərdə qalib gəldi. Kokoytının rəhbərlik etdiyi partiya, Cənubi Osetiya əhalisi arasında Rusiyaya inteqrasiya təbliğatını daha da gücləndirdi. Seçkilərin nəticələri Cənubi Osetiyada separatçılıq meyillərini artıraraq, bölgədə vəziyyətin yenidən gərginləşməsinə səbəb oldu.

2003-cü ildə Gürcüstanda baş verən "Qızılgül İnqilabı" ölkədə ciddi siyasi dəyişikliklərlə yanaşı, regionda gərginliyi də artırdı. İnqilab nəticəsində hakimiyyətə gələn Mixail Saakaşvili qərbyönümlü siyasəti prioritet elan edərək Gürcüstanın Avropa İttifaqı və NATO-ya inteqrasiyasını sürətləndirdi. Lakin bu siyasət Kreml tərəfindən ciddi narahatlıqla qarşılandı. Rusiya üçün NATO-nun şərqə doğru genişlənməsi strateji təhdid idi və Saakaşvili hökumətinin bu istiqamətdə atdığı addımlar regionda Moskvanın mövqeyini zəiflədə bilərdi. Saakaşvili, Qərbin dəstəyinə arxalanaraq separatçı rejimlər üzərində nəzarəti bərpa etməyə cəhd etdi [3, s.537]. 31 may 2004-cü ildə Gürcüstan daxili qoşun birliklərini osetin-gürcü münaqişə zonasına göndərdi. Vəziyyət gərginləşdi və bölgədə hərbi qarşıdurma artdı.

Gürcüstanın Cənubi Osetiya bölgəsində 2004-cü ildə başlatdığı hərbi əməliyyatlar və bu əməliyyatların yaratdığı gərginlik Türkiyəni narahat edirdi. Türkiyə, bölgədə münaqişənin yenidən alovlanmasının C.Qafqazdakı sabitliyə ciddi

təhlükə törədəcəyini düşünərək, tərəfləri danışıqlar yolu ilə problemin həllinə çağırdı. Rəsmi Ankara, xüsusilə NATO üzvü kimi Gürcüstanın Qərbə inteqrasiyasını dəstəklədi. Eyni zamanda, Rusiya ilə münasibətləri pozmamaq üçün balanslı siyasət yürütdü. 2004-cü ilin sonunda Türkiyənin təşəbbüsü ilə Gürcüstan və Azərbaycanla üçtərəfli əməkdaşlıq mexanizmləri yaradıldı. Türkiyənin məqsədi regionda uzunmüddətli sülhün bərqərar olunması və Rusiya ilə Qərb arasında mümkün qarşıdurmanın qarşısını almaq idi. Türkiyənin bütün cəhdlərinə baxmayaraq Rusiya və Gürcüstan arasında müharibə qaçınılmaz idi [1, s.476].

15 iyul 2008-ci ildə Rusiya Şimali Qafqazda geniş miqyaslı hərbi təlimlərə başladı. "Qafqaz-2008" adlanan bu təlimdə 700 zirehli texnika və 8000 hərbçi iştirak etdi. 2 avqust tarixində təlimlər rəsmi olaraq başa çatsa da, təlimlərdə iştirak edən birliklərin əksəriyyəti müvəqqəti mövqelərini dəyişmədi. Xüsusi təyinatlıların tibb briqadası isə taktiki hazırlığını 58-ci Orduya məxsus "Tsarskoe" poliqonunda keçirdi. 25 iyulda bütün manevr tapşırıqlarını yerinə yetirmələrinə baxmayaraq, yerli əhalini müayinə etmək bəhanəsi həmin briqada geri çağırılmadı. 29 iyul 2008-ci il tarixində separatçı Osetin birlikləri əvvəlcə ATƏT və sülhməramlı qüvvələrin əsgərlərinə, daha sonra isə Gürcüstan sülhməramlı qüvvələrinin nəzarət məntəqəsinə ilk dəfə atəş açdılar. 1 avqust 2008-ci il səhər saat 8-də Gürcüstan hərbi birliklərinə qarşı intensiv atəş açıldı. Artilleriyadan da istifadə olunan hücum zamanı Gürcüstana məxsus bir polis maşını partladıldı. Gürcü kəndləri, 1992-ci il Dagomis Sazişi və 1995-ci il Moskva Memorandumuna əsasən qadağan olunmuş artilleriya atəşi ilə bombalandı [7, s.56].

12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarına əlavə olunmuş "Beynəlxalq xarakter daşımayan silahlı münaqişələrin qurbanlarının müdafiəsinə dair" və 8 iyun 1977-ci il tarixli Protokola əsasən, əgər bir dövlətin ərazisində beynəlxalq xarakter daşımayan münaqişə baş verirsə, həmin dövlət bütün hüquqi mexanizmləri işə salaraq vəziyyəti nizama salmaq və ərazi bütövlüyünü qorumaq hüququna malikdir. Buna görə də, Gürcüstanın hüquqi güc imkanlarını istifadə edərək, hüquq qaydalarını, regional mühakimə sahəsini və gürcü kəndlərindəki mülki əhalinin təhlükəsizliyini qorumaq hüququ vardı [8]. 7 avqust tarixində Prezident M.Saakaşvilinin tapşırığı ilə T.İakobaşvili münaqişə bölgəsinə göndərildi. Lakin İakobaşvili separatçılarla görüşə bilmədi, əvəzində Birləşmiş Sülhməramlı Qüvvələrin komandanı General M.Kulakmetovla görüşdü. Görüş zamanı generalın separatçıların hərbi əməliyyatlarını nəzarət altına ala bilmədiyini və osetin liderləri ilə əlaqə qura bilmədiyini deməsi təhlükənin qaçınılmaz olduğunu göstərirdi. General separatçı qüvvələrin gürcülərə rus sülhməramlılarının yerləşmə nöqtələrinə yaxın ərazilərdən atəş açdığını və gürcülərin cavab atəşindən sonra rus əsgərlərinin qarşı atəşə başladığını etiraf etdi. General Kulakmetovun sözlərinə görə, gərginliyi azaltmağın yeganə yolu Gürcüstan tərəfinin birtərəfli qaydada atəşkəs elan etməsi idi. Rusiyanın hərbi manevrlərinin təhlükəli həddə çatdığını düşünən Prezident M.Saakaşvili 7 avqustda separatçı ünsürlərin və rus ordusunun hərbi əməliyyatlarının qarşısının alınması barədə göstəriş verdi. Gün ərzində Gürcüstan Silahlı Qüvvələrinin rotasiyası başa çatdı və onlar münaqişə bölgəsinin bütün sərhəd xətti boyunca mövqelərində qərar tutdular. Gecə saat 23:35-də Prezident M.Saakaşvili, Gürcüstan Konstitusiyasının 71-ci maddəsinə əsaslanaraq müdafiə əməliyyatına başlama əmrini verdi [9].

8 avqust 2008-ci ildə gürcü qoşunları öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə separatçıların paytaxtı Sxinvaliyə daxil oldu. Qısa müddət ərzində Gürcüstan Silahlı Qüvvələrinin əsas hücum birliyi Sxinvalinin 40-50 faizini nəzarət altına aldı. Rusiya, Gürcüstanı işğalçılıqda ittiham edərək Sxinvali şəhərini dərhal tərk etməsi ilə bağlı ultimatum verdi. Gürcüstan xəbərdarlığa məhəl qoymadıqda, rus qoşunları Şimali və Cənubi Osetiyanı birləşdirən Roki keçidi vasitəsilə öz vətəndaşlarını və sərhəddə yerləşdirilən rus sülhməramlılarını "qorumaq" adı altında Cənubi Osetiyaya daxil oldu. Müharibə Rusiyanın hərbi gücü qarşısında gürcü qüvvələrinin geri çəkilməyə məcbur olması səbəbilə sürətlə Gürcüstan ərazilərinə yayıldı. Rus qoşunlarının Zuqdidi və Qori kimi Gürcü şəhərlərini işğal edərək Tbilisiyə 40 kilometr məsafəyə qədər yaxınlaşması prosesi beynəlxalq böhrana çevirdi.

İki tərəfi ümumi müharibə həddinə gətirən silahlı qarşıdurmalar, Avropa İttifaqına sədrlik

edən Fransanın vasitəçiliyi ilə imzalanmış atəşkəs sazişi ilə sona çatdı. Müharibəni bitirmək məsələsində ABŞ-ın deyil, Avropa İttifaqının təşəbbüs göstərməsi, ABŞ-ın Cənubi Qafqaz regionunda əhəmiyyətli nüfuz itkisi yaşamasına səbəb oldu. Çünki Gürcüstanın ən böyük dəstəkçisi mövqeyində olan ABŞ, müharibəni bitirmək məsələsində gözlənilən addımları ata bilmədi. Burada vacib məqamlardan biri də 08.08.08 müharibəsi zamanı Rusiya Prezidenti Medvedev ilə Fransa Prezidenti Sarkozi arasında imzalanan Prinsiplər Bəyannaməsidir. Bəyannaməyə əsasən, Abxaziya və Cənubi Osetiya problemləri beynəlxalq platformada müzakirə olunmalı idi. Lakin Rusiya buna məhəl qoymadan 26 avqust 2008-ci ildə Abxaziya və Cənubi Osetiyanı müstəqil dövlətlər kimi tanıdı. ABŞ Dövlət Katibi Kondoliza Rays Rusiyanın müdaxiləsini 1968-ci ildə Çexoslovakiyanın işğalı ilə müqayisə etdi və azad dünyanın Rusiyanın qonşusuna etdiyi hücumun regional və regiondan kənar təsirləri ilə mübarizə aparacağını ifadə etdi [4, s.377].

Nəticələr və müzakirə. Əvvəlcə müzakirələrdən başlayaq. Türkiyə rəsmiləri böhran zamanı gərginliyi azaltmaq üçün ehtiyatlı davrandı və bölgənin problemlərinin həlli üçün regional platforma ideyasını irəli sürdü. Böhran zamanı Baş nazir Ərdoğan Rusiya ilə münasibətlərin əhəmiyyətini bu şəkildə ifadə edirdi: "Biri ən yaxın müttəfiqimiz olan ABŞ, digəri isə enerji başda olmaqla əhəmiyyətli ticarət dövriyyəmizin olduğu Rusiya. Enerjimizin üçdə ikisini Rusiyadan təmin edirik. Türkiyənin milli maraqları nəyi tələb edirsə, o şəkildə hərəkət edərik... Rusiyanı nəzərdən kənarda qoya bilməzsiniz" [5, s.37].

Türkiyənin bu müharibə zamanı ehtiyatlı və balanslaşdırılmış mövqeyi təxminən son üç yüz ili "isti və soyuq müharibələrlə" keçirmiş iki ölkə arasında tarixi əməkdaşlıq fürsəti yaratdı. Buna baxmayaraq, Rusiyada Türkiyəyə qarşı etimadsızlıq da tamamilə aradan qalxmadı. Misal üçün Rusiyanın Gürcüstana qarşı təcavüzü 19 avqustda Brüsseldə keçirilən NATO Xarici İşlər Nazirləri Şurasında pisləndi. 21 avqust tarixində isə ABŞ-ın 6-cı Donanması ilə yanaşı, İspaniya, Polşa və Almaniya dəniz qüvvələrindən ibarət bir donanma boğazlardan keçərək Gürcüstana doğru hərəkət etdi. Rəsmi məlumatlarda "Humanitar Yardım Missiyası" olaraq elan edilən bu əməliyyat Rusiya tərəfindən Türkiyənin Gürcüstana dəstəyi kimi qiymətləndirildi. Rusiya bu hadisəyə etiraz edərək Türkiyəni tənqid etdi.

Cənubi Osetiyada qarşıdurmalar şiddətləndiyi vaxtda Türkiyənin bölgədəki rolu ilə bağlı Rusiyadan iki iddia ortaya atıldı. 10 avqust 2008-ci ildə Rusiya mətbuatı Türkiyəni Gürcüstana hərbi dəstək verməklə müharibəyə təhrik etməkdə ittiham etdi. Rusiyanın İnterfaks agentliyi isə Batumi sahillərində Türkiyə dəniz piyadalarının olduğu bir gəminin gözlədiyini iddia etdi. "İzvestiya" qəzeti isə Gürcüstanı silahlandıran ölkələr arasında Türkiyənin də adının olduğunu qeyd etdi. Qəzet Rusiya Müdafiə Nazirliyinin 2008-ci ilin may ayında yayımladığı hesabatına əsaslanaraq, Türkiyənin son dörd il ərzində Gürcüstana 45 milyon dollarlıq silah və sursat yardımı etdiyini, həmçinin gürcü zabitlərinə təlim keçdiyini bildirirdi.

Türkiyə bölgədə sülh və sabitliyin təmin olunmasına xüsusi diqqət yetirdi. Türkiyə Gürcüstanın ərazi bütövlüyünü dəstəklədi və Cənubi Osetiya ilə Abxaziyanın müstəqilliyini tanımadı. Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan münaqişənin həlli üçün fəal diplomatik səylər göstərdi. Baş nazir Ərdoğan, Türkiyə ilə Gürcüstan arasındakı yaxın əlaqələri bu sözlərlə təsdiq edirdi: "Gürcüstanla əlaqələrimiz qonşuluq əlaqələrindən də geniş əhəmiyyətə sahibdir. Türkiyə olaraq, qonşumuz Gürcüstanın sülh və sabitliyinə, iqtisadi inkişafına, NATO ilə olan əlaqələrinə və inteqrasiyasına böyük əhəmiyyət və dəstək veririk. Beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini tam dəstəklədiyimiz Gürcüstanla əlaqələrimiz gələcəkdə də davam edəcəkdir" [2, s.316].

Nəticə. Rusiya "beş günlük müharibə" ilə ABŞ və avropalı güclərin qlobal balansları müəyyən etməkdə hərbi müdaxilə həyata keçirmə "inhisarını" sarsıtdı. Bununla yanaşı, NATO-ya üzvlüyə namizəd bir ölkəyə müdaxilə edərək Qərbin təhlükəsizlik təşkilatı NATO-nun qlobal nüfuzuna zərbə vurdu və NATO-ya üzv olmağı planlaşdıran Ukrayna kimi ölkələrə gözdağı verdi. Məsələyə hərbi perspektivdən baxıldıqda, ABŞ rəhbərliyindəki NATO qüvvələrinin Əfqanıstan və İraqda apardığı hərbi əməliyyatların nə dərəcədə uğurlu olduğu müzakirə olunduğu bir

vaxtda, Rusiyanın cəmi beş gün kimi qısa müddətdə müharibəni qazanması və müharibə sonrasında tələblərini ABŞ və Aİ kimi qlobal güclərə baxmayaraq həyata keçirməsi son dərəcə uğurlu hesab edilə bilər. Bu uğur Rusiyanın əhəmiyyətli hərbi gücə malik olduğunu nümayiş etdirdi.

Türkiyə, xarici siyasətində beynəlxalq hüquq və ərazi bütövlüyü prinsiplərinə əsaslanan mövqe sərgilədi. Ona görə də, öz ərazisində separatist fəaliyyətlərlə mübarizə aparan ölkə olaraq, separatizmə qarşı prinsipial mövqe tutdu. Türkiyə, Gürcüstanın suverenliyinə hörmət etməklə regiondakı mövcud münaqişələrə müdaxilə etməmə siyasətini qorudu. Bu siyasət çərçivəsində Türkiyə Cənubi Osetiya ilə heç bir siyasi, iqtisadi və ya mədəni əlaqə qurmadı.

Yekun nəticə. İkinci Qarabağ müharibəsinin baş verməsi Cənubi Osetiyada təşvişə səbəb oldu. Müharibənin nəticələri Cənubi Osetiyada əsasən Rusiya ilə bağlılıq, separatizm təcrübəsi və regiondakı geopolitik vəziyyətə dair fərqli prizmalardan qiymətləndirildi. Ermənistanın məğlub olması Cənubi Osetiya üçün öz "müstəqilliyini" qorumağın çətinliklərini ortaya qoydu. Çünki Cənubi Qafqazda separatizmi dəstəkləyən yeganə dövlət Ermənistan idi. Azərbaycan ordusunun müvəffəqiyyəti və ərazi bütövlüyünü bərpa etməsi separatist hərəkatlar üçün ciddi mesaj oldu. Bu, xüsusilə Cənubi Osetiya kimi tanınmayan və ya qismən tanınan separatçılar arasında narahatlıq yaratdı. Türkiyənin də regionda güc balansını öz xeyrinə dəyişdirməsi Gürcüstandakı etnosiyasi proseslərə təsirsiz ötüşmədi.

Ədəbiyyat

1. Baskın Oran. Türk Dış Politikası. Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. Cilt 3, 2001-2012. – İstanbul, – 2013, – 889 s.
2. Emre Erşen. Türkiye'nin Kafkasya Politikası 2013/Türk Dış Politikası Yıllığı 2013, SETA Yayınları 46. – İstanbul, – 2014, – s.303-322
3. Keisuke Wakizaka. Gürcistan'daki Gürcü-Oset İlişkileri ve Ortak Tarih Anlayışı/ İstanbul Gelişim Üniversitesi Sosyal Bilimler Dergisi, 9 (2), Ekim. – 2022, – s. 532-548.
4. Kamer Kasım. Türkiye'nin Kafkasya Politikası 2010 / Türk Dış Politikası Yıllığı 2010, SETA Yayınları XIV. – Ankara, – 2011, – s.371-388
5. Sadık Ünay. Ekonomik Küreselleşme Çağında Diplomasi: Türkiye'nin Yeni Dış Politikası ve "Rekabet Devleti"/Türk Dış Politikası Yıllığı 2009, SETA Yayınları XIII. – Ankara, – 2011, – s.13-44
6. Selçuk Çolakoğlu. Türkiye-Gürcistan İlişkileri. TASAM Stratejik öngörü dergisi. – Türkiye, – p.29-39. https://tasam.org/Files/Icerik/File/turkiye-gurcistan_iliskileri_de-57ecdc-df5b-4d5f-bf3b-65a1983a7013.pdf
7. Tamar Parulava. Rusya'nın Gürcistan'a Askeri Müdahalesi-2008 Ağustos Savaşı/İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı Yüksek Lisans Tezi. – İstanbul, – 2012, – 139 s.

İnternet resursları

8. Protocol Additional to the Geneva Conventions of 12 August 1949, and Relating to the Protection of Victims of International Armed Conflicts (Protocol I), of 8 June 1977. https://www.un.org/en/genocideprevention/documents/atrocity-crimes/Doc.34_AP-I-EN.pdf
9. The Constitution of Georgia, 1995. https://constitutionnet.org/sites/default/files/Georgia%20Constitution.pdf

Məqalə tarix üzrə elmlər doktoru, dosent Emin Şxəliyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2025, son daxilolma – 20.02.2025, qəbulolunma – 05.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.179-183
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.179-183
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.179-183

UOT: 94(575.11):39
https://doi.org/10.30546/670832.2025.01.938

Borçalı toponimi və Borçalı əhalisinin etnik tərkibi

Müəllif(lər):

Gülər Əjdərzadə
Mingəçevir Dövlət Universiteti
Müəllim
E-poçt:gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

Açar sözlər: Borçalı bölgəsi, Borçalı mahalı, Borçalı sultanlığı, barsillər, buntürklər, qarapapaqlar

Annotasiya. Bu gün müasir Azərbaycan sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından olan Borçalı mahalının tarixi qonşu ölkələrin tarixşünaslığında ən çox təhriflərə məruz qalır. Eyni zamanda, Borçalı tarixi Azərbaycan tarixşünaslığında çox az müraciət edilən mövzulardan biridir. Bu mənada Borçalı mahalının tarixini araşdırmaq və bu bölgənin tarixi ilə bağlı gerçəklikləri üzə çıxarmaq böyük aktual kəsb edir. Məqalənin məqsədi müasir Azərbaycanın sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından olan Borçalı mahalının tarixi keçmişinə nəzər salmaq, Borçalı toponiminin mənşəyini və Borçalı əhalisinin etnik tərkibini aydınlaşdırmaqdır. Material və Metodlar: məqalə yazılarkən müqaisəli təhlil metodundan istifadə edilmişdir, bu sahədə mövcud ədəbiyyatlara, məqalələrə istinad edilmişdir.. Praktik və nəzəri əhəmiyyəti: material ali təhsil müəssisələrində mühzirə və seminarlarda istifadə oluna bilər, eləcə də tarixlə maraqlananlar üçün faydalı tədqiqatdır. Tədqiqatın sonunda belə bir nəticəyə gəlinmişdir ki, Borçalı bölgəsi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurd" (börü) ilə bağlıdır. Borçalı bölgəsi qədim və orta əsrlərdən başlayaraq müxtəlif türk tayfalarının – buntürklər, barsillər, qıpçaqlar, oğuzlar, qarapapaqlar və başqalarının sıx şəkildə məskunlaşdığı ərazi kimi diqqət çəkmiş, müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuşdur. Borçalı 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Rusiyaya ilhaq edilmişdir.

Author(s):

Gular Ajderzade
Mingachevir State University
Teacher
E-mail:gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

Key words: Borchali region, Borchali district, Borchali sultanate, Barsils, Bunturks, Karapapaks

The toponym Borchaly and the ethnic composition of the population in Borchaly

Abstract. Today, the history of Borchali province - one of the historical Azerbaijani territories currently outside the modern borders of Azerbaijan - is among the most distorted in the historiography of neighboring countries. At the same time, the history of Borchali remains one of the least studied topics in Azerbaijani historiography. In this regard, researching the history of Borchali and uncovering the historical truths related to this region holds significant contemporary relevance. The aim of the article is to review at the historical past of Borchaly district, one of the historical Azerbaijani lands outside the borders of modern Azerbaijan, to clarify the origin of the toponym Borchaly and the ethnic composition of the Borchaly population. Methods: the comparative analysis method was used when writing the article. Practical and theoretical significance: the material can be used in lectures and seminars at higher education institutions, as well as a useful study for those interested in history. The study concludes that the Borchali region has been inhabited by various Turkic tribes since ancient times and is considered one of the earliest Turkic settlements in the South Caucasus. The name "Borchali" is directly linked to a Turkic ethnonym or an ancient Turkic ethno-symbol – the "bozkurt". From antiquity through the Middle Ages, the region became home to numerous Turkic tribes, such as the Bunturks, Barsils, Kipchaks, Oghuz, and Karapapaks. Throughout different historical periods, the Borchali region was part of various Azerbaijani states. In 1801, Borchali, along with Eastern Georgia, was annexed by the Russian Empire.

Автор(ы):

Гюлер Аждерзаде
Мингячевирский государственный университет
Преподаватель
Э-почта: gular.ajdarzada@mdu.edu.az
https://orcid.org/0000-0002-6992-6325

Ключевые слова: регион Борчалы, уезд Борчалы, султанат Борчалы, барсилы, бунтюрки, карапапахи

Топоним Борчалы и этнический состав населения Борчалы

Аннотация. В настоящее время история Борчалинского уезда – одного из исторических азербайджанских земель, находящихся за пределами современных границ Азербайджана – подвергается наибольшим искажениям в историографии соседних стран. В то же время история Борчалы остаётся одной из наименее изученных тем в азербайджанской историографии. В этом смысле исследование истории Борчалы и выявление исторической правды об этом регионе представляет собой большую актуальность. Целью статьи является рассмотрение исторического прошлого Борчалинского района, одной из исторических азербайджанских земель за пределами современного Азербайджана, выяснение происхождения топонима Борчалы и этнического состава населения Борчалы. Методы: при написании статьи использовался метод сравнительного анализа. Практическая и теоретическая значимость: материал может быть использован на лекциях и семинарах в высших учебных заведениях, а также в качестве полезного учебного пособия для интересующихся историей. В исследовании делается вывод о том, что Борчалинский район с древнейших времен был заселен различными тюркскими племенами и считается одним из древнейших тюркских поселений на Южном Кавказе. Название «Борчалы» напрямую связано с тюркским этнонимом или древнетюркским этносимволом – «бозкурт». С древности и до Средневековья регион был домом для многочисленных тюркских племен, таких как бунтюрки, барсилы, кипчаки, огузы и карапаки. В разные исторические периоды Борчалинский район входил в состав различных азербайджанских государств. В 1801 году Борчалы вместе с Восточной Грузией были присоединены к Российской империи.

Giriş. Müasir Azərbaycanın sərhədlərindən kənarda qalan tarixi Azərbaycan torpaqlarından biri də Borçalı ərazisidir. Tarix boyu əsas etibarilə Azərbaycan dövlətlərinin tərkibində olan Borçalı mahalı qədim dövrlərdən etibarən buntürklər, barsillər, bulqarlar, qıpçaqlar, oğuzlar, qarapapaqlar kimi türk əhalisinin məskunlaşdığı bölgələrdən biri olmuşdur. Borçalı toponimi də türk tayfaları ilə bağlıdır. Sonrakı dövrlərdə daha çox qarapapaqlar adı ilə tanınan Borçalı türkləri regionda cərəyan edən ictimai-siyasi və hərbi proseslərdə mühüm rol oynamışlar. Azərbaycanın şimal-qərb sərhədlərində yerləşən Borçalı mahalı yerləşməsi etibarilə tarix boyu srtateji bir ərazi kimi mühüm əhəmiyyət kəsb etmiş və qonşu dövlətlərin maraq dairələrində olmuşdur. Azərbaycan taxtında bir-birini əvəz edən ayrı-ayrı sülalələrin hökmranlığı dövründə Borçalı mahalı xarici təhlükələrə və hücuma məruz qalsa da, Azərbaycan hökmdarları bu ərazini qorumağa çalışmış və mahal Azərbaycan dövlətinin sərhədləri daxilində qorunub saxlanılmışdır. Bu mənada Borçalı mahalı Azərbaycanın digər bölgələri ilə eyni ictimai, siyasi, iqtisadi və mədəni həyat yaşamışdır.

Tədqiqatın aparılmasında qoyulan əsas məqsəd Borçalı mahalının tarixi keçmişinə ümumi nəzər salmaq, Borçalı toponiminin mənşəyi, əhalisinin etnik tərkibi və mənşəyi öyrənməkdən ibarətdir. Tədqiqatın aparılmasında problem-xronoloji təsvir, tarixi-genetik və müqayisəli təhlil metodlarından istifadə edilib. Material və Metodlar: məqalə yazılarkən müqayisəli təhlil metodundan istifadə edilmişdir, bu sahədə mövcud ədəbiyyatlara, məqalələrə istinad edilmişdir.

Əsas hissə. Borçalı toponimi. Müasir Gürcüstan Respublikasının cənub-şərqində, Ermənistan Respublikasının şimal-qərbində yerləşən Borçalı bölgəsinin ərazisi başlıca olaraq dağlıq, üçdə bir hissəsi isə düzənlikdən ibarətdir. Qədim dövrlərdən etibarən türklərin sıx şəkildə yaşadığı tarixi bölgələrdən biri olan Borçalı mahalı Gürcüstan Respublikasının Dmanisi (Başkeçid), Bolnisi (Bolus), Marneuli (Sarvan, Candar, Qızılhacılı), Qardabani (Qaratəpə), Zalqanın (Barmaqsız) bir hissəsi, Rustavi (Bostanşəhər), Ermənistan Respublikasının şərqində yerləşən Noyamberyan (Baranlı), Spitak (Hamamlı), Amasiya (Ağbaba), Stepanavan (Cəlaloğlu), Kalinino (Taşır) ərazilərini əhatə edir [3, s. 7].

Tarixi araşdırmalar Qafqazın cənub-qərbində yaşayan azərbaycanlılarının etnik kökləri hələ e.ə. I minilliyin son əsrlərində tarixi Borçalı ərazisində yaşayan türk tayfalarına – buntürklərə, barsillərə, bulqarlara, qıpçaqlara, oğuzlara, qarapapaqlara gedib çıxdığını göstərir. Bu baxımdan hələ orta əsr müəlliflərinin əsərlərində rast gəlinən "Borçalı" etnoniminin mənasının araşdırılması elmi baxımdan mühüm əhəmiyyət daşımaqdadır.

Görkəmli ərəb tarixçisi Yaqut əl-Həməvi "Borçalının Arranda yer adı olmasını" qeyd etmiş, Qardizi isə bu bölgəni "Börüçala" (qurd düzü) adlandırmışdır. Görkəmli tarixçi Fəzlullah Rəşidəddin isə "Borçalı" terminini toponim və etnonim kimi işlətmişdir. Alban tarixçisi Musa Kalankatlı isə Borçalı toponiminin mənşəyini e.ə. II əsrdə Cənubi Qafqazda məskunlaşan türk tayfaları barsillərlə əlaqələndirmişdir [5, s. 13].

Borçalı adının kökü olan "barsil" etnonimi "bozqurd" mənasını daşıyan "börü" mənasında işlədilən "bars" kəlməsi ilə yaxından bağlıdır. Beləliklə, Borçalı kəlməsinin kökündə qədim türklər üçün çeviklik, cəsarət və səy göstərmək rəmzi olmuş və Tanrıdan güc almış börü, börcə və ya borcu, yəni "bozqurd" yer almaqdadır [2, s. 11].

Bir çox erkən orta əsrlər tarixçilərinin bəhs etdikləri barsillərin Sak dövlətini, Xəzər xanlığını və Sarmatiyanı yaratmış boy və oymaqlardan biri olması mənbələrdə qeyd edilmişdir. Mifoloji rəvayətlərdə göstərildiyinə görə, Bulqar, Xəzər və Barsela (Barçola) adlı üç qardaş, eyni zamanda başqa yeddi soy və bir əcdaddan törəmişlər. Bu baxımdan salnamələrdə xəzərlər və barsillərin əkiz boylar olaraq qeyd edilməsi təsadüfi sayıla bilməz. Ərəb tarixçilərindən Yaqut əl-Həməvi Barçola şəklində qeyd etdiyi bu tayfanı bulqarların bir qolu hesab etmişdir. Barsillər Hun, Bulqar və Xəzər xanlıqlarında mühüm mövqeyə sahib idilər. Bunu Xəzər xaqanlarının barsil tayfasından olan qızlarla izdivaca girmələri faktı da təsdiq etməkdədir.

Barsillərin Qafqazın hər iki hissəsində geniş ərazilərdə məskunlaşmalarını erkən orta əsr mənbələri də birmənalı şəkildə təsdiq edir. Ərəb

tarixçisi Bəlazuri Dərbənddən şimalda "əl-Berşeliya" adlı şəhərin adını çəkmişdir. Türk tarixçisi F.Kırzıoğlu Moisey Xorenliyə əsaslanaraq erməni hökmdarı Tridatın Sasani hökmdarı II Şapurla 310-cu ildə Debed və Kür çayının qovuşduğu yerdə - Borçalıda qarşılaşdığını göstərir [4, s. 44].

Borçalı əhalisinin etnik tərkibi. Borçalının tarixinə nəzər salarkən diqqət yetirilməli olan əsas məqamlardan birini də qədim dövrlərdən bu ərazini məskunlaşdıran xalqların soykökünün araşdırılması məsələsi təşkil edir. Bu problemi aktuallaşdıran məqamlardan biri gürcü və keçmiş sovet tarixşünaslığında bölgənin tarixinin ciddi cəhdlə və elmi faktlara rəğmən saxtalaşdırılması, bölgəyə türk əhalisinin sonradan gəlmə olmasını özündə ehtiva edən qeyri-elmi konsepsiyanın ortaya atılmasıdır. Türklərin bölgədən uzaqlaşdırılmasını ideoloji cəhətdən əsaslandırmağı qarşısına məqsəd qoymuş gürcü tarixçilərinin irəli sürdükləri iddiaya görə, türklərin müasir Gürcüstan ərazisində qismən yerləşməsi XI əsrə – səlcuq-oğuz axınları dövrünə təsadüf edir. Gürcü tarixçiləri qeyd edirlər ki, XIII əsrdə Upadar adı ilə tanınan Alazan, Por və Kambizena vadilərində monqol-tatar tayfaları məskunlaşmış və burada Muğanlı, Muqalo, Muğal etnonimləri meydana gəlmişdir. Gürcü alimi P.İoselianinin fikrincə, "öldürücü iqlim və gürcü qılıncı onları öz hakimiyyətinə tabe edərək qula, və ya kəndliyə çevirmiş, yaxud da dağlara qovmuşdur" [8, s. 12].

Gürcü tarixşünaslığında azərbaycanlıların müasir Gürcüstan ərazisində kütləvi şəkildə məskunlaşması Şah I Abbasın (1587-1629) hakimiyyət dövrü ilə əlaqələndirilir. Hətta Gürcüstanın orta məktəblərində tədris edilən fənlərdə belə yer almış yanlış iddiaya görə, Gürcüstan azərbaycanlılarının əksəriyyətinin əcdadları Şah I Abbas tərəfindən Kartliyə köçürülmüş Borçalı tayfası olmuşdur. Azərbaycanlı əhalinin digər qisminin əcdadlarının isə muğanlıların nəslindən olması iddiası irəli sürülür. Tarixə faktlara nəzər salsaq məlum olur ki, 1616-cı ildə Kartli və Kaxetiya üzərində tam nəzarəti bərpa edən Şah I Abbas bu yerlərdə qədim dövrlərdən etibarən yaşayan azərbaycanlıların vəziyyətini möhkəmləndirmişdir [7, s. 1]. Lakin bununla yanaşı, o da məlumdur ki, qarapapaqların osmanlılara hüsn-rəğbətini bilən Şah I Abbas Borçalı-Qazax mahalının bir çox kəndlərinin əhalisini Gəncə-Qarabağ və Şirvan bəylərbəyliklərinə köçürmüşdür. Bu fakt özü-özlüyündə Borçalının Şah I Abbas tərəfindən türklərlə kütləvi şəkildə məskunlaşdırması fikrini əsassız iddiaya çevirir.

Yuxarıda "Borçalı" toponimini izah edərkən onun qədim türk tayfaları olan barsillərlə bağlılığını qeyd etmişik. Tarixçi K.Məmmədovun qeyd etdiyinə görə, pəhləvi mənbələrində bölgə Qordman (Qurd adamların yurdu) şəklində xatırlanmışdır [1].

Borçalının tarixinə dair gürcü tarixşünaslığında mövcud olan yanlış yanaşmaları aydınlaşdırmaq üçün gürcü mənbələrinin bölgə haqqında verdiyi məlumatlara nəzər salmaq olduqca vacibdir. Gürcü mənbələrinin özündə isə Borçalının adı "Qurdis xevi" (Qurd çalası) şəklində çəkilməsi [3, s. 7] Borçalı bölgəsinin tarixi ilə bağlı tarixşünaslıqda rast gəlinən əsassız iddialara ən tutarlı cavab hesab edilə bilər. VIII əsrə aid olan gürcü mənbəsi "Moksevay Kartlitsa"da isə Borçalının hələ qədimdən türklərlə məskunlaşmasına dair qiymətli məlumat vardır. Salnamədə bununla bağlı göstərilir: "Makedoniyalı İsgəndər Lot övladlarını yarımqaranlıq ölkəyə sıxışdırarkən burada ilk dəfə Kür çayının axarı boyu dörd şəhərdə – Sarkine, Kaspi, Urbnis, Odzraxda yaşayan çılğın buntürklərlə qarşılaşdı" [10, s. 1]. Göründüyü kimi, mənbənin məlumatı əsasən hələ e.ə. IV əsrdə bu torpaqlarda türk tayfalarının yaşamasını təsdiq etməkdədir. Gürcü tarixçisi E.Takayşvili buntürkləri "türklər", başqa sözlə "turanlılar" adlandırır, digər gürcü mənbəsi "Kartlis sxovreba"-ya istinad edərək göstərir ki, iranlılar tərəfindən sıxışdırılan 28 min ailədən ibarət olan buntürklər Xəzər dənizini ötüb keçərək Kürün yuxarı axarı boyunca hərəkət etmiş və Mesxetiyadan qərbdə məskunlaşmışlar [10, s. 1]. Borçalı, Ağcaqala və digər türk toponimlərinə Vaxuşti Baqrationinin "Gürcü çarlığının tarixi" əsərində də rast gəlinir [6, s. 86, s. 109]. Gürcüstanın qədim əhalisinin gürcülər olmasını qeyd edən L.Mroveli göstərir ki, Kartlidə gürcülərlə birlikdə buntürklər də yaşamışlar [8, s. 28].

Yazılı mənbələrin verdiyi bu məlumatlar, o cümlədən toponimik materiallar türklərin müasir Gürcüstan ərazisinə XI və sonrakı əsrlərdə məskunlaşmaları ilə bağlı iddiaları birmənalı şəkildə rədd edir. Xüsusilə bölgənin hələ erkən orta əsr pəhləvi mənbələrində "Qordman", gürcü

mənbələrində "Qurdis xevi" (Qurd çalası), ərəb mənbələrində Berşaliya və ya Börüçölü, Avropa səyyahları tərəfindən isə "Turqie Georgia" (Türk Gürcüstanı) adlandırılması Borçalının hələ qədim zamanlardan türklərin yurd yerlərindən birini olmasını göstərən təkzibolunmaz faktlardan biridir.

Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgənin hələ qədim dövrlərdən etibarən türk əhalisi ilə məskunlaşdırılmasını təsdiq edir. Bölgənin adının birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurdla" (börü) əks olunması burada yaşayan xalqın etnik mənsubiyyətinin birbaşa göstəricisidir. Bundan əlavə, pəhləvi, ərəb, fars və gürcü dillərində olan müxtəlif mənbələrdə bu adın eyni və ya oxşar şəkildə çəkilməsi, yaxud da "qurdların (börülərin) yaşadığı yer" anlamında kalka edilməsi mülahizəmizi birbaşa təsdiq edir. Borçalının əhatəsində olan müxtəlif xalqların ərazini eyni və yaxud oxşar adlarla yad etməsi heç şübhəsiz, burada yaşayan xalqın bölgəni öz etnik kimliyini bildirən toponimlə adlandırması ilə əlaqədar olmuşdur. Buradan belə bir qənaətə gəlmək olar ki, tarixi hələ qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Bu fakt, bölgəyə adlarını vermiş olan qədim türk tayfası barsillərin adlarının mənasının izah edilməsində də mühüm əhəmiyyət daşımaqdadır. Yuxarıda qeyd etdiyimiz kimi, barsil sözünün kökündə dayanan "bars" kəlməsinin "bozqurd" (börü) anlayışı ilə yaxınlığını nəzərə alsaq, məlum olur ki, müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır. Beləliklə, "barsil" adının "bozqurd" və ya "börü" anlamında işlənildiyi də məlum olur.

Nəticə. Borçalı bölgəsinin etno-siyasi tarixinə qısa baxış onu göstərir ki, bu ərazi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşdırılmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur.

Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgədə hələ qədim dövrlərdən etibarən türk əhalisinin məskunlaşmasını təsdiq edir. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etno-simvolla – "bozqurd" (börü) ilə bağlıdır. Erkən orta əsrlərdən başlayaraq bütün mənbələrdə Borçalı toponimi bəzən kalka edilsə də, "qurdların (börülərin) yaşadığı yer" anlamında işlədilir. Tarixi qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır.

Yekun nəticə. Tarixi faktlar sübut edir ki, bölgə müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuş və bütün dövrlərdə öz hərbi-strateji əhəmiyyətinə, habelə ticarət yollarının buradan keçməsinə görə mühüm əhəmiyyət daşımışdır. Bu səbəbdən Borçalı bölgəsi demək olar ki, daim dövlətlərarası rəqabət meydanına çevrilmiş, dəfələrlə əldən-ələ keçmişdir. Mürəkkəb hərbi-siyasi hadisələrin baş verdiyi əsas ərazilərdən birinə çevrilməsi Borçalı əhalisinin tarixi taleyinə, bölgənin demoqrafik vəziyyətinə də özünəməxsus təsir göstərmişdir.

Ədəbiyyat

1. Məmmədov, K. Unudulan və unutdurulan tarix. "Borçalının səsi", № 01, 02-09 iyul 2005-ci il.
2. Məmmədli, Ş. Alın yazımız. Gürcüstan Azər türklərinin tarixi. – Tiflis: Samşoblo, – 1997, – 104 s.
3. İmrani, R. Kafkasda Medeniyyet və Kültürün Oluşması və Gelişmesinde Türk Halklarının Önemi. // I Uluslararası Kafkasya Halk Kültürü Konqresi. Kars: Kafkas Universitesi, Geleneksel Aşık Sanatı və Edebiyyatı Uygulama ve Araştırma Merkezi. –Kars, – 2017, – s.1-29.
4. Kırzıoğlu, F. Yukarı Kür Ve Çoruk Boyları'nda Kıpçaklar, Ankara, Türk Tarihi Kurumu Basımevi, – 1992, – 278 s.
5. Алиева, И. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1917). – Баку: "Bakı", – 2009. – 224 с.

6. Багратиони, В. История царства Грузинского. – Тбилиси: Мецниереба, – 1976, – 197 с.
7. Бутков, П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. (Перечень хронологических указаний). – СПб.: Издательство Академии Наук, – 1869. – 548 с.
8. Иоселиани, П.И. Путевые записки по Дагестану в 1861 году. – Тифлис: Тип. Гл. упр. наместника кавказского, – 1862. – 103 с.
9. Мровели, Л. Жизнь картлийских царей. – Москва: Наука, – 1979. – 103 с.
10. Такайшвили, Е.С. Источники грузинских летописей. Три хроники (перевод с грузинского) СМОМПК. вып. XXVIII. – Тифлис, – 1900. – с.1-216.

Məqalə tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 10.01.2025, son daxilolma – 05.02.2025, qəbulolunma – 05.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.184-190
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.184-190
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.184-190

UOT:93(94)
https://doi.org/10.30546/670832.2025.01.941

Dünya mətbuatında ermənilərin Naxçıvana qarşı əsassız iddialarına dair

Müəllif(lər):

Nurlana Əliyeva
AMEA Naxçıvan Bölməsi
E-poçt: aliyevanurlana71@gmail.com

Açar sözlər: Naxçıvan, erməni iddiaları, dünya mətbuatı, qəzet, jurnal

Annotasiya. Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana qarşı əsassız erməni iddialarının dünya mətbuatında necə təbliğ olunduğu araşdırılır. Mövzunun aktuallığı ondan ibarətdir ki, hazırda informasiya müharibəsi şəraitində saxta tarixçilik və təhrif olunmuş mənbələrin geniş yayılması cəmiyyətin obyektiv tarixi biliklərinə ciddi təsir göstərir. Məqalənin məqsədi erməni diasporunun mətbuat vasitəsilə formalaşdırdığı yanlış təsəvvürləri ifşa etmək, bu iddiaların elmi-hüquqi əsassızlığını üzə çıxarmaq və Naxçıvanın qədim türk mədəniyyətinə məxsusluğunu sübut edən faktları elmi ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Tədqiqatda tarixi-müqayisəli təhlil, mənbəşünaslıq yanaşması və diskurs analizi metodlarından istifadə edilmişdir. Əsas mənbə kimi erməni mətbu orqanları, Azərbaycan və dünya alimlərinin elmi araşdırmaları, həmçinin arxeoloji və epiqrafik materiallar müqayisəli şəkildə təhlil olunmuşdur.

Araşdırmanın nəticələri göstərir ki, erməni mətbuatında Naxçıvanın "tarixi erməni torpağı" kimi təqdim olunması mifoloji süjetlərə və saxta tarixçilik üsullarına əsaslanır, lakin faktoloji və elmi dəlillərlə təsdiqlənmir. Əksinə, arxeoloji qazıntılar, yazılı mənbələr və toponimlər Naxçıvanın qədim dövrlərdən etibarən türk etnosunun yaşadığı ərazi olduğunu sübuta yetirir. Bu nəticə bir daha göstərir ki, Naxçıvan üzərində irəli sürülən erməni iddiaları beynəlxalq hüquq və elmi arqumentlərlə tam əsassızdır.

Author(s):

Nurlana Aliyeva
Azerbaijan National Academy of Sciences, Nakhchivan Branch
E-mail: aliyevanurlana71@gmail.com

Key words: Nakhchivan, armenian claims, world press, newspaper, journal

On the unfounded armenian claims against Nakhchivan in the world press

Abstract. The article examines how the unfounded Armenian claims against Nakhchivan, an integral part of Azerbaijan, are promoted in the world press. The relevance of the topic lies in the fact that, in the current information warfare environment, the widespread dissemination of fake historiography and distorted sources significantly affects the society's objective historical knowledge. Purpose of the article. The purpose of this article is to expose the misconceptions created by the Armenian diaspora through the media, reveal the scientific and legal baselessness of these claims, and draw the attention of the scientific community to facts proving Nakhchivan's belonging to ancient Turkic culture.

The study employs historical-comparative analysis, source criticism, and discourse analysis methods. The main sources analyzed comparatively include Armenian media outlets, scientific research by Azerbaijani and international scholars, as well as archaeological and epigraphic materials.

Findings. The results of the research show that the portrayal of Nakhchivan as "historical Armenian land" in the Armenian press is based on mythological narratives and pseudo-historical methods, but it is not supported by factual or scientific evidence. On the contrary, archaeological excavations, written sources, and toponyms demonstrate that Nakhchivan has been inhabited by the Turkic ethnic group since ancient times. These findings further confirm that Armenian claims over Nakhchivan are entirely unfounded according to international law and scientific arguments.

Автор(ы):

Нурлана Алиева
Нахчыванское отделение НАНА
Э-почта: aliyevanurlana71@gmail.com

Ключевые слова: Нахчыван, армянские претензии, мировая пресса, газета, журнал

О необоснованных претензиях армян к Нахчывану в мировой прессе

Аннотация. В статье исследуется, как в мировой прессе пропагандируются необоснованные армянские претензии к Нахчывану, который является неотъемлемой частью Азербайджана. Актуальность темы заключается в том, что в настоящее время в условиях информационной войны ложный историзм и широкое распространение искаженных источников серьезно влияют на объективные исторические знания общества. Целью статьи является разоблачение заблуждений, сформулированных армянской диаспорой через прессу, выявление научно-правовой необоснованности этих утверждений и доведение до сведения научного сообщества фактов, доказывающих принадлежность Нахчывана к древнетюркской культуре.

В исследовании использованы методы историко-сравнительного анализа, источниковедческого подхода и анализа дискурса. В качестве основного источника были сравнительно проанализированы армянские органы печати, научные исследования азербайджанских и мировых ученых, а также археологические и эпиграфические материалы.

Результаты исследования показывают, что представление Нахчывана в армянской прессе как «исторической армянской земли» основано на мифологических сюжетах и ложных методах историзма, но не подтверждается фактологическими и научными данными. Напротив, археологические раскопки, письменные источники и топонимы доказывают, что Нахчыван с древних времен был территорией проживания тюркского этноса. Этот вывод еще раз свидетельствует о том, что армянские претензии на Нахчыван совершенно необоснованны с точки зрения международного права и научных аргументов.

Giriş. Bu gün Azərbaycan tarix elminin qarşısında duran ən mühüm vəzifələrdən biri ermənilərin öz təcavüzkar ideyalarını reallaşdırmaq üçün xalqımıza qarşı həyata keçirdikləri soyqırım, deportasiya, ərazi iddialarının köklərini, mərhələlərini açıb göstərməkdən ibarətdir. Erməni şovinizmi yalnız Azərbaycan xalqı üçün deyil, qonşu xalqlar və bütün bəşəriyyət üçün də ciddi təhlükələr yaradır.

Çox təəssüf ki, indiyə qədər dünya ictimaiyyətinin ermənilərin insanlığa qarşı yönəlmiş bu zidd hərəkətləri haqqında məlumatı kifayət qədər çox olsa da, erməni təbliğatının və ermənipərəst mətbuatın səyləri nəticəsində onların "əzabkeş millət" obrazı yaradılmışdır. Ermənilər uzun illər ərzində dünyanın müxtəlif ölkələrində erməni və digər dillərdə çoxsaylı mətbuat orqanları yaratmış, bu qəzet və jurnalların səhifələrində Naxçıvana qarşı da uydurma ərazi iddialarını əks etdirən xəbərlərə, məlumatlara yer vermişlər.

Material və metodlar. Bu məqalənin yazılmasında əsas məqsəd, erməni ideologiyasının və diaspor mətbuatının Naxçıvan bölgəsinə qarşı irəli sürdüyü əsassız ərazi iddialarının beynəlxalq informasiya məkanında necə təbliğ edildiyini araşdırmaq, bu iddiaların elmi, tarixi və hüquqi baxımdan əsassız olduğunu sübut etməkdir. Tədqiqat işində aşağıdakı metodlardan istifadə olunmuşdur:

– **Tarixi-analitik metod:** Naxçıvanın qədim tarixini əks etdirən mənbələr (arxeoloji tədqiqatlar, yazılı abidələr, tarixi sənədlər) əsasında bu ərazinin türklərə məxsus olduğunu sübut edən faktlar toplanmış və təhlil olunmuşdur.

– **Mətn və diskurs analizi:** Dünya mətbuatında və erməni informasiya vasitələrində (qəzet, jurnal, veb portallar) yer alan yazılar, məqalələr və kitablar təhlil edilmiş, onlarda istifadə olunan mifoloji və ideoloji konstruksiyalar araşdırılmışdır.

– **Komparativ təhlil metodu:** Erməni mənbələrindəki iddialar ilə beynəlxalq və yerli alimlərin elmi nəticələri müqayisə edilmiş, təzadlar üzə çıxarılmışdır.

– **İstinad və bibliometrik metod:** Məqalədə çoxsaylı yerli və xarici mənbələrə (kitab, məqalə, elektron resurslar) istinad edilmiş, onların təhlili əsasında ümumiləşdirilmiş nəticələr çıxarılmışdır.

– **Empirik məlumatların toplanması:** Ermənistan və erməni diasporunun nəşr etdirdiyi mətbuat orqanları, eləcə də onların təbliğat vasitəsi kimi çıxış edən internet saytları üzrə geniş məlumat bazası yaradılmışdır.

Bu metodoloji yanaşma vasitəsilə, Naxçıvanla bağlı uydurma erməni iddialarının mahiyyəti və məqsədi ifşa olunmuş, tarixi reallıqlara əsaslanan elmi mövqelər önə çəkilmişdir. Əldə olunan nəticələr, həm də informasiya müharibəsində elmi əsaslı arqumentlərin zəruriliyini ortaya qoyur.

Erməni mətbuatının coğrafi yayılması və ideoloji məqsədləri. Apardığımız təhlillər göstərir ki, Argentinada erməni və ispan dillərində "Diario Armenia", "Sardarabad", Avstraliyada "Armenian News from Australia", "Armenia Online Australia", Kanadada erməni, fransız və ingilis dillərində "Abaka", "Ardziv – Արծիւ", "Horizon – weekly", erməni və ingilis dillərində "Torontohye", Kiprdə yunan, ingilis və erməni dillərində "Artsakank", erməni dilində "Azad Tsayn", "Keghart", Misirdə ərəbcə "Arek", ermənicə "Arev", "Deghegadou", "Housaper", "Tchahagir", Fransada erməni və fransız dillərində "Gamk", ermənicə "Haratch", "Nor Haratch", Gürcüstanda "Miutyun", "Vrastan", Yunanıstanda "Armenika Magazine", "Azat" "Nor Ashkharh", Hindistanda "Azdarar", İranda "Alik", "Arax", Livanda "Ararad", "Aztag", "Massis", "Zartonk", Polşada polyak və erməni dillərində "Awedis", Rusiyada "Aniv", "Armenian Times", "Gortsarar" "Havatamk", "Noev Kovcheg", Suriyada "Kantsasar", Birləşmiş Krallıqda "Armenian Voice", ABŞ-da "AMN Hye Kiank", "Armenian Life", "Armenian Mirror-Spectator", "Armenian Observer", "Armenian Reporter", "Armenian Weekly", "Asbarez", "Baikar", "California Courier", "Hairenik", "Massis", "Nor Hayastan", "Nor Or", "Oragark", İtaliyada "Akhtamar" kimi çoxsaylı qəzet və jurnallar dərc edilir.

Bu uydurmalara nümunə olaraq Rusiyada dərc edilən "Noev Kovcheg" qəzetində erməni müəllifi Aleksandr Svarantsın "Naxçıvan üç sivilizasiyanın qovşağında" məqaləsindəki aşağıdakı fikirləri göstərə bilərik:

"Qarabağ, Zəngəzur və Naxçıvan rayonlarında çıxışların baş verməsi mahiyyətcə bir-birinə bağlıdır və bütün bunlar əvvəlcədən düşünülmüş

və hazırlanmış proqrama uyğun olaraq reallaşır. Şübhəsiz ki, bütün bunlar Ermənistan hökumətinə qarşı həyata keçirilir və məqsəd müsəlmanların hakimiyyətini gücləndirməklə ermənilər Tatar halqası ilə əhatə etməkdir.... 1991-1994-cü illərdə Qarabağ hərbi münaqişəsi zamanı Ermənistan heç vaxt Naxçıvana iddia qaldırmağa cəsarət etməyib, sərhəd boyu ayrı-ayrı atışmalar istisna olmaqla, döyüş əməliyyatları Naxçıvan ərazisinə toxunmayıb. Baxmayaraq ki, Naxçıvan muxtariyyətinin Ermənistan-Azərbaycan münaqişəsi şəraitində Dağlıq Qarabağla bağlı anklavda qalması bu respublikanın sosial-iqtisadi vəziyyətini və təhlükəsizlik risklərini daha da ağırlaşdırır...” [12].

Təbii ki, bu cür iddiaların heç bir tarixi və hüquqi əsası yoxdur. Adıçəkilən üç bölgət XIX əsrə qədər heç bir zaman ermənilərin kütləvi üstünlük təşkil etdildiyi ərazilər olmamışlar.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il martın 28-də “31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti”ndə deyilir: “Erməni millətçiləri və şovinistləri “Böyük Ermənistan” xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kompaniyası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimaiyyətini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı mənəvi təcavüz kompaniyası aparır, dünya ictimaiyyətinin nəzərində “əzabkeş, məzlum erməni xalqı” obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırım faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya 100 il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir, öz hərəkətləri ilə təcavüzkarı şirnikləşdirirlər. Öz müvəqqəti və ardıcıl uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş, sivil birgəyaşayış normalarını kobudcasına pozurlar” [5, s. 21].

Məlumdur ki, ermənilər Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etməkdə və bu iddialarını qanuniləşdirmək üçün saxta tarixçilik metodologiyasına müraciət etməkdə, hətta məsələyə siyasi və dini baxımdan da yanaşmaqdadırlar. Şübhəsiz ki, buna rəvac verən müxtəlif məqamlar vardır. Heç təsadüfi deyildir ki, bu iddialar dünya mətbuatında sıx-sıx gündəmə gətirilərək, Azərbaycana və ümumiyyətlə, türklüyə qarşı mənfi rəylərin formalaşmasına səbəb olmuşdur. Ermənilər tərəfindən istər internet saytlarında, istərsə də dərc olunan kitab, məqalə və dövri mətbuatlarda Naxçıvanın hal-hazırda Azərbaycanın sərhədləri daxilində olmasına baxmayaraq, guya tarixən erməni ərazisi olduğu şəklində əsassız iddialara yer verilməkdədir. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, onlar məsələyə vəd olunmuş torpaqlar çərçivəsində baxırlar.

Məhz, bu siyasətin nəticəsidir ki, Birləşmiş Ərəb Əmirliyinə məxsus internet saytlarından birində, Yaxın Şərq ermənilərinin “Azad-Hye” adlı internet portalında Suriya ermənilərindən olan yazıçı Avo Katerçiyanın “Ermənistan Naxçıvanı, yaxud təhrif olunmuş Naxçıvan” adlı kitab yazması haqqında məlumat verilir. Kitabdan aydın olur ki, “yazıçı-tədqiqatçı” burada Naxçıvan tarixinə aid faktları saxtalaşdırmış, Naxçıvanı tarixi Ermənistan ərazisi kimi təqdim etmiş, qədim yaşayış məskənlərimizin adlarını ermənileşdirmiş, coğrafi adları təhrif olunmuş formada oxuculara çatdırmışdır.

Tanınmış Amerika alimi Səmyuel A. Vimz yazmışdır ki, “üç min ildən artıq dövrdə ermənilərin heç bir milli torpağı olmamışdır, indi isə onlar tarixin zibil qablarından müftə-müsəlləm “tarixi, milli ərazilər” iddiasına düşmüşlər” [8, s. 252].

Ermənilər illərdir Naxçıvanın siyasi tarixi haqqında ağ yalanlar uydururlar. Ermənilər arasında yayğın olan ənənəvi düşüncəyə görə, Naxçıvan da daxil tarixi türk torpaqları Hz. Nuh tərəfindən guya ermənilərə vəd edilmişdir.

Erməni tarixçisi Mikael Vardabet Çamıçyanın 1811-ci ildə İtaliyada nəşr edilmiş “Ermənilərin tarixi” adlı kitabında qeyd edilir:“… Tufandan sonra Nuhun oğulları Yafəs, Sam və Ham Araratda məskunlaşaraq törəyib çoxaldılar. Sam oğlanları ilə birlikdə şimal-qərbə, Ham

ilə Yafəs də oğlanları ilə birlikdə Ermənistanın müxtəlif ərazilərinə yayıldılar. Hamın övladları qərb hüdudlarında, Yafəsin oğlanları da Ararat dağı ətrafında məskunlaşdılar. Onların bir qismi Mesopotamiya tərəflərinə getdilər ki, Yafəsin nəvələrindən olan və ermənilərin atası olaraq qəbul edilən Hay (və ya Hayk) da onların içərisində idi. Babil qalasının inşasında iştirak edən Hayk 130 yaşında ikən bu qalanın yıxılması səbəbiylə oğulları və nəvələri ilə birlikdə Ermənistana gəldi. Onların hamısı eyni dildə, eyni ləhcədə danışırdılar və böyük ehtimalla bu dil ermənicə idi. Yafəsdən Qomer, Qomerdən Torqom, Askenaz, Torqomdan da Hayk əmələ gəldi. Hayk ata və ya baba mənasındadır. Haykdan da millətimiz ortaya çıxdı. Yəni bir millətin atası olduğu üçün ona Hayk adı verilmişdir. Bizim tariximiz Haykdan başlayır…" [11, s. 25-26].

Deyilənlərdən belə çıxır ki, Nuh peyğəmbər erməni imiş, erməni olduğuna görə də onun və övladlarının ayaq basdığı torpaqlar ermənilərə məxsus olmalıdır. Ermənilər Qafqaz və Şərqi Anadolu bölgələrinin bir zamanlar məhz Hz. Nuhun nəvəsinin nəvəsi olan Haya vəd edildiyini önə sürürlər. Məhz bu baxımdan erməni ideologiyası "seçilmiş millət və vəd olunmuş torpaqlar" iddiaları üzərində yaranıb möhkəmlənmişdir.

Göründüyü kimi, ermənilər müqəddəs dini kitablarda adı çəkilən Nuh peyğəmbərin erməni mənşəli olduğuna inanırlar. Ağrı dağının adı Bibliyada "Ararat" olaraq keçir. "Ararat" kəlməsinin ermənilərlə və erməni dili ilə heç bir əlaqəsi yoxdur. Bildiyimiz kimi, Urartu tayfaları Asiya mənşəli xalq olduğu üçün hay ola bilməzdilər. Haylar isə Hind-Avropa dilli xalqdır. Digər tərəfdən, qeyd edək ki, bu dağ Bibliyada "Ararat" şəklində yazılmışdır, halbuki Bibliyanın ortaya çıxdığı dövrlərdə erməni millətindən və dilindən söhbət gedə bilməzdi.

Hal-hazırda erməni kimliyi də məhz həmin iddialar üzərində möhkəmlənmişdir. Məlumdur ki, bu cür iddialar elm adına heç bir gerçəyi özündə əks etdirmir. Bütün bunlar mifoloji təxəyyüllərə əsaslanan əfsanəvi iddialardır. Məsələyə dini tərəfdən yanaşdıqda, bəşəriyyətin ilk atası Adəm peyğəmbər sayıldığı kimi, Dünya Tufanı səbəbiylə bəşəriyyətin ikinci atası da Nuh peyğəmbər sayılır. Belə bir halda, hər hansı milli mənsubiyyətdən danışmaq düğün olmazdı [1].

Bu fikirlərin heç bir elmi əsası yoxdur və erməni alimlərinin uydurmalarıdır. Arxeoloji, tarixi-coğrafi tədqiqatların nəticələri göstərir ki, Naxçıvan diyarı tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsi, ayrılmaz ərazisi olmuşdur [2, s. 130]. Tarixi mənbələr və arxeoloji materiallar göstərir ki, eramızdan əvvəl IV-II minilliklərdə Naxçıvan ərazisində yaranan böyük tayfa ittifaqları Azərbaycan xalqının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Naxçıvanda aşkar edilən daş və metal dövrünə aid abidələr, Gəmiqayadakı sərt qayalar üzərində çəkilmiş iki minə yaxın müxtəlif təsvirlər, sənətkarlıq baxımından önəmli olan boyalı qablar mədəniyyəti və inkişaf etmiş qədim şəhərsalma izləri bu bölgənin qədim türk yurdu və ilkin sivilizasiya mərkəzlərindən biri olduğunu sübut edir..

Naxçıvan sözü də bu ərazidə yaşamış qədim tayfalardan biri olan "naxç"ların adı ilə bağlıdır [4, s.28]. Bizim eranın əvvəllərindən başlayaraq Naxçıvan ərazisinə bulqar, hun, peçenek, kəngər və xəzər tayfaları gəlmişlər. Adı çəkilən tayfaların onlarla qol və tirələri bu bölgədə məskunlaşmışlar. Naxçıvan bölgəsində habelə Səlcuq oğuzlarının bəkdilli, xələc, yaycı və başqa tayfaları da iz qoymuşlar. Türk tayfalarından ustaclı, didivarlı, qızıllı, əmrxanlı, ərəfsəli, hacılı, keçili, kəlfirli, kolanılı, qaraxanbəyli, qarxunlu, əlixanlı, muğanlı və onlarla başqaları bölgənin aborigen xalqları olmuş, bu gün də Naxçıvan Muxtar Respublikası ərazisində həmin tayfaların adları ilə bağlı yaşayış məskənləri mövcuddur [2].

Bütün bunlar bir daha onu təsdiq edir ki, Naxçıvan ərazisində qədimdən türk mənşəli etnoslar yaşamışlar. Tarixin heç bir mərhələsində ermənilərlə bağlı Naxçıvan diyarında yer adı olmamış və bu gün də yoxdur. Naxçıvan ərazisi uzun əsrlər ərzində bir-birini əvəz edən Manna, Midiya, Əhəmənilər imperiyası, Atropatena, Parfiya, Sasanilər və b. dövlətlərin tərkibində olmuş və həmin dövlətlərin ən inkişaf etmiş əyalətlərindən biri olmuşdur. Naxçıvan qədim zamanlardan bu günə kimi müxtəlif böyük dövlətlərin tərkibində olduqda da Azərbaycanın ayrılmaz tərkib hissəsini təşkil etmişdir.

Naxçıvan haqqında Yerevanda və xarici ölkələrdə bir çox kitablar nəşr olunur. Məsələn, Almaniyada fəaliyyət göstərən "Erməni memarlığını öyrənən təşkilat" "Naxçıvan" adlı kitabal-

bom nəşr edərək, Naxçıvanın "erməni torpağı" olmasını "sübut" etmək iddiasına düşmüşdür [3, s. 6].

Beləliklə, Naxçıvanın Azərbaycan tərkibində qalması məsələsi qəti həll olundu. Bu, Ermənistanın Naxçıvana yiyələnmək cəhdlərinin, habelə Moskvanın müəyyən rəhbər dairələrinin və Orconikidzenin Naxçıvanı Ermənistana vermək uğrunda uzun müddət ərzində apardıqları mübarizənin boşa çıxması demək idi.

Erməni xadimlərinin Naxçıvana iddialarında digər "tutarlı dəlil" Naxçıvan əhalisinin milli tərkibinə aiddir. Erməni müəllifi R.Yengibaryana görə, guya ermənilər Naxçıvan əhalisinin 80%-ni təşkil etmişlər. Balayan iddia edir ki, guya sovet dövründə Naxçıvandan 150 min erməni həmişəlik öz yurdlarından didərgin düşüb. Mikaelyan yazır ki, "Naxçıvan əhalisinin 55 %-ni təşkil edən ermənilər Sovet Azərbaycanının "ardıcıl olaraq yeritdiyi aparteid siyasəti", Azərbaycanda "ermənilərin və qeyri azərbaycanlıların ağ genosidi nəticəsində" "tamamilə sıxışdırılıb çıxarılmışdır". Biri digərini rədd edən bu iddiaların hamısı ağ yalandır, uydurmadır [3].

Uzun müddət Türkiyədə Rusiyanın diplomatik nümayəndəsi işləmiş V.V.Mayevski qeyd edir ki, "həqiqət yoxdur, çünki erməni müəllifləri həqiqətdən qaçırlar. Onların bütün fəaliyyəti elə yalan-palanlar, elə eşidilməmiş qəddarlıqlar uydurmaqdan ibarətdir ki, bunlar ermənilərə simpatiya, türklərə antipatiya doğursun" [3, s.12].

Dünyanın bəzi dövlətlərinin informasiya və mətbuat orqanlarında "Erməni məsələsi"nin özünəməxsus yeri vardır. Xüsusilə bu məsələ ilə bağlı çoxşaxəli informasiyalar hər ilin aprel ayından başlayıb, may ayının sonlarına qədər davam edir. Amma son dövrlərdə nəinki aprel-may aylarında, hətta ilin bütün aylarında bu məsələyə yer ayırmışdır.

Məsələn, Fransada 3 aylıq jurnallardan "Les Nouvelles d'Armenie", "Azad Magazine", iki həftəlik jurnallardan "Achkhar", "Lettre de UGAB", iki günlük qəzetlər "Gamk" və "Haratch" yayınlanmaqdadır. Fransız ictimaiyyətinə anti türkçülük ideyaları ilə bağlı saxta məlumatlar "Le Monde", "Liberation", "Le Figaro", "Le Canard Enchaine" kimi ictimaiyyətdə mətbuat orqanları tərəfindən çatdırılmaqdadır [9, s. 242].

ABŞ-da isə ümumi mətbuat orqanları arasında erməni iddialarına ən böyük dəstəyi "New York Times" qəzeti verməkdədir. ABŞ və Kanadadakı erməni mətbuat orqanları Hınçak və Daşnaksütyun partiyaları tərəfindən yönləndirilir [10, s.90]. Erməni araşdırmalarına dair ABŞ-da təxminən 17 dövri mətbuat mövcuddur ki, bunların 5-i Kaliforniyada, 3-ü Nyu Yorkda, 4-ü Massaçusetsdə, 2-si Ohayoda, digərləri isə Vaşinqton, Miçiqan və İllinoysdə nəşr edilməkdədir. Bu dövri mətbuatların 4-ü erməni və ingilis dillərində, 13-ü isə tamamilə ingilis dilində çıxmaqdadır.

Qeyd edək ki, TV va radio proqramlarında türklüyə yönəlik bölücülük, düşmənçilik, kin və nifrət aşılayan verilişlər efirə ötürülməkdədir. Türk-Amerikan Dərnəkləri Federasiyası Başqanı Egemen Bağışın ermənilər tərəfindən TV və radio kanalları vasitəsilə türkçülüyün əleyhinə düşmənçilik hisslərinin aşılanması, gənclərin beyinlərinin nifrət və intiqam psixologiyası ilə doldurulması, hətta təhqiramiz sözlərdən istifadə edilməsi ilə bağlı dediyi sözlər olduqca düşündürücüdür: "Çox vaxt azyaşlı erməni uşaqlarını verilişə dəvət edirlər. Buna misal olaraq, belə verilişlərdən birinə dəvət edilən 5 yaşındakı erməni qızına "köpək" deyildiyi zaman, ilk olaraq ağlına nəyin gəldiyini soruşduqlarında, azyaşlı qız, "türklər" cavabını verir. Yəni bu beyin doldurma taktikası çox kiçik yaşlardan etibarən başlayır" [10, s.94].

Bu, həqiqətən də azyaşlı və ya çoxyaşlı olmasına baxmayaraq, həm bütün ermənilərin, həm də yaxından-uzaqdan "erməni məsələsi" ilə tanış olmayanların beyinlərini dəyişdirmə taktikasıdır.

Ermənilər bunun kimi yüzlərlə mətbuat orqanı və TV kanalları vasitəsilə Azərbaycan və Türkiyənin beynəlxalq aləmdə imicini zədələməyə və torpaq iddialarını gündəmə gətirməyə davam edirlər. Belə ki, qondarma erməni soyqırımı, ermənilərin guya tarixi ərazilərindən qovulması, ilk xristian millətini şəhid edən vəhşi türklər və onların erməni düşmənçiliyi və s. bu kimi məsələlər sıx-sıx gündəmə gətirilməkdədir.

Dünya mətbuaında Azərbaycanın bəzi regionları, ancaq ən başlıcası, onun ayrılmaz parçası olan Naxçıvanla bağlı erməni iddialarını xüsusilə diqqəti cəlb edir. Heç təsadüfi deyildir ki, son dövrlərdə Naxçıvandakı tarixi memarlıq abidələrinin guya ermənilərə məxsus olması, eyni zamanda xaçkarların dağıdılması məsələsi nüfuzlu

beynəlxalq qurumların müzakirə obyektinə çıxarılmışdır. Şübhəsiz ki, bu cür iddialar daha əvvəllər də önə sürülürdü, ancaq günümüzdə bu təzyiq və hücumlar daha geniş xarakter almışdır.

Naxçıvanla bağlı digər iddialar isə Arqam Ayvazyanın ingilis dilində nəşr etdirdiyi "Jugha", "Nakhjivan Book of Monuments", K.Patkanyanın "Choice Selections from Armenian Chronicles" adlı əsərlərində, İsveçrə-Ermənistan Parlament Qrupunun Berndə nəşr etdirdikləri "The destruction of Judja" adlı kitabda rast gəlmək mümkündür.

Qısaca olaraq onu deyə bilərik ki, müxtəlif dillərə tərcümə edilən yüzlərlə kitab, məqalə və informasiyalar vasitəsilə ermənilər iddia etdikləri ərazilərə siyasi, inzibati-ərazi baxımından deyil, həmçinin qədim mədəniyyət baxımından da sahib olduqlarını sübut etməyə çalışırlar. İddialar var və olacaq, lakin tarixi türk torpağı olan Naxçıvan keçmişdə olduğu kimi, bu gün də özünün "Türk qapısı" kimliyini qoruyur və mühafizə edir.

Naxçıvana qarşı əsassız iddialar Zori Balayan, Avo Katerciyan, Arqam Ayvazyan, Sergey Şakaryants, Mqer Arutyunyan və başqaları tərəfindən də önə sürülməkdədir. Bu müəlliflər tərəfindən irəli sürülən iddialarda Naxçıvan tarixi Ermənistan ərazisi kimi tanıtdırılır, yalan sazişlərin qurbanı kimi göstərilir və eyni zamanda guya erməni mədəni irsinin guya azərbaycanlılar tərəfindən həvəslə dağıdılması, daş xaçlara qarşı edilən vəhşiliklər qeyd olunur.

Erməni tarixçisi Manuk Abekyan, ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqları barədə yazır ki, "…erməni xalqının mənşəyi nədir, necə və nə vaxt, haradan və hansı yollarla buralara gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətlərinə kimlər necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur…" [7].

Bu irs mədəni oğurluq üzərində qurulmuşdur. Heç təsadüfi deyildir ki, ermənilər yer üzünün ilk xristian milləti kimi gülünc obrazlarla dünya ictimaiyyətinin beynini qarışdıraraq Naxçıvanda və Azərbaycanın digər bölgələrindəki abidələri tarixi erməni abidələri şəklində tanıtdırmaqda və bu surətlə reallıqları saxtalaşdıraraq, bunları qonşu ölkələrin torpaqları üzərindəki ekspansional əməllərinə vasitə etməkdədirlər.

Qaynaqlar ermənilərin çirkin siyasətlə Naxçıvana köçürülməsindən sonra burada zaman-zaman gizli, və ya aşkar şəkildə həm insanlara, həm də yer adlarına qarşı soyqırım törətdiklərini sübut edir. Mövzunun aktuallığını nəzərə alaraq, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmlər üzrə fəlsəfə doktoru Firudin Rzayev qeyd edir ki, "Başqa xalqların tarixindən oğurlanmış "erməni tarixi" bu gün bəzi dövlətlərin siyasi marağı fövqündə tarixə daxil olur, muzdlu tarixçilər tərəfindən müdafiə olunmaqla konfliktlərə, müharibələrə, soyqırımlara yol açır. Azərbaycan xalqı bu acıların canlı şahidləridir" [6].

Nəticə və müzakirə. Aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, erməni ideologiyası və diaspor mətbuatı uzun illərdir Naxçıvanla bağlı sistemli və məqsədyönlü təbliğat fəaliyyəti həyata keçirir. "Əzabkeş erməni xalqı" obrazı üzərindən qurulan bu informasiya hücumlarının arxasında həm ideoloji manipulyasiya, həm də siyasi ambisiyalar dayanır. Müxtəlif dillərdə nəşr edilən yüzlərlə qəzet, jurnal və elektron resurslar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqəti manipulyativ və saxta tarixi iddialarla yönləndirilir. Bu iddiaların əsas hədəfi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsini qeyri-qanuni şəkildə "tarixi erməni torpağı" kimi təqdim etməkdir.

Məqalədə toplanmış faktlar, Naxçıvanla bağlı aparılmış arxeoloji qazıntılar, tarixi mənbələr və toponimik dəlillər ermənilərin uydurma iddialarını tam şəkildə ifşa edir. Bu baxımdan, son illər həm yerli, həm də xarici alimlər tərəfindən aparılan elmi araşdırmaların beynəlxalq səviyyədə yayılması və bu sahədə geniş informasiya resurslarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq mətbuatda yer alan təhrif olunmuş materiallar yalnız tarixi saxtalaşdırmaqla kifayətlənmir, eyni zamanda türklüyə və İslam mədəniyyətinə qarşı düşmənçilik, nifrət və bölücülük ideyalarını da təşviq edir. Bu, xüsusilə azyaşlı erməni nəsillərinin yetişdirilməsində təhlükəli nəticələr doğurur və gələcək nəsillər arasında etnik qarşıdurmaların dərinləşməsinə xidmət edir.

Araşdırmanın nəticələri göstərir ki, informasiya müharibəsində ən güclü silah elmi əsaslı tədqiqatlar, tarixi gerçəkliklər və beynəlxalq hüquqa söykənən həqiqətlərdir. Bu baxımdan, Azərbaycan alimləri və müvafiq qurumları Naxçıvanın tarixinin obyektiv tədqiqi və bu həqiqət-

lərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətlərini daha da gücləndirməlidirlər.

Yekun nəticə. Aparılan tədqiqatlar bir daha sübut edir ki, erməni ideologiyası, xüsusilə də erməni diasporunun mətbuat və informasiya vasitələri üzərindən apardığı təbliğat, Naxçıvanın Azərbaycan torpaqlarından biri olması faktını inkar etməyə yönəlmiş sistemli fəaliyyətin tərkib hissəsidir. Erməni tərəfi əsassız iddialarını tarixi və dini mifologiyalar üzərindən əsaslandırmağa çalışmaqla bərabər, beynəlxalq ictimaiyyətin rəğbətini qazanmaq üçün yalançı "əzabkeş millət" obrazı formalaşdırmış və bu stereotipi informasiya müharibəsinin əsas alətinə çevirmişdir.

Tədqiqat nəticəsində məlum olmuşdur ki, dünyanın müxtəlif ölkələrində nəşr olunan erməni mətbuatı vasitəsilə, xüsusilə də qəzet və jurnalların səhifələrində Naxçıvana dair təhrif olunmuş, uydurma iddialar yayılır. Bu isə təkcə Azərbaycanın ərazi bütövlüyünə deyil, eyni zamanda beynəlxalq hüquq normalarına da açıq-aşkar hörmətsizlikdir. Digər tərəfdən, yerli və xarici alimlərin Naxçıvan ərazisində apardıqları tarixi-arxeoloji tədqiqatların nəticələri bu torpağın qədim dövrlərdən bəri türk etnoslarına mənsub olduğunu elmi şəkildə təsdiqləyir. Gəmiqaya təsvirlərindən tutmuş, toponimika və abidə komplekslərinə qədər bütün material sübutlar Naxçıvanın Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olduğunu nümayiş etdirir. Eyni zamanda, bu tədqiqat göstərir ki, erməni saxtakarlığının ifşa olunması yalnız tarixi faktların ortaya qoyulması ilə deyil, həm də beynəlxalq auditoriyada bu faktların düzgün şəkildə təqdim edilməsi ilə mümkündür. Bu məqsədlə, Azərbaycan elmi ictimaiyyəti, xüsusilə tarixçilər, filoloqlar, media mütəxəssisləri və diaspor təşkilatları birgə şəkildə fəaliyyət göstərməli, Naxçıvana dair obyektiv elmi və tarixi həqiqətləri dünya mətbuatına daşımalıdırlar.

Sonda qeyd etmək lazımdır ki, informasiya müharibəsinin getdikcə daha da gücləndiyi bir dövrdə, tarixi saxtalaşdırma cəhdlərinə qarşı elmi əsaslı, sənədlərlə təsdiqlənmiş və faktlara söykənən cavabların hazırlanması və yayılması dövlətin informasiya təhlükəsizliyi baxımından da mühüm əhəmiyyət daşıyır. Tarixi türk torpağı olan Naxçıvan, keçmişdə olduğu kimi, bu gün də Azərbaycanın "Türk qapısı" olaraq mədəni və geosiyasi mövqeyini qoruyub saxlayır.

Ədəbiyyat

1. Ermənilərin Naxçıvan iddiası… Uydurma tarix: [Elektron resurs] / Böyük millət, – 2024. URL: https://boyukmillet.com/erm-nil-rin-naxc-van-iddias-uydurma-tarix/
2. Hacıyev, İ. Naxçıvan tarixinə dair qaynaqlar / İ.Hacıyev, E.Kəlbizadə. – Bakı: Elm və təhsil, – 2018. – 238 s.
3. Köçərli, T.Q. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər / T.Q. Köçərli. – Bakı: Təknur, – 2005. – 170 s.
4. Məmmədov, R. Naxçıvan şəhərinin tarixi oçerki / R. Məmmədov. – Bakı: Azərnəşr, – 1977. – 160 s.
5. Mustafayev, A. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan / A. Mustafayev. – Bakı: ADPU, – 2013. – 302 s.
6. Naxçıvanda tarixi yer adları və ya mənəvi dəyərlərimiz erməni məkrinin daimi hədəfi kimi: [Elektron resurs] / ANL, -2011. URL: www.anl.az/down/meqal e/525/201 1/mart/162414.htm
7. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı: Azərbaycan, – 2008. – 817 s.
8. Səmyuel, A.Vimz. Ermənistan-terrorçu "xristian ölkənin gizlinləri (ermənilərin böyük fırıldaq seriyaları), I c. / A.Səmyuel. – Bakı: OKA, – 2004. – 252 s.
9. Akgönül, S. Fransa ermeni toplumu ve Türkiye: propaganda ve lobbiçilik // Ermeni araştırmaları, – 2002. №5, – s.242
10. Kantarcı, Ş. ABD ve Kanadada ermeni diasporası: kuruluşları ve failiyyetleri // Ermeni araştırmaları, – 2001. № 3, – s.67-68.
11. Uras, E. Tarihde ermeniler ve ermeni meselesi / E.Uras, – İstanbul: Belge, – 1987. – 798 s.
12. Gasimova, T. Georgian failure Armenia, 15.03.2020 [Elektron resurs] https://regionplus.az/en/articles/view/7065

Məqalə tarix üzrə elmlər doktoru, professor İsmayıl Hacıyev tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2025, son daxilolma – 13.02.2025, qəbulolunma – 11.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.191-194
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.191-194
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.191-194

UOT: 811.161.2:37.03
https://doi.org/10.30546/670832.2025.01.1105

Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yeri və metodoloji əsasları

Müəllif(lər):

Nuray Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya elmləri doktoru
E-poçt: NurayAliyeva@nmi.edu.az
https://orcid.org/0000-0003-0223-5199

Açar sözlər: dialekt, şivə, tədris, müqayisəli metod, eksperimental fonetika üsulu, interaktiv dərs metodları, layihə əsaslı öyrənmə

Annotasiya. Məqalədə dialekt fonetikasının tədrisi, bu prosesdə qarşıya çıxan çətinliklər, onun metodoloji əsasları araşdırılmışdır. Burada göstərilir ki, dialekt fonetikasının tədrisi dilin tarixi inkişafı və zənginliyinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Bu gün şivələrin ədəbi dil qarşısında tədricən zəifləməsi və şivə fərqlərinin azalması mövzunun tədqiqinin aktuallığını şərtləndirir. Ali məktəblərdə dialektologiya fənni çərçivəsində fonetik xüsusiyyətlər dərindən araşdırılmalı və tələbələrə praktiki nümunələr təqdim edilməlidir. Bu sahədə araşdırmalar, demək olar ki, yox dərəcəsindədir. Tədrisdə dialektlərarası fonetik fərqlərin müqayisəsi, ədəbi dil ilə dialektlər arasında əlaqənin izahı və fonetik dəyişmələrin tarixi aspektlərinin öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Bu zaman dialekt və şivələri müxtəlif dilçilik bölmələri üzrə sistemli, kompleks və ardıcıl şəkildə tədris etmək lazımdır. Lakin elmi ədəbiyyatlarda bununla bağlı tədqiqatlara rast gəlmirik. Məqalədə göstərilir ki, tədrisdə müxtəlif metodlardan istifadə etməklə bu prosesi daha effektiv etmək olar. Müqayisəli metod, eksperimental fonetika üsulu, interaktiv dərs metodları, layihə əsaslı öyrənmə bu metodlardan ən əsaslarıdır. Nəticə olaraq bu fənnin tədris prosesində daha geniş yer alması, dilçi mütəxəssislərin bu sahəyə daha çox diqqət ayırması və metodik yanaşmaların təkmilləşdirilməsi vacibdir.

Author(s):

Nuray Aliyeva
Nakhchivan Teachers Institute
Doctor of Philological Sciences
E-mail: NurayAliyeva@nmi.edu.az
https://orcid.org/0000-0003-0223-5199

Key words: dialect, accent, teaching, comparative method, experimental phonetics method, interactive teaching methods, project-based learning

The place and methodological foundations of dialect phonetics of the Azerbaijani language in teaching

Abstract. The article examines the teaching of dialect phonetics, the difficulties encountered in this process, and its methodological foundations. It is shown here that the teaching of dialect phonetics is important in terms of studying the historical development and richness of the language. Today, the gradual weakening of dialects in the face of the literary language and the reduction of dialect differences make the study of the topic relevant. Phonetic features should be studied in depth within the subject of dialectology in higher education institutions and practical examples should be provided to students. Research in this area is almost non-existent. In teaching, it is important to compare phonetic differences between dialects, explain the relationship between literary language and dialects, and teach the historical aspects of phonetic changes. At this time, it is necessary to teach dialects and accents in a systematic, complex and consistent manner across various linguistic disciplines. However, we do not find any studies on this in the scientific literature. The article shows that this process can be made more effective by using various methods in teaching. The comparative method, experimental phonetics method, interactive teaching methods, and project-based learning are the most basic of these methods. As a result, it is important for this subject to take a wider place in the teaching process, for linguists to pay more attention to this area, and for methodological approaches to be improved.

Автор(ы):

Нурай Алиева
Нахчыванский институт учителей
Доктор филологических наук
Э-почта: NurayAliyeva@nmi.edu.az
https://orcid.org/0000-0003-0223-5199

Ключевые слова: диалекты, говоры, обучение, сравнительный метод, метод экспериментальной фонетики, интерактивные методы обучения, проектное обучение

Место и методологические основы диалектной фонетики азербайджанского языка в обучении

Аннотация. В статье рассмотрено преподавание диалектной фонетики, трудности, возникающие в этом процессе, его методические основы. Здесь показано, что преподавание диалектной фонетики имеет важное значение с точки зрения изучения исторического развития и богатства языка. Сегодня постепенное ослабление диалектов перед литературным языком и уменьшение диалектных различий обуславливают актуальность изучения темы. В рамках дисциплины диалектология в высших учебных заведениях фонетические особенности должны быть глубоко изучены и представлены студентам практические примеры. Исследования в этой области практически отсутствуют. Важное значение в обучении имеет сравнение междиалектных фонетических различий, объяснение взаимосвязи литературного языка и диалектов, преподавание исторических аспектов фонетических изменений. В это время необходимо систематически, комплексно и последовательно преподавать диалекты и говоры по различным языковым разделам. Однако мы не находим исследований по этому поводу в научной литературе. В статье показано, что этот процесс можно сделать более эффективным, используя различные методы обучения. Сравнительный метод, метод экспериментальной фонетики, интерактивные методы обучения, проектное обучение являются наиболее основными из этих методов. Следовательно, важно, чтобы этот предмет получил более широкое место в учебном процессе, чтобы специалисты-лингвисты уделяли больше внимания этой области и совершенствовали методические подходы.

Giriş. Azərbaycan dili zəngin fonetik xüsusiyyətlərə malik olmaqla yanaşı, geniş dialekt və şivə sisteminə sahibdir. Azərbaycan dilinin dialektləri əsasən fonetik, leksik və qrammatik xüsusiyyətlərinə görə ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir. Xüsusilə fonetik aspektdə dialektlər arasında fərqlərin öyrənilməsi və tədrisi, dilin inkişaf dinamikasını anlamaq üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, dialekt fonetikasının tədrisdə rolu artırılmalı və metodik əsasları daha sistemli şəkildə işlənilməlidir. Bu məqalənin məqsədi Azərbaycan dilinin dialekt fonetikasının tədrisdə yerini araşdırmaq, onun öyrədilməsinə dair metodik yanaşmaları təklif etmək və bu sahədəki problemləri müzakirə etməkdir.

Dialekt fonetikasının nəzəri əsasları. Dialekt fonetikası, dilin müxtəlif bölgələrdə səslənmə xüsusiyyətlərini öyrənən dilçilik sahəsidir. Azərbaycan dilinin dialekt və şivələri arasında fonetik fərqlər əsasən saitlərin uzanması və ya qısalması, diftonqların dəyişməsi, bəzi samit səslərin fərqli tələffüzü, səs əvəzlənmələri ilə özünü göstərir. Məsələn, bəzi şivələrdə "gəlirəm" əvəzinə "gəliyəm", "budaq" əvəzinə "putax", bacarıram əvəzinə "başarıram", evləndi əvəzinə "əvləndi" formaları işlədilir və nəticədə sözlərin ədəbi dildən fərqli fonetik variantları meydana çıxır. Dialekt fonetikası dilin tarixi inkişafını araşdırmaq üçün də önəmlidir. Çünki hər bir dialekt və şivə müəyyən qədim fonetik xüsusiyyətləri qoruyub saxlayır və ümumi ədəbi dilin formalaşmasına təsir göstərir. Dialekt və şivələrimiz fonetik cəhətdən dilimizin qədim mənzərəsinin yaşadılması baxımından ən önəmli mənbə hesab oluna bilər. Burada qədim yazılı abidələrimizdə, ilk anadilli ədəbiyyat nümunələrimizdə, dastanlarımızda rast gəldiyimiz, türk dilləri üçün xarakterik sayılan bir çox fonetik xüsusiyyətlər mühafizə olunur ki, onları bu gün ədəbi dilimizdə görə bilmirik. Eyni zamanda şivələrimizin fonetikası ədəbi dildən fərqli olaraq türk dilləri və onların dialekt, şivələri ilə bir çox ortaq xüsusiyyətləri də özündə yaşadır.

Azərbaycan dilində dialekt fonetikasının tədrisi. Dialekt fonetikasının tədrisi dilin tarixi inkişafı və zənginliyinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Hazırda orta və ali təhsil müəssisələrində dialekt fonetikasının öyrədilməsi, əsasən, Azərbaycan dili və ədəbiyyat dərsləri çərçivəsində aparılır. Tədris prosesində aşağıdakı aspektlərə diqqət yetirmək vacibdir:

Orta məktəblərdə dialektologiya haqqında şagirdlərə yalnız ümumi məlumat verilir. Şagirdlər dialektologiyanın ədəbi dildən fərqli regional danışıq olduğu haqqında öyrənirlər. Lakin orta məktəbdə tədris prosesində əsas diqqət ədəbi dilin fonetik normalarına yönəldilsə də, dialektlərin fonetik xüsusiyyətlərinə dair müqayisəli təhlillər də aparılmalıdır.

Ali təhsil pilləsində isə tələbələr dialektologiyanı daha dərindən öyrənir, elmi əsaslarını mənimsəyirlər. "Azərbaycan dialektologiyası müstəqil fənn kimi keçən yüzilliyin ortalarından ali məktəblərin filologiya fakültələrində tədris olunur. Bu fənnin tədrisində əsas məqsəd tələbələri dialektologiyanın nəzəri məsələləri ilə tanış etmək, müasir şivələrin fonetik, leksik və qrammatik quruluşu barədə məlumat verməkdir" [4, s.3]. Ali məktəblərdə dialektologiya fənni çərçivəsində fonetik xüsusiyyətlər dərindən araşdırılmalı və tələbələrə praktiki nümunələr təqdim edilməlidir. Tədrisdə dialektlərarası fonetik fərqlərin müqayisəsi, ədəbi dil ilə dialektlər arasında əlaqənin izahı və fonetik dəyişmələrin tarixi aspektlərinin öyrədilməsi mühüm əhəmiyyət kəsb edir.

Dialekt fonetikasının tədrisi üçün effektiv metodik yanaşmalar seçilməlidir. "Təlimdə sistemliliyin olması, bəşər təcrübəsinin öyrənilməsi əsasında formalaşdırılmış məzmun üzrə iş aparılması və elmi şəkildə müəyyənləşdirilmiş prinsiplərin fəaliyyətdə nəzərə alınması ondan daha faydalı nəticələr almağa kömək edir" [1, s.8]. Bu baxımdan dialekt və şivələri də müxtəlif dilçilik bölmələri üzrə sistemli, kompleks və ardıcıl şəkildə tədris etmək lazımdır. Dilin ayrı-ayrı bölmələri arasında kəskin sərhəd olmadığı kimi, dialekt və şivələrin tədrisi zamanı da dilçiliyin müxtəlif bölmələri bir-birindən təcrid olunmuş halda təqdim oluna bilməz. Bu bölmələr bir-biri ilə əlaqələndirilməli və müqayisəli, inteqrasiya olunmuş şəkildə izah olunmalıdır. Fonetika məsələləri də tələbələrə bu şəkildə müqayisəli təqdim olunmalıdır.

Material və metodlar. Tədqiqat üçün istifadə olunan materiallar əsasən Azərbaycan dilinin dialekt və şivələrinə aid mənbələrdən ibarət-

dir. Bu sahədə aşağıdakı metodlardan istifadə edilə bilər:

1. Müqayisəli metod: Dialektlərin fonetik xüsusiyyətləri müqayisə olunaraq, tələbələrə konkret fərqlər izah edilir. Bu zaman həm dilimizin müxtəlif şivələrinə aid materiallardan, həm ədəbi dil materiallarından, həm də qohum dillərin materiallarından istifadə etmək lazımdır.Yəni burada tələbələrə dialekt və şivələrin ədəbi dillə fərqləri izah olunmaqla yanaşı, həm də dilimizin digər şivələri ilə ortaq və fərqli xüsusiyyətləri çatdırılmalıdır.

2. Eksperimental fonetika üsulu: Müxtəlif dialektlərə aid audio yazılar dinlədilərək analiz edilir. Bu zaman tələbələr əyani olaraq dialekt fərqlərini müşahidə edə bilir və müəyyən nəticələr əldə edir. Dialekt və şivələrdə özünü göstərən səs variantlarını, səs əvəzlənmələrini onlar birbaşa informatorların dilindən dinləyirlər. Bu zaman onların nəzəri biliklərə yiyələnən zaman bəzən tam olaraq ayırd edə bilmədikləri səs variantlarını müşahidə edilir və dəqiqləşdirilir. Müasir Azərbaycan ədəbi dilində və Azərbaycan dilinin bütün dialekt və şivələrində sait səslərin kəmiyyəti eynidir. Həm ədəbi dildən, həm də bir sıra türk dillərindən fərqlənmə saitlərin kəmiyyəti, növü deyil, ancaq variantlarıdır. Belə ki şivələrdə sait səslərin uzun, qısa, burun variantları mövcuddur. Bu variantlar məhəlli xüsusiyyət daşıyır və müxtəlif şivə qruplarında bir-birindən fərqlidir. Məsələn, şivələrimizdə sait səslərin uzun və qısa variantları haqqında M.Şirəliyev yazır ki, şivələrdə bütün saitlərin uzun variantı var. ı, i, u, ü saitlərinin isə qısa variantlar da özünü göstərir [5, s.25; 31]. Çox vaxt tədris prosesində bu səslər tələbələr tərəfindən dəqiq müəyyən edilə bilmir. Lakin audio yazılarda bunlar birbaşa tələffüzdə müşahidə edilir.

3. İnteraktiv dərs metodları: Dialektoloji xəritələr və multimedialı təqdimatlardan istifadə olunaraq, daha vizual və praktik dərs mühiti yaradılır. Bu tələbələrin bölgələr üzrə dialekt xüsusiyətlərini görərək daha yaxşı mənimsəməsinə kömək edir. Məsələn, 2015-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutu tərəfindən "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" hazırlanaraq nəşr edilmişdir. Burada "dil faktlarının xəritələrdə verilməsində müxtəlif rəngli dairəciklərdən istifadə olunmuşdur. Xəritələrdə, bir qayda olaraq, ədəbi dillə uyğun gələn formalar qara rəngli dairəciklərlə işarələnmişdir. Dialekt fərqləri isə qırmızı, göy, yaşıl, sarı, bənövşəyi, qəhvəyi dairəciklərlə göstərilmişdir" [2, s.47]. Bu atlas üzərində işləyərkən tələbələr dialekt fərqlərinin Naxçıvanın ayrı-ayrı rayonları üzrə necə özünü göstərdiyini, onların ortaq və fərqli xüsusiyyətlərini əyani şəkildə görə bilirlər. Eyni fikir dilimizin digər bölgələrinin dialektoloji atlaslarına da aiddir.

4. Layihə əsaslı öyrənmə: Tələbələrə müxtəlif bölgələrdən danışıq nümunələri toplamaq tapşırılaraq, onların tədqiqat aparmaq bacarıqları inkişaf etdirilir. Bu metodlar sayəsində tələbələr dialekt fonetikasını daha praktik və sistemli şəkildə mənimsəyə bilərlər. Həm özləri müşahidələr apararaq dilin dialekt xüsusiyyətlərini birbaşa canlı danışıqda görür, həm də onlarda informatorlarla işləmək bacarıqları formalaşır. Bununla yanaşı dialektoloji materialın toplanması, onun sistemləşdirilməsi, öyrənilməsi tələbələrin tədqiqatçı kimi inkişafına imkan verir, onlar ilkin elmi tədqiqatlarını apararaq müəyyən təcrübə əldə edirlər.

Bu metodlar sayəsində tələbələr dialekt fonetikasını daha praktik və sistemli şəkildə mənimsəyə bilərlər.

Nəticə və müzakirə. Dialekt fonetikası dilin zənginliyini qoruyan və onun tarixi inkişafını anlamağa kömək edən vacib sahələrdən biridir. Onun tədris prosesində daha geniş yer alması, dilçi mütəxəssislərin bu sahəyə daha çox diqqət ayırması və metodik yanaşmaların təkmilləşdirilməsi vacibdir. Bu sahədə effektiv tədrisin təmin olunması üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

• Orta və ali təhsildə dialekt fonetikası daha sistemli şəkildə tədris olunmalıdır;

• Tədris proqramlarında dialektoloji fonetik analizlərə daha çox yer ayrılmalıdır;

• Müasir texnologiyalar və interaktiv dərs metodlarından istifadə edərək tədrisin keyfiyyəti artırılmalıdır;

• Azərbaycan dialekt fonetikasına dair elmi-tədqiqat işləri genişləndirilməlidir.

Yekun nəticə. Nəticə olaraq, dialekt fonetikasının öyrənilməsi və tədrisi, dilin tarixi, sosial və mədəni kontekstinin daha yaxşı anlaşılmasına imkan yaradır. Bu istiqamətdə metodik yanaş-

maların inkişaf etdirilməsi və müasir tədris texnologiyalarından istifadə edilməsi Azərbaycan dilçiliyinin gələcək inkişafı üçün əhəmiyyətli addımlardan biri olacaqdır.

Müasir dünyada gedən proseslər şivə fərqlərinin də ədəbi dil qarşısında tədricən zəifləməsinə gətirib çıxarır. Ona görə də dialekt və şivələrin öyrənilməsi və tədrisi indi çox aktualdır. Tələbələrə dialekt xüsusiyyətlərini mənimsətmək onların mövzunu yaxşı mənimsəməsi üçün başlıca şərtdir.

Dialekt və şivələrin fonetikasında müşahidə olunan regional xüsusiyyətlər adətən tələbələr tərəfindən də olduqca maraqla qarşılanır. Çox vaxt onlar öz ərazilərinə aid və öz nitqlərində də özünü göstərən bu cür fonetik xüsusiyyətlərin əvvəlcədən fərqinə varmır və tədris prosesində onu müşahidə edərək öyrənir.

Ədəbiyyat

1. Abbasov, O. Təlim prosesində prinsiplərdən vəhdətdə istifadə // Azərbaycan dili və ədəbiyyatı tədrisi (Elmi-metodik jurnal). № 2 (252), – Bakı: Elm və təhsil, – 2017. – s.8-10.
2. Bayramov, İ. Azərbaycan dialektologiyası / İ.Bayramov. – Ankara: İksad, – 2022. – 456 s.
3. Bayramov, İ.M. Azərbaycan dili şivələrinin fonetikası / İ.M.Bayramov. – Bakı: Elm və təhsil, – 2016, – 252 s.
4. Məmmədli, M.Ə. Azərbaycan dialektologiyası / – Bakı: Zərdabi Nəşr MMC, – 2019, – 352 s.
5. Şirəliyev, M.Ş. Azərbaycan dialektologiyasının əsasları / M.Ş.Şirəliyev. – Bakı: Şərq-Qərb, – 2008, – 416 s.

Məqalə filologiya üzrə elmlər doktoru, professor Akif İmanlı tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 23.01.2025, son daxilolma – 14.02.2025, qəbulolunma – 06.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.195-201
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.195-201
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.195-201

UOT: 633.15:631.5
https://doi.org/10.30546/670832.2025.01.945

Baş kələmin becərilməsi təcrübəsindən

Müəllif(lər):

Akif Mərdanlı
Naxçıvan Dövlət Universiteti
Aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
E-poçt: akifmerdanli@mail.ru1950
https://orcid.org/0009-0000-5953-8743
Tofiq Əliyev
Naxçıvan Dövlət Universiteti
Biologiya üzrə fəlsəfə doktoru, dosent
E-poçt: tofiqeliyev3001@gmail.com
https://orcid.org/0009-0008-0138-7493
Aynur İbrahimova
Naxçıvan Dövlət Universiteti
E-poçt: a.ibrahimova@yahoo.com
https//orcid.org/000-0001-5713-6740
Açar sözlər: kələm, tezyetişən sortlar, orta gecyetişən sortlar, gecyetişən sortlar, becərilmə, məhsuldarlıq

Annotasiya. Məqalədə baş kələmin becərilməsinin elmi-əməli təcrübəsindən danışılır. Qeyd olunur ki, baş kələmin becərilməsinin üçün optimal torpaq şəraiti, sələf bitkiləri və torpağın hazırlanma texnologiyası araşdırılır. Mövzunun aktuallığı kənd təsərrüfatında məhsuldarlığın artırılması və torpaq resurslarının səmərəli istifadəsi ilə bağlıdır. Məqalənin məqsədi müxtəlif torpaq növlərində baş kələmin məhsuldar yetişdirilməsi üçün aqrotexniki tələblərin müəyyənləşdirilməsidir.

Tədqiqatda çimli-kül mineral torpaqlar və torflu-bataqlıq torpaqların fiziki-kimyəvi xüsusiyyətləri müqayisə edilir. Çimli-kül mineral torpaqlarda pH 6,5–7,0, humus miqdarı ən azı 2%, fosfor və kaliumun mütəhərrik formaları isə 200–250 mq/kq səviyyəsində olmalıdır. Torflu-bataqlıq torpaqlarda pH 5,0–5,5, torfun dağılma dərəcəsi ən azı 50%, qrunt sularının səviyyəsi isə 60 sm-dən çox olmamalıdır. Torpaq məhlulunda duzların qatılığı kələm cücərtiləri fazasında 0,05%, vegetativ kütlənin intensiv artması fazasında isə 0,09% təşkil etməlidir.

Ən yaxşı sələflər kimi çoxillik otlar (yonca), yaşıl yemlik sideratlar, birillik yem bitkiləri, xiyar, faraş kartof, çuğundur və pomidor göstərilir. Torpağın hazırlanması mərhələsində payızda sələflərdən sonra qlifosfat tərkibli herbisidlərin verilməsi, torpağın 10–12 sm dərinlikdə ikiqat disklənməsi və 7–10 gündən sonra kultivasiya işlərinin aparılması təklif olunur.

Nəticələr göstərir ki, qeyd olunan aqrotexniki tədbirlərin həyata keçirilməsi torpağın münbitliyini artırır, alaqların qarşısını alır və baş kələmin məhsuldarlığını yüksəldir. Beləliklə, tədqiqat müasir aqrotexniki üsulların tətbiqinin kənd təsərrüfatında dayanıqlı məhsul istehsalına mühüm töhfə verdiyini təsdiq edir.

Experience in cabbage (head cabbage) cultivation

Author(s):

Akif Mardanli
Nakhchivan State University
PhD in Agricultural Sciences, Associate Professor
E-mail: akifmerdanli@mail.ru1950
https://orcid.org/0009-0000-5953-8743
Tofig Aliyev
Nakhchivan State University
PhD in Biology, Associate Professor
E-mail: tofiqeliyev3001@gmail.com
https://orcid.org/0009-0008-0138-7493
Aynur Ibrahimova
Nakhchivan State University
E-poçt: a.ibrahimova@yahoo.com
https//orcid.org/000-0001-5713-6740
Key words: cabbage, early-maturing varieties, mid-maturing varieties, late-maturing varieties, cultivation, yield

Abstract. The article discusses the scientific and practical experience of cultivating head cabbage. It notes that the optimal soil conditions, preceding crops, and soil preparation techniques for cabbage cultivation are investigated. The relevance of the topic is related to increasing agricultural productivity and the efficient use of soil resources. The aim of the article is to determine agro-technical requirements for growing productive cabbage on different soil types.

The study compares the physical and chemical properties of sod-podzolic mineral soils and peat-marsh soils. For sod-podzolic mineral soils, pH should be 6.5–7.0, humus content at least 2%, and the available forms of phosphorus and potassium should be at 200–250 mg/kg. For peat-marsh soils, pH should be 5.0–5.5, peat decomposition degree at least 50%, and groundwater level should not exceed 60 cm. Salt concentration in soil solution should be 0.05% at the seedling stage and 0.09% during the intensive vegetative growth phase.

The best preceding crops are perennial grasses (clover), green fodder siderates, annual forage crops, cucumber, potato, beet, and tomato. During soil preparation, it is recommended in autumn to apply glyphosate-containing herbicides after preceding crops, perform double disking of the soil to a depth of 10–12 cm, and carry out cultivation operations 7–10 days later.

The results show that implementing these agro-technical measures increases soil fertility, prevents weeds, and improves head cabbage yield. Thus, the study confirms that the application of modern agro-technical methods contributes significantly to sustainable agricultural production.

Из опыта выращивания кочанной капусты

Автор(ы):

Акиф Марданлы
Нахчыванский государственный университет
Доктор философии по аграрным наукам, доцент
Э-почта: akifmerdanli@mail.ru1950
https://orcid.org/0009-0000-5953-8743
Тофиг Алиев
Нахчыванский государственный университет
Доктор философии по биологии, доцент
Э-почта: tofiqeliyev3001@gmail.com
https://orcid.org/0009-0008-0138-7493
Айнур Ибрагимова
Нахчыванский государственный университет
E-poçt: a.ibrahimova@yahoo.com
https//orcid.org/000-0001-5713-6740

Ключевые слова: капуста, скороспелые сорта, среднепоздние сорта, позднеспелые сорта, выращивание, урожайность

Аннотация. В статье рассказывается о научно-практическом опыте выращивания кочанной капусты. Отмечается, что для выращивания данной культуры исследуются оптимальные почвенные условия, растения-предшественники и технология подготовки почвы. Актуальность темы связана с повышением урожайности в сельском хозяйстве и рациональным использованием земельных ресурсов. Целью статьи является определение агротехнических требований для продуктивного выращивания кочанной капусты на различных типах почв.Актуальность темы связана с повышением урожайности в сельском хозяйстве и рациональным использованием земельных ресурсов. Целью статьи является определение агротехнических требований для продуктивного выращивания кочанной капусты на различных типах почв.

В исследовании сравниваются физико-химические свойства дерново-подзолистых минеральных почв и торфяно-болотных почв. Дерново–подзолистые минеральные почвы должны иметь pH 6,5-7,0, содержание гумуса не менее 2%, а двигательные формы фосфора и калия-200-250 мг/кг. На торфяно-болотных почвах pH должен составлять 5,0–5,5, степень разложения торфа не менее 50%, а уровень грунтовых вод-не более 60 см. Концентрация солей в почвенном растворе должна составлять 0,05% в фазе всходов капусты и 0,09% в фазе интенсивного увеличения вегетативной массы.

В качестве лучших предшественников показаны многолетние травы (клевер), зеленые кормовые сидераты, однолетние кормовые культуры, огурцы, картофель фарис, свекла и помидоры. На этапе подготовки почвы осенью после предшественников предлагается внести глифососодержащие гербициды, провести двойное дискование почвы на глубину 10-12 см и через 7-10 дней провести культивационные работы.

Результаты показывают, что проведение упомянутых агротехнических мероприятий повышает плодородие почвы, препятствует появлению сорняков и повышает урожайность кочанной капусты. Таким образом, исследование подтверждает, что применение современных агротехнических методов вносит важный вклад в производство устойчивой продукции в сельском хозяйстве.

Giriş. Respublikamızda həyata keçirilmiş aqrar islahatlar əhalinin etibarlı ərzaq təminatına səbəb olmuş, ərzaq təhlükəsizliyinin yerinə yetirilməsində mühüm rol oynamış, bir çox sahələr üzrə idxaldan asılılığa son qoymuş və qeyri-neft məhsullarının ixracında kənd təsərrüfatı məhsulları, xüsusən də tərəvəz birinci yerə çıxmışdır. Hesablamalara görə, il ərzində adam başına tərəvəz, bostan və kartof məhsullarına olan tələbat nəzərə alaraq, onun mütərəqqi texnologiyalarla becərilməsi eyni sahədən məhsuldarlığın artırılması, ekoloji məhsul alınması, daşınması və emalı vacib şərtlərdəndir.

Bu baxımdan respublikamızda tərəvəz, bostan və kartof bitkilərinin istehsalında müasir texnikadan istifadə etməklə məhsuldarlığın artırılması, maya dəyərinin aşağı salınması torpağın becərilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

Bu bitkilərin becərilməsi üçün torpaqların şumlanması, torpağın səpinə və əkinə hazırlanması, cərgə aralarının becərilməsi üsulları haqqında geniş məlumat verməklə, fermerlər və torpaq mülkiyyətçilərinə metodiki yardım göstərilir. Bu baxımdan aqrar sektorda tərəvəzçilik və kartofçuluq sahəsində yeni becərmə texnologiyasının işlənib hazırlanması və tətbiqi çox vacibdir.

Respublikamızda əhalini ilboyu tərəvəzlə təmin etmək üçün böyük imkanlar vardır və təvəzçiliyin, bostançılığın və kartofçuluğun inkişaf etdirilməsi üçün prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Bu prioritet istiqamətlərə müvafiq olaraq əsas tərəvəz bitkilərinin-pomidor, xiyar, baş kələm, yerkökü, qarpız və nəhayət, kartofun becərilməsi texnologiyasını izah etmək üçün bu məqalə yazılmışdır. Hazırkı məqalədə məqsədimiz respublikanın tərəvəzçilik, bostançılıq və kartofçuluqla məşğul olan ailə kəndli təsərrüffatlarına, fermerlərinə və digər sahibkarlara faydalı olmaqdır.

Bu normativlər tezyetişən sortların 45 t/ha, ortagecyetişən sortların 80 t/ha, gecyetişən sortların 60 t/ha məhsuldarlığı nəzərə alınmaqla şitilsiz və şitil üsulu ilə kələmin becərilməsinin texnoloji əməliyyatlarının yerinə yetirilməsinə dair tələbləri müəyyən edir.

Torpağa tələblər. Kələmin becərilməsi üçün yüngül və orta gillicəli, mədəniləşmiş qumlucalı torpaqlar, subasar yerlər və güclü düzənlik torflu torpaqlar əlverişlidir. Optimal aqrotexniki göstəricilər:

-çimli-kül mineral torpaqlar: pH- 6,5-7,0; humusun miqdarı ən azı 2%; fosfor və kaliumun mütəhərrik formaları müvafiq olaraq ən azı 200-250 mq/kq torpaq;

-torflu-bataqlıq torpaqlar: pH- 5,0-5,5; torfun dağılma dərəcəsi ən azı 50%; qrunt sularının səviyyəsi- 60 sm-dən çox olmamalıdır. Torpaq məhlulunda duzların qatılığı:

- kələm cücərtiləri fazasında - 0,05%
- vegetativ kütlənin intensiv artması fazasında - 0,09%.

Sələflər. Baş kələm üçün ən yaxşı sələflər otlar və çoxillik otlar (yonca) dövriyyəsi, yaşıl yemlik siderat və birillik yem bitkiləri, xiyar, faraş kartof, çuğundur, pomidor hesab olunur.

Əkinlər tərəvəz və ya ixtisaslaşdırılmış tərəvəz-yem bitkiləri növbəli əkinlərində, eləcə də digər növbəli əkin sa hələrində yerləşdirilir. Torpağın fitosanitar vəziyyətini sağlamlaşdırmaq üçün kələmi əvvəlki yerinə 3-4 ildən tez qaytarmaq olmaz.

Torpağın hazırlanması. Payızda alaqların vegetasiyasına görə kövşən sələflərindən sonra qlifosfat tərkibli herbisidlər verilir. Torpağın disklənməsi iki dəfə 10-12 sm dərinliyində aparılır. Herbisidlər verilməyən alaq kökləri olan sahələrdə 7-10 gündən sonra 10-12 sm dərinliyində kultivasiya aparılır. Malası olan aqreqatlı kultivatorundan istifadə edilir.

Üzvi və fosfor-kalium gübrələri verildikdən sonra 22-25 sm dərinliyində dondurma şumu aparılır.

Erkən yazda nəmliyi qorumaq və alaqların cücərməsini sürətləndirmək üçün sahə 10-13 sm dərinliyində kultivasiya edilir.

Subasar torpaqlarda dondurma şumu malalama ilə eyni zamanda 14-16 sm dərinliyində yenidən şumlanır və ya 20- 25 sm dərinliyində

çizel kultivatoru ilə kultivasiya edilir.

Kələmin şitil üsulu ilə becərilməsi zamanı alaqlarla mübarizə üçün əlavə olaraq malalama ilə bərabər 1-2 dəfə kultivasiya aparılır.

Torpağın əkin qabağı kultivasiyası əkinə bir gün qalmış və ya bilavasitə əkindən öncə aparılır, bu zaman ona dişli mala da qoşulur.

Faraş kələm üçün hündürlüyü 15 sm, cərgəaraları 70 sm olan darprofilli cərgələr açılır. Dibdoldurandan istifadə edilir.

Kələmin şitilsiz üsulla becərilməsi zamanı torpağın əkinqabağı hazırlanması ilə eyni vaxtda toxumu dərinə basdıran kombinə edilmiş aqreqatlarla aparılır.

Gübrələrin verilməsi. Üzvi gübrələr (yarım çürümüş peyin və ya torf-peyin kompostu) aşağıdakı kimi verilir.

-şitilsiz üsulda - payızda dondurma şumunun altına;

-şitil üsulunda - payızda və ya yazda şitilin əkininə ən azı bir ay qalmış.

Verilmə dozası - 40-60 t/ha.

Planlaşdırılmış məhsulu almaq üçün torpağın qida elementləri ilə təmini dərəcəsindən asılı olaraq üzvi və mineral gübrələr aşağıdakı kimi verilməsi məsləhətdir. Yüksək məhsul (30 t/ha yuxarı) alınması üçün hektara təsiredici maddə hesabı ilə N-90-120, P2O5-100-150, K2O-120-160 kq/ha gübrə verilməlidir.

Toxumların əkinə hazırlanması. Təsərrüfatda məhsulun realizə edilməsi müddətini uzatmaq üçün baş kələmin müxtəlif yetişkənlik qrupuna aid 2-3 sort və hibridini becərmək lazımdır. Ən məhsuldar sortlar Dövlət Reyestrinə daxil edilmiş yerli seleksiya sortlarıdır. Bu məqsəd üçün Azərbaycanın təbii-iqlim şəraitinə uyğunlaşdırılmış xarici sort və hibridlər də əlverişlidir.

Əkin üçün 1,5 mm-dən kiçik olmayan toxum fraksiyasından istifadə olunur.

Toxumların əkinqabağı işlənməsi:

Selikli və damarlı bakteriozlara qarşı Fitoprotektin, TPS-0,008 1/kq biopreparatı ilə işlənir. Toxumlar 0,4 %-li məhlulda 18-22°C temperaturda 24 saat müddətində isladılır. İşçi məhlulun sərfi - 2 1/kq-dır.

Göbələk xəstəliklərinə qarşı toxumun 48-50°C su temperaturunda 20 dəqiqə müddətində termik işlənməsi aparılır və sonra toxum təcili olaraq 2-3 dəqiqə ərzində soyuq suda soyudulur və səpələnmə qabiliyyəti alana qədər qurudulur.

Kələmin şitil üsulu ilə becərilməsi. Tez və gecyetişən kələm sortlarının (uzun müddət saxlamaq üçün) şitilləri qızdırılan istixanalarda pikirovka və ya birbaşa əkinlə və ya həcmi 65 sm³ olan kasetlərdə 30-35 gün, həcmi 18 sm³ olan kasetlərdə isə 35-40 gün becərilir.

Açıq sahə şitilliyi altındakı torpağın hazırlanması: yaz-yay dövründə əvvəlki ildə şumdan sonra torf-peyin kompostu - 120-150 t/ha, fosfor gübrələri - 90-120 kq/ha, kalium gübrələri-120-150 kq/ha (təsiredici maddə hesabı ilə) verilir. Zəruri hallarda torpağın turşuluğundan asılı olaraq ora əhəng verilir. Gübrələr diskli mala ilə 10-15 sm dərinliyində torpağa basdırılır.

Şitillərin çeşidlənməsi və əkini. Zəif, zərərvericilər və xəstəliklərlə sirayətlənmiş bitkilər kənara atılır.

Çeşidlənmədən sonra şitillərin kök sistemi aşağıdakı insektisidlərdən biri əlavə edilməklə gil məhluluna batırılır (10 l suya): Desis, k.e. - 4-6 ml; Karate, k.e. - 3-4 ml; Sumi-al- fa, 5% k.e. 4,5 ml; Prestij, k.s. - 0,05 1. Bakterioza qarşı mikolin-1,0 ml (1 l suya) əlavə edilir.

Məhlulun konsistensiyası-xamayabənzər olmalıdır.

Şitil əkininin optimal müddətləri:

-tezyetişən sortlar - aprelin 2-ci, 3-cü dekadası (respublikanın orta-aran zonalarında);

-orta və gecyetişən sortlar - mayın 1-ci, 2-ci dekadaları;

-orta gecyetişən sortlar mayın 3-cü dekadası, iyunun 1-ci dekadası (cənub zonada - 7-10 gün əvvəl, şimalda isə 7-10 gün gec). Şitili əkməzdən əvvəl zəruri hallarda nəmlik yaratmaq üçün (uzunmüddətli quru havada) suvarma aparılır. Suyun sərfiyyatı-150-200 m³/ha-dır. Şitil əkilərkən suvarma məcburidir. Suyun sərfi-bir bitkiyə 0,5 l-dir. Əkindən sonra şitilin yaxşı kök atması üçün 2-3 həftə ərzində suvarma aparılmır.

Şitil əkininin optimal sıxlığı, min əd/ha:

- tezyetişən sortlar-55-60;

-orta tezyetişən sortlar- 45-50;

-orta gecyetişən sortlar-35-40;

- gecyetişən sortlar-30-32.

Faraş məhsulun daxil olmasını sürətləndirmək üçün əkindən sonra əkinlər sponbondla örtülür. Yığıma 1,5-2 həftə qalmış, yəni 30-40 gündən sonra örtük çıxarılır.

Əkinlərə qulluq. Şitillərin əkinindən 3-5 gün sonra cərgəaralarında 6-8 sm dərinliyində yumşaltma aparılır. Vegetasiya ərzində çimli-kül torpaqlarda yumşaltmaların sayı:

- tezyetişən kələm sortları üçün-1-2;

- orta tezyetişən və orta gecyetişən sortlar üçün-2-3;

-gecyetişən sortlar üçün-3-4. Cərgənin bir tərəfində müdafiə zonası:

- birinci yumşaltma zamanı - 10 sm-dən çox olmayaraq;

-sonrakı yumşaltmalarda - 12-15 sm. Suvarmalar aşağıdakı kimi aparılır: tezyetişən kələm sortlarında məhsul yığımının başlanğıcına qədər 2-3 dəfə;

- orta və gecyetişən kələm sortlarında - 2-4 dəfə, məhsul yığımına 30-40 gün qalmış suvarma dayandırılır. Suyun sərfi- 250-300 m³/ha. Kökdən kənar əlavə yemləmə üçün kompleks gübrələrdən istifadə edilir: Multivit "Plyus", Multivit "Universalnıy", Ekolist "Standart", Ekolist PK-1, Maye kompleks gübrə (MKG) selenli, MKG "Universalnoe" və başqaları. Əlavə yemləmələrin aparılması müddəti:

- birinci - şitilin əkinindən 12-14 gün sonra 4,8 l/ha, ikinci - yarpaq rozetlərinin kütləvi böyümə fazasında 5,7 l/ha, üçüncü başın formalaşmasının başlanğıcı fazasında 6,5 l/ha. İşçi məhlulun sərfi - 300 l/ha.

Alaq bitkiləri ilə mübarizə. Sələf bitkiləri yığıldıqdan sonra vegetasiya edən alaqlara görə sahəyə qlifostat tərkibli preparatlar verilir. Şitillə və şitilsiz üsulla kələmin becərilməsi zamanı tətbiq edilən herbisidlər kələmin böyümə və inkişaf fazasından, alaqların növündən asılı olaraq birillik, çoxillik dənli və ləpəli alaqlara sələf yığıldıqdan sonra payızda vegetasiya edən alaqlara qarşı 116,2 q/l Clethodim (0,6 l/ha, 65%-li Chloridazon 4,0-5,0 q/ha, 330 q/l Pendimethalin (5,0 l/ha) 75%-li Metribuzin (0,5-0,75 kq/ha) tərkibli herbisidlərlə çiləmə.

Zərərvericilərdən müdafiə. Şitilliklərdə və əmtəəlik kələm sahələrində zərərvericilərə qarşı mübarizə məqsədilə çiləmə aparılır. Tətbiq edilən insektisidlər ağ kəpənəklər, güvələr, sofkalar, bitlər (tilələr)-vegetasiya dövründə məhsul yığımına 20 gün qalmış 500 q/l Malathion-2 l/ha, 50 q/l Lambda Cuhatlothrin-0,25 l/ha, 10%-li Emamektin benzoat- 0,4 kq/ha, 15%-li İndexokarb-0,25 kq/ha, 2,5%-li Deltamethrin-0,3 l/ha, 35%-li İmidakloprid-0,3 l/ha.

Əmtəəlik kələm əkinlərində zərərvericilərə qarşı insektisid təyinatlı aşağıdakı biopreparatlardan istifadə edilir:

Bitoksibatsillin - 1-2 kq/ha; lepudosid-0,5-2 kq/ha

Yığım. Kələmin tezyetişən və ortayetişən sortlarının yığımı yetişmə səviyyəsinə görə, orta gecyetişən və gecyetişən sortların yığımı isə texniki yetişkənlik fazasında aparılır.

Çeşidləyici stolu, yığım platforması, başları konteynerlərə yükləmək üçün transportyorları (konveyerləri) olan kombaynlardan istifadə edilir. Kələm əllə də yığıla bilər.

Saxlamaq üçün başlar 3-4 örtük yarpağı ilə birgə yığılır, xarici özəyin uzunluğu - 2,0-2,5 sm olmalıdır.

Material və metodlar. Tədqiqatın material bazasını Azərbaycan Respublikasında tərəvəzçilik, bostançılıq və kartofçuluq sahələrində tətbiq olunan müasir texnologiyalar təşkil edir. Əsasən pomidor, xiyar, baş kələm, yerkökü, qarpız və kartof bitkiləri üzrə təcrübələr aparılmışdır. Tədqiqat çərçivəsində torpağın fiziki və kimyəvi xüsusiyyətləri, toxum sortları, gübrələmə və suvarma rejimləri, həmçinin şitil və faraş üsulları nəzərdən keçirilmişdir.

Tədqiqat metodları aşağıdakılardan ibarətdir:

1. Eksperimental metod – müxtəlif sort və hibridlərin şitil və faraş üsulu ilə becərilməsi, torpaq hazırlığı və gübrələmə normativlərinin təsirinin müqayisəli qiymətləndirilməsi.

2. Aqrotexniki müşahidə – torpağın şumlanması, səpinə hazırlanması, cərgə aralarının becərilməsi və suvarma texnologiyalarının məhsuldarlığa təsirinin izlənməsi.

3. Kimyəvi analiz – torpaq və toxumların qida elementləri ilə təmin olunma səviyyəsinin, eləcə də toxumların fitosanitar vəziyyətinin müəyyənləşdirilməsi.

4. Statistik analiz – məhsuldarlıq göstəricilərinin və məhsul keyfiyyətinin müxtəlif texnologiyalar üzrə müqayisəli təhlili.

Tədqiqat zamanı həm şitil üsulu, həm də faraş üsulu ilə kələm becərilməsi, torpağın payız və yaz dövrlərində kultivasiya edilməsi, üzvi və mineral gübrələrin verilməsi, suvarma rejimlərinin tənzimlənməsi, alaqların və zərərvericilərin idarə olunması üzrə eksperimental işlər aparılmışdır. Şitillərin əkilməsi zamanı sortlara uyğun optimal sıxlıq və əkim tarixləri müəyyən edilmiş, toxumlar termiki və biopreparatlarla işlənmişdir.

Beləliklə, tətbiq olunan metodologiya vasitəsilə respublikada tərəvəzçilik, bostançılıq və kartofçuluğun məhsuldarlığını artırmaq, maya dəyərini azaltmaq və torpaq resurslarından səmərəli istifadə təmin edilmişdir.

Nəticə və müzakirə. Tədqiqat nəticələri göstərir ki, Azərbaycanda tərəvəzçilik, bostançılıq və kartofçuluq sahələrində müasir texnologiyaların tətbiqi məhsuldarlığın artırılmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Əldə edilmiş məlumatlara görə:

1. Torpaq hazırlığı və gübrələmə: Torpağın payız və yaz dövrlərində şumlanması, kultivasiya edilməsi və üzvi-mineral gübrələrin düzgün tətbiqi kələm, pomidor və xiyar kimi tərəvəz bitkilərinin vegetativ inkişafını və məhsuldarlığını artırır. Üzvi gübrələrin (peyinkompost) verilməsi və mineral gübrələrin NPK normativləri məhsulun keyfiyyətinə birbaşa təsir göstərmişdir.

2. Şitil və faraş üsulları: Şitil üsulu ilə yetişdirilən bitkilərdə məhsuldarlıq göstəriciləri faraş üsulu ilə əkilənlərə nisbətən yüksək olmuşdur. Tezyetişən sortlarda hektara 55-60 min şitil əkin sıxlığı, orta və gecyetişən sortlarda isə 30-50 min şitil sıxlığı optimal hesab edilmişdir.

3. Suvarma və əlavə yemləmə: Suvarma rejiminin düzgün tətbiqi və kompleks gübrələrdən əlavə yemləmə məhsulun formalaşmasını sürətləndirmiş, baş kələmin həcmi və keyfiyyətini artırmışdır.

4. Alaq və zərərvericilərlə mübarizə: Sələf bitkilərin düzgün seçilməsi, herbisidlərin tətbiqi və insektisidlərlə mübarizə məhsulun xəstəlik və zərərvericilərdən qorunmasını təmin etmişdir. Nəticədə, kələmin təmiz və sağlam başları 30-40 gün ərzində yığıma hazır olmuşdur.

Tədqiqat nəticələrinin müzakirəsi göstərir ki, müasir aqrotexniki tədbirlərin tətbiqi ilə torpaqdan səmərəli istifadə təmin olunur, məhsul həcmi və keyfiyyəti artır. Şitil üsulu və düzgün gübrələmə məhsuldarlıq və iqtisadi səmərəliliyi yüksəldir. Eyni zamanda, torpağın fitosanitar vəziyyətinin qorunması və növbəli əkin sistemi uzunmüddətli perspektivdə torpaq resurslarının davamlılığını təmin edir.

Beləliklə, əldə olunan nəticələr respublika şəraitində tərəvəzçilik, bostançılıq və kartofçuluğun inkişafı üçün təklif olunan texnologiyaların effektivliyini təsdiqləyir və fermerlər, ailə təsərrüfatları və sahibkarlar üçün metodiki tövsiyələr yaradır.

Yekun nəticə. Azərbaycan Respublikasında tərəvəzçilik, bostançılıq və kartofçuluq sahələrində müasir texnologiyaların tətbiqi məhsuldarlığın artırılmasına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə və qeyri-neft məhsullarının ixrac imkanlarının genişləndirilməsinə mühüm töhfə verir. Tədqiqat göstərir ki, torpağın düzgün hazırlanması, gübrələmə, şitil və faraş üsulları-

nın optimal tətbiqi, suvarma və əlavə yemləmə tədbirləri məhsulun keyfiyyətini yüksəldir və iqtisadi səmərəliliyi artırır. Eyni zamanda, alaqlar və zərərvericilərlə mübarizə tədbirləri məhsulun xəstəliklərdən qorunmasını təmin edir.

Beləliklə, tətbiq olunan texnologiyalar fermerlər və ailə təsərrüfatları üçün praktik əhəmiyyət daşıyır, məhsuldarlığı artırır və ölkədə tərəvəzçilik, bostançılıq və kartofçuluğun davamlı inkişafına zəmin yaradır.

Ədəbiyyat

1. Дж. Райан, Дж. Эстефан, А. Рашид. Анализ растений и почвы. Руководство по лабораторным анализам. Международный центр по сельскохозяйственным исследованиям в засушливых регионах (ICARDA) и Национальный центр сельскохозяйственных исследований, – Исламабад: (Пакистан), – 2002, – 122 с.
2. Аринушкина, У.В. Руководство по химическому анализу почв / У.В.Аринушкина. – М.: Издательство Московского Университета, – 1961, – 490 с.
3. Методы агрохимических, агрофизических и микробиологических исследований в поливных хлопковых районах. Ред. кол.: М.Н.Белоусов, П.А.Протасов, П.Н.Беседин. – Ташкент: – 1963, – 438 с.
4. Şəfibəyov, Ə.B. Torpaq və bitkilərin aqrokimyəvi analiz üsulları / Ə.B.Şəfibəyov. – Bakı: Azərb. Dövlət Nəşriyyatı, – 1964, – 204 s.
5. Агрохимические методы исследования почв. Руководство для полевых и лабораторных работ. – М.: СССР, – 1960.
6. Радов, А.С. Практикум по агрохимии. 2-е изд., переработанное и дополненное /А.С.Радов, И.В.Пустовой, А.В.Корольков. – М.: Колос, – 1971, – 336 с.
7. Почвы, методы анализа ГОСТ: 26204-84, 26213-84. Разработаны Министерством сельского хозяйства СССР. Утверждены Постановлениями Госстандарта СССР, июль 1984 г., № 1955, 1956, 1957.
8. McKeague L.A. (ed.). Manual on Soil Sampling and Methods of Analysis. Canadian Society of Soil Science, – 1987, – p.66-68.
9. McLean E.O. Soil pH and Lime Requirement. In: Page A.L. (ed.), Methods of Soil Analysis, Part 2: Chemical and Microbiological Properties. Am. Soc. Agron., Madison, WI, USA, – 1982, – p.199-224.
10. FAO. The Euphrates Pilot Irrigation Project. Methods of Soil Analysis, Gabeb Soil Laboratory (A Laboratory Manual). – Rome: Italy, – 1974.
11. Hadjidemetriou D.G. Comparative study of the determination of nitrates in calcareous soils by the ion-selective electrode, chromotropic acid, and phenodisulphonic acid methods. Analyst, 107, – 1982, – p.25-29.
12. Sims J.R., Jackson G.D. Rapid analysis of soil nitrate with chromotropic acid. Soil Sci., – 1982.
13. Brady N.C., Weil R.R. The Nature and Properties of Soils. 12th ed. Prentice Hall, New Jersey, USA, – 1999, – p.603-606.
14. Olsen S.R., Sommers L.E. Phosphorus. In: Page A.L. (ed.), Methods of Soil Analysis, Agron No 9, Part 2: Chemical and Microbiological Properties, 2nd ed., Am. Soc. Agron., Madison, WI, USA, – 1982, – p.403-430.
15. Azərbaycan Respublikasının Milli İqlim Proqramı. – Bakı: Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, – 2002.
16. Azərbaycan Respublikasının Ətraf mühitə dair qanunvericilik toplusu. 2 cilddə, I cild. – Bakı: El-Aliance, – 2002, – 832 s.
17. Azərbaycan Respublikasının ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram. – Bakı, – 2003, – 51 s.
18. Babayev, S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası / S.Y.Babayev. – Bakı: Elm, – 1999, – 298 s.
19. Babayev, N.S. Araz çay sisteminin yuxarı hissəsinin ekoloji şəraiti: Coğrafiya elmləri namizədlik dissertasiyasının avtoreferatı / – Bakı, – 2004, – 30 s.
20. Bababəyli, N.S., Süleymanova, G.S., İmat, F.M. Araz çayı hövzəsinin yuxarı hissəsinin qrunt sularının ekocoğrafi şəraitinə dair. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Təbiət və Texniki Elmlər Seriyası, – 2009, №2, – s.303-306.
21. Bababəyli, N.S., Özdemir, M.N. Orta və yuxarı Araz boyunda səhra landşaftı // AMEA Coğrafiya Cəmiyyətinin Əsərləri, XV c., –

2010, – s.170-175.
22. Bababəyli, N.S., Özdemir, M.N. Araz çay hövzəsində radioaktiv tullantıların yayılmasında atmosfer sirkulyasiyasının roluna dair. VII Azərbaycan Beynəlxalq Geofiziki Konfrans Materialları. – Bakı: Avropa, – 2010, – s. 46.
23. Bayramov, A.B. Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri / A.B.Bayramov, M.M.Məhərrəmov, İ.B.Məmmədov, A.F.Məmmədov. – Naxçıvan: Əcəmi, – 2014, – 320 s.
24. Babayev, M.P. Azərbaycan torpaqlarının müasir təsnifatı / M.P.Babayev, Ç.M.Cəfərova, V.H.Həsənov. – Bakı: Elm, – 2006, – 259 s.
25. Babayev, M.P. Səhralaşma-torpaq qradasiyasının tədqiqi / M.P.Babayev, E.A.Qurbanov. – Bakı: Elm, – 2008, – 47 s.
26. Şəkkuri, B.Q. Molibden mikroelementinin Naxçıvan Muxtar Respublikası torpaqlarında miqdarı və kənd təsərrüfatı əhəmiyyəti / B.Q.Şəkkuri, Z.Ə.Nəcəfova. – Bakı: – 2006.
27. Şəkkuri, B.Q. Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onların qorunması / B.Q.Şəkkuri, A.H.Mərdanlı. – Bakı: – 2005.
28. Qasımov, H.Ə. Mədəni bitkilərin mənşəyi / H.Ə.Qasımov, R.Ə.Ələkbərov. – Bakı: – 2018.
29. Hacıyev, S.Ə. Naxçıvan MR. Torpaq münbitliyinin qorunması prosesləri / S.Ə.Hacıyev, C.R.Mirəli. – Bakı: – 2021.

Məqalə biologiya üzrə fəlsəfə doktoru Lamiyə Quliyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 16.01.2025, son daxilolma – 07.02.2025, qəbulolunma – 05.03.2025

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1, s.202-205
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1, p.202-205
Нахчыванский институт учителей. Научные труды, 2025, № 1, с.202-205

UOT: 661.85:7:94(497.61)
https://doi.org/10.30546/670832.2025.01.010

Şəkidə qədim ipəkçilik ənənələrinin inkişafına dair (sənətşünaslıq aspekti)

Müəllif(lər):

Aytən Yusifkənan
Azərbaycan Dövlət İqtisad Universiteti
Müəllim
E-poçt: s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

Açar sözlər: Şəki, ipək, parça, fabrik, kəlağayı

Annotasiya. Mədəni irsimizin öyrənilməsi və təbliği, onun gələcək nəsillərə ötürülməsi milli mədəniyyətlərin qarşısında duran aktual məsələdir. Bu baxımdan məqalə Azərbaycanın dilbər güşəsi olan Şəkinin ipəkçilik ənənələrinin inkişafı tarixinin tədqiqinə həsr olunub. Tədqiqatın məqsədi Şəkidə ipək istehsalının əsrlər boyu əsas məşğuliyyət olmasını, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərməsini müəyyən etməkdir. Araşdırma zamanı sənətşünaslıq elminin metodoloji bazasına, daha dəqiq desək tarixilik, mədəni-tarixi və təhlil metodlarına istinad edilmişdir.

Tədqiqatdan alınan əsas qənaətə görə, Şəkinin "Böyük İpək Yolu" üzərində yerləşməsi xüsusən bu sahənin formalaşmasına və inkişafına töhfə vermiş, digər ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə təkan vermişdir. Arxeoloji əşyalar göstərir ki, hətta qədim Qafqaz Albaniyası dövründə də məbədlərin ərazilərində insanlar ipəkçiliklə məşğul olurdular. Yerli sənətkarlar əsrlər boyu nəsildən-nəslə ötürülən orijinal texnikanı qoruyub saxlayaraq ənənəvi ipək istehsalı üsullarından bu gün də məharətlə istifadə edirlər. Şəki ustalarının xam ipəkdən hazırladıqları zərif parçalar, gözəl paltarlar, rəngarəng kəlağayılar xarici ölkələrə ixrac edilir, şəhər öz ipəyi ilə bütün dünyada şöhrət qazanır. Şəki xüsusilə parlaq və zərif kəlağayı ilə məşhurdur. Ən geniş yayılmış kəlağayı nümunələrindən biri "heyratı kəlağayı" adlanan baş örtüyüdür ki, onlar çiçək naxışları ilə bəzədilmiş zərif açıq çalarlı ilə seçilirlər. Araşdırmadan alınan nəticələr Azərbaycan tətbiqi-dekorativ sənəti tarixi tədqiqatlar üçün mühüm elmi-nəzəri mənbə olmaqla yanaşı, tədris prosesində tətbiq edilə bilər.

Author(s):

Ayten Yusifkanan
Azerbaijan State University of Economics
Teacher
E-mail: s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

Key words: Sheki, silk, fabric, factory, kelagay

Development of ancient silk weed traditions in Sheki

Abstract. The study and popularization of our cultural heritage, as well as its transmission to future generations, are pressing issues facing national cultures. From this point of view, the article devoted to the study of the history of the development of sericulture traditions in Sheki, a charming corner of Azerbaijan, can be considered relevant. The purpose of the study is to establish that silk production has been the main occupation in Sheki for centuries and has had a significant impact on the development of trade and crafts. In the course of the study, reference was made to the methodological basis of art history, namely historicism, cultural-historical, art history and analytical methods.

It is shown that silk production has been the main occupation in Sheki for centuries and had an important impact on the development of trade and crafts. Sheki's location on the "Great Silk Road" contributed to the formation and development of this area, gave impetus to the expansion of economic ties with other countries. Archaeological finds show that even in the times of ancient Caucasian Albania, people were engaged in sericulture in temple areas. Today, local artisans skillfully use traditional silk production methods, preserving the original techniques passed down from generation to generation. Delicate fabrics, beautiful clothes and colorful shawls made by Sheki craftsmen from raw silk are exported to foreign countries, and the city is famous throughout the world for its silk. Sheki is especially famous for its bright and elegant kelaghay. One of the most common examples of kelagay is the so-called "gerati kelagay" headdress, distinguished by a delicate light shade and an amazing floral pattern. The results of the study are an important scientific and theoretical source for research of Azerbaijani decorative and applied arts and can also be used in the educational process.

Автор(ы):

Айтен Юсифканан
Азербайджанский государственный экономический университет
Преподаватель
Э-почта: s63816701@gmail.com
https//orcid.org/0000-0003-1786-5118

Ключевые слова: Шеки, шелк, ткань, фабрика, келагай

Развитие древних традиций шелководства в Шеки

Аннотация. Изучение и популяризация нашего культурного наследия, а также его передача будущим поколениям являются насущной проблемой, стоящей перед национальными культурами. С этой точки зрения статью, посвященную изучению истории развития традиций шелководства в Шеки — очаровательного уголка Азербайджана, можно считать актуальной. Целью исследования является установление того, что производство шелка на протяжении веков было основным занятием в Шеки и оказывало значительное влияние на развитие торговли и ремесла. В ходе исследования была сделана ссылка на методологическую основу искусствознания, а именно на историзм, культурно-исторический, искусствоведческий и аналитический методы.

Согласно основному выводу, сделанному в результате исследования, расположение Шеки на «Великом Шелковом пути» способствовало становлению и развитию именно этой территории, а также дало толчок расширению экономических связей с другими странами. Показано, что производство шелка на протяжении веков было основным занятием в Шеки и оказывало важное влияние на развитие торговли и ремесел. Расположение Шеки на «Великом шелковом пути» способствовало становлению и развитию этого направления, дало толчок расширению экономических связей с другими странами. Археологические находки показывают, что еще во времена древней Кавказской Албании люди занимались шелководством на храмовых территориях.Местные ремесленники и сегодня умело используют традиционные методы производства шелка, сохраняя оригинальные приемы, передаваемые из поколения в поколение. Нежные ткани, красивая одежда и красочные шали, изготовленные шекинскими мастерами из шелка-сырца, экспортируются в зарубежные страны, а своим шелком город известен во всем мире. Шеки особенно славится своим ярким и нарядным келагай. Одним из наиболее распространенных образцов келагай является так называемый головной убор «герати келагай», отличающийся нежным светлым оттенком, изумительным цветочным узором. Результаты исследования являются важным научно-теоретическим источником для исследований азербайджанского декоративно-прикладного искусства и могут быть использованы и в учебном процессе.

Giriş. Uzun illər boyu Azərbaycan şəhər sənətkarlığı, onların bədii mədəniyyətdə rolu və əhəmiyyəti az tədqiq olunan sahələrdən olaraq qalırdı. Azərbaycanda ipəkçilik sahəsi 1500 illik tarixə və zəngin ənənələrə malikdir. İpəkçiliyin inkişafı əsasən Şimal-Qərb bölgəsi, xüsusən qədim tarixə və zəngin ənənələrə malik Şəki ilə bağlıdır. Burada əsrlər boyu yerli əhalinin həyatında mühüm rol oynayan ipəkçilik ənənələri qorunub saxlanılmış və inkişaf etdirilmişdir [3]. Şəkidə qədim ipəkçilik ənənələrinin öyrənilməsi maddi-mənəvi mədəniyyətimizin, milli incəsənət tariximizin öyrənilməmiş səhifələrini üzə çıxarmaq, onları ətraflı təhlil edib sənətşünaslıq elminə töhfə vermək əsas qayəmizdir. Məqsədimiz Şəkidə ipək istehsalının əsrlər boyu əsas məşğuliyyət sahəsi olmasını, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərməsini sənətşünaslıq aspektindən elmi dəlillərlə sübuta yetirməkdir.

Materiallar və metodlar.

Azərbaycan dekorativ-tətbiqi sənətində Şəki ipəkçiliyi sənətşünaslıq prizmasından az öyrənilmiş sahələrdən olaraq qalmaqdadır. Həmin boşluğu aradan qaldırmaq məqsədilə ölkə elmimizdə Şəki şəhərinin mədəniyyət tarixinə, habelə Azərbaycan ipəkçiliyinin sənaye sahəsi kimi inkişaf tarixinə həsr olunmuş A.Tahirovanın [7], A.Məmmədovun [2], N.Bədəlovun [1], V.Çıraqzadənin [8] monoqrafiya və elmi məqalələri tədqiqata cəlb edilmişdir. Həmin əsərlərdə Azərbaycan ipəkçiliyi tarixi mərhələlər üzrə tədqiq edilmişdir. Bundan başqa Azərbaycan mədəniyyəti və tarixinə həsr edilmiş elektron informasiya resursları [3; 6] tədqiqatlarımıza yardımçı ola bilmişdir.

Tədqiqatda sənətşünaslıq elminin metodoloji bazasına, daha dəqiq desək tarixilik, mədəni-tarixi və təhlil metodlarına istinad edilmişdir. Həmin metodlar vasitəsilə Şəki ipəkçilik sənayesinin incəsənətin dekorativ-tətbiqi sənət sahəsi kimi yüksək bədii məzmun və mündəricata məxsus olmasını əsaslandırmağa nail ola bilmişik.

Nəticə və müzakirə.

Şəkidə ipəkçiliyin inkişafı və sənayedə geniş tətbiqi bu rayonda aparılan arxeoloji tədqiqatlarla sübuta yetirilmişdir. Bu şəhər ipəkçiliyin qədim ənənələrini qoruyub saxlamışdır. Əsrlər boyu ipəkçilik şəkillərin həyatında özünəməxsus yer tutmuşdur. İpəkçiliyin Şəkidə qədim və mühüm iqtisadi sahə olduğunu bu ərazidə aparılan arxeoloji tədqiqatlar da sübut edir.

Azərbaycanın tarixi "Böyük İpək Yolu" üzərində yerləşməsi respublikada, xüsusən Şəkidə bu sahənin formalaşmasına və inkişafına töhfə vermiş, digər ölkələrlə iqtisadi əlaqələrin genişlənməsinə təkan vermişdir. Arxeoloji əşyalar göstərir ki, hətta qədim Qafqaz Albaniyası dövründə də məbədlərin ərazilərində insanlar ipəkçiliklə məşğul olurdular.

Orta əsrlərdə Şəki ən böyük ipəkçilik və baramaçılıq mərkəzi hesab olunurdu. Şəkidə ipək istehsalı əsrlər boyu əsas məşğuliyyət olmuşdur, ticarətin və sənətkarlığın inkişafına mühüm təsir göstərmişdir. Yeni karvansarayların salınmış, şəhər həyatı canlanmışdır. XV əsrdən bu Azərbaycan şəhəri əla ipək istehsalı yeri kimi tanınır. Şəki bütün Qafqazda ipəkçiliyin mərkəzinə çevrildi.

Ərəb basqınları ilə əlaqədar daxili və beynəlxalq ticarət yollarının dəyişməsi ipəkçiliyin tənəzzülünə səbəb olsa da, bu ərazi mövcud olmaqda davam etmiş və bu bölgənin sakinləri XX əsrin sonundan XXI əsrin əvvəllərinə qədər bu şöhrətini qoruyub saxlaya bilmişlər.

1475-ci ildə Azərbaycanda səfərdə olan Venesiya səfiri Ambrocio Contarini Venesiyada Şəki ipəyini "Talaman ipəyi" kimi təqdim etmişdir [4, s.75].

XVIII-XIX əsrlərdə Şəkidə ipəkçilik özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Bu illərdə Azərbaycanda ildə 9-10 min ton yaş ipəkqurdu istehsal olunurdu. İpək məmulatları əsasən Rusiyaya, oradan isə Avropa ölkələrinə ixrac edilirdi. Şəkidə istehsal olunan ipək məmulatları öz keyfiyyəti ilə seçilir, xarici bazarlarda yüksək qiymət alırdı.

Əvvəllər Şəkidə ipəkçilik sahibkarlar tərəfindən öz fabrik və emalatxanalarında aparılırdı. 1829-cu ildə Şəkidə bütün Cənubi Qafqazda ilk kapitalist müəssisəsi olan Xanabad ipəktoxuma manufakturası açıldı. 1830-cu ildən başlayaraq burada ipək parça istehsalı təşkil edilmişdir. Xanabad manufakturu həcmcə kiçik olsa da, yaxşı keyfiyyəti ilə seçilirdi. 1836-cı ildə manufaktura xəzinədən "Zaqafqaziyada İpəkçilik Təbliği Cəmiyyəti və İpək sənayesi"nə verildi. XIX əsrin birinci yarısında Şəki vilayəti 15 min puddan 20 min puda qədər istehsal ipəklər etdi.

XIX əsrin ikinci yarısında Şəki ipəkçilik sənayesinin mərkəzi olaraq qalmaqda davam edirdi. 1843-cü il iyulun 1-də Şəkidə "İpəkçilik praktiki məktəbi" adlanan məktəb açıldı ki,

bu da təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ipəkçiliyin inkişafında müsbət rol oynadı. Mövcud olduğu 20 il ərzində məktəb ipəkçilik işinə qoşulmuş 236 şagird hazırlamışdır. Bu işdə "İpəkçilik və Ticarət Sənayesini Qafqazdan Kənara Yayma Cəmiyyəti"nin də böyük rolu olmuşdur.

1861-ci ildə Andrey və Vasili Voronin qardaşları Şəki ipəyini dünya səviyyəsinə çıxararaq dünyanın ən böyük manufakturalarından birini tikdilər. Azərbaycan ipəyi Avropaya getdikcə daha çox ixrac olunurdu və ümumiyyətlə, Şəki yaxınlığında nadir olmayan köhnə zavod boruları, çox güman ki, ipək fabriklərindən qalmışdır. XIX əsrdə Şəki ipəyi təkcə Azərbaycanda deyil, Şərq, Avropa və Rusiya ölkələrində tanınıb və yüksək qiymətləndirilib. II Nikolayın dövründə Rusiya imperiyasının əskinaslarına beş yüz rubulluq əskinasların qırışmasının və tez köhnəlməsinin qarşısını almaq üçün Şəki ipəyi əlavə edilirdi. 1862-ci ildə Londonda keçirilən beynəlxalq Ümumdünya Sənaye Sərgisində Şəki ipəyi bürünc medalla təltif edilmişdir. Fransanın Lion şəhərinin "Sent-Etyen" şirkəti Şəki ipəyinin daimi alıcılarından olub [4, s.76]. Təəccüblü deyil ki, XIX əsrin əvvəllərində ipəkçilik sahəsində əldə etdiyi uğurlara görə Şəki Fransanın ipək paytaxtı ilə müqayisə edilərək Qafqaz Lionu adlandırılıb.

Bu illər ərzində Azərbaycanda olmuş səyahətçilər və diplomatlar, məsələn, Adam Olearius, Entoni Cenkinson, Övliya Çələbi, Aleksandr Düma, Fedot Kotov səyahət qeydlərində kəlağayı haqqında danışıblar. O da məlumdur ki, 1870-ci ildə Şəki ipəyindən hazırlanmış Basqal kəlağayısı Londonda keçirilən sərgidə gümüş medal qazanıb.

Sonralar bu qiymətli məhsul olan Şəki ipəyinin şöhrəti həm ölkə daxilində, həm də xaricdə yayıldı və bu məhsullara tələbat artmağa başladı. Şəki təkcə Azərbaycanın deyil, bütövlükdə regionun ipəkçilik mərkəzlərindən biri olub və bu, hətta Şəkinin gerbində də öz əksini tapıb.

Şəki ipəyi dünya bazarlarında həmişə populyarlığını qoruyub saxlayıb, bu bölgənin barama və ipək sapları yüksək qiymətləndirilib. Şəkidə ipəkçilik inkişaf etdikcə onun texnologiyasını və istehsalını mənimsəmiş xüsusi ixtisaslaşdırılmış sinif formalaşmışdır.

Ötən əsrin 60-70-ci illərində Azərbaycanda ipəkçilik yenidən inkişaf etməyə başladı. Bu illərdə Şəki İpək Kombinatı Sovet respublikaları arasında Azərbaycan ipək istehsalına görə Özbəkistandan sonra ikinci yeri tuturdu. İldə 7800 ton yaş ipəkqurdu istehsal edilmişdir. 1970-80-ci illərdə ölkəmizdə, xüsusən Şəkidə ipəkçiliyin inkişafı geniş vüsət almışdır. Bu illərdə respublikada hər il 5-6 min ton yaş ipəkqurdu, 350-400 ton xam ipək istehsal olunurdu, sonrakı mərhələlərdə isə on milyonlarla kvadratmetr ipək parça istehsal olunurdu [2, s.48].

Şəkidə ipəkçilik sadəcə parça istehsalı prosesi deyil, ən yüksək məharət, böyük səbr və fədakarlıq tələb edən əsl sənətdir. Yerli sənətkarlar əsrlər boyu nəsildən-nəslə ötürülən orijinal texnikanı qoruyub saxlayaraq ənənəvi ipək istehsalı üsullarından məharətlə istifadə edirlər. Şəki ustalarının xam ipəkdən hazırladıqları zərif parçalar, gözəl paltarlar, rəngarəng kəlağayılar xarici ölkələrə ixrac edilir, şəhər öz ipəyi ilə bütün dünyada şöhrət qazanırdı. İpək əşyalar sahibinin ədəb-ərkanının və zövqünün əlamətidir. Fabrikin bu günə kimi qorunub saxlanılan ipək parça nümunələri sübut edir ki, burada ipək parçaların müxtəlif növləri istehsal olunurdu. Çeşidlər arasında xüsusi yeri krepdeşin ipək parçası tuturdu ki, o da adi ipəkdən dənəliliyinə görə fərqlənir. Sonuncu materiala xoş bir kobud səth və orta parlaqlıq verir. Parça nazik və ya daha sıx ola bilər. Birinci çeşid şifonla bir çox oxşarlığa malikdir, lakin daha az şəffafdır. Bu material geyim sənayesində çox populyardır. Paltar və bluz tikərkən nazik krepdeşinə üstünlük verilir. Çox yüngül, yumşaqdır və bədəndə praktiki olaraq hiss olunmur. Kostyum və pərdələr tikərkən daha sıx materialdan istifadə olunur. Bunda başqa fabrikdə krep-şifon (qeyri-şəffaf, yüngül, ikitərəfli material. Onun dənəli teksturası ona kobud hiss bəxş edir. Material şifondan şəffaf olmaması ilə fərqlənir. Krepdən daha incə və yüngüldür), sarja (əsasən düz boyalı və çaplı şəkildə istehsal olunan diaqonal toxunuşlu) kimi ipək parçalar istehsal olunurdu. Günümüzə qədər gəlib çatan ipək parça nümunələri təsnif edərkən məlum olur ki, fabrikdə istehsal olunan nümunələr rənginə və bədii tərtibatının kompoziya quruluşuna, naxışlara görə fərqlənirdi. Belə ki, burada müxtəlif adlarla tanınan (məs., "Səbuhi" – art. 62209, "Nəsimi" – art. 52212 və d.) çox zaman eyni həndəsi (damalı, zolaqlı, nöqtəli), nəbati naxışlı və ya abstrakt kompozisiyaların müxtəlif rəng çalarları ilə fərqlənirdi [1, s.26].

Şəkidə toxuculuq sənəti milli qadın geyiminin mühüm atributu olan kəlağayı istehsalı ilə qırılmaz şəkildə bağlıdır. Şəkidə xüsusilə məşhur olan incə kəlağayı – ənənəvi qadın baş yaylıqlarıdır. Əvvəllər onları yalnız kişilər edirdi. Kəlağayın orijinallığını yoxlamağın xüsusi üsulu var: kəlağayı ölçüsündən asılı olmayaraq, üzükdən keçirsə, deməli, o, orijinal Şəki ipəyindən hazırlanıb.

Şəki ipəyindən hazırlanmış geyimlər, tikmələr və baş örtükləri də yüksək qiymətləndirilib. Məhz buna görə də kəlağayı tikən ustalar özləri Basqalda işləsələr də, Şəki ipəyini almağa üstünlük verirdilər. Belə ki, iki bölgə arasında müəyyən məsafənin olmasına baxmayaraq, onları "ipək sapları" möhkəm birləşdirirdi.

Şəki xüsusilə parlaq və zərif kəlağayı ilə məşhurdur. Bir neçə mərhələdən ibarət olan onun yaradılması prosesi xüsusilə maraqlıdır. Şəkidə kəlağayı ilə bağlı bütöv bir adət kompleksi çoxdan formalaşıb. Qədim dövrlərdə kəlağayı şərəf və ləyaqət simvolu idi. Qadınlar onları ilin istənilən vaxtında geyinirdilər. Bu qadın baş örpəyi öz möhtəşəm rəngarəngliyi ilə insanı doğumdan ölənə kimi müşayiət edirdi. Xoş xəbər üçün muştuluq şəklində parlaq kəlağayı vermək, gəlinə xonçada təqdim etmək, toyda yeni evlənənlərin qohumlarına paylamaq, evlənənlərə vermək adət idi. İşin sonunda evi tikən usta, burada bir nəfərin əsgərlikdən qayıtdığı və ya evləndiyi xəbəri olaraq darvazasına bağladı. Qara kəlağayı qadınların yas geyiminin vazkeçilməz atributu idi. Məhz eyni ipək yaylıq – amma qırmızı – toy mərasimində gəlinin başını örtdü. Yaşlı qadınlar və dul qadınlar tünd rənglərə və ya al-əlvan, çoxrəngli kəlağayılara üstünlük verir, onları adətən çalma bağlayırdılar. Evli olmayan və gənc evdar qadınlar ağ və ya parlaq kəlağayı geyinir, onları sadəcə baş örtüyü kimi bağlayırdılar [6].

Kəlağayı üzərində naxışlar armud, qoz və yabanı alma ağacından hazırlanmış qalib möhürlərlə işlənmişdir. Dəblər daim dəyişsə də, kəlağayı motivləri əsrlər boyu dəyişməz qalmışdır. Onlar bitkilərdən və həndəsi formalardan ilhamlanır, buta xüsusilə məşhur bir naxışdır. Şəkidə ən geniş yayılmış kəlağayı nümünələrindən biri "heyratı kəlağayı" adlanan baş örtüyüdür ki, onlar çiçək naxışları ilə bəzədilmiş zərif açıq çalarlı ilə seçilirlər.

Yekun nəticə. Təmiz ipəkdən hazırlanmış bu unikal məhsul haqlı olaraq sevgi və gözəllik, sülh və əmin-amanlıq rəmzi hesab olunur. Parlaq ornamentlərlə bəzədilmiş bu baş geyimi xalq məişətinin bir sıra xüsusiyyətlərini, qədim dəyərlərimizi, eləcə də Azərbaycan qadınının mətanətini özündə əks etdirir. Təsadüfi deyildir ki, 2014-cü ildə isə UNESCO kəlağayı dünya qeyri-maddi mədəni irs siyahısına daxil edib. XX əsrin 70-80-ci illərdə Şəkidə istehsal olunan Azərbaycan ipək kəlağayıları Avropa dəbçiləri arasında böyük şöhrət qazanıb.

Ədəbiyyat

1. Bədəlov, N. Azərbaycanda ipəkçilik / N. Bədəlov. – Bakı: Azərnəşr, – 1982. – 96 s.
2. Məmmədov, A.Ə. Azərbaycan ipəyinin şöhrəti // "İpək yolu", Azərbaycan Universitetinin nəşriyyatı, – 1997, №1-2, – s.47-52.
3. Келагаи – оживляя древние традиции: [Электронный ресурс] / URL: https://azertag.az/ru/xeber/kelagai___ozhivlyaya_drevnie_tradicii-1262141
4. Мамедов, А.А. К истории азербайджанского шелка / А.А.Мамедов. См.: «Великий шелковый путь» // Сборник статей. Материалы Международной конференции, посвященной развитию транспортного коридора Европа-Кавказ-Азия – Баку: Изд-во Азербайджанского Университета – 1998, – сс. 73-82.
5. Саламзаде, А.Р. Шеки. Историко-Архитектурный очерк / А.Р.Саламзаде, М.А. Исмаилов, К.М.Мамедзаде. – Баку: Элм, – 1988.– 238 с.
6. Таирова, А. Из истории производства шелка в Шеки в XIX веке [Электронный ресурс] / URL: https://azerhistory.com/?p=60545
7. Таирова, А.Э. История города Шеки (1920-июнь 1941 г.) / А.Э.Таирова – Баку: Elm və təhsil, – 2014.– 208 с.
8. Чырагзаде, В.А. Шелководство в Азербайджане / В.А.Чырагзаде. – Баку: Знание, – 1982.– 44 с.

Məqalə Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva tərəfindən təqdim olunmuşdur.

İlkin daxilolma – 15.01.2025, son daxilolma – 14.02.2025, qəbulolunma – 05.03.2025

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi pedaqogika, psixologiya, tarix, filologiya, riyaziyyat və informatika, biologiya və incəsənət üzrə yazılmış mövcud tələblərə cavab verən keyfiyyətli elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və keyfiyyətlə redaktə olunmuş orijinal elmi məqalələr dərc edilir.
3. Məqalələrin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi təqdim olunmalıdır.
6. Məqalələr üç dildə - Azərbaycan, ingilis və rus dilərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə açar sözlər və xülasə verilməlidir.
7. Məqalənin mətni kompyuterdə A4 formatında "14" ölçülü hərflərlə, səhifənin parmetrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1,5 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1 interval olmaq şərtilə Times New Roman şriftində yazılır. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin başlığında sağ küncdə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, sonra aşağıda "12" ölçülü adi şirftlə işlədiyi təşkilatın adı (məs: Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi və s), 1 interval ara verməklə «12» ölçülü qalın və böyük hərflərlə məqalənin adı, aşağıda 1 interval ara verməklə məqalənin yazıldığı dildə xülasə və açar sözlər yazılır. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxmaqla yazılır.
9. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı "12" ölçülü hərflərlə yazılmalıdır. İstinadlar əlifba ardıcıllığı ilə deyil, ədəbiyyatların mətndə rast gəlindiyi aradıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın hərflərlə yazılmalıdır.
Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə yığılır. Məs:

Kitablar:

Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007, 182 s.

Məcmuə məqalələri:

Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s.73-91.

Jurnal məqalələri:

Seyidov M.A., Seyidova A.M. Kimyəvi elementlərin tədrisində fənlərarası əlaqədən istifadə metodikası // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2008, №1 (13), s. 97-100.

10. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik və qalın, mövzunun adı böyük və qalın, xülasənin özü və açar sözlər isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
11. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-15 səhifədən ibarət olmalıdır.
12. Çap olunmuş əlyazma disketlə birlikdə jurnalın redaksiyasına şəxsən təqdim edilir. Əlyazmaların elektron qaydada təqdim edilməsi də mümkündür. Bu zaman əlyazma jurnalın elektron poçtuna (elmihisse@nmi.edu.az) göndərilir.
13. Müəlliflər redaksiyaya əlyazma ilə birgə doldulmuş anket də təqdim edirlər. Anketdə müəllif haqqında ətraflı məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları, elektron poçt ünvanı) verilir.

Qeyd: "Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər" jurnalının hər bir nömrəsində müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

TO THE ATTENTION OF AUTHORS

1. The main purpose of the journal is the publication of SCIENTIFIC articles of high quality meeting determined needs written on pedagogy, psychology, history, philology, mathematics and informatics, biology and art
2. Briefly and perfectly edited SCIENTIFIC articles which are the results of novel researches not presented to other publications are published in the journal.
3. The number of co-authors of the articles with more than 3 is undesirable.
4. The author is directly responsible for the quality of the articles and the correctness of the facts suggested in the article.
5. At least, one of the members of editorial staff, the review of specialist in that field should be presented about every article to be published.
6. The articles may be published in 3 languages - Azerbaijani, English and Russian. Except the language of the article, key words and resume should be given in 2 other languages.
7. The text of the article is presented to the editorial office of the journal written in computer, with A4 format, in "14" size type, with the margin parameters of 2 cm at the top, 2 cm at the bottom, 3 cm on the left and 1,5 cm on the right, without shifting with "hyphen" from line to line, with the line space of 1 interval and in Times New Roman type. The parameters of the schedule in the text must be – 3,7 cm from right and left.
8. At the top of the page, the title of the article is written in "12" bold type and capital letters leaving 1 interval space, with the name and surname of the author (authors) written in "12" bold type leaving 1 interval space (for example, Nakhchivan Teachers' Institute, Nakhchivan State University, Nakhchivan section of ANAS and so on). The main text of the article is written below leaving 1 line space.
9. SCIENTIFIC sources should be quoted related to the theme. The list of references given at the end of the article should be written in "12" size type. The list of references should not be numbered in alphabetic order, it should be numbered in the order as the quoted references are met in the text. For example, it should be marked as [1], [1, p.119]. If the same reference is quoted once again in another place of the text, the very reference should be shown in previous number. The word "Reference" should be written in bold type. The list of references is given in case letters in the language which is written. For example,

Books:

Mehrabov, A., Javadov I. Monitoring and evaluation in comprehensive schools. Baku, 2007, 182 pp.

Articles in bouk:

Habibbaily I.A. Science and Culture in Nakhchivan/ Nakhchivan in Azerbaijan history. Baku: Science, 1996 p.73-91

Articles in journal:

Seyidov M.A., Seyidova A.M. Usage methods of interdisciplinary relationships in the teaching of chemical elements// News of Nakhchivan Teachers' Institute, 2008, № 1 (13), p.97-100.

10. In the resume of the article, the name and surname of the author sould be written in "12" size case, bold letters; the title of the theme should be written in capital and bold letters; and the resume itself is written in ordinary letters. The resume should encompass the theme completely, the results obtained should be given in detail. The resumes of the article in different languages should overlap and be relevant to the content of the article.
11. The total volume of the article should not exceed 15 pages including graphic materials, photos, tables, formulae, the list of references and resumes.
12. The printed manuscript is presented to the editorial office together with the floppy disk. Manuscripts are also available electronically. In this case, the manuscript is sent to the journal's e-mail (elmihisse@nmi.edu.az).
13. The authors also submit a review with the manuscript. In the review, the author will be given detailed information about the author (surname, name and patronymic, workplace, post, degree of science and SCIENTIFIC title, address, work and home phones, electronic mail address).

Note: Only one article by the author is considered to be published in every issue of "Nakhchıvan Teachers Institute. Scientific works".

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основная цель журнала – публикация качественных научных статей по педагогике, психологии, истории, филологии, математике и информатике, биологии и искусствоведению, отвечающих установленным требованиям.
2. В журнале публикуются результаты исследований в виде оригинальных и тщательно отредактированных научных статей, ранее не представленных к другим изданиям.
3. Количество соавторов более трех человек нежелательно.
4. Автор носит прямую ответственность за качество содержания статьи и достоверность указанных в ней фактов.
5. Для опубликования статьи в журнале необходимо представить рецензию одного специалиста по этой области научных знаний и представления одного из сотрудников редколлегии.
6. Статьи могут быть написаны на одном из трех языков - азербайджанском, английском или русском. Ключевые слова и аннотации должны быть написаны и на двух других языках.
7. Текст статьи должен быть сверстан на компьютере шрифтом Times New Roman, (размер шрифта -14 pt) на бумаге А4 с полями: верхним – 2 см; нижним – 2 см; правым – 3 см; левым – 1,5 см, без переносов с межстрочным интервалом 1,5 см. Параметры внутритекстовых таблиц - 3,7 см с правой и левой стороны.
8. Текст статьи должен быть написан следующим образом: в правом верхнем углу первой страницы имя и фамилия автора (авторов) заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt), ниже прописным шрифтом (размер шрифта – 12 pt) - место работы (например, Нахчыванский институт учителей, Нахчыванский государственный университет, Нахчыванский отделение НАНА и т. д.), далее через интервал по середине заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt) – название статьи, ниже через интервал с начала строки с отступом - аннотацию и ключевые слова на языке оригинала, далее через интервал - основной текст статьи
9. В статье делаются ссылки на научные источники по тематике. Список литератур, данный в конце статьи, пишется прописными буквами размером 12 pt. Ссылки нумеруются по последовательности размещения их в тексте, а не по алфавиту. Ссылки вставляются прямо в тексте научной работы в виде [1, с. 2] или просто [1]. При повторной ссылке указывается номер той же литературы. Слово «Литература» пишется жирными буквами по середине, через интервал за текстом.
Список литературы составляется прописным шрифтом на языке оригинала. Напр:
Книги:
Мехрабов А., Джавадов И. Мониторинг и оценка в средних школах. Баку, 2007, 182 с.
Статьи в сборнике:
Габиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в истории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи:
Сейидов М.А., Сейидова А.М. Методика применения химических методов в обучении химическим элементам // Известия Нахчыванского института учителей, 2008, №1 (13), с. 97-100.
10. В аннотации имя и фамилия автора пишутся прописными и жирными, название статьи заглавными и жирными, а сама аннотация и ключевые слова прописными буквами. Аннотация должна полностью отражать содержание статьи, подробно освещать полученные результаты. Аннотации на разных языках должны быть идентичны, соответствовать содержанию статьи.
11. Общий объем статьи должен быть в пределах 5-15 страниц, включая графические материалы, фото, таблицы, список литературы и аннотации.
12. Напечатанная рукопись вместе с дискетой лично представляется в редакцию. Можно представить рукописи и через интернет. При этом рукопись можно отправить на mail-адрес редакции (elmihisse@nmi.edu.az).
13. Автор вместе с рукописью представляет в редакцию и анкет автора, который содержит подробные сведения о нем (фамилии, имени и отчестве, месте работы, должности, ученой степени и ученом звании, адресе, рабочем и домашнем телефоне, электронном адресе)

Примечание. В каждом номере журнала «Нахчыванский институт учителей. Научные труды» предусмотрена публикация одной статьи автора.

Nəşriyyat direktoru: Ənnağı Əsgərov
Redaktor: Tünzalə Abdullayeva
Korrektor: Aruzə Qurbanova

Yığılmağa verilmişdir: 17.12.2024
Çapa imzalanmışdır: 26.12.2024
Kağız formatı: A4
Şərti çap vərəqi: "Times New Roman" qarniturı
Tirajı: 100

İnternet saytı: nmi.edu.az
E-mail: elmihisse@nmi.edu.az
Ünvan: Az – 7003, Naxçıvan şəhəri,
Heydər Əliyev prospekti-2